**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**

**GƏNCƏ REGİONAL ELMİ MƏRKƏZ**

# GƏNCƏ İMAMZADƏ TÜRBƏSİ

***Kitab Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin 20-ci ildönümünə həsr olunur***

***Bakı – 2012***

**AMEA Gəncə Regional Elmi Mərkəzin Elmi Şurasının qərarı ilə çap olunur**

**Elmi redaktor:** Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, əməkdar elm xadimi
**Fuad Əliyev**

**Rəyçilər:** Tarix elmləri doktoru, professor
**Nərgiz Quliyeva**
Tarix elmləri doktoru, professor
**Həsənbala Sadıqov**

*Elnur Lətif oğlu Həsənov. "Azərbaycan ziyarətgahları: Gəncə İmamzadə türbəsi (tarixi-etnoqrafik tədqiqat)". Bakı-2012. "Elm və təhsil" nəşriyyatı. 265 səhifə.*

İJBN 5-8066-1638-4

$\frac{140100000}{655(07)\text{-}2004}$

***«Elm» nəşriyyatı***

## *ÖN SÖZ*

*Bəşəriyyətə görkəmli şəxsiyyətlər bəxş etmiş Gəncə şəhəri bitib-tükənməyən maddi və mənəvi incilərlə zəngin məkandır. Çoxsaylı tarixi-memarlıq abidələri, maddi mədəniyyət nümunələri bu baxımdan xüsusi əhəmiyyətə malikdir. Gəncənin əsas simvollarından hesab edilən İmamzadə kompleksi də orta əsr Azərbaycan memarlığının dəyərli nümunələrindəndir.*

*Məlum olduğu kimi, ölkəmizdə milli-mənəvi irsin qorunaraq yaşadılması, maddi mədəniyyət abidələrinin bərpa edilməsi, dini-əxlaqi dəyərlərimizin mühafizə olunması tədbirlərinin dövlət siyasəti səviyyəsinə yüksəldilməsinin təməli məhz Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu Öndərin müdrik siyasəti sayəsində müstəqil dövlətimizin şərəfli tarixi keçmişinin yaşadıcısı olan abidələrin, o cümlədən dini ziyarətgahların bərpa etdirilməsi, yenidən qurulması həyata keçirilmişdir. Bibiheybət məscid-kompleksi, Mirmövsün Ağa, Əliayağı pirləri, Təzəpir məscidi kimi çoxlu sayda ziyarətgahların abadlaşdırılması Ümummilli Lider Heydər Əliyevin diqqət və qayğısı nəticəsində mümkün olmuşdur.*

*Dahi Öndərimizin siyasi irsinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin "İmamzadə" kompleksinin təmiri, bərpası və ətrafında abadlaşdırma işlərinin icra edilməsini nəzərdə tutan 1 Mart 2010-cu il tarixli sərəncamı şübhəsiz ki, mahiyyəti etibarilə milli-mənəvi dəyərlərimizə, tarixi və mədəni irsimizə verilən ən yüksək qiymətdir. Bu mühüm tarixi əhəmiyyətə malik sərəncama uyğun olaraq Gəncə İmamzadəsi milli memarlıq ənənələrimizə müvafiq şəkildə yenidən qurulur, daha möhtəşəm görkəmə sahib olur.*

*İmamzadə kompleksi kimi digər çoxsaylı abidələrin, maddi mədəniyyət nümunələrinin təmiri və bərpası, həmçinin xalqımızın qeyri-maddi mədəni irsinin təbliğ edilməsi ilə bağlı Heydər Əliyev Fondunun Prezidenti, Azərbaycanın birinci xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilmiş mühüm tədbirlər xüsusi qeyd olunmalıdır.*

*Bütün Azərbaycan xalqı kimi qədirbilən Gəncə sakinləri də milli-mənəvi dəyərlərimizin qorunması və təşviqi sahəsindəki müdrik fəaliyyətinə görə dünya Azərbaycanlılarının vahid Prezidenti möhtərəm Cənab İlham Əliyevə sonsuz ehtiram və minnətdarlığını ifadə edirlər.*

*Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində yerləşən İmamzadə abidəsi beşinci imam Məhəmməd Bağırın (Baqirin) oğlu mövlana İbrahimin məzarı üzərində ucaldılmış və tədricən Gəncədə, həmçinin ətraf ərazilərdə yaşayan insanların inam-inanc mənziləsi olmaqla yanaşı, milli-mənəvi dəyərlərin mühafizə edildiyi ocağa çevrilmişdir.*

*Əsas tikililərinin XIV-XV əsrlərdə inşa edildiyi, ətrafındakı tikililərin isə, əsasən XVII-XVIII əsrlərdə ucaldıldığı Gəncə İmamzadə kompleksi həm də ehtiyacı olan insanlara təmənnasız xeyriyyəçiliyin əzəli ünvanı kimi tanınmışdır. Orta əsrlər dövründən etibarən vəqf mülkiyyət növü kimi fəaliyyət göstərmiş bu pak məkanda toplanan maddi vəsait tamamilə əvəzsiz olaraq xalqın ehtiyaclarının ödənilməsinə, eyni zamanda abidənin bərpa və yenidən qurulmasına sərf olunmuşdur.*

*Gəncə Şəhər İcra Hakimiyyəti və Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Regional Elmi Mərkəz tərəfindən oxuculara təqdim olunan "Gəncə İmamzadə türbəsi"adlı monoqrafiya bu abidənin tarixinə həsr olunmuş ilk irihəcmli elmi-tədqiqat əsəridir. "Azərbaycan ziyarətgahları" silsiləsinə aid sayca ikinci kitab olan monoqrafiyada İmamzadə kompleksinin tarixi-epiqrafik abidə, ziyarətgah, mühüm memarlıq nümunəsi kimi xüsusiyyətləri etnoqrafik baxımdan araşdırılmış, abidənin mənbəşünaslıq əhəmiyyəti elmi cəhətdən əsaslandırılmışdır. Kitabda Gəncə İmamzadəsinin tarixşünaslığına nəzər salınmış, çoxsaylı yerli və əcnəbi tədqiqatçıların əsərlərinə, tarixi sənəd və arxiv materiallarına istinad edilmişdir.*

***Gəncə Şəhər İcra Hakimiyyətinin Başçısı***
***Elmar Vəliyev***

# GƏNCƏ DÖVLƏT TARİX-MƏDƏNİYYƏT QORUĞU ƏRAZİSİNDƏKİ «İMAMZADƏ» KOMPLEKSİNİN BƏRPASI İLƏ ƏLAQƏDAR TƏDBİRLƏR HAQQINDA

***Azərbaycan Respublikası Prezidentinin Sərəncamı***

Orta əsr Azərbaycan memarlığının qiymətli nümunələrindən biri sayılan, tikintisi XIV əsrin sonu – XV əsrin əvvəllərinə təsadüf edən «İmamzadə türbəsi» və onun ətrafında XVII-XVIII əsrlərdə inşa edilən məscid, sərdabə və digər türbələr əzəmətli dini-tarixi kompleks kimi bugünədək qorunub saxlanılmaqdadır. Bu müqəddəs məkan əsrlərdən bəri Azərbaycandan, eləcə də başqa ölkələrdən gəlmiş müsəlmanların ziyarətgahına çevrilmişdir. Şərqin qədim karvan-ticarət yolu üzərində olub, müxtəlif vaxtlarda dağıntılara məruz qalan «İmamzadə» kompleksi XIX əsrdə bərpa edilmişdir.

Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində yerləşən «İmamzadə» kompleksinin milli memarlıq ənənələrimizə uyğun şəkildə təmiri, bərpası və ətrafında abadlaşdırma işlərinin aparılması məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının 2010-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində yerləşən «İmamzadə» kompleksinin təmiri, bərpası və ətrafında abadlaşdırma işlərinin aparılması üçün Gəncə Şəhər İcra Hakimiyyətinə 3,0 (üç) milyon manat məbləğində vəsait ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci bəndində nəzərdə tutulmuş vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada həyata keçirsin.

***İLHAM ƏLİYEV,***
***AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ***

***Bakı şəhəri, 1 mart 2010-cu il***

***Azərbaycan Respublikasının Prezidenti***
***cənab İlham Əliyevə***

Möhtərəm cənab Prezident!

Orta əsr Azərbaycan memarlığının qiymətli nümunələrindən və müsəlmanların müqəddəs ziyarətgahlarından birinin-Şərqin qədim karvan-ticarət yolu üzərindəki əzəmətli İmamzadə kompleksinin bərpasına dair 1 mart 2010-cu il tarixli Sərəncamınızla Siz şanlı Gəncəmizin bütün sakinlərinə, ölkəmizin bütün dindarlarına yenidən bir dünya sevinc bəxş etdiniz. Şəhərimizə, onun çoxəsrlik tarixinə, iman və inam əhlinə məhəbbət və ehtiramla süslənmiş belə bir Sərəncam üçün Sizə dərin minnətdarlıq və iftixar hissi ilə müraciət etməyi özümə borc bilir və bundan şərəf duyuram.

*Möhtərəm cənab Prezident!*

Gəncəlilər heç vaxt unutmayacaqlar ki, Azərbaycan tarixinin parlaq və keşməkeşli səhifələrini, fərəhli və kədərli mərhələlərini daşında-torpağında yaşadan şəhərimizin ikinci minilliyin ilk illərində başlanan yeni dirçəlişinin təməlini ulu öndərimiz Heydər Əliyev qoymuşdur. Məhz 2002-ci ildə Gəncəyə onun unudulmaz səfəri ilə qədim Nizami yurdunun qarşısında geniş üfüqlər açıldı və Sizin Sərəncamınız ümummilli liderimizdən bizə yadigar qalmış belə bir həqiqəti bir daha sübut və təsdiq etdi ki, «Gəncə hər bir vətənpərvər azərbaycanlı üçün doğma və əzizdir».

Bu gün bizim üçün ən böyük vətənpərvərlik nümunəsini Siz göstərirsiniz, cənab Prezident və bu

vətənpərvərlik Gəncənin simasında da özünü əyani şəkildə nümayiş etdirir.

2003-cü ildən bəri Gəncədə Siz 10 dəfə olmuşsunuz. Şəhərimizə səfərlərinizin hər biri böyük ictimai-siyasi və sosial-iqtisadi əhəmiyyət kəsb etmiş, onun qarşısında geniş perspektivlər açmış, Gəncənin müasir mənzərəsində yeni-yeni maddi və mənəvi dəyərlərə çevrilmişdir.

Yeni beynəlxalq hava limanı, diaqnostika mərkəzi, məktəblər, səhiyyə ocaqları, qapalı üzgüçülük hovuzu, beşulduzlu otel, simasını dəyişmiş parklar, meydan və xiyabanlar və bütün bu abadlıq və gözəlliyi gecələr nura qərq edən müasir işıqlandırma sistemi... Sizin vətənpərvərliyiniz özünü tariximizə və tarixi abidələrimizə münasibətdə də bariz şəkildə göstərir. Comərd-Qəssab türbəsi öz tarixi yerində bərpa olunmuş, Cavad xan məqbərəsi inşa edilmiş, Gəncənin gerbi bərpa edilərək yenidən öz yerində bərqərar olmuşdur. İndi isə Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisindəki mənəvi incilərimizdən birinin - məşhur İmamzadə kompleksinin bərpası barəsində imzaladığınız Sərəncam...

Bunları qeyd edərkən biz Heydər Əliyev Fondunun və onun prezidenti, çox hörmətli Mehriban xanım Əliyevanın Gəncənin tərəqqisi, tarixi adət və ənənələrimizin yeni-yeni çalarlarının açılması və zənginləşməsi naminə gördüyü dəyərli işləri də gözlərimizin önünə minnətdarlıq hissi ilə gətiririk.

Bir elm adamı kimi məni və həmkarlarımı qəlbən sevindirən gerçəkliklərdən biri və bəlkə də ən başlıcası son illərdə bilavasitə Sizin gündəlik diqqət və qayğınız sayəsində Gəncədə elmin inkişafına, yüksək

texnologiyaların tətbiqinə verilən önəmdir. Alimlərin, elmi kollektivlərin problemlərini həll etmək, onların səmərəli fəaliyyəti üçün əlverişli imkanlar yaratmaq və elmin aparıcı rolunu təmin etmək məqsədilə bu gün Gəncədə də böyük işlər görülür və bunlar artıq öz bəhrəsini verir. Bütün Azərbaycanda olduğu kimi Gəncədə də elmi işçilər yenə də qədir-qiyməti ölkə Prezidenti tərəfindən bilinən və vaxtaşırı yüksək mükafatlara layiq görülən insanlardır.

Gəncəlilər Sizi sevir, Sizinlə fəxr edirlər, cənab Prezident! Bizim üçün, doğma Azərbaycanımız üçün və bütün dünya azərbaycanlıları üçün Siz Qurucu İlhamsınız, hər gün daşı daş üstünə qoyan, ölkəsini zirvələrə ucaldan və onu şöhrətləndirən Qurucu Rəhbər, Qurucu, yaradıcı Prezidentsiniz!

İmamzadə ziyarətgahı kompleksinin bərpası barəsində Sərəncamınız üçün bir daha Sizə təşəkkür edir və Sizi əmin edirik ki, Gəncə üçün etdiklərinizi biz heç vaxt unutmayacağıq.

Dərin hörmətlə,
Azərbaycan Respublikası Milli Elmlər
Akademiyasının müxbir üzvü, Gəncə
Regional Elmi Mərkəzin direktoru,
əməkdar elm xadimi, professor: Fuad Əliyev

# *GİRİŞ*

Azərbaycan bəşər sivilizasiyasının çox qədim mərkəzlərindən biridir. Xalqımız minilliklər boyu bu bərəkətli diyarda davamlı yaşamış, olduqca zəngin maddi və mənəvi irs yaratmışdır. Yurdumuzun əlverişli təbii-coğrafi şəraiti, bitki və heyvanat aləminin zənginliyi milyon illər öncədən insanların burada məskən salmasına imkan vermişdir.

Avropa ilə Asiyanın qovşağında yerləşən ölkəmizdə bütövlükdə dünyadakı on bir iqlim şəraitinin (tipinin) doqquzunun olması bu torpağın bərəkətini artırıb, şöhrətini ucaldıb. Azərbaycan ərazisi həqiqi olaraq bəşəriyyətin ilkin sivilizasiya, mədəniyyət ocaqlarından biri kimi məşhurdur. Hələ iki milyon il bundan əvvəl burada ibtidai insanların məskunlaşması, yaşayıb-yaratması, təkamül, tərəqqiyə çatması üçün hər cür şərait mövcud olmuşdur. Driopitek, ramapitek kimi avstraliopitek tipli ən qədim paleoantropoloji tapıntılardan biri də müasir Gürcüstanla Azərbaycanın sərhədi yaxınlığında, Udabno adlı yerdə aşkar edilmişdir [19, s.37].

Qeyd edilən udabnopitek insanının tapılması Azərbaycanın, bütövlükdə isə Qafqazın ən qədim çağlardan etibarən insanlar tərəfindən məskunlaşmasının ilk maddi dəlillərindən biri kimi çox qiymətlidir. Eyni zamanda, əzəli torpağımız olan Qarabağ ərazisində Azıx paleolit düşərgəsindən aşkar edilmiş qədim Azıxantrop insanının paleoantropoloji tapıntıları bu baxımdan əhəmiyyət kəsb edir [2, s.5, 12-18; 230].

Ümumiyyətlə, Azərbaycan xalqı dünyanın ən qədim və mədəni xalqlarından biridir. Xalqımızın əzəli

vətəni olan Azərbaycan isə geniş bir tarixi ərazidə – Qafqazın cənub-şərq və cənubunda, İran yaylasının şimal-qərbində yerləşən məkandır.Qafqazın qoynunda yaşayan Azərbaycan xalqı bu qədim və müqəddəs ərazidə bərqərar olmuş, özünün yüksək təsərrüfat həyatını, sənətkarlığı, sənəti, maddi və mənəvi mədəniyyətini yaradaraq dünyanın ən qədim və mədəni xalqlarından biri kimi tanınmışdır [5, s.5, 13].

Azərbaycan etnoqrafik baxımdan bəşəriyyətin ən zəngin, çoxcəhətli və maraqlı guşələrindən biridir. Xalqımız minilliklər boyu Qafqaz və Qədim Şərq xalqları ilə iqtisadi və mədəni, etno-sosial əlaqədə olmuşdur. Yaranan bu qarşılıqlı təmasdan xalqımız çox şey əxz etmiş və faydalanmışdır. Eyni zamanda Azərbaycan xalqı qonşu etnos və xalqların tükənməz təsərrüfat həyatına, maddi və mənəvi mədəniyyətinə çox dəyərlər bəxş etmiş, onu daha da zənginləşdirmişdir. Etnoqrafiya məfhumuna gəldikdə, qeyd etmək lazımdır ki, bu istilah yunan sözü olub «etnos»-xalq, «qrafis» öyrənmək, təsvir etmək mənasını daşıyır. Bu elm xalqı öyrənən, təsvir və tərənnüm edən elm sahəsidir [2, s.4-6; 5, s.5].

Etnoqrafiya elminin əsas vəzifəsi xalqı öyrənməklə tarix yazmaq, onu daha da zənginləşdirmək, əhatəli etməkdir. Qeyd etmək lazımdır ki, maddi mədəniyyətlə yanaşı, mənəvi mədəniyyət də bu elmin tərkib hissəsi, aparıcı qollarından hesab olunur. Bu baxımdan xalqımızın minilliklərə istinad edən mənəvi mədəniyyəti yalnız Şərqdə deyil, ümumdünya miqyasında, beynəlxalq aləmdə şərəfli yer tutur.

Ümumiyyətlə, etnoqrafiya da arxeologiya kimi, tarix elminin mühüm tərkib hissəsidir, onun bütövlüyünün, tamlığının təsdiqidir. Etnoqrafik

araşdırmalarda arxeoloji materiallar və tədqiqatlar əvəzsiz əhəmiyyətə malikdir. Bu elmlərin birliyi çoxəsrlik tariximizin bir sıra qaranlıq səhifələrinə işıq saçır. Obrazlı ifadə edilsə, arxeologiya tarix elminin ixtiraçısı, etnoqrafiya isə onun bərpaçısı rolunu oynayır. Arxeologiya yerin qatlarındakı mədəni təbəqələrdə müxtəlif tarixi dövrlərə aid zəngin və qiymətli materiallar aşkar edir, həmçinin onların xronoloji çərçivəsini müəyyən edir. Etnoqrafiya elmi isə bu maddi-mədəniyyət qalıqlarının bərpasına yardımçı olur, lazımi köməklik göstərir. Heç şübhəsiz, bu birlik, müştərəklik dərin məna və məzmunu ilə seçilən tarixin yaranmasına öz töhfəsini verir [3; 5, s.6-11].

Azərbaycanın ən qədim mədəniyyət, sivilizasiya mərkəzlərindən biri olan Gəncə şəhəri bitib-tükənməyən mənəvi bir xəzinədir. Bəşəriyyətə tarix boyu böyük dühalar, əvəzsiz şəxsiyyətlər bəxş etmiş bu qədim şəhər həm də azadlıq ideyalarının, milli ideologiyanın, məfkurənin beşiyi və mühafizə olunan mərkəzi kimi əhəmiyyətini qoruyub saxlamışdır. Ən azı 2500 illik tarixə malik olan qədim Gəncə hər zaman elm, mədəniyyət, iqtisadi mərkəz kimi tanınmışdır. Şübhəsiz ki, 2500 illik tarix dedikdə, yalnız Gəncənin şəhər sivilizasiyası mərkəzi kimi xronoloji yaşı nəzərdə tutulur. Ancaq qədim yaşayış məskəni, sənətkarlıq mərkəzi olaraq Gəncənin yaşı daha əvvəlki dövrlərə istinad edir. Ümumiyyətlə, bu qədim, əzəmətli və şanlı tarixi ilə fərqlənən şəhərin yaşının müəyyən edilməsi, onun ən qədim yerli əhalisinin məşğuliyyəti, etnik və sosial tərkibi haqqında müxtəlif dövrlərə aid mənbə və ədəbiyyatlarda fərqli, bir sıra hallarda isə tamamilə bir-birinə zidd olan məlumatlar öz əksini tapmışdır.

Bununla yanaşı, əksər yazılı tarixi qaynaqlarda şəhərin ərəblərin Qafqaza hücumuna qədərki mərhələdə artıq mühüm, inkişaf etmiş mərkəz olduğu, [311, s.14] yaxud da erkən orta əsrlər dövründə, daha dəqiq desək, IX-X əsrlərdə Gəncə şəhərinin çox əzəmətli bir məkan olduğu dəfələrlə vurğulanır [43, s.27; 200, s.405].

Lakin ayrı-ayrı dövrlərdə həyata keçirilmiş müxtəlif tarixi, arxeoloji tədqiqatlar, araşdırmalar sübut edir ki, Gəncənin şəhər mədəniyyətinin mərkəzi kimi xronoloji göstəricisi antik dövrlə bağlıdır. Eradan əvvəlki tarixi mərhələlərdə şəhərin sosial, iqtisadi, mədəni mərkəz kimi təşəkkül tapdığını və inkişaf etdiyini bir çox maddi dəlillər təsbit etmiş olur.

Ümumiyyətlə, müxtəlif dövrlərdə, o cümlədən 2008-ci ildə Qədim Gəncə ərazisində həyata keçirilmiş tarixi-arxeoloji qazıntılar, tədqiqat işlərinin əsas nəticələrini ümumiləşdirərək aşağıdakı elmi müddəaları müəyyənləşdirmək olar:

1. Qədim Gəncə (yaxud köhnə Gəncə – E.H.) müasir Gəncədən şimal-şərqdə, onun mərkəzindən 5 kilometrlik məsafədə yerləşir.

2. Qədim Gəncənin coğrafi koordinatları $40^{0}31^{'}$ şimal en dairəsi və $62^{0}02^{'}$ şərq en dairəsindədir.

3. Gəncə şəhəri və dəmiryol stansiyaları arasından axan dağ çayı – Gəncəçay qədim Gəncəni iki hissəyə bölür:

a) Sağ böyük hissə; b) sol kiçik hissə.

4. Üç qala divarı və onların sədlərinin qalıqları ilə əhatələnmiş şəhərin sahəsi təxminən 250 hektardan artıqdır. Ətraf qəsəbələrlə birlikdə isə ümumi sahəsi 10-11 kvadrat kilometrə qədərdir.

5. Qədim Gəncənin ərazisi cənubdakı Xaraba yer, Dinaraç, Narlı qoruq, Çillə xana və Xasa yeri sahələri ilə həmsərhəddir. Ərazi bir tərəfdən indiki Gəncə Alüminium zavodunun bağ sahələri, qərb istiqamətindən Elmi-Tədqiqat Pambıqçılıq İnstitutunun bağlarının yerləşdiyi ərazi, həmçinin şərq tərəfdən Göygöl rayonunun ərazisinə daxil olan Mirzik və Samux rayonunun əkin sahələri, şimaldan isə Tapqışlaq, Tatılı (Tatlı) və Zazalı kəndlərinin müvafiq bələdiyyə torpaqları ilə sərhədlənir [43, s.24-30].

Hesab olunur ki, antik dövrdə yerləşdiyi təbii-coğrafi şərait, daha doğrusu digər iri yaşayış məntəqələrindən fərqli olaraq qədim Gəncə daha geniş əraziləri əhatə etdiyindən onun təbii müdafiə sədləri, dağlar və çaylarla əhatələnməsi səbəbindən ətrafına uzun müddət əlavə müdafiə qurğularının çəkilməsinə zərurət yaranmamışdır. Bunun ilk (yaxud erkən – E.H.) orta əsrlərdə də davam etdiyi güman olunur [15; 43].

Antik Gəncənin Gəncə-Bakı dəmiryol xəttinin 10 kilometrliyində, sol tərəfdə, Samux rayonunun Tatlı bələdiyyəsi və Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğunun ərazisində olmasına dair fikirlər inandırıcıdır. Erkən orta əsrlər dövründə isə Gəncə şəhərinin Şəhərburnu adlanan yerdə olması məlumdur [3, s.7-9; 6, s.11; 10].

Uzun müddət ərzində Gəncə və onun ətraf ərazilərində həyata keçirilmiş tarixi, arxeoloji tədqiqatların nəticələri burada yaşayışın hələ daş dövründən başlandığını təsbit edir. Eradan əvvəl VII-VI minilliklərə (neolit dövrü – E.H.) aid çoxsaylı, müxtəlif məişət və sənətkarlıq nümunələrinin qədim Gəncə ərazisindən aşkar olunması, həmçinin sonrakı tarixi

mərhələlərə aid maddi sübutların tapılması bu elmi fikri təsdiq etmiş olur. Təqdirəlayiq haldır ki, eradan əvvəl V-II minilliklərdə antik dövr Gəncənin ərazisində, yaxın məntəqələrdə oturaq həyatın fasiləsiz, ardıcıl olaraq davam etdiyini sübuta yetirən dəlillər əldə olunmuşdur.

Eradan əvvəl II minilliyin sonu–I minilliyin əvvəllərini əhatə etmiş son tunc və erkən dəmir dövründə burada yaşayışın daha da intensivləşdiyi və ərazidə məhz şəhər tipli yaşayış məskənlərinin yarandığı üzə çıxmışdır. Bunun ən mühüm sübutu qismində saysız-hesabsız kurqanların (kurqan tipli qəbir abidələri – E.H.) və yaşayış yerlərinin qalıqları, çoxsaylı, nəfis, keyfiyyətli, müxtəlif forma və çeşidlərə malik ayrı-ayrı sənətkarlıq nümunələrinin aşkar edilməsi göstərilə bilər. Antik dövrdə Gəncə ticarət, sənət və mədəniyyət mərkəzi kimi öz inkişafının ən yüksək zirvəsinə ucalmış, erkən orta əsrlər dövründə yeni tərəqqi meylləri müşahidə olunaraq Azərbaycanın, bütövlükdə isə Şərqin mədəni intibahının əsas mərkəzlərindən birinə çevrilmişdir [63; 64, s.4; 66; 331-335].

Dahi şəxsiyyət, əvəzsiz mütəfəkkir, bütün dünyəvi, həmçinin dini (fiqh elmi – E.H.) elmlərin kamil bilicisi, dünya poeziyasının və Azərbaycan intibahının əbədiyaşar hökmdarı Şeyx Nizami Gəncəvi, dəyərli şəxsiyyət, həqiqi Azərbaycanlı xanımının bütün müsbət keyfiyyətlərini özündə ehtiva etmiş şairə, tükənməz istedad sahibi, ziyalı qadın Məhsəti Gəncəvi, əzmkarlığı, mərdliyi, vətənpərvərliyi ilə əbədiyyətə qovuşmuş, şəhidlik zirvəsinə ucalmış qəhrəman Gəncəli mübariz, dulusçu sənətkar Bəndər, görkəmli alim-şairlər Əbül-üla Gəncəvi, Qivami Mütərrizi Gəncəvi kimi dahilər məhz bəhs olunan dövrün simalarıdır.

Ümumiyyətlə, orta əsrlər dövründə Gəncə Arranın mərkəzi, Ərəb Xilafətinin yerli canişinliyinin iqamətgahı, Şəddadilərin paytaxtı, Atabəylər dövlətinin mühüm mərkəzi şəhərlərindən biri, Səfəvilər dövrü Gəncə (yaxud Gəncə – Qarabağ – E.H.) bəylərbəyliyinin mərkəzi, Azərbaycan tarixinin ən şanlı səhifələri sırasında özünəməxsus yeri, mövqeyi olan Gəncə xanlığının paytaxtı olmuşdur. Sonrakı dövrlərdə azərbaycanlıların və azərbaycançılıq məfkurəsinin əsas ideoloji mərkəzi olmuş Gəncə XX əsrin əvvəllərində, daha doğrusu 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə də bu liderlik mövqeyini qoruyub saxladı. Daha doğrusu, Gəncə bəhs edilən dövrdə müsəlman Şərqinin, Türk dünyasının ilk demokratik dövlətinin birinci paytaxtı kimi xalqımızın şərəfli tarixinə əbədi olaraq həkk olundu.

Müasir Gəncənin tarixi haqqında bəhs edərkən ölkəmizin, bütövlükdə isə Şərqin unikal və qədim abidələrindən biri olan İmamzadə haqda məlumat vermək, bu mühüm, müqəddəs məkanın əhəmiyyətini vurğulamaq xüsusilə vacibdir. Gəncə İmamzadəsi yalnız şəhərimizin tarixi keçmişi ilə bağlı olan qədim bir abidə deyil. Bu abidə həm də Gəncənin mühüm siyasi, iqtisadi, mədəni mərkəz kimi səciyyələndirilməsində xüsusi önəmə malik olan mənbə kimi qəbul edilməlidir.

Əvvəla, Gəncənin şəhər sivilizasiya mərkəzi kimi yaşının müəyyən edilməsində İmamzadə türbəsi, onun epiqrafik xüsusiyyət və göstəriciləri çox mühüm əhəmiyyətə malikdir. Belə ki, 739-cu ildə müsəlman dünyasının beşinci imamı hesab edilən İmam Məhəmməd Bağırın (Baqirin) oğlu şahzadə İbrahimin vəfatından sonra qəbri üzərində ucaldılmış bu mühüm ziyarətgah bir tərəfdən Gəncənin hələ erkən orta əsrlər dövründə qədim

tarixə, zəngin dövlətçilik ənənələrinə malik bir mərkəz olmasını, digər tərəfdən isə yerli əhalinin yüksək mədəni dəyərlərə, əsrlərə istinad edən sənətkarlıq ənənələrinə sahib olduğunu sübut edir [43, s.25-31; 63; 65].

Bundan əlavə, Gəncə İmamzadəsi yüksək bədii sənətkarlıq, memarlıq xüsusiyyətlərinə malik bir abidə kimi bu şəhərin hələ çox qədim dövrlərdən etibarən mühüm mədəniyyət mərkəzi kimi inkişaf etdiyinə, yerli memarlıq məktəbi ənənələrinin formalaşdığına dəlalət edir. Çünki böyük bir tarixi dövr ərzində yüksək sosial, iqtisadi, siyasi və ən əsası isə mədəni tərəqqisi ilə seçilmiş Gəncədə məhz belə mükəmməl sənət nümunələrinin yaradılması təsadüfi xarakter daşımamışdır.

Həmçinin nəzərə almaq lazımdır ki, Gəncə İmamzadə abidəsi xalqımızın etno-mental dəyərləri, dini baxış və təsəvvürlərini, inanclarını, etno-psixoloji və əxlaqi münasibətlər sistemini bir növ özündə təcəssüm etdirən mühüm bir ziyarətgahdır. Burada bir məqama xüsusi diqqət yetirilməlidir. Gəncə İmamzadəsinin inşa olunduğu VIII əsr Azərbaycan ərazisində, o cümlədən qədim Gəncədə yeni bir dinin – İslam dininin xalq, yerli əhali tərəfindən qəbul edilməsinin ilk əsrlərinə təsadüf etmişdir. Daha dəqiq desək, VII əsrdə Ərəbistan yarımadasında yaranaraq qısa müddət ərzində, geniş bir ərazidə, o cümlədən Azərbaycanda yayılmağa başlamış bu dinin yaradıcısı, banisi olan Məhəmməd Peyğəmbərin (s.) şəcərəsinin nümayəndəsi olmuş beşinci İmam Məhəmməd Bağırın oğlu mövlana İbrahimin xatirəsini yerli əhalinin, bütövlükdə isə xalqımızın bu qədər ehtiramla yaşatması bir çox vacib tarixi məqamların üzə çıxarılmasına şərait yaradır. Xalqımızın mənəvi

dəyərlərinə, humanist xüsusiyyətlərinə çox yaxın olan cəhətləri özündə əks etdirən bu pak, saf din əhali tərəfindən çox qısa müddət ərzində qəbul edildi[338-340; 345-348].

Doğrudur, Azərbaycan xalqı tarixən həmişə olduğu kimi, xarici müdaxiləçilərə, yadelli qəsbkarlara qarşı mübarizədə birləşərək inadla mübarizə aparırdı. VII əsrdə bu mübarizə milli-azadlıq xarakteri almış, ərəb istilaçılarına qarşı bütün əhalini səfərbər etmişdi. Lakin ərəb feodalları, onların zülmkar, təcavüzkar siyasətinə qarşı xalqımız inadla mübarizə aparsa da, tarixdə özünün humanist tədbirləri, xeyirxahlığı ilə fərqlənmiş İmam Əli (ə.) yaxud xəlifə Əli ibn Əbu Talibin 656-661-ci illəri əhatə etmiş hakimiyyəti dövründə bütün xilafət əhalisinə münasibətdə nümayiş etdirdiyi ədalətli münasibətin müqabilində bu kimi şəxsiyyətlərə və bütövlükdə, islam dininə münasibətdə heç də mənfi baxış mövcud deyildi. Məhz bu səbəbdən də humanizm, insanpərvərlik, sülh, əmin-amanlıq kimi pak dəyərləri təbliğ edən islam dinini Azərbaycan xalqı yad ünsür kimi qəbul etməmiş, əksinə bu müqəddəs dinin həqiqi tərəfdarlarına böyük ehtiram bəsləmişdir. Peyğəmbərimizin (s.) nəslinin davamçılarına münasibətdə İmamzadə kimi çoxsaylı xanəgah, türbə, ribat, qəbirüstü xatirə abidələri, pirlər, ocaqlar kimi məkanları xalqımızın əsrlər boyu qoruyub yaşatması buna sübut olaraq göstərilməlidir [14; 18; 21; 338; 343].

Beləliklə, Gəncə İmamzadəsi Azərbaycanın etnoqrafiya tarixinin çox mühüm mənbəyi kimi xüsusi əhəmiyyətə malikdir. Lakin təəssüfdoğurucu faktdır ki, bu əvəzsiz ziyarətgah, dəyərli tarixi abidəyə dair irihəcmli, konseptual elmi monoqrafiya indiyə qədər nəşr olunmamışdır.

Bu baxımdan Gəncə İmamzadə türbə kompleksinin tarixi tədqiqatlarda araşdırılma vəziyyətinə nəzər salmaq vacibdir.

## Gəncə İmamzadəsinin tarixşünaslığına dair

Gəncənin 1300 illik tarixini özündə ehtiva edən İmamzadə türbəsi olduqca unikal xüsusiyyətlərə malik bir müqəddəs məkandır. Bu cəhətdən Gəncə İmamzadəsi bir neçə mühüm xüsusiyyəti baxımından təsnif edilə bilər:

1. Gəncə İmamzadəsi çox dəyərli, qədim tarixi-epiqrafik abidədir. Bu abidənin böyük əhəmiyyətə malik kitabə və yazıları mövcuddur.
2. Gəncə İmamzadə türbəsi mühüm ziyarətgahdır. Buranı hər il minlərlə insan ziyarət edir. Qeyd olunmalıdır ki, ziyarətçilər arasında həm də xarici dövlətlərin vətəndaşlarının sayı ilbəil artır. Maraq doğuran fakt bundan ibarətdir ki, abidəyə gələnlər arasında qeyri-müsəlmanlar da olur.
3. Bu dəyərli tarixi abidə Azərbaycan xalqının, o cümlədən qədim Gəncə sakinlərinin etnoqrafik baxış, milli-mənəvi dəyərlərinin mühüm mənbəyi və eyni zamanda bir növ etibarlı qoruyucusudur.
4. Gəncə İmamzadəsi çox nəfis, keyfiyyətli sənətkarlıq və memarlıq xüsusiyyətlərini özündə cəmləşdirən bir kompleksdir. Burada bir çox sənətkarlıq sahələrinin zəngin, qədim tarixə malik ənənələri vəhdət təşkil edir.
5. Gəncə İmamzadə kompleksi məğrurluğu, mərdliyi, insanpərvərliyi ilə seçilən gəncəlilərin, bütövlükdə Azərbaycan xalqının vətənə, dinə, tariximizə

ehtiram duyğularını özündə yaşadan mənəvi bir ocaq, saflıq mənbəyidir.

Sadalanan müsbət cəhətlərə malik Gəncə İmamzadə türbəsinin tarixinə dair müxtəlif dövrlərdə elmi baxımdan əhəmiyyət kəsb edən ayrı-ayrı əsərlər nəşr edilmişdir. Lakin bu əvəzsiz tarixi abidə, dəyərli ziyarətgah, ən əsası isə memarlıq incisinin mühüm cəhətlərini özündə ehtiva edən sanballı elmi monoqrafiya indiyə qədər işıq üzü görməmişdir. Bununla belə, Gəncə İmamzadəsinin tarixşünaslığına nəzər saldıqda tarixçi mütəxəssislərin, yaxud digər elm sahələrinin nümayəndələrinin, xüsusilə də memarlıq, sənətşünaslıq elmlərinin təmsilçisi olmuş tədqiqatçıların bu abidə ilə bağlı müəyyən araşdırmalar apardığı məlum olur.

Xronoloji ardıcıllıq nöqteyi-nəzərdən yanaşdıqda Gəncə İmamzadəsinin tarixi keçmişinin bir sıra önəmli cəhətlərini əks etdirmək baxımından mərhum memar, tədqiqatçı Niyazi Rzayevin «Köhnə Gəncədə İmamzadə türbəsi» adlı elmi məqaləsi birinci hesab edilə bilər. Doğrudur, tanınmış alim L.S.Bretanitski tərəfindən 1952-ci ildə nəşr edilmiş «Azərbaycan memarlığı» adlı sanballı, irihəcmli kitabda Gəncənin bu qədim abidəsinə dair müəyyən məlumatlar öz əksini tapmışdır. Lakin olduqca qədim tarixi keçmişə malik Gəncə İmamzadəsinin xronoloji baxımdan XVIII əsrə aid abidə kimi təqdim edilməsi bu kitabda qüsurların mövcudluğuna dəlalət edir.

Niyazi Rzayevin İmamzadəyə həsr etdiyi məlum elmi əsərə gəldikdə isə, xüsusi qeyd etmək lazımdır ki, əldə olunmuş müvafiq tarixi, elmi məlumatlara əsasən məhz bu memar ilk dəfə olaraq, qədim Gəncənin bu müqəddəs abidəsini ətraflı tədqiq etmişdir. N.Rzayev

Gəncə İmamzadəsinin elmi nöqteyi-nəzərdən araşdırılması işlərinə 1947-ci ildə başlamışdır [135].

1957-ci ildə isə onun qeyd edilən elmi məqaləsi Azərbaycan Tarixi Muzeyinin əsərləri məcmuəsinin (yaxud Azərbaycan tarixinə dair materiallar) ikinci cildində dərc olunmuşdur. Bu elmi əsərdə memar Gəncə İmamzadəsinin daha çox memarlıq quruluşundan, tikinti xüsusiyyətlərindən, abidənin sənətkarlıq baxımından diqqətəlayiq cəhətlərindən bəhs etmişdir. Bununla yanaşı, Gəncə İmamzadəsinin tarixi keçmişi, Şərq abidələri arasında sahib olduğu mövqeyi kimi məsələlərə də mühüm yer verilmişdir.

Doğrudur, əsərdə bu mühüm ziyarətgahın ayrı-ayrı vacib cəhətlərinin işıqlandırılması əhəmiyyətlidir. Bununla belə, çox güman ki, bəhs olunan dövrün müəyyən siyasi buxovları Gəncə İmamzadəsinin hələ erkən orta əsrlər dövründə, daha dəqiq desək, VIII əsrdə inşa edilməsinə dair vacib tarixi həqiqətləri olduğu kimi qələmə almağa imkan verməmişdir.

Xüsusilə vurğulamaq lazımdır ki, Gəncə İmamzadəsi zəngin etnoqrafik xəzinə olsa da, onun bu mühüm xüsusiyyətinin təfsilatlı surətdə tədqiqinə nəinki şərait yaradılmamışdır, əksinə bu nöqteyi-nəzərdən araşdırmaların həyata keçirilməsinə hər vəchlə maneələr törədilmişdir. Güman ki, məhz bu səbəbdən də istər N.Rzayevin bəhs edilən əsəri, istərsə də uzun illər sonra Gəncə İmamzadə abidəsi ilə bağlı dərc olunmuş digər çoxsaylı əsərlərdə etnoqrafik məsələlərə, abidənin etnoqrafiya tariximizin tədqiqindəki əvəzsiz əhəmiyyətinə dair məlumatlar istənilən səviyyədə öz əksini tapmamışdır.

Bu səbəbdən də qələmə alınan «Azərbaycan ziyarətgahları: Gəncə İmamzadə türbəsi (tarixi-etnoqrafik tədqiqat)» adlı bu monoqrafiyada ayrıca bir fəslin bütöv paraqrafı (başlığı) Gəncə İmamzadəsinin etnoqrafik əhəmiyyətinin elmi cəhətdən tədqiqinə həsr olunaraq «İmamzadə türbəsi Azərbaycan etnoqrafiyasının mühüm mənbəyi kimi» adlandırılmışdır.

Gəncə İmamzadə abidəsinin tarixi, memarlıq xüsusiyyətləri kimi bir sıra mühüm cəhətlərinin əks etdirildiyi mühüm elmi mənbələrdən biri də 1963-cü ildə rus dilində çap olunmuş «Azərbaycan memarlığı tarixi» adlı irihəcmli monoqrafiyadır. (Bax: «История архитектуры Азербайджана » Москва, 1963).

Görkəmli alimlər M.Useynov, L.Bretanitski, A.Salamzadənin müəllifliyi ilə dərc olunmuş bu kitabda müxtəlif dövrlərdə ölkə mizdə memarlığın inkişafı tarixi işıqlandırılmışdır. Gəncə İmamzadəsinə dair bu monoqrafiyada məlumatlar daha çox ümumi xarakterli olsa da, abidənin etnoqrafik dəyərliliyinə dair əsaslı faktoloji dəlillər öz əksini tapmasa da, elmi əsər kimi kitabın dəyəri danılmazdır [324].

Qeyd edilən monoqrafik əsərdə də Gəncə İmamzadə türbəsinin daha çox son orta əsrlər dövrünə aid abidə olmasına dair məlumatlar öz əksini tapmışdır. Daha doğrusu, Gəncə İmamzadəsinin VIII əsrdə şahzadə İbrahimin vəfatından sonra onun məzarı üzərində ucaldılması, yalnız sonrakı əsrlərdə abidənin restavrasiya edildiyi, müxtəlif dövrlərdə bərpa və yenidənqurma işlərinin həyata keçirilməsi kimi tarixi incəliklərə toxunulmadan türbənin qədim tarixi keçmişinə səthi şəkildə yanaşılmışdır.

Bununla belə, bəhs olunan kitabda Gəncə İmamzadə türbəsinin memarlıq cəhətlərinin müxtəlif aspektlərdən araşdırıldığı, abidənin sənətkarlıq nöqteyi-nəzərdən daha çox diqqəti cəlb edən xüsusiyyətlərinin işıqlandırılmasına əhəmiyyət verildiyi açıq şəkildə özünü büruzə vermişdir. Lakin Gəncə İmamzadəsinin qədim ziyarətgah, əsrlər boyu dağıdıcı zəlzələlər, həmçinin yadelli işğalçıların aramsız hücumları, faciəvi müharibələr, müxtəlif ictimai-siyasi quruluş və formasiyaların ağır sınağından çıxmış əvəzsiz sənət incisi, gəncəlilərin bütün məhrumiyyət və qadağalara baxmayaraq, bu mühüm, müqəddəs ocaq, xalqın inam və inanc mənziləsi kimi göz bəbəyi tək qoruyub müasir dövrədək yaşatdıqları ibadətgah olaraq əhəmiyyəti məsələlərinə toxunulmamışdır.

Halbuki, olduqca qədim tarixi, zəngin milli, dini, mənəvi dəyərləri özündə ehtiva etməsi baxımından fərqlənən Gəncə İmamzadə türbəsinin dəyərli tarixi-epiqrafik abidə kimi səciyyələndirilməsi zamanı bir neçə mühüm elmi müddəa əsas götürülməlidir:

1. Gəncə İmamzadəsi yerli memarlıq-sənətkarlıq məktəbinin zəngin ənənələri əsasında, islam və türk (bütövlükdə Şərq – E.H.) memarlıq xüsusiyyətlərinin birbaşa mədəni təsirinin vəhdətliliyi nəzərə alınaraq inşa olunmuşdur.

2. Gəncə İmamzadə abidəsinin şəhərimizin yaşının, həmçinin Azərbaycan tarixindəki əhəmiyyətli mövqeyinin təfsilatlı şəkildə araşdırılmasındakı rolunun müəyyən olunması çox vacibdir. Belə ki, VIII əsrdə inşa edilən və sonrakı tarixi mərhələlərdə daha da nəfis, keyfiyyətli memarlıq elementləri ilə zənginləşdirilən bu türbə Gəncənin şəhər kimi bəzi tədqiqatçıların qeyd

etdiyi həqiqətə uyğun olmayan məlumatlardan fərqli olaraq, erkən orta əsrlər dövründə deyil, daha qədim, antik dövrdə meydana gələrək inkişaf etdiyini sübuta yetirir. Çünki, erkən orta əsrlər dövründə belə bir möhtəşəm abidəni yalnız əsrlərlə yaşı, minilliklərlə zənginləşmiş mənəvi dəyərləri və sənətkarlıq ənənələri olan şəhərin sakinləri, ən əsası isə sənətkarları yarada və mühafizə edə bilərdi.

3. Gəncə İmamzadə türbə-kompleksi istilahı çox böyük tarixi əhəmiyyətə malikdir. Belə ki, Azərbaycanın bir sıra bölgələrində bu tipli abidələr mövcuddur. Bunlar müvafiq olaraq xanəgah, imamzadə, ribat, türbə, pir kimi adlarla tanınır. Bununla belə, Gəncə İmamzadəsi özünün möhtəşəm memarlıq quruluşu, türbə ilə yanaşı ətrafında mövcud olan kiçik məscidlər, təkyələr, karvansara tipli tikililər, alaqapı, köməkçi binalar, digər kiçik türbələrin inşası baxımından qeyd olunan oxşar abidələrdən istər maddi, istərsə də mənəvi-ideoloji əhəmiyyəti ilə seçilir.

4. Gəncə İmamzadəsi yerli sənətkarlıq, memarlıq ənənələri əsasında inşa edilmişdir. Bununla yanaşı, müsəlman dünyasının mühüm mədəni, elmi, iqtisadi mərkəzlərindən biri olan Gəncə şəhərində, qədim Gəncənin ərazisində ucaldılmış bu dəyərli tarixi-epiqrafik abidə həm də zəngin Şərq memarlığı, bütöv islam mədəniyyəti elementləri ilə sıx bağlıdır.

Bu nöqteyi-nəzərdən Gəncə İmamzadə türbəsinin elmi cəhətdən tədqiq edilməsində Yaxın və Orta Şərqin xanəgah, məscid, imamzadə, türbə, pir, ribat və qəbirüstü xatirə abidələri ilə qarşılıqlı müqayisəsi, komparativ elmi təhlilinin aparılmasının xüsusi əhəmiyyəti vardır. Belə ki, məhz ümumi, oxşar tarixi-memarlıq cəhətlərinin araşdırılması, həmçinin spesifik xüsusiyyətlərin müəyyən

edilməsi sayəsində bəhs edilən abidələrin, o cümlədən Gəncə İmamzadəsinin də inşa olunması tarixinin dəqiqləşdirilməsi mümkün olur.

Odur ki, bu cür qədim tarixə malik, zəngin sənətkarlıq, memarlıq xüsusiyyətləri ilə fərqlənən abidələrin tədqiq edilməsində hər bir kiçik, əhəmiyyətsiz görünən elementə belə çox diqqətlə yanaşılması zəruridir. Bir faktı qeyd etmək kifayətdir ki, Gəncə İmamzadəsinin Bərdə şəhərində yerləşən türbə (Bərdə məsçidi – E.H.), eyni zamanda Axsadanbaba türbəsi ilə memarlıq cəhətdən üslub baxımından yaxınlıq mövcud olduğu aşkar edilmişdir.

Bundan əlavə, Bərdə İmamzadə məscidi və Naxçıvan İmamzadə məscidində yalnız Gəncə İmamzadəsində olduğu kimi, mehrab tikilməmişdir [135; 324].

Qeyd olunan ümumi, oxşar xüsusiyyətlərin və eyni zamanda səciyyəvi cəhətlərin üzə çıxarılması üçün məhz abidələrin komparativ (qarşılıqlı müqayisəli – E.H.) elmi təhlilinin aparılması prioritet tədqiqat metodu kimi müəyyən olunmalıdır.

Gəncə İmamzadə türbəsinin tarixinin tədqiq edilməsində N.Rzayev, L.Bretanitski ilə yanaşı, A.V. Salamzadənin də xidmətləri vardır. Doğrudur, müəllifin Gəncə İmamzadəsinə həsr olunmuş ayrıca iri həcmli əsəri, monoqrafiyası olmasa da, onun rəhbərliyi ilə dərc edilmiş «Azərbaycan memarlığı» (rus dilində) kitabında bu mühüm tarixi abidəmizə dair müəyyən elmi, tarixi məlumatlar əks olunmuşdur [307].

1964-cü ildə Bakıda nəşr olunmuş bu monoqrafiyada Azərbaycan memarlığının XVI-XIX əsrləri əhatə etmiş tarixi dövrü işıqlandırılmışdır. Əsərdə

Gəncə İmamzadəsinin tarixi-memarlıq abidəsi, dəyərli sənət nümunəsi kimi bir sıra önəmli xüsusiyyətləri tədqiq olunmuşdur. Lakin təəssüflər olsun ki, çox qədim dövrün – erkən orta əsrlərin yadigarı olan bu mühüm türbə kompleksinin inşa edilməsi tarixinə baxışda əvvəlki ənənəvi, tarixi həqiqəti dolğun şəkildə əks etdirməyən konsepsiyadan fərqli yeni bir elmi fikir öz əksini tapmamışdır. Belə ki, Gəncə İmamzadə abidəsinin tikildiyi tarixin XVI-XVII əsrlər olmasına dair birtərəfli baxış bu monoqrafik tədqiqat əsərində də saxlanmış, yeni, əsaslı, ən əsası isə tarixi həqiqəti olduğu kimi əks etdirən fikirlər qeyd edilməmişdir.

Bütün bunlarla yanaşı, A.Salamzadənin müəllifi olduğu bu iri həcmli tədqiqat işi Gəncə İmamzadəsinin tarixşünaslığında özünəməxsus əhəmiyyəti ilə seçilən əsər kimi daha çox abidənin tarixinin müəyyən bir dövrünün elmi baxımdan araşdırılmasını əks etdirən mənbə olaraq mühümdür. Nəzərə almaq lazımdır ki, «Azərbaycan memarlığı (XVI-XIX əsrlər)»(rus dilində) monoqrafiyasında ölkəmizin bir çox qədim tarixi abidələri kimi Gəncə İmamzadə türbəsinin də daha çox arxitektur quruluşu, tikinti xüsusiyyətləri tədqiq olunmuşdur.

Yuxarıda adları sadalanan müəlliflərin sonrakı illərdə Azərbaycan memarlığı, incəsənəti tarixinə dair nəşr edilmiş bir sıra monoqrafiyalarında da Gəncə İmamzadəsinin tarixinin müxtəlif cəhətləri araşdırılmışdır [135; 201; 324].

Bundan əlavə, istər Sovetlər dönəmində, istərsə də Azərbaycan müstəqilliyini əldə edildikdən sonrakı illərdə Gəncənin bu mühüm abidəsinin tarixinə dair müəyyən elmi məlumatları ehtiva edən ayrı-ayrı müəlliflərin

əsərləri çap edilmişdir. Təəssüfdoğurucu faktdır ki, bu günədək Gəncə İmamzadəsinin hərtərəfli elmi tədqiqinə həsr edilmiş vahid bir monoqrafiya, iri həcmli kitab nəşr olunmamışdır. Bununla yanaşı, yuxarıda qeyd edildiyi kimi, müəyyən qism tədqiqatçıların əsərlərində Gəncə İmamzadə türbəsinin tarixi keçmişinə dair məlumatlara rast gəlinir.

Məşhur tədqiqatçı-alim, etnoqraf, akademik Teymur Bünyadov, AMEA-nın müxbir üzvü, epiqrafika sahəsində tanınmış alim Məşədixanım Nemət, həmçinin mərhum arxeoloq, tədqiqatçı İsaq Cəfərzadə kimi görkəmli alimlərin adını bu sırada xüsusi qeyd etmək olar. Doğrudur, adları sadalanan müəlliflər içərisində İ.Cəfərzadənin monoqrafiyası məhz Gəncəyə həsr olunmuşdur. Bu əsər 1949-cu ildə Bakıda çap olunmuş «Qədim Gəncənin arxeoloji oçerki» monoqrafiyasıdır. Qeyd olunan əsərin tarixi mənbə olaraq əhəmiyyəti xüsusilə böyükdür [235].

Akademik Teymur Bünyadovun müəllifi olduğu çoxsaylı dəyərli tədqiqat əsərləri içərisində «Azərbaycan paleotoloponimiyası» adlı monoqrafiyası xüsusi əhəmiyyətə malikdir. Monoqrafiya 1985-ci ildə Bakıda çap edilmişdir [21]. Gəncə İmamzadəsinin tarixinin ətraflı surətdə tədqiq olunması baxımından Məşədixanım Nemətin müəllifi olduğu silsilə elmi əsərlərin adlarını sadalamaq vacibdir. Xüsusilə də onun «Azərbaycanda pirlər (sosial-ideoloji və iqtisadi-siyasi mərkəzlər)» (Bakı, 1992), «Gəncənin epiqrafik abidələri» (rus dilində; Bakı, 1991) adlı tədqiqatlarında Gəncənin qədim İmamzadə türbəsinin tarixi, İmamzadənin mühüm ziyarətgah və tarixi-epiqrafik abidə kimi bir sıra vacib

cəhətləri işıqlandırılaraq geniş oxucu kütləsi üçün təqdim olunmuşdur [122; 296; 297].

Bundan əlavə, Gəncə şəhərinin tarixinin obyektiv surətdə tədqiq olunması, onun şəhərsalma quruluşu, qədim yaşayış məntəqəsi kimi yaşının ətraflı surətdə, həm də faktoloji dəlillərə istinad edilməklə müəyyənləşdirilməsi, müxtəlif tarixi dövrlərdə şəhərin etnik və sosial vəziyyəti, demoqrafik proseslərinin gedişinə dair olduqca mühüm, sanballı elmi tədqiqatların aparılması Gəncənin əvəzsiz tarixçisi, mərhum Fərrux Əhmədovun adı ilə bilavasitə bağlıdır. Çox gənc yaşlarında dissertasiya müdafiə edərək Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Regional Elmi Mərkəzdə fundamental tədqiqatlar aparmış, sonradan isə Ukraynada Kiyev şəhərindəki Dünya İqtisadiyyatı və Beynəlxalq Əlaqələr İnstitutunda çalışmışdır [43].

Bu dəyərli tarixçinin müəllifi olduğu çox dəyərli bir əsər – «Gəncənin tarix yaddaşı» (Gəncə, 2007) monoqrafiyası qədim Şərqin ən qədim şəhərlərindən, mədəniyyət mərkəzlərindən biri olan doğma Gəncənin tarixi-etnoqrafik mənzərəsini əks etdirmək baxımından əvəzsiz mənbədir. Kitabda müxtəlif tarixi məsələlərlə bağlı vacib araşdırmalarda Gəncə İmamzadəsi ilə də əlaqədar bir sıra mühüm faktlar öz əksini tapmışdır. Bu elmi müddəaları aşağıdakı kimi ümumiləşdirmək olar:

1. İlk dəfə olaraq Gəncənin şəhər sivilizasiyası mərkəzi kimi yaşının müəyyənləşdirilməsində, həmçinin onun böyük bir tarixi müddət ərzində ölkənin mühüm mədəni, siyasi, iqtisadi mərkəzlərindən biri olmasına dair elmi faktların təsbit edilməsində İmamzadə abidəsinin dəyərli mənbə kimi əhəmiyyəti araşdırılmışdır.

2. Qədim Gəncənin (antik dövr və erkən orta əsrlər dövrü – E.H.) salındığı, həmçinin böyük bir tarixi dövr ərzində mövcud olduğu tarixi məkanın yerinin müəyyən olunmasında Gəncə İmamzadə türbəsinin rolunun öyrənilməsinə dair önəmli elmi məlumatlar öz əksini tapmışdır.
3. Gəncənin şəhərsalma quruluşu, məhəllə inzibati, tarixi-etnoqrafik vahidlərinin, həmçinin əhalinin etnik və sosial tərkibi, insanların əsas təsərrüfat fəaliyyəti, demoqrafik vəziyyətin dəyişmələrinin elmi nöqteyi-nəzərdən tədqiq edilməsində çoxsaylı maddi və mənəvi mənbələr sırasında İmamzadə abidəsinin də göstərilməsi yeni tarixi baxışın formalaşmasına səbəb olmuşdur.

Dəyərli tarixi tədqiqatların müəllifi olan, lakin vaxtsız vəfat etmiş Fərrux Əhmədovun Gəncə tarixi ilə əlaqədar araşdırmaları bu gün də özünün aktuallığını qoruyub saxlamışdır.

Ümumiyyətlə, Gəncə İmamzadə abidəsinin tarixi keçmişinə dair mühüm elmi məlumatları özündə ehtiva edən əsərlər sırasında H.Abdullayevin «İslamın məhərrəmlik mərasimi» (Bakı, 1967), A.Paşazadənin «Qafqazda islam» (Bakı, 1991), K.Məmmədzadənin «Gəncə memarlığı» (rus dilində, Bakı, 1991), «Gəncənin memarlıq abidələri» (rus dilində, Bakı, 1988), S.Şükürovun «Gəncənin tarixi abidələrindən» (Gəncə, 1998), «Azərbaycan Respublikası məscidlərinin Ensiklopediyası» (Bakı, 2001) kimi çoxsaylı kitabların, monoqrafiyaların adlarını xüsusi qeyd etmək olar [1; 135; 146; 281; 283].

Bununla belə, Gəncə İmamzadəsinin tarixi əsər və mənbələrdə tədqiq olunma səviyyəsinə, daha doğrusu

tarixşünaslığına nəzər saldıqda on üç əsrlik zəngin tarixi keçmişin hələ də təfərrüatı ilə elmi cəhətdən araşdırılmadığı, onun yalnız ayrı-ayrı xüsusiyyətlərinin müxtəlif müəlliflər, tədqiqatçılar tərəfindən fərqli əsərlərdə əks etdirildiyi üzə çıxır.

Məhz bu səbəbdən ictimaiyyətə, bütövlükdə geniş oxucu kütləsinə təqdim olunan «Azərbaycan ziyarətgahları: Gəncə İmamzadə türbəsi (tarixi-etnoqrafik tədqiqat)» monoqrafiyasında bu dəyərli abidənin, xalqımızın əsrlər boyu inam və inanc məkanı olmuş ziyarətgahın mühüm maddi və eyni zamanda mənəvi məziyyətlərinin elmi baxımdan təfərrüatı ilə tədqiq edilməsinə xüsusi əhəmiyyət verilmişdir. Gəncə İmamzadəsinin tarixi keçmişinin olduğu kimi, obyektiv surətdə, təhriflərə yol vermədən, istifadə olunmuş, istinad edilmiş çoxsaylı yerli, həmçinin əcnəbi məxəzlərə, mənbə və ədəbiyyatlara yaradıcı, eyni zamanda tənqidi yanaşmaqla işıqlandırılması birinci dərəcəli məqsəd olaraq müəyyən edilmişdir.

Unutmaq olmaz ki, Gəncə İmamzadəsi gəncəlilərin, bütövlükdə isə xalqımızın, müsəlman – türk dünyasının dəyərli mənəvi incisidir. Çünki Gəncə İmamzadəsi qədim, şanlı tarixi ilə seçilən doğma şəhərimizin şərəfli və eyni zamanda keşməkeşli hadisələrlə zəngin çoxəsrlik mənəvi, ideoloji, etno-psixoloji mühitinin şahidi, həmçinin onun yaşadıcısıdır. Bu ziyarətgah yerli əhalinin öz milli-mənəvi dəyərlərini, vətənə sədaqətlilik duyğularını, humanist, saf əxlaqi baxış və münasibətlər sistemini, qədim tarixinə, ulu əcdadlarına, dininə, imanına həqiqi ehtiram duyğularını yaşatmağa şərait yaradan müqəddəs, pak məkandır.

Gəncə İmamzadəsi həm də həyatının müxtəlif dönəmlərində ciddi səhvlərə, nöqsanlara yol vermiş insanların haqq yoluna, düzgünlüyə, ədalətliliyə qayıdaraq çirkin, bəd əməllərdən uzaqlaşaraq mənəvi, psixoloji cəhətdən təmizlənməsinə, saflaşmasına ümid və əminlik yaradan ocaqdır. Gəncə İmamzadəsi xalqımızın dünya mədəniyyətinə, bəşər sivilizasiyasına zaman-zaman bəxş etmiş olduğu əvəzsiz töhfələrin bir növ sübutlarından biridir.

Odur ki, bu dəyərli tarixi-epiqrafik abidə, mühüm ziyarətgah, tükənməz etnoqrafik xəzinə haqqında müəyyən bir fikir söyləyərkən, onun haqqında hər hansı xarakterli məlumatları yazıya alarkən çox diqqətli olmaq lazımdır. Çünki bu məsələdə yüksək dərəcədə həssaslıq nümayiş etdirilməli, bu əvəzsiz maddi və mənəvi sərvətimizə heç bir xələl yetirilməsinə yol verilməməlidir.

Qeyd olunan bu mühüm məsələlərin nəzərə alındığı «Azərbaycan ziyarətgahları: Gəncə İmamzadə türbəsi (tarixi-etnoqrafik tədqiqat)» monoqrafiyasında aşağıdakı elmi müddəalar qarşıya məqsəd qoyularaq öz əksini tapmışdır:

I. İlk dəfə olaraq Gəncə İmamzadəsinin tarixi-etnoqrafik mənbə kimi əhəmiyyətinə dair kompleks tədqiqatlar ümumiləşdirilmişdir.

II. Gəncə şəhərinin qədim şəhər mədəniyyəti mərkəzi kimi yaşının müəyyənləşdirilməsi, köhnə Gəncənin ərazisinin tədqiq olunmasında İmamzadə abidəsinin rolu məsələsinə dair konseptual elmi baxışların təsbit edilməsi ilə bağlı faktoloji dəlillər əks etdirilmişdir.

III. Şəhərimizin özünəməxsus memarlıq quruluşu, abidələrin inşa edilmə texnikası və texnologiyasında, həmçinin sənətkarlıq baxımından işlənilmə üslubunda müşahidə edilmiş spesifik xüsusiyyətlərin araşdırılması sahəsində Gəncə İmamzadə türbəsinin nümunə olaraq əhəmiyyəti məsələsi tədqiq edilmişdir.

IV. Gəncə İmamzadəsinin tarixşünaslığı probleminə geniş, əhatəli surətdə yanaşılmış, bu sahədə müxtəlif dövrlərdə həyata keçirilmiş araşdırmaların mənbəşünaslıq dəyərliliyi öyrənilmiş, tədqiqatların əhəmiyyətlilik dərəcəsi müəyyən edilmiş, yaradıcı, tənqidi yanaşılma prinsipi əsas götürülmüşdür.

V. Bu dəyərli, qədim tarixə malik abidənin Gəncədə şəhər həyatına, eyni zamanda şəhər mədəniyyətinin zaman-zaman yüksəlməsinə müsbət təsiri faktoloji dəlillərə istinad edilməklə öyrənilmiş, İmamzadə ilə bağlı müxtəlif tarixi dönəmlərdə intişar tapmış yeni maddi (məhəllə, məscid və s. – E.H.), həmçinin mənəvi (mərasimlər, ayinlər, vətənin düşmənlərdən qorunması üçün toplantılar və s.) sərvət, dəyərlər sisteminin əhəmiyyəti ilə əlaqədar tədqiqatların mühüm məsələlərinə toxunulmuşdır.

VI. Gəncə bir sıra qədim sənətkarlıq sahələrinin, o cümlədən memarlıq, nəqqaşlıq, xəttatlıq, həkkaklıq, dulusçuluq (yaxud keramika), epitafiya sənəti (qəbirüstü, başdaşı yazıları ilə bağlı sənət – E.H.) kimi çoxsaylı sənət növlərinin müxtəlif xüsusiyyətlərinin, o cümlədən yerli ənənələrinin elmi nöqteyi-nəzərdən daha geniş surətdə araşdırılmasında yeni tarixi faktların üzə çıxması ilə əlaqədar mühüm məlumatlar əks etdirilmişdir. Xüsusilə də Gəncə İmamzadə abidəsinin bədii sənətkarlıq, memarlıq cəhətlərinin qədim dövr sənətkarlıq ənənələri

ilə qarşılıqlı müqayisə şəraitində tədqiq olunması sayəsində nəinki orta əsrlər dövründə, eyni zamanda antik mərhələdə Gəncə dulusçuluğu (xüsusilə də mayolika, kaşıkarlıq – E.H.), o cümlədən metalişləmə sənətinin genezisi (mənşəyi – E.H.) probleminin elmi müstəvidə araşdırılmasında yeni dəlillər, faktlar üzə çıxmışdır. Bunun nəticəsində Gəncənin çox qədim, ən əsası isə yerli mənşəli ənənələrə istinad edən sənətkarlıq, mədəniyyət mərkəzi olması ilə bağlı yeni, təkzibedilməz məlumatlar işıqlandırılmışdır.

VII. Gəncə İmamzadə türbəsinin tarixi keçmişinə aid müxtəlif mənbələrin araşdırılması sayəsində Gəncənin ayrı-ayrı dövrlərdə əhalisinin demoqrafik vəziyyəti, etnik və sosial tərkibi, onların əsas təsərrüfat məşğuliyyəti, mədəni durumu, şəhərin sosial və iqtisadi cəhətdən inkişafı vəziyyətinin bir çox mühüm xüsusiyyətlərinin müəyyən edilməsi mümkün olmuşdur.

Elmi ictimaiyyətə, geniş oxucu kütləsinə təqdim olunan bu elmi monoqrafiyada yuxarıda qeyd edilmiş və ilk dəfə olaraq çap olunan məlumatlar sistemli şəkildə yazıya alınmışdır. Ümumiyyətlə, bəşər sivilizasiyasına əvəzsiz şəxsiyyətlər, dahilər bəxş etmiş qədim Gəncə, onun tarixi keçmişi, İmamzadə kimi dəyərli abidələri haqqında hər hansı fikir söyləmək, əsərlər dərc etdirmək çox böyük məsuliyyətdir. Çünki dünya mədəniyyətinin ilkin ocaqlarından biri olan Gəncə bəşəriyyətə bütün dövrlərin və xalqların dahilərindən olmuş Şeyx Nizami Gəncəvini, əvəzsiz şairə, yüksək mənəvi keyfiyyətlərin daşıyıcısı Məhsəti Gəncəvini, adları xalqımızın tarixində şərəflə çəkilən qəhrəman Bəndəri, Comərd Qəssabı, şəhadəti ilə bütün insanlığı heyrətə gətirmiş ölməz, əbədi yaşar Cavad xanı bəxş etmişdir. Qədim Gəncə adının

əsassız olaraq dəyişdirilməsinə, mərd, şücaətli sakinlərinə qarşı dəfələrlə amansız təcavüz, zülm edilməsinə baxmayaraq, dahi Nizami, Mirzə Şəfi, Şeyx Bəhaəddin ənənələrinin XIX-XX əsrlərdə ləyaqətlə davam etdirmiş şəxsiyyətlər – Azərbaycanın ilk peşəkar, elmi dərəcəyə sahib olan alimlərindən biri, Böyük Britaniyanın London Kral Asiya cəmiyyətinin həqiqi üzvü, ömrünün sonunadək əsl müsəlman kimi yaşamış, dininə, millətinə sədaqətini qorumuş professor, Peterburq Universitetinin kafedra müdiri, Rusiyada numizmatika, arxeologiya və etnoqrafiya elminin inkişafında əvəzsiz xidmətlər göstərmiş poliqlot insan, şair Mirzə Cəfər Topçubaşov, Azərbaycanın hərb tarixində misilsiz xidmətlər göstərmiş görkəmli şəxsiyyət Məmməd Əliyev, Azərbaycan Xalq Cümhuriyyətinin əvəzsiz rəhbərləri, qurucuları Nəsib bəy Yusifbəyli, Nağı və Məmmədbağır bəy Şeyxzamanlılar, Xəlil bəy Xasməmmədov, Xudadat bəy Rəfibəyli, Əlimərdan bəy Topçubaşov, İsmayıl xan və Adil xan Ziyadxanlılar, Həsən bəy Ağayev, Şəfi bəy Rüstəmbəyli, görkəmli ziyalı, el ağsaqqalı Məhəmməd Pişnamazzadə, elm, mədəniyyət sahəsində əvəzsiz alim, ədəbiyyatşünas, yazıçı Mir Cəlal Paşayev, dəyərli bəstəkar, pedaqoq Fikrət Əmirov, Azərbaycan Milli Elmlər Akademiyasının ilk akademik-katibi, dünya şöhrətli geoloq-mineroloq, akademik Mirəli Qaşqay, analoqu olmayan Aşqarlar Kimyası İnstitutunun yaradıcısı, dünyada kimya elminin korifeylərindən biri, akademik Əli Quliyev, görkəmli incəsənət xadimi, professor, SSRİ xalq artisti Adil İsgəndərov, əvəzsiz ədəbiyyatşünas, akademik Həmid Araslı, beynəlxalq aləmdə ölkəmizin vizit kartına çevrilmiş məşhur «Cücələrim» əsərinin müəllifi, bəstəkar Qənbər Hüseynli, energetika sahəsində dünya

miqyasında tanınmış alim, akademik Çingiz Cuvarlı, Azərbaycanda kardiologiyanın banisi olmuş akademik Cahangir Abdullayev, ölkəmizdə dermatoveneralo-giyanın yaradıcılarından olmuş professor İbrahim İsmayılzadə, görkəmli bioloq alim, əməkdar elm xadimi, professor Sadıq Əliyev, Gəncədə yaşayıb-yaratmış və bir zamanlar şəhərimizdə mövcud olmuş unikal müəssisə – Azərbaycan Kənd Təsərrüfatı Elmlər Akademiyasının prezidenti olmuş akademik Firuz Məlikov, Azərbaycanda baytarlıq virusologiyası sahəsində ilk qadın alim, professor Nəcibə Əliyeva, professor Zaur Eminbəyli, çox gənc yaşlarında vəfat etmiş, Azərbaycanın ilk filosoflarından biri Cahangir Nağıyev, Gəncənin ilk sənətşünas alimi Rauf İsmayılzadə, Gəncənin ədəbi mühiti tarixinin dəyərli tədqiqatçısı, «Tərəqqi» medallı filoloq alim, dosent Nəzakət Əliyeva kimi saysız - hesabsız şəxsiyyətlər, Respublikamızda protozooloqlar məktəbinin yaradıcısı, 50 il ərzində AMEA-nın Zoologiya İnstitutunun direktoru olmuş, mərhum akademik Musa Musayev və Azərbaycan elminin canlı korifeyi – ölkəmizdə yarımkeçiricilər fizikasının yaradıcılarından olan, elmimizi dünya miqyasında layiqincə təmsil edən, əməkdar elm xadimi, «Şöhrət» ordenli akademik Maqsud Əliyev kimi dühalar yetirmişdir.

Müsəlman Şərqinin və türk dünyasının ilk demokratik Cümhuriyyətinin birinci paytaxtı olmuş Gəncə həm də ilk azərbaycanlı Sovet İttifaqı qəhrəmanı İsrafil Məmmədovun, Azərbaycanın qəhrəman şəxsiyyəti, hüquq mühafizə sistemində çox yüksək vəzifələrdə çalışmış, doğma xalqı uğrunda şəhid olmuş İsmət Qayıbovun, dəyərli Rəfibəylilər nəslinin

nümayəndəsi, ədliyyə generalı Akif Rəfiyev kimi bir çox görkəmli insanların, Şeyxzamanlılar, Səmədbəylilər, Babazadələr, Pişnamazzadələr, Eminbəylilər, Yusifbəylilər, Ziyadxanlılar kimi şərəfli tarixi ilə seçilən bütöv əsilzadə nəsillərinin yurdudur.

Məhz bu səbəbdən də qədim, müqəddəs torpağı olan Gəncə haqqında fikir söyləyərkən, əsər, müxtəlif yazılar qələmə alarkən çox məsuliyyətli, diqqətli olmalı, onun pak adına, şöhrətli tarixinə xələl gəlməməsi naminə ciddi düşünülməlidir. Bu gün hər bir gəncəli fəxr edə bilər ki, Azərbaycan Respublikasının prezidenti, zati-aliləri cənab **İlham Əliyevin** böyük uğurla, müdrikcəsinə davam etdirdiyi və banisi, yaradıcısı xalqımızın ümummilli lideri **Heydər Əliyev** olmuş siyasi kursun sayəsində bütövlükdə ölkədə olduğu kimi, Gəncədə də istisna olunmadan bütün sahələrdə görünməmiş dərəcədə yüksək səviyyəli tərəqqi, inkişaf müşahidə olunur.

İqtisadiyyatın, elmin, mədəniyyətin inkişafında böyük nailiyyətlərin əldə olunduğu Gəncədə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, ölkəmizin birinci xanımı **Mehriban Əliyevanın** böyük diqqət və qayğısı sayəsində mənəvi və maddi-mədəni irsimizin qorunması sahəsində çox mühüm, kompleks tədbirlər həyata keçirilmişdir.

Qədirbilən gəncəlilər ölkə rəhbərliyinin sonsuz diqqəti, maddi və mənəvi dəstəyinə etimadı doğrultmaq, dövlətimizin, dövlətçiliyimizin ətrafında sıx, monolit birləşməklə minnətdarlığını ifadə edir.

Respublikamızın prezidenti, möhtərəm cənab İlham Əliyevin İmamzadə kompleksinin təmiri, bərpası və ətrafında abadlaşdırma işlərinin həyata keçirilməsinə dair imzaladığı 1 mart 2010-cu il tarixli sərəncamı bütün

xalqımızın, xüsusilə də gəncəlilərin hədsiz sevincinə səbəb olmuşdur. Qeyd olunan sərəncam çox böyük tarixi əhəmiyyətə malikdir və həyata keçirdiyi müdrik siyasətlə bütün dünya azərbaycanlılarının vahid prezidenti olduğunu sübuta yetirən ölkəmizin rəhbəri bu addımı ilə xalqımızın, onun tarixi keçmişi və milli-mənəvi, dini dəyərlərinin keşiyində dayandığını bir daha təsbit etdi. Qədim və şanlı tarixi keçmişə malik olan və gündən-günə daha sürətlə inkişaf edən Gəncənin qədirbilən sakinləri adını «Qurucu İlham» olaraq tariximizə əbədi həkk etdirmiş möhtərəm prezidentimizi hər zaman olduğu kimi yekdilliklə dəstəkləyir, ölkəmizin tərəqqisindəki əvəzsiz xidmətlərinə görə ona sonsuz məhəbbət və ehtiram bildirirlər.

# I FƏSİL

# GƏNCƏ İMAMZADƏ TÜRBƏSİNİN TARİXİ

## 1. Gəncə tarixinin tədqiqində İmamzadə kompleksinin əhəmiyyəti

Gəncə şəhəri haqlı olaraq dünyanın, o cümlədən Şərqin ən qədim tarixə, ən əsası isə zəngin mənəvi-mədəni dəyərlərə malik mərkəzlərindən hesab edilir. Müxtəlif dövrlərdə aparılmış arxeoloji qazıntılar, çoxsaylı, uzunmüddətli tədqiqatlar nəticəsində Gəncənin şəhər mədəniyyəti mərkəzi kimi yaşının 2500 ildən çox olmasına dair təkzibedilməz elmi faktlar, mühüm əhəmiyyət kəsb edən məlumatlar əldə olunmuşdur.

Qədim və şərəfli keçmişi ilə fərqlənən Gəncə şəhəri çoxsaylı tarixi abidələrin məkanıdır. Bu mühüm maddi və eyni zamanda mənəvi sərvətlərimizin sırasında Gəncə İmamzadəsinin özünəməxsus əhəmiyyəti, xüsusi yeri vardır. Ümumiyyətlə, Gəncə şəhərinin on üç (13) əsrlik tarixini özündə təcəssüm etdirən bu dəyərli abidə yalnız Azərbaycanın deyil, bütövlükdə Şərqin, müsəlman dünyasının qədim sənətkarlıq, xüsusilə də memarlıq ənənələrinin, çoxəsrlik tarixi keçmişinin elmi cəhətdən araşdırılmasında olduqca vacib mənbəşünaslıq əhəmiyyətinə malikdir:

1. Gəncə İmamzadəsi orta əsr Azərbaycan memarlığının qiymətli nümunəsidir. Bu mühüm tarixi abidə erkən orta əsrlər dövrünün çox intensiv surətdə mədəni dəyərlərinin qarşılıqlı surətdə mənimsənilməsi ilə səciyyələnmiş mərhələsində təşəkkül tapmışdır. Daha

doğrusu, 739-cu ildə şahzadə İbrahimin vəfatından sonra onun məzarı üzərində ucaldılmış İmamzadə türbəsi özündə qədim və zəngin sənətkarlıq xüsusiyyətlərinə malik türk (Azərbaycan) və yeni təşəkkül tapan müsəlman memarlığı ənənələrinin qarşılıqlı vəhdətini ehtiva edir. Belə ki, bəhs olunan VIII-IX əsrlərin qovşağında Azərbaycan ərazisində xalq tərəfindən yeni qəbul edilmiş islam dini və müsəlman mədəniyyəti elementləri insanların, xüsusilə də işlərinin peşəkarları hesab edilən sənətkarların, memarların şüuruna kor-koranə surətdə hopmamış, qədim mədəni-mənəvi dəyərlərin bu yeni xüsusiyyətlərlə zənginləşməsi şəraitində tətbiq edilməsi sayəsində əvvəlki abidələrdən daha fərqli, möhtəşəm və çağdaş dövrü üçün yenilikçi xarakterli sənətkarlıq nümunələri meydana gəlmişdir. Şübhəsiz ki, Gəncə İmamzadəsi də məhz bu cür zəngin milli və ümumbəşəri dəyərləri özündə təcəssüm etdirən sənət incisidir.

2. Gəncə İmamzadə kompleksi Şərq və bütövlükdə, dünya mədəniyyətinin, eyni zamanda maddi və qeyri-maddi (mənəvi – E.H.) mədəni irsinin unikal nümunəsidir. Məlum olduğu kimi,müsəlman memarlığının həm tarixi abidə, həm də dini ibadətgah kimi cəhətlərə malik bir sıra mühüm nümunələri mövcuddur. Xanəgah, türbə, imamzadə, qəbirüstü xatirə abidələri, sərdabə xarakterli tikililər bu qəbildəndir [3, s.10; 5; 6; 9].

Qeyd etmək lazımdır ki, sadalanan dini, tarixi-memarlıq abidələrinin ümumi və oxşar xüsusiyyətlərinin mövcudluğuna baxmayaraq, onların kifayət qədər spesifik, fərqləndirici cəhətləri mövcuddur. Gəncə

İmamzadəsinin unikallığını şərtləndirən mühüm göstəriciləri sırasında ən önəmli keyfiyyətlərindən biri də onun yalnız türbə, imamzadə kimi mövcudluğunu məhdudlaşdırmamasıdır. Daha dəqiq ifadə etsək, Gəncə İmamzadə abidəsi bütöv bir dini və tarixi memarlıq kompleksidir. Bu dəyərli məkan imamzadələr üçün səciyyəvi olan cəhətlərə malik olmaqla yanaşı, tarixən türbə kimi inşa edilmiş, ətrafında digər türbələr də müxtəlif dövrlərdə ucaldılmışdır. Bununla yanaşı, Gəncə İmamzadəsinin dini əhəmiyyətinin, tarixi mövqeyinin təsiri, əhali arasında əsrlər boyu mövcud olmuş nüfuzunun getdikcə daha da yüksəlməsi onun inam-inanc mənziləsi olaraq, mənəvi ocaq, milli dəyərlərin mühafizəçisi kimi rolunun yüksəlməsinə gətirib çıxarmış, kompleksin ərazi baxımından genişlənməsinə səbəb olmuşdur. Türbənin ətrafında ucaldılmış yeni tikililər də zaman baxımından əvvəlki kompleksin mütərəqqi, sənətkarlıq nöqteyi-nəzərdən nəfis və keyfiyyətli cəhətlərini özündə qoruyub saxlamış, ümumi memarlıq ansamblına xələl gətirməmişdir.

Gəncə İmamzadəsinin tarixi əhəmiyyəti haqqında bəhs edərkən onun vəqf mülkiyyət forması kimi mövcudluğu məsələsinə xüsusi toxunulmalıdır.Gəncə-Qarabağ əyalətinin 1593-cü ilə (yaxud hicri tarixlə 1001-ci ilə) aid icmal dəftəri adlı mühüm sənəddə bəhs edilən mərhələdə 4 vəqfin olduğu öz əksini tapmışdır:

1. Şeyx Nizami Gəncəvi vəqfi.
2. İmamzadə vəqfi.
3. Şeyx Siracəddin vəqfi.
4. Şeyx İzzəddin vəqfi.

Sadalanan 4 vəqf mülkiyyətindən ikisi- Şeyx Nizami Gəncəvi vəqfi və qeyd edilən mənbədə

İmamzadə Şeyx Məhəmməd vəqfi adlandırılmış İmamzadə vəqfi Gəncə ərazisinə aid olmuşdur. Şeyx İzzəddin vəqfinin Kürəkçay ətrafındakı torpaqları əhatə etdiyi və Gəncə qəzasının tərkibinə daxil olduğu, Siracəddin ağa və yaxud Şeyx Siracəddin vəqfinin isə Qarabağ ərazisindəki Dizaq, Arazbar və Həkəri nahiyələrinin torpaqlarını ehtiva etdiyi qeyd olunmuşdur.

Bizim eranın 732-ci ilində (yaxud hicri tarixlə 114-cü ildə) vəfat etmiş imam Məhəmməd Bağırın oğlu mövlana (yaxud yuxarıda qeyd olunmuş mənbədə deyildiyi kimi "Şeyx") İbrahimin məzarı üzərində ucaldılmış türbənin ətrafındakı torpaqlar İmamzadə vəqfinə daxil olmuşdur. Gəncə-Qarabağ əyalətinin 1593-cü ilə dair icmal dəftəri Osmanlı-Səfəvi müharibələri dövrünə aiddir və Osmanlı Türkiyəsi tərəfindən Azərbaycan ərazisinin, o cümlədən Gəncə-Qarabağın ələ keçirilməsindən sonra tərtib olunmuşdur. Bu mühüm tarixi mənbəyə istinad edərək Gəncə şəhəri və onun ətraf ərazilərində, haqqında bəhs edilmiş vəqf mülkiyyətlərinin, həmçinin İmamzadə vəqfinin XVI əsrdən əvvəlki dövrlərdən mövcud olduğunu vurğulamaq lazımdır.

Ümumiyyətlə, dini və yaxud xeyriyyə məqsədi ilə dövlətin yaxud ayrı-ayrı şəxslərin könüllü surətdə bağışladığı daşınan və daşınmaz əmlak olan vəqf VII-VIII əsrlərdə yaranmış və orta əsrlərdə müsəlman ölkələrində, o cümlədən Azərbaycanda geniş şəkildə yayılmışdır. Əmlakın vəqf edilməsi isə xüsusi fərmanla-"vəqfnamə" ilə rəsmiləşdirildi. Vəqfləri idarə edən şəxs isə "mütəvəlli" və ya "nazir" adlanırdı.

Gəncə İmamzadə vəqfinin mövcudluğu dövründə fəaliyyətinə dair məlumatlar bir daha bu müqəddəs

məkanın daim xeyirxah məqsədlərə xidmət etdiyini göstərir. Gəncə-Qarabağ əyalətinin icmal dəftərində İmamzadə türbəsi vəqfinin illik gəlirinin 5308 axça olduğu qeyd edilmişdir. Bütün bu gəlirin isə müvafiq olaraq “təamiyyə”, “təvliyyət”, “qurban”, “türbədarlıq”, “cibayət”, “fərraşiyyə” şəklində təmənnasız surətdə insanların, ehtiyacı olanların tələbatlarının ödənilməsinə sərf edildiyi məlumdur. Nəzərə alınmalıdır ki, “axça” (yaxud ağca, axçeyi-osmani) qədim türk gümüş sikkəsidir. Bu pul vahidi ilk dəfə 1329-cu ildə Osmanlı sultanı Orxan tərəfindən kəsdirilmişdir. (zərb edilmişdir).

Gəncədə mövcud olmuş vəqflərin tarixinə dair görkəmli filoloq alim, əməkdar elm xadimi, akademik Həmid Araslı, akademik Ziya Bünyadov, tarixçi alim Hüsaməddin Məmmədov, Türkiyəli alim Fəxrəddin Kırzıoğlu kimi tədqiqatçıların dəyərli araşdırmaları vardır.

3. İmamzadə kompleksi Azərbaycanın və bütövlükdə müsəlman Şərqinin qədim elmi və mədəni irsi tarixinin qoruyucusu olan məkanlardan biridir. Məhz Gəncə İmamzadəsi kimi mühüm tarixi komplekslər bir növ müqəddəs dini məkanlarımızın – məscid, İmamzadələrin yalnız ibadətgah mərkəzi kimi deyil, həm də onların böyük bir tarixi dövr ərzində dəyərli elm, təhsil, ürfan mərkəzləri olaraq fəaliyyət göstərməsini sübuta yetirir. Təsadüfi deyildir ki, hələ orta əsrlər dövründən etibarən bu cür müqəddəs məkanlarımız gənc nəslin təlim və tərbiyə olunması, onların dini, fiqh elmi ilə yanaşı, fundamental dünyəvi elmləri də dərindən mənimsəmələrinə, geniş dünyagörüşlü şəxsiyyətlər kimi düzgün formalaşmalarına şərait yaradan mərkəzlər olmuşdur.

Bir faktı qeyd etmək kifayətdir ki, yaratdığı əvəzsiz sənət inciləri ilə Avropanı, Qərb dünyasını heyran etmiş Mirzə Şəfi Vazeh, onun tələbəsi, ədəbiyyatımızın əvəzsiz korifeyi Mirzə Fətəli Axundov kimi yüzlərlə böyük düha məhz bu cür mədrəsə, məktəblərdə, məscidlərdə, onların nəzdində fəaliyyət göstərmiş mərkəzlərdə elm, təhsil almaqla yanaşı, həqiqi insanlıq, humanizm dəyərlərinə sahib olmuşlar. Eyni zamanda Gəncə İmamzadəsi, Gəncə Şah Abbas Camesi (Cümə məscidi) kimi şəhərin çoxsaylı məscid, mədrəsə, ibadətgahları yüksək intellektual səviyyəyə, müfəssəl elmi-nəzəri biliklərə, həqiqi ali insani dəyərlərə sahib olan əsl ziyalı şəxsiyyətlərin, Gəncənin sayılıb-seçilən ağsaqqallarının, din-iman əhli olan insanlarının toplaşaraq fikir mübadiləsi, elmi müzakirələr apardıqları əvəzsiz ocaqlar olmuşdur. Burada elm, sənət nümayəndələri taleyüklü məsələləri müzakirə etmiş, Şərqin qədim mədəni, elmi mərkəzlərindən biri olan Gəncə şəhərinin inkişafı, müxtəlif tarixi mərhələlərdə meydana çıxan vacib məqamlara dair münasibətlərini ifadə etmiş, demokratik şəraitdə qərarlar qəbul etmişlər [1; 15; 43; 63; 64].

4. Şahzadə İbrahimin xatirəsinə ucaldılmış bu müqəddəs türbə, dəyərli tarixi abidə həm də Azərbaycanda mesenatçılıq tarixinin, xalqımızın xeyirxahlıq, təmənnasız xeyriyyəçilik keyfiyyətlərinin təsdiqində mühüm mənbə rolunu oynayır. Məlumdur ki, abidənin dəfələrlə təmir, bərpa edilməsi məhz ayrı-ayrı şəxsiyyətlər, qurumlar tərəfindən həyata keçirilmişdir.

Orta əsrlər dövründə Gəncə İmamzadəsinin ərazisində bərpa və yenidənqurma tədbirlərinin həyata

keçirildiyi şübhə doğurmur. Çünki XIII-XV əsrlərdə İmamzadədə memarlıq nöqteyi-nəzərdən müasir görkəminə müəyyən qədər yaxın olan türbə və ətrafda olan əsas tikililər inşa edilərkən əvvəlki türbənin memarlıq, sənətkarlıq xüsusiyyətlərinin ayrı-ayrı elementləri nəzərə alınmışdır. Bununla yanaşı, bəhs edilən tarixi mərhələdə, xüsusilə də XV-XVI əsrlərdə şiəlik məzhəbinin nüfuzunun yüksəlməsi sayəsində Gəncə İmamzadəsinin də təmir və bərpasında daha möhtəşəm, böyük qurğuların tikilməsi, dövrün yeni sənətkarlıq, həmçinin önəmli dini cəhətlərinin tətbiq edilməsinə xüsusi əhəmiyyət verilmişdir. Lakin müxtəlif tarixi məxəzlərdə, istər yerli, istərsə də əcnəbi mənbə və ədəbiyyatlarda Gəncə İmamzadə türbəsinin konkret şəxslər tərəfindən təmir edilməsinə, yaxud da onların şəxsi maddi vəsaitləri hesabına kompleksin ərazisində hər hansı yenidənqurma, bərpa işlərinin həyata keçirilməsinə dair məlumatlar yoxdur və ya aşkar olunmamışdır. Bunu bir neçə səbəblə əlaqələndirmək mümkündür. Belə ki, hər zaman təmənnasızlığı, xeyirxahlığı, xeyriyyəçiliyi ilə fərqlənmiş xalqımız, o cümlədən gəncəlilər bu cür nəcib əməlləri icra etsələr də, onun nümayişkəranə surətdə təbliğ edilməsinə çalışmamışlar[18; 51; 93-95; 338-341; 343; 351; 371-373].

Bundan əlavə, yerli əhali, həmçinin maddi durumu ilə yanaşı intellektual səviyyəsi, elmi dünyagörüşü, ali insani keyfiyyətləri yüksək olan həqiqi ziyalı olan Gəncə sakinləri xeyriyyəçilik etməyi, təmənnasız olaraq qədim abidələrimizi, müqəddəs ocaqlarımızı inşa, yaxud təmir-bərpa etdirməyi özlərinin mənəvi borcu, vətəndaşlıq vəzifəsi hesab etdiklərindən onu dönə-dönə vurğulamağa

lüzum görməmişlər. Ümumiyyətlə, xalqımıza xas olan təmənnasız xeyirxahlıq, edilən yaxşı, xeyriyyəçi əməldən sui-istifadə etməmək kimi müsbət insani keyfiyyətlər tarix boyu həmişə mili-mənəvi dəyərlərimizə, adət və ənənələrimizə bağlılığı, sədaqətliliyi ilə fərqlənmiş Gəncə şəhərində dərin kök salmış, ənənə olaraq nəsildən-nəslə irsən ötürülmüşdür. Məhz bu səbəbdən də Gəncə İmamzadəsi ilə yanaşı, digər çoxsaylı abidələrimiz, dini ziyarətgahlarımızın da bərpası, təmiri, yenidən qurulmasına dair müxtəlif dövrlərdə həyata keçirilmiş tədbirlər haqqında məlumatlar xüsusi olaraq qeyd edilməmişdir.

Gəncənin qədim abidələrinin, tarixi tikililərinin, dini ocaqlarının bərpa edilməsinə dair əsas məlumatların XVIII-XIX əsrlərdən etibarən verilməsi bir tərəfdən bu cür tədbirlərin rəsmi səviyyədə, rəhbər dairələrin birbaşa göstərişi nəticəsində yerinə yetirildiyini göstərir. Nümunə olaraq Gəncənin sonuncu xanı, xalqımızın qəhrəmanlıq tarixinin iftixarı olan Cavad xan Ziyadoğlu Qacar (1786-1804) tərəfindən bir sıra mühüm abidələrin, o cümlədən Gəncə İmamzadəsinin təmir və bərpa olunması, ətrafında müəyyən abadlaşdırma, yenidənqurma işlərinin icra etdirilməsi göstərilə bilər. Qeyd olunan tədbirlərə sarayın baş memarı, dövrünün görkəmli şəxsiyyəti Kərbəlayi Sadıqın başçılıq etməsi Cavad xanın doğma vətəninə, xalqına təmənnasız bağlılığının, mənəvi dəyərləri maddiyyatdan qat-qat üstün tutduğunun göstəricisidir [104, s.227-228; 122, s.92-94;146, s.47-50].

Digər tərəfdən isə Gəncənin qədim abidələrinin bərpasına dair məlumatların əsasən XVIII-XIX əsrlərə təsadüf etməsi, öz növbəsində siyasi-ictimai formasiyaların, quruluşların təsirini nümayiş etdirir. Belə

ki, artıq əcnəbi hökmranlığının (Çar Rusiyası – E.H.) bərqərar olması, tədricən kapitalist münasibətlərinin təşəkkül tapması, yeni sosial təbəqə, zümrələrin meydana gəlməsi həm kütləvi surətdə insanların bu cür mesenatçılıq tədbirlərində yardım edən tərəf qismində çıxış etməsini məhdudlaşdırırdı, həm də milli burjuaziyanı, ziyalı təbəqəsini özünün milli dəyərlərini, maddi mədəniyyət abidələrini qorumaq yolunda daha əzmlə mübarizə aparmağa sövq edirdi.

Çar Rusiyası ordusunun ikinci müsəlman atlı polkunun sərkərdəsi, general-mayor İsrafil bəy Yadigarzadənin 1878-1879-cu illərdə Nizami Gəncəvinin məqbərəsini, İmamzadə kompleksini təmir və bərpa etdirməsi, Hacı Mir Qasım tərəfindən 1880-ci ildə «Qırıxlı», 1890-cı illərdə «Sofulu» məscidlərinin inşa etdirilməsi kimi çoxlu sayda faktları sadalamaq mümkündür [63, s.4; 11-21; 122, s.93-94].

Eyni zamanda, bəhs olunan dövrdə görkəmli elm, mədəniyyət xadimləri, xüsusilə də şərəfli tarixə malik, əsilzadə nəsillərin nümayəndələri içərisində belə xeyriyyəçilik tədbirlərini icra edən şəxsiyyətlər az olmamışdır. Məşhur Səmədbəylilər, Rəfibəylilər, Usubsoylar (hal-hazırda Əliyevlər), Yusifbəylilər və digər şəcərələrin nümayəndələri qədim Gəncənin daha da abadlaşması, tarixi tikililərin qorunması sahəsində əvəzsiz tədbirlər həyata keçirmişlər. Bu baxımdan 1904-1905-ci illərdə (XX əsrin əvvəllərində) Ələkbər və Xudadat bəy Rəfibəylilərin başçılığı ilə Nizami Gəncəvinin məqbərəsinin bərpası üçün yaradılmış Cəmiyyətin fəaliyyəti xüsusi əhəmiyyətə malik olmuşdur [43, s.178-179; 83, s.243, 332].

Gəncənin mesenatçılıq tarixinin maddi mədəniyyət abidələrimizlə bağlı digər bir mühüm cəhəti hələ çox qədim dövrlərdən etibarən yerli əhalinin, şəhər sakinlərinin bu tədbirləri könüllü surətdə kütləvi olaraq icra etməsi idi. Daha doğrusu, gəncəlilər şəhərin hər hansı qədim abidəsinin, tikilisinin təmirə ehtiyacı olduğu zaman kimlərinsə təhriki yaxud tapşırığını gözləmədən özlərinin şəxsi maddi vəsaitləri hesabına bərpa, təmir, yenidənqurma tədbirlərini həyata keçirirdilər. Həmçinin, zərurət yarandıqda əvvəlki memarlıq, sənətkarlıq ənənələri ilə bağlı, şəhərin ümumi mənzərəsinə xələl gətirməyən çağdaş, müasir tələblərə cavab verən tikililərin də ucaldılması prosesi təşkil edilirdi. Heç şübhəsiz Gəncədə hər zaman dövlətçiliyə bağlılıq, həqiqi təşəbbüskeş rəhbərlərə ehtiram olduğundan bütün sadalanan işlər kor-koranə, plansız şəkildə həyata keçirilmirdi. Hər bir iş, xüsusilə də bu cür əhəmiyyətli tədbirlərdən öncə Gəncənin rəhbər şəxsləri, dövrün görkəmli ziyalıları, elm, incəsənət, din xadimlərinin iştirakı ilə məşvərət, toplantıların keçirilməsi, burada taleyüklü məsələlərə dair qərarların qəbul olunması və yalnız bundan sonra müvafiq fəaliyyətin icra edilməsi şübhə doğurmur. Məhz bu cür həssas, qayğıkeş münasibətin nəticəsində doğma Gəncəmizin bir çox tarixi abidəsi qorunub müasir dövrədək saxlanılmışdır. Əgər şəhər sakinləri milli dəyərlərimizə etinasız, laqeyd münasibət bəsləsə idilər, o təqdirdə abidələrin də aqibəti naməlum olardı.

Digər maddi mədəniyyət abidələrimizlə yanaşı, Gəncə İmamzadə türbəsinin təmir və bərpa etdirilməsi ilə bağlı tarixi-faktoloji məlumatların orta əsrlər dövrü mərhələsini əks etdirməməsinin səbəbləri sırasında bu

tədbirlərin əksər hallarda geniş əhali kütləsinin ümumi yardımı, eyni zamanda iştirakı sayəsində həyata keçirilməsi göstərilə bilər. Belə ki, şəhər sakinləri sayılıb-seçilən, xüsusi ehtiram və nüfuz sahibi olan şəxslərin, əksər hallarda ağsaqqalların rəhbərliyi ilə istər ziyarətgahların, tarixi abidələrin bərpası və yaxud yeni tikililərin ucaldılması üçün maddi vəsaitlərin toplanması və sərf olunması, istərsə də qeyd edilən işlərin icra edilməsində müvafiq işçi qüvvəsindən istifadə olunması məsələlərini müzakirə və həll edirdi. Bu sahədə qeyri-rəsmi, sonrakı dövrlərdə isə rəsmi surətdə fəaliyyət göstərmiş, müxtəlif yerli xeyriyyə qurumlarının, birliklərin rolu xüsusilə qeyd edilməlidir. Məhz ayrı-ayrı quruluşlarda, müxtəlif tarixi mərhələlərdə mövcud olmasına baxmayaraq, sözündə bütöv, əhdinə vəfalı, mənəviyyatına sədaqətli Gəncə sakinləri, ələlxüsus ziyalılar, əsilzadə şəcərələrinin nümayəndələri bu cür xeyriyyəçilik fəaliyyətlərini heç vaxt xüsusi təbliğat, və ya müasir ifadə ilə desək, reklam vasitəsinə çevirməmiş, insanlara həqiqi mesenatçılıq nümunəsi göstərmişlər.

Bu baxımdan Gəncə mesenatçılığı ilə bağlı bir faktı xüsusi vurğulamaq lazım bilirik ki, əslində XX əsrin əvvəllərinə qədər bütün ölkədə belə xeyriyyəçilik fəaliyyəti demək olar ki, yalnız islami dəyərlərə istinad edirdi. Ancaq bəhs olunan dövrdən etibarən bütün ölkədə, onun ayrı-ayrı bölgələrində mesenatçılıq artıq milli səciyyə daşımağa başlamışdır. Ümumiyyətlə, mesenatçılıq məfhumu millətin, bütövlükdə bəşəriyyətin inkişafına şərait yaradan xeyirxah, təmənnasız, nəcib əməl anlayışını ifadə edir. Bu anlayışın tarixi mənşəyi, etimologiyasına gəldikdə isə qeyd etmək lazımdır ki, bu, məşhur tarixi şəxsiyyət Oktavian Avqustun yaxın

silahdaşı, Roma dövlət xadimi Qay Silni Mesenat adlı elm, incəsənət hamisi ilə bağlıdır. Qay Mesenat səriştəli ictimai xadim olmaqla yanaşı, eyni zamanda Horatsi, Vergili kimi tanınmış şairləri, mədəniyyət xadimlərini himayə edir, beləliklə, Romanın ədəbi həyatına, onun inkişafına şərait yaradırdı. Q.Mesenat eradan əvvəl 74-cü ildə (bəzi mənbələrdə 64-cü il göstərilir – E.H.) doğulmuş, eradan əvvəl 8-ci ildə vəfat etmişdir [6; 23; 63; 64].

Gəncədə mesenatçılığın tarixinə təfsilatlı surətdə nəzər saldıqda çox mühüm bir məsələ ortaya çıxır. Belə ki, bu qədim mədəni dəyərlərə malik olan şəhərdə bu cür nəcib xeyriyyəçilik fəaliyyəti yalnız XX əsrin əvvəllərində milli səciyyə daşımağa başlamamışdır. Hələ əvvəlki tarixi dövrlərdə də Gəncədə mesenatçılıq dini dəyərlərin qorunmasına xidmət etməklə yanaşı, həm də milli ənənələrimizin mühafizə olunması, yaşadılması məramları ilə bağlı olmuşdur. Məhz bu səbəbdən də yazılı tarixi mənbələrdə aşkar olunmuş məlumatların azlığına baxmayaraq, qədim Gəncədə XX əsrin əvvəllərinə qədərki mərhələlərdə müxtəlif tarixi abidələrimizin, maddi mədəniyyət nümunələrimizin təmir və bərpa etdirilməsi, eyni zamanda yeni abidələrin inşa olunmasında varislik ənənəsi qorunub saxlanılmışdır. Gəncədə ölkənin digər əksər bölgələrindən fərqli olaraq mesenatçılığın hələ orta əsrlər dövründən etibarən yalnız dini deyil, həm də milli səciyyəyə malik olmasını iki mühüm müddəa əsasında təsbit etmək mümkündür:

Birincisi, Gəncədə XX əsrdə olduğu kimi, ondan öncəki tarixi mərhələlərdə də ancaq dini ibadətgahlar, imamzadə və məscidlər, ocaq və ziyarətgahlar inşa və yaxud təmir edilmirdi. Bu, göstərilən məkanlarla yanaşı,

əsrlər boyu elm, mədəniyyət mərkəzi olmuş bu qədim şəhərdə ayrı-ayrı tarixi mədəniyyət abidələri, xüsusilə də tədris, elm mərkəzləri olan mədrəsələr, məktəblər inşa edilmiş, zərurət yarandıqda təmir, bərpa tədbirləri həyata keçirilmişdir. Qeyd olunan faktlar, öz növbəsində Gəncədə milli özünüdərkin, azərbaycançılıq məfkurəsinin (yaxud ideologiyasının) qədim dövrlərdən etibarən formalaşaraq zaman keçdikcə daha da möhkəmlənməsinin sübutu qismində çıxış edir. Bundan əlavə, şəhərdə dekorativ xalq sənəti yaradıcılığı, bütövlükdə ayrı-ayrı sənətkarlıq sahələri ilə məşğul olan peşəkar ustaların, müxtəlif elm, incəsənət sahəsi nümayəndələri, xüsusilə də şairlərin sərbəst fəaliyyət göstərməsini təmin etmək məqsədilə müvafiq binaların tikintisinin, həmçinin bərpa və yenidənqurilmasının təşkili üçün istənilən şəraitin yaradılması Gəncənin mesenatçılıq tarixinin könüllü, təmənnasız, ən əsası isə həqiqi ziyalılıq xarakterini nümayiş etdirir.

İkincisi, Gəncədə XX əsrin əvvəllərinə qədərki mərhələdə olduğu kimi, bu dövrdən sonra da müxtəlif dini abidələrin, ocaq və ziyarətgahların inşası və təmir-bərpası sahəsində çox mühüm işlər həyata keçirilmişdir. Bu tədbirlərin icra olunmasında əsas məqsəd yalnız dini dəyərlərə sədaqəti nümayiş etdirmək və yaxud ziyarətgahlara toplanan ianələrdən istifadə etmək olmamışdır. Əsas məqsəd maddi vəsaitlərdən istifadə edərək əhalinin milli-mənəvi dəyərlərini, dini ənənələrini yaşatmaq, ümumi intellektual və mədəni səviyyəni yüksəltmək olmuşdur. Belə ki, məscidlərin nəzdində mədrəsələr yaradılmış, gənc nəslin dini elmlərlə yanaşı, dünyəvi elmlərin sirrlərinə dərindən yiyələnmələrini təmin etmək məqsədilə bu cür elm, tədris, təlim və

tərbiyə ocaqlarının sayı artırılmaqla yanaşı, təmirə, abadlaşdırılmağa ehtiyacı olan tikililərdə lazımi bərpa tədbirlərinin yerinə yetirilməsinə şərait yaradılmışdır. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, Şərq dünyasının mühüm tarixi abidəsi, qədim ziyarətgahı olan Gəncə İmamzadə türbəsinin ətrafında ata-ana qayğısından məhrum olan kimsəsiz uşaqların, yeniyetmələrin təhsil, təlim və tərbiyə almaları üçün xüsusi şəraitin yaradılması istər XX əsr tarixinin şanlı səhifəsi, istərsə də mesenatçılıq tariximizin əyani göstəricisi kimi əhəmiyyətlidir. Bu fakt isə Azərbaycan Xalq Cümhuriyyətinin qeyd olunan mesenatçılıq fəaliyyətinin xalqımızın, konkret halda Gəncənin çoxəsrlik xeyriyyəçilik ənənələrinin mövcudluğunu, eyni zamanda bu fəaliyyətin dini dəyərlərlə yanaşı, birbaşa milli, dövlətçilik səciyyəsini daşımasını sübut edir.

Müsəlman aləminin qədim və mühüm əhəmiyyətə malik ziyarətgahlarından, dəyərli tarixi-epiqrafik abidələrindən olan İmamzadə türbəsi çoxəsrlik zəngin mədəni, elmi, siyasi və ictimai mərkəz kimi şöhrətə malik Gəncə şəhərinin tarixi keçmişinin elmi nöqteyi-nəzərdən müfəssəl surətdə tədqiq olunmasında əvəzsiz mənbə rolunu oynayır. Gəncə İmamzadəsinin bu önəmli mənbəşünaslıq əhəmiyyətini şərtləndirən bir sıra cəhətlər mövcuddur:

I. İlk öncə onu qeyd etməliyik ki, Gəncənin məhz şəhər olaraq xronoloji yaşının müəyyən edilməsində bu dəyərli tarixi abidənin əhəmiyyəti kifayət qədər böyükdür. Əslində, xalq arasında həm də "Göy imam" adlandırılan bu müqəddəs ziyarətgahın VIII əsrdə ucaldılması, türbənin inşa edilməsi və əsrlərlə əhali tərəfindən mühafizə olunması artıq Gəncənin yüzilliklərə

istinad edən şəhər mədəniyyəti mərkəzi kimi formalaşmasına dəlalət edir.

II. Bundan əlavə, Gəncə şəhərinin ərazi, məkan baxımından tarixi yerdəyişmələrinin daha dəqiq müəyyənləşdirilməsində də İmamzadə kompleksinin mənbəşünaslıq dəyəri danılmazdır. Abidənin müasir dövrümüzdə Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində yerləşməsi isə onun elmi tədqiqinə münasib şərait yaradır. Maddi mənbələrin qorunması, mühafizə olunması, həmçinin müvafiq arxeoloji qazıntı tədbirlərinin, tarixi, etnoqrafik araşdırmaların effektiv surətdə həyata keçirilməsinə münasib imkan vermiş olur.

III. Bu qədim ziyarətgah həm də Gəncənin ən mühüm tarixi-epiqrafik abidələrindən biridir. Belə ki, Gəncə İmamzadə türbəsindən aşkar edilmiş kitabələrdə şəhərimizin tarixinin müxtəlif dövrləri ilə bağlı müəyyən faktoloji dəyərə malik olan məlumatlar vardır. Bu qeyd olunan daş kitabələrdən birində Gəncə İmamzadəsinin inşa olunma tarixi, burada dəfn edilmiş Peyğəmbər nəslinin nümayəndəsi, beşinci şiə imamı Məhəmməd Bağırın (Baqirin) oğlu mövlana İbrahim haqqında faktlar öz əksini tapmışdır [43; 64; 104; 122; 338].

Digər epiqrafik kitabədə isə Gəncə İmamzadə türbəsinin  təmir, bərpa tarixinin mühüm bir məqamı öz əksini tapmışdır. Daha dəqiq desək, İmamzadə kompleksinin giriş hissəsində yerləşən bu kitabədə qəbir gübəzinin 1879-cu ildə görkəmli hərbi xadim, Tiflisdən (Borçalı qəzasından) olan general-mayor İsrafil bəy Yadigarzadə tərəfindən özünün şəxsi təşəbbüsü və maddi vəsaiti hesabına inşa etdirilməsinə dair məlumat qeyd olunmuşdur. İsrafil bəy Yadigarzadə rus ordusunun ikinci atlı müsəlman polkunun rəhbəri olmuş, sonradan isə

vəfat edərkən məhz bu müqəddəs Gəncə torpağında, İmamzadə kompleksi ərazisində dəfn edilmişdir [104, s.228].

IV. Gəncə İmamzadə kompleksinin mühüm tarixi-etnoqrafik mənbə kimi əhəmiyyətini şərtləndirən xüsusiyyətləri sırasında ən azı şəhərimizin beş əsrlik epitafiya nümunələrini, qədim qəbir abidələrini öz ətrafında cəm etməsi qeyd olunmalıdır. Daha doğrusu, Gəncə İmamzadə türbəsinin ətrafında, o cümlədən kompleksin ərazisində külli miqdarda məzarlardan ibarət olan qəbiristanlıq Gəncə tarixinin, yerli əhalinin dini, milli-mənəvi dəyərlərinin qoruyucusu kimi xüsusi əhəmiyyətə malikdir. İmamzadə türbəsinin yaxınlığında, kompleksin giriş hissəsində, əsasən tanınmış şəcərələrin, əsilzadə nəsillərin sərdabələri, görkəmli insanların məzarları vardır. İmamzadənin ətraf hissəsində tədricən böyük, geniş bir ərazini əhatə etmiş qəbiristanlıqda isə ayrı-ayrı tarixi dönəmlərdə tanınmış, sayılıb-seçilmiş şəxslərlə yanaşı, sıravi insanlar, adi vətəndaşlar da dəfn edilmişlər və müasir dövrümüzdə belə bu proses davam etməkdədir.

Ümumiyyətlə, dahi Şeyx Nizaminin şəcərəsinin davamçıları olan Şeyxzamanlılar (Şeyxzamanovlar) nəslinin nümayəndələrinin, həmçinin görkəmli elm bilicisi, axund Mövlana Hüseyn Pişnamazzadə, tanınmış nəqqaş-xəttatlar Şeyx Zaman və Mirzə Mehdi, İmamzadə abidəsinin bərpasına yardım etmiş general-mayor İsrafil bəy Yadigarzadə, 30 il ərzində Gəncənin Şah Abbas məscidinin (Cümə məscidinin) axundu olmuş həqiqi seyid şəcərəsinin nümayəndəsi Mir Abbas ağa kimi şəxsiyyətlərin burada dəfn olunması İmamzadə kompleksinin Gəncə, bütövlükdə isə Azərbaycan üçün

çox böyük əhəmiyyətə malik dəyərli bir ocaq, müqəddəs tarixi məkan olduğuna dəlalət edir. Bundan əlavə, dövrün görkəmli xəttat-nəqqaşları, həkkakları olan Mirzə Mehdi, həmçinin Şeyx Zamanın dəyəri çox yüksək olan epitafiya sənəti nümunələri də vacib tarixi mənbə kimi təsnif edilə bilər. Belə ki, XIX əsrdə yaşayıb-yaratmış bu sənətkarların qəbirlər üzərində həkk etdikləri yazılar, təsvirlər Gəncədə sənətkarlığın hərtərəfli inkişafının sübutudur [43; 122; 294; 295].

Epitafiya yunanca «epi» və «taphios» (qəbir) sözlərindən ibarət olub, mənası qəbirüstü nitq, başdaşı yazısı kimi səciyyələndirilir. Mirzə Mehdi, Şeyx Zaman kimi peşəkar həkkaklar da məhz bu cür dəyərli sənətkarlıq nümunələrini yaratmaqla bir tərəfdən qeyd edilən sənət sahələrini yaşadır, digər tərəfdən isə Gəncə İmamzadəsinin tarix boyu əhəmiyyətini qoruyub saxlamış mühüm dini ziyarətgah və əhalinin ehtiramla əzizlərini dəfn etdikləri böyük kompleks kimi tanınmasına şərait yaratmışlar. Qeyd olunan sənətkarlar daş, metal və yaxud ağac üzərində nəqş, rəsm və kitabə (yazı) həkketmə sənəti olan həkkaklığın görkəmli nümayəndələri olmuşlar. Həkkaklıq öz növbəsində bədii oyma sənəti ilə birgə qravüranın inkişafını şərtləndirən qrafika sənəti növlərindən hesab edilir [6; 63; 317; 320].

Məlumdur ki, Gəncə İmamzadə kompleksində şəhərin nüfuzlu, tanınmış nəsillərinin sərdabələri və qəbirləri saxlanılır. Sərdabə tipli qəbir abidələri çox qədim və zəngin etno-mental dəyərlərin, dini dünyagörüşü, dəfn ənənələrinin mövcudluğunu göstərir. Ən önəmlisi isə odur ki, belə məzarlar məhz Gəncə ilə bağlıdır və bu ənənə müasir dövrümüzə qədər qorunub saxlanılmaqla bərabər, indi də ayrı-ayrı nəsillər

tərəfindən ucaldılır. Gəncə üçün səciyyəvi hesab edilən bu qədim qəbir abidələrinin mühafizə edilməsi və inşası ənənəsi şəhərdə xalqımızın əsrlərə istinad edən zəngin adətlərinin, milli dəyərlərinin yaşadıldığının sübutudur [6; 43; 44; 64].

Bəzi əsassız mülahizələrə baxmayaraq, Gəncə sərdabələri heç cür dinimizin dəfn ənənə və göstərişlərinə zidd xüsusiyyətlərə malik komplekslər hesab edilə bilməz. Çünki Gəncənin sərdabələri xalqımızın çox əski tarixi dövrlərlə bağlı formalaşmış və islam dininin doğru, dürüst prinsiplərinə uyğun gələn dəfn ənənələri ilə heç bir ziddiyyət təşkil etmir. Belə ki, şəhərdə əksəriyyət təşkil edən sərdabələrdə cəsədlərin torpağa dəfn edilməməsi kimi cəhətlər mövcud deyildir. Əksinə, qeyd olunan qəbirüstü abidələrdə cəsədlər torpağa dəfn olunmuş şəkildədir. O ki qaldı torpağa basdırılmayan cəsədlərlə bağlı məsələyə, cəsəd əksər hallarda vəfat etmiş şəxsin öz vəsiyyəti ilə sərdabəyə qoyulurdu və zəvvarlar müqəddəs ziyarətgahlara, ələlxüsus Kərbəlaya gedən zaman mərhumun nəşi (sümükləri) insanlar tərəfindən aparılaraq orada dəfn edilirmiş. Buradan da aydın olur ki, vəfat etmiş şəxsin cəsədi torpağa dəfn edilirdi.

Doğrudur, Gəncədə əksər sərdabələr qədim qəbiristanlıq hesab edilən «Səbzikar»da yerləşir. Burada bir-biri ilə ümumi, oxşar xüsusiyyətlərə malik olan, bununla yanaşı, bir sıra cəhətləri baxımından fərqlənən çoxlu sayda sərdabə mövcuddur. Bu sərdabə, türbələrin ümumi sayı 50-dən çoxdur. Qeyd olunan qəbir abidələrindən on yeddisi daha qədim hesab olunur. Səbzikar qəbiristanlığında «Hacı Mir Qasım» türbəsi, «Əsgər ağa Adıgözəlzadə (Gorani)» türbəsi, «»Xan

Xoyski, Batman qılınc, Dünbülü» türbəsi, «Əliyevlər» türbəsi (sərdabəsi) və digər bu cür sərdabə – türbələr dəyərli tarixi-memarlıq nümunələri olmaqla yanaşı, həm də xalqımızın, o cümlədən də Gəncənin qədim etno-mental dəyər və milli mənəviyyatının önəmli cəhətləri, xüsusilə də dəfn mərasimləri, axirət dünyası ilə bağlı təsəvvürlərinin elmi baxımıdan ətraflı surətdə tədqiq edilməsində vacib mənbə əhəmiyyətinə malikdir.

V. Gəncə İmamzadə abidəsinin Gəncə tarixinin araşdırılmasında malik olduğu ən mühüm mənbəşünaslıq cəhətləri sırasında onun yerli memarlıq, bədii sənətkarlıq ənənələrinin olduqca dəyərli elementlərini özündə ehtiva etməsi qeyd olunmalıdır. Belə ki, Gəncə İmamzadə türbəsi və onun ətrafında yaradılmış müxtəlif kompleks-memarlıq tikililəri çox önəmli tarixi, eyni zamanda epiqrafik abidələrdir. Bildiyimiz kimi, bu abidə VIII əsrdə Gəncə şəhərində mövcud olan memarlıq, çoxsahəli sənətkarlığın mühüm xüsusiyyətlərini özündə təcəssüm etdirir. Nəzərə almaq lazımdır ki, Gəncənin sənətkarlıq, memarlıq ənənələri çox qədim tarixi köklərə malikdir. Gəncə ərazisində, o cümlədən Gəncəətrafı bölgələrdə müxtəlif dövrlərdə həyata keçirilmiş tarixi-arxeoloji, etnoqrafik səciyyəli tədqiqatlar birmənalı şəkildə göstərmişdir ki, bəhs olunan ərazilərdə, xüsusilə də qədim Gəncədə sənətkarlığın təşəkkül tapması, formalaşması olduqca əski tarixi mərhələlərə təsadüf etmişdir. Məhz bu baxımdan yanaşaraq Gəncə İmamzadəsinin yalnız bəhs olunan erkən orta əsrlər dövrü ilə deyil, çox qədim, antik dövrlərlə bağlı memarlıq, sənətkarlıq ənənələrinin vacib cəhətlərini əks etdirməsini inamla vurğulamaq olar.

Gəncə İmamzadə abidəsinin unikal tarixi mənbə, Gəncə şəhərinin tarixinin tədqiq edilməsində əvəzsiz bir inci olaraq əhəmiyyətini müəyyən edən xüsusiyyətləri sırasında Gəncə İmamzadə türbəsinin ətrafında ayrı-ayrı dövrlərdə ucaldılmış müxtəlif tikililərin, həmçinin kompleksin tərkibinə daxil olan sahəcə geniş bir məkanı əhatə edən qəbiristanlıqda yerləşən müxtəlif qəbir abidələri, sərdabə, türbələrin nəfis, göz oxşayan nəqqaşlıq, həkkaklıq, bədii oyma sənəti nümunələri qeyd olunmalıdır. Bundan əlavə, abidənin istər baş günbəzi, istərsə də ətrafda yerləşən günbəzlərinin xarici səthinin, yaxud üst hissəsinin keyfiyyətlə işlənməsi, əsas günbəzin üzərinin dəyərli kaşıkarlıq nümunələri hesab edilən göy, mavi kaşılarla, keramik məmulat örnəkləri ilə bəzədilməsi bu sənət sahələrinin Gəncədə inkişaf etdiyini göstərir. Əslində bu kaşıkarlıq nümunələri duluşçuluq, keramika sənətinin çox mühüm və nəfis ənənələrə malik olan mayolika sahəsinin tətbiq edildiyini, şəhərdə dulusçuların, həmçinin memarların yüksək peşəkarlığa malik olduqlarına dəlalət edir.

Təsadüfi deyildir ki, Gəncə şəhərində ayrı-ayrı sənətkarlıq sahələri ilə bağlı ayrıca müstəqil sənət inkişafı mərkəzləri rolunu oynamış məhəllələr mövcud olmuşdur. Bunların içərisində Dulusçular məhəlləsi də həm şəhərin ictimai, iqtisadi, mədəni həyatındakı əhəmiyyəti, həm də uzun müddət ərzində mövcud olması ilə fərqlənmişdir [43; 64; 206].

Gəncə İmamzadəsinin mühüm mənbə rolunu oynaya bilən sənətkarlıq sahələri içərisində xüsusi əhəmiyyətə malik olan həkkaklıq, nəqqaşlıq sənətləri də fərqlənir. Qeyd olunan sənət sahələri Gəncə İmamzadəsinin həm türbənin özünün daxili hissəsində,

həm də onun ətrafında olan tikililərdə müşahidə olunan elementləri ilə seçilir. Bundan əlavə, İmamzadə kompleksinin ərazisindəki ayrı-ayrı qəbirlərdə, həmçinin məzarüstü abidələrdə də bəhs edilən sənət sahələrinin dəyərli nümunələri qorunub saxlanılmışdır. Doğrudur, bir çox qəbirlər qədim adətlərə, islami ənənələrə uyğun olaraq tədricən itmiş, torpağa qarışmışdır. Bununla yanaşı, dövrümüzədək qorunub saxlanılmış bir sıra məzarların üzərindəki epitafiya nümunələri yalnız əhalinin axirət dünyasına olan inam, dini təsəvvürlərini əks etdirmir. Bu nümunələr həm də ayrı-ayrı tarixi dövrlərdə insanların sahib olduqları yüksək mənəvi-mədəni dəyərləri, əzizlərinə, əcdadlarına bəslədikləri sonsuz ehtiramlı münasibəti ifadə edir. Bu isə, öz növbəsində müasir dövrümüzdə dini mərasimlərimiz, yaxud məzar abidələrimizin inşa olunması zamanı yol verilən bəzi israfçılıq meyllərinin nə qədər yanlış olduğunu göstərir. Məzarları istər Gəncə İmamzadəsi ərazisində, istərsə də digər qəbiristanlıqlarıda olanlar özləri həyatda yaşayarkən (haqq dünyasına qovuşmazdan əvvəl) hər zaman xeyriyyəçiliklə məşğul olmuş, yersiz israfçılıqdan, dəbdəbədən kənar olmuş, övladlarına və əzizlərinə də bu keyfiyyətləri aşılamışlar. Məhz bunun nəticəsində də hər hansı şəxs vəfat edərkən Gəncə sakinləri zəruri olmayan mərasimlərə yol verməmiş, dəfn mərasimlərimizdə hədsiz təkəbbür mənbəyinə çevrilə bilən israfçı meyllərin qarşısını almış, dini dəyər və ənənələrimizə müvafiq şəkildə dəfn prosesi və ondan sonra keçirilən mərasimləri təşkil etmişlər. Bu da müasir dövrümüzdə yas mərasimlərimizdə bəzən müşahidə olunan mənfi, mahiyyəti etibarilə dinimizə, mili-mənəvi

dəyərlərimizə zidd olan ayrı-ayrı cəhətlərin islah edilməsi üçün zəruri mənbə rolunu oynayır.

VI. Gəncə İmamzadə abidəsi şəhərimizin qədim dövr tarixinin elmi cəhətdən tədqiq olunmasında həm də mühüm ziyarətgah kimi əhəmiyyət kəsb edir. Bizim eranın VIII əsrində imam övladı İbrahimin vəfatı ilə bağlı ucaldılan bu türbə tədricən şəhər və bütövlükdə beynəlxalq səviyyəli ziyarətgaha çevrilməyə başladı. Belə ki, müsəlman dünyasının müqəddəs şəxsiyyətlərindən hesab edilən beşinci imam Məhəmməd Bağırın (Baqirin) övladı olan şahzadə İbrahim milliyyətcə ərəb olmasına baxmayaraq, məhz hakimiyyət uğrunda mübarizədə islam dininə, onun qoruyucularına qarşı düşmənçilik edən eyni milli qövmlərin nümayəndələri tərəfindən təqib edilmişdir. Qardaşı İsmayıl ilə birgə İrana, sonra Bərdə və Gəncəyə pənah gətirmiş, lakin xəyanət nəticəsində düşmənləri tərəfindən ələ keçirilərək şəhid edilmişdir. Hicri tarixlə 120-ci ildə, miladi təqvimlə isə 739-740-cı illər arasında baş vermiş bu hadisədən sonra qədirbilən, hər zaman dini, milli-mənəvi və bütövlükdə ümumbəşəri dəyərlərə sadiqliyi ilə fərqlənən xalqımız, konkret halda isə gəncəlilər öz mərdliyi, qorxmazlığı sayəsində şahzadə İbrahimin xatirəsini əbədiləşdirmək məqsədilə onun məzarı üzərində bu müqəddəs abidəni ucaldırlar. İnsanlar da, öz növbəsində axın-axın gələrək bu əvəzsiz məkanı ziyarət edir və nəticədə zaman keçdikcə Gəncə İmamzadəsi islam dünyasının şöhrətli ziyarətgahlarından birinə çevrilir.

Gəncə İmamzadəsinin ziyarətgah olaraq tarixi mənbəşünaslıq əhəmiyyətini iki mühüm müddəa əsasında təsbit etmək mümkündür:

1. Gəncə İmamzadə kompleksinin ziyarətgah kimi tanınması təsadüfi xarakter daşımamışdır. Belə ki, şəhər artıq böyük bir tarixi müddət ərzində «İmam Hüseyn» şəhəri kimi tanınmışdır. Bu baxımdan da istər Gəncənin yerli əhalisi, istərsə də kənardan bu müqəddəs ziyarətgaha beş çəkməyə gələnlər Məhəmməd Peyğəmbər (ə.s.) nəslinin nümayəndələrinin adı ilə bağlı olan bu şəhərin toxunulmazlığı, müqəddəsliyini özləri üçün dönə-dönə təsdiq etmişlər.

Eyni zamanda, bu fakt öz-özlüyündə Gəncənin artıq islam dininin ilkin intişar tapdığı tarixi dövrlərdə, VII-VIII əsrlərdə özünün möhtəşəmliyi, qədim şəhər mədəniyyəti ünsürlərinə malik olması ilə fərqlənən böyük bir şəhər olduğunu sübuta yetirir. Həmçinin bəhs olunan faktoloji dəlil Gəncədə əhalinin çox əski tarixi mərhələlərə istinad edən etno-mental dəyərlərə, dini baxışlara sahib olduğunu, məhz bu səbəbdən də onların qeyd edilən milli, dini dəyərlərin mühafizə edilərək nəsildən-nəslə ötürülməsinə, irsən yaşadılmasına şərat yaratdıqlarını göstərir.

2. İmamzadə ziyarətgahı artıq böyük bir tarixi müddət ərzində islam dininin müqəddəs məkanlardan biri hesab edilir. Bununla yanaşı, İmamzadə ziyarətgahı ilə bağlı zəvvarların etiqad və imanı ilə əlaqədar yerli sakinlər arasında həm də qədim inancların bir sıra cəhətləri öz mövcudluğunu qoruyub saxlamışdır. Müəyyən zaman keçdikcə bu dəyərlər, inanc elementləri islami prinsip və məramlara uyğunlaşaraq müasir dövrümüzədək gəlib çatmışdır. Sadalanan məsələlər Gəncənin

müsəlman dünyasında çox əhəmiyyətli mövqeyə, nüfuza sahib olan şəhər, İmamzadə, çoxsaylı məscidlər kimi müqəddəs ibadətgahlara malik bir məkan olduğunu təsdiq edir. Bununla yanaşı, şəhərin hələ islam dininin, müsəlman mədəniyyətinin yaranmasından əvvəlki qədim dövrlərdə artıq formalaşaraq yüksək inkişaf səviyyəsinə çatdığını da nümayiş etdirmiş olur [11; 43; 64; 69; 118; 122; 124; 368].

Təsadüfi deyil ki, bir sıra bölgələrimizdən fərqli olaraq Gəncədə nəinki müasir dövrümüzdə, hətta qədim dövrlərdən etibarən bəzi saxtakar şəxslərin seyid ocaqları adı ilə din pərdəsi altında əhalinin var-dövlətini talan edilməsi, insanlardan pul toplamasına imkan verilməmişdir. Bunun səbəbləri içərisində şəhərin sayılıb-seçilən, xüsusi nüfuz, ehtiram sahibi olan həqiqi seyid nəsillərinin nümayəndələrinin insanların maddi vəsaitlərini mənimsəməklə deyil, əksinə, ehtiyacı olan şəxslərə təmənnasız surətdə yardım edilməsi, əlillər, valideyn himayəsindən məhrum olan yaxud kimsəsiz uşaqların ehtiyaclarını ödəməklə əsl insanlıq, mesenatçılıq nümunəsi göstərmələri qeyd oluna bilər. Şübhəsiz ki, Gəncədə əhalinin intellektual səviyyəsinin, mədəni dünyagörüşünün yüksək olması, şəhərin ziyalıları, ağsaqqallarının mövqeyinə ehtiramla yanaşması da bu baxımdan xüsusi əhəmiyyət kəsb etmişdir.

Bu məqamda Gəncə İmamzadəsi ilə bağlı bir fakt qeyd olunmalıdır ki, 1930-cu ildə keçmiş SSRİ ərazisində bütün dini ibadətgahların fəaliyyəti rəsmi surətdə qadağan olunmuşdur. Yalnız Gəncə

İmamzadəsinin əsrlər əvvəl olduğu kimi, yenə insanlar ziyarət edirdilər.

Qeyd etmək lazımdır ki, 1944-cü ildə SSRİ Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə ziyarətgahların fəaliyyətinə icazə verilmişdir.

Eyni zamanda, Gəncə şəhərində dini maarifçiliyin, hər zaman düzgün təbliğatın aparılması, əhalinin məscidlərə, ziyarətgahlara səmimi, saf niyyətlə qulluq etməsi, xüsusilə də İmamzadə ziyarətgahı kimi müqəddəs məkanlara bütpərəstlik mənbəyi kimi deyil, ilahi nurun bol surətdə paylandığı ibadətgahlar kimi yanaşılması da bu mənada ayrıca qeyd olunmalıdır.

## 2. Gəncə İmamzadəsinin yaranma tarixinə dair

Şərqin qədim şəhər mədəniyyəti mərkəzlərindən biri kimi tanınan Gəncədə tarixin canlı şahidləri olan abidələr kifayət qədərdir. Doğrudur, özünün olduqca əlverişli coğrafi-strateji mövqeyi, zəngin sərvətləri, münbit təbii şəraiti üzündən tarix boyu yadelli qəsbkarların, əcnəbi müdaxiləçi qüvvələrin diqqətini cəlb edən və bu səbəbdən də çoxsaylı hücumlara məruz qalmış bu əvəzsiz şəhərdə bir sıra abidələr, maddi-mədəniyyət nümunələri zaman-zaman məhv edilmiş, yer üzündən silinmişdir. Bununla belə, hər zaman özlərinin mərdliyi, əyilməzliyi, azadlıq ideyalarına sadiqliyi, təəssübkeşliyi ilə fərqlənmiş gəncəlilər yağı düşmənlərlə sona qədər mübarizə aparmış, bununla xalqımızın qəhrəmanlıq tarixinin bir çox şanlı səhifələrinə özlərinin vətənpərvər əməlləri ilə əbədi olaraq adlarını həkk etdirmişlər.

Azərbaycanın dilbər guşəsi olan Gəncədə şəhərin qürur, iftixar mənbəyi olan inciləri sırasında İmamzadə abidəsi özünün xüsusi əhəmiyyəti ilə fərqlənir. Şəhərimizin simvollarından birinə çevrilmiş bu dəyərli tarixi abidə bütövlükdə müsəlman Şərqinin görkəmli məkanlarından, ziyarətgahlarından hesab edilir. Gəncə İmamzadə türbəsinin yaranması, onun ilkin inşa edilməsi, sonrakı tarixi mərhələlərdə təmir və bərpa etdirilməsi, ətrafında yeni-yeni tikililərin ucaldılması, abidənin ətrafında qəbiristanlığın genişlənməsi prosesi onun bu gün möhtəşəm kompleksə çevrilməsinə şərait yaratmışdır [8, s.4-5; 64, s.5; 122, s.94; 146, s.50-51].

Gəncə İmamzadə türbəsinin inşa olunması tarixi bizim eranın VIII əsrinə təsadüf edir. Müsəlman

dünyasının müqəddəs şəxsiyyətlərindən biri hesab edilən beşinci şiə imamı Məhəmməd Bağırın (Baqirin) övladları bəhs edilən dövrdə peyğəmbər (ə.s.) nəslinin nümayəndələrinə qarşı amansız təqiblər həyata keçirən Əməvilər xilafəti (661-750) rəhbər dairələrinin bədnam əməllərindən can qurtarmaq üçün İrana , Azərbaycanın şəhərlərinə üz tutmuşlar. Bunlardan iki qardaş şahzadə İbrahim və İsmayıl Bərdəyə, Gəncəyə üz tutmuş, lakin bir müddət sonra düşmənləri onları tapmış və qətlə yetirmişlər [104, s.226; 159; 241; 339; 349].

Şahzadə İsmayılın vəfatından sonra Bərdədə İmamzadə ucaldıldığı kimi (Bərdə İmamzadə məscidi), Gəncədə də şahzadə İbrahimin şəhadətə yetməsindən sonra onun məzarı üzərində türbə inşa edilmişdir. Gəncə İmamzadə abidəsinin daxili hissəsində, iç divarından aşkar olunmuş epiqrafik nümunə – kitabədə bu məsələ ilə bağlı mühüm tarixi fakt əks olunmuşdur. Görkəmli tarixçi-tədqiqatçılar, mərhum arxeoloq, Gəncənin tanınmış alimi İsaq Cəfərzadə, həmçinin epiqrafika sahəsində ölkəmizin görkəmli alimi, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Məşədixanım Nemət tərəfindən tədqiq olunmuş bu yazı aşağıdakı kimi oxunmuşdur:

«O, Allah əbədidir. Bu, İmam Məhəmməd Bağırın – ona salam olsun – oğlu mövlana İbrahimin müqəddəs məkanı (yerləşmiş) şərəfli (cənnət) bağıdır. Öz babasının köçməsindən 120 il sonra vəfat etmişdir – Allahın ona salavatı olsun» [104, s.227; 122, s.93-95].

Qeyd etmək lazımdır ki, haqqında bəhs edilən bu kitabə İmamzadə türbəsinin birinci mərtəbəsində, abidənin iç divarına hörülmüş kiçik mərmər lövhədən ibarət olmuşdur. Kitabədəki yazılar ərəbcədir. Burada əks

olunmuş dəqiq xronoloji göstərici hicri tarixlə 120-ci ildir. Miladi təqvimdə qeyd olunan tarix 739-740-cı illərə təsadüf edir. Məhz bu baxımdan Gəncə İmamzadə türbəsinin ilkin inşa olunma tarixi şahzadə İbrahimin vəfat etdiyi dövrlə bağlıdır və abidə haqlı olaraq erkən orta əsrlər dövrünün ən dəyərli memarlıq incilərindən biri hesab edilir.

Bu məqamda bir faktı xüsusi vurğulamaq zəruridir ki, Gəncə İmamzadə türbəsinin bəhs olunan dövrdə olmuş görkəmi müasir xarici görünüşü kimi möhtəşəm deyildi. Yalnız müəyyən müddət sonra Gəncə İmamzadəsinin yenidən bərpası, ətrafında abadlaşdırma, yenidənqurma tədbirlərinin həyata keçirilməsi nəticəsində abidə böyük bir kompleksə çevrilməyə başladı.

Şübhəsiz ki, Gəncə İmamzadəsinin yaranma tarixi haqqında bəhs edərkən, ilk növbədə bu istilahın mənası, ifadə etdiyi məzmununa nəzər salmaq zəruridir. İmamzadə sözünün əksər ədəbiyyatlardakı izahı onun «İmam oğlu» mənasını ifadə etməsi kimi göstərilir. İmamzadənin imam oğlunun dəfn edildiyi məkana şamil olunması fikri əsas götürülür [104; 146].

Çox güman ki, bir çox ədəbiyyatlarda qeyd edilən fikrin birmənalı şəkildə əks etdirilməsi Gəncə İmamzadəsində məhz imamın oğlunun dəfn edilməsi faktı ilə əlaqədardır. Eyni zamanda, Bərdə, Naxçıvan, Şamaxı kimi bölgələrimizdə də mövcud olmuş imamzadə abidələrinin məhz imam oğlunun vəfat etməsi (şəhid olması) və bundan sonra onun məzarı üzərində inşa edilməsinin də bu baxışların tarixi, elmi ədəbiyyatlarda, bir sıra mənbələrdə qeyd edilməsinə səbəb olduğu inandırıcıdır.

Lakin bu anlayışın yalnız hərfi tərcüməsi və ilk baxışda diqqəti cəlb edən, daha anlaşıqlı və aydın görünən mənaları ilə yanaşı, imamzadə abidələrinin mənəvi dəyəri, islami prinsiplərlə birbaşa bağlılığı nəzərə alındıqda bir qədər fərqli məqamlar üzə çıxmış olur. Müsəlmanların öz övladlarına onların cinsi mənsubiyyəti baxımından fərq qoymamalı, oğul övladı ilə yanaşı qız övladına da eyni diqqət və qayğı ilə yanaşmalı olduğu məlumdur. İslam dünyasının bu məsələ ilə yanaşı, bütün digər məramlarını saf niyyətlə, sədaqətlə yerinə yetirməkdə, bütövlükdə bəşəriyyətə örnək, nümunə olan imamların xüsusilə yalnız öz oğullarını varis hesab etmələri, xalqların da birtərəfli şəkildə imamzadə abidələrini yalnız müsəlman kişilər (imam oğulları) üçün inşa etdirərək mühafizəsinə əhəmiyyət vermələri ilə bağlı baxışlar həqiqəti əks etdirmir. Həmçinin, tarixi faktlar, bir sıra maddi mədəniyyət nümunələri də «İmamzadə» anlayışının imam oğlu ilə yanaşı, imamların qızlarının da xatirəsinə ucaldılmış (məzarları üzərində inşa edilmiş) abidələrə şamil olunmasının düzgünlüyünü təsbit edir.

Azərbaycanda, Abşeron ərazisində mövcud olan bir neçə ziyarətgah məhz imam övladlarına fərq qoyulmadan xatirələrinə eyni cür ehtiram, inamın olduğuna dəlalət edir. Həzrəti Leyla xanım, Hökümə (Həkimə) xanım və Rəhimə xanımın adları bu baxımdan xüsusi əhəmiyyətə malikdir.

Adları sadalanan xanımlar islam tarixinin görkəmli şəxsiyyətlərindən biri olan yeddinci imam Həzrəti Museyi Kazımın qızlarıdır. Onların Abbasilər xilafəti dövründə (750-1258) qəddar, zülmkar siyasəti ilə fərqlənmiş xəlifə Harun ər-Rəşidin oğlu xəlifə Məmunun təqiblərindən qaçaraq ölkəmizə pənah gətirdikləri

məlumdur. Qeyd etmək lazımdır ki, bu üç imam övladı olan xanı həm də imam Rzanın bacılarıdır. Onların hər üçü indiki Abşeron ərazisində, Bakı kəndlərində dəfn edilmişlər. Belə ki, Leyla xanım bizim eranın IX əsrində (824-825-ci illərdə) xəlifə Məmunun zülmündən qurtulmaq üçün Bakının Bilgəh kəndinə gəlmişdir. Burada yaşamış, ailə qurmuş Leyla xanımın vəfatından sonra da sülhsevər, humanist, milli və dini dəyərlərə sədaqətlə yanaşan xalqımız onun məzarını göz bəbəyi tək qorumuş, zaman keçdikcə burada abidə ucaltmışdır [156, s.25-57].

Rəhimə xanım isə bəhs olunan tarixi keşməkeşli dövrdə Bakının indiki Nardaran kəndinə gəlmişdir. Burada firavan həyat sürmüş Rəhimə xanım vəfat etdikdən sonra da yerli əhali sağlığında olduğu kimi onun xatirəsinə xüsusi ehtiramla yanaşmışlar. Tədricən Rəhimə xanımın Nardaran kəndində yerləşən bu məzarı üzərində türbə inşa olunmuşdur. Memarlıq-konstruktiv quruluşuna görə türbə binası XII-XIII əsrə aid abidə kimi qəbul edilmişdir. Türbəyə bitişik olan və düzbucaqlı plana malik məscidin qapısı üzərində bütöv bir əhəng daşına iri süls elementli nəsx xətti ilə yazılmış ərəbcə kitabənin tərcüməsi belədir:

«Bu mübarək məscidin, Allahın salavatına yetişəcək evin bina olunmasına, iki müqəddəs məkanın, hacıların seçilmişi, dövrün yeganəsi, böyük sədr Xacə Hacı Həmzə ibn Qutlu Mahmud Şahabadi – Allah onun müvəffəqiyyətini əbədi etsin - yeddi yüz altmış beşinci ildə əmr etmişdir» [122, s.31; 156, s.32-33].

Bu qeyd edilən tarix miladi təqvimlə 1363-1364-cü illərə təsadüf edir. Xalq arasında abidə «Nardaran piri» adlandırılır.

Nəhayət, Hökümə xanıma gəldikdə isə, qeyd etmək lazımdır ki, bu şəxsiyyətin məzarı üzərində məşhur Şıx kəndindəki Bibiheybət ziyarətgahı ucaldılmışdır. Bu ziyarətgahın adı ilə bağlı maraqlı bir tarixçə mövcuddur. Belə ki, Hacı Bədir adlı bir şəxs ömrünün sonuna qədər Hökümə xanımın, ailəsinin xidmətində olmuşdur. Hacı Bədir düşmənlərin xəbər tutmaması üçün Hökümə xanıma sadəcə «Bibi» deyə müraciət edər, adını xüsusi olaraq çəkməzdi. Nəticədə, əlifba sözü kimi Hacı Bədirin adı da iki hərf («hey» (h) və «bə» (b) hərflərinin birləşməsi olaraq «Heybət» şəklində işlənmişdir. Bu səbəbdən də Hökümə xanıma məhz «Bibiheybət» - Heybətin bibisi deyə əksər hallarda müraciət edərmişlər.

Bibiheybət məscidinin inşasına gəldikdə isə, bu abidə XII əsrdə Şirvanşah II Fərruxzad tərəfindən tikilmişdir. Məscidin divarında olan kitabədən bir çox tədqiqatçılar, o cümlədən A.A.Bakıxanov, P.İ.Berezin, B.Dori və N.Xanıkov öz əsərlərində bəhs etmişlər. Qeyd edilən kitabədə məscidin 1281-1282-ci illərdə II Fərruxzadın göstərişi ilə memar Mahmud ibn Sədi tərəfindən inşa edilməsi faktı öz əksini tapmışdır:

«Bu məscidi tikməyi əzəmətli Məlik, böyük sultan, dövlətin və dinin qoruyucusu, möminlər əmirinin köməkçisi əbu-l-Fəth Fərruxzad ibn Əhsitan (Axsitan) özünə rəva görmüşdür. Allah onun hakimiyyətini ucaltsın» [122, s.34-35; 156, s.43].

Qeyd etmək lazımdır ki, bəhs olunan mətn Xanəgah məscidinin mehrabındakı kitabədə aşkar edilmiş yazılı mətnlə eynidir.

Beləliklə, İmamzadə istilahının düzgünlüyü, tolerantlığı təbliğ edən islam dininin ən mühüm prinsiplərindən hesab edilən bərabərlik ideyasını tam

dürüstlüyü ilə ifadə etməsi şübhə doğurmur. Bununla yanaşı, Gəncə İmamzadəsi ilə bərabər, digər oxşar abidələrin, ziyarətgahların tarixinə nəzər saldıqda birbaşa «İmamzadə» istilahının məhz imam övladları içərisində bu müqəddəs, pak və yüksək məsuliyyətli adı, rütbəni daşıyan və sonradan imam adlandırılan oğulların məzarüstü abidələrinə şamil edildiyi üzə çıxır.

Misal olaraq Gəncə İmamzadəsi ilə bərabər, Bərdə, Bülbülə, Naxçıvan imamzadələrini göstərmək mümkündür. Belə ki, bu ziyarətgahlar məhz imam nəslinin davamçıları hesab edilən şahzadə İbrahim, Məhəmməd Sadiq, şahzadə İsmayıl kimi imam oğullarının şərəfinə ucaldılmışdır. Ümumiyyətlə, «İmam» kəlməsi ərəb dilindən tərcümədə rəhbər, başçı mənalarını ifadə edir. İslam dünyasında Məhəmməd Peyğəmbərdən (s.) sonra dini rəhbər funksiyalarını yerinə yetirən və məhz bu müqəddəs şəxsiyyətin nəslindən olan şəxslər imam olaraq adlandırılmışlar. Müsəlman aləmində 12 şəxs bu yüksək, pak mənsəbə sahib olmuş və nəticədə 12 imam tarixdə qalmışdır [43; 64; 159; 162; 169; 334; 343; 351].

Gəncə İmamzadəsinin yaranma tarixinin məhz erkən orta əsrlər mərhələsi ilə bağlı olmasının sübutu qismində çıxış edən mühüm göstəricilər sırasında bu abidənin müqəddəs ziyarətgah kimi tanınması qeyd edilməlidir. Belə ki, Gəncə kimi əski tarixi mərhələlərdən qaynaqlanan zəngin milli, mənəvi, dini dəyərlərə sahib olan mədəniyyət mərkəzində çağdaş dövrlərin yeni cəhətləri ictimai, sosial, mənəvi həyatın müxtəlif sahələrinə sirayət etsə də, qədim, mütərəqqi ənənələr, adətlərin tam sıradan çıxmasına yaxud müəyyən qüvvələr tərəfindən sıradan çıxarılmasına yol verilməməsi

danılmazdır. Bu cəhət dini ziyarətgahlarımızla bağlı olaraq özünü açıq surətdə büruzə vermişdir. Nəticədə isə Gəncədə islami dəyərlərə uyğun dini, mənəvi ənənələrin qorunması, zəvvarların ziyarətgahlara baş çəkdiyi müddətdə müvafiq qayda, ayinlərə riayət etmələri ilə əlaqədar artıq müəyyən sistemlilik, qanunauyğunluq formalaşmış və əhalinin hafizəsində möhkəm kök salmışdır. Bu faktın əhəmiyyəti çox böyükdür. Çünki insanların müxtəlif ziyarətgahları – imamzadələri, pirləri, ocaqları, türbələri ziyarət edərkən kor-koranə müəyyən maddi vəsaitləri xərcləyərək mənəvi rahatlıq duymaları dini dəyərlərimizə heç də müvafiq deyildir. Daha doğrusu, sosial mövqeyi, ictimai vəziyyəti, dünyagörüşü, cəmiyyətdə sahib olduğu vəzifəsindən asılı olmayaraq hər bir insanın bu cür ziyarətgahlara gəldiyi məqamda ən əsası maddi deyil, mənəvi cəhətdən qarşılıqlı rahatlıq, mənəvi kamilləşmə ideyasını duya bilməsini lazımi səviyyədə dərk etməsi vacibdir. Burada yalnız uca yaradana, ilahi dərgaha sonsuz inamın məkanı olaraq ziyarətgahın qəbul edilməsi çox əhəmiyyətlidir. Ziyarətgahların yanlış olaraq bütpərəstlik məkanları kimi qələmə verilməsinin qarşısını almaq üçün məhz bəhs olunan prinsiplərin geniş miqyaslı, planlı, düzgün dini maarifləndirmə yolu vasitəsilə əhaliyə aşılanması olduqca mühümdür.

Ümumiyyətlə, ziyarətgah ərəb dilində işlənən «ziyarət» sözündən yaranmışdır. Bu anlayışın məzmunu peyğəmbərlərin, övliyaların, şeyxlərin məzarlarına baş çəkmək adəti mənasını ifadə edir. İslam dinində monoteist (təkallahlılıq) xarakterli əsas prinsiplərin sırasında ziyarətgahların Tanrı dərgahına ünvanlanan diləklərin söylənildiyi məkanlar kimi qəbul edilməsi

məsələsi əhəmiyyətli hesab olunur. Belə ki, ziyarətgahlar, eyni zamanda dini ibadətgahlar bütpərəstlik nümunəsi deyil, ilahi nurun daha çox mövcud olduğu yerlər kimi qəbul edilir. Çünki bu cür məkanlarda bütün mənfi əməllərdən, bəd niyyətlərdən uzaqlaşaraq dualar edən insanlar müsbət auraları ilə belə nurlu, işıqlı, pak mühitin formalaşmasına şərait yaradırlar. Qəlbində Allaha diləyi olan mömin insanlar ziyarətgahlara baş çəkməyi özlərinə mənəvi bir borc hesab edirlər. Həqiqətən də bu cür məkanlarda insanın sirr saxlayıb, heç kəsə deyə bilmədiyi kəlmələr dilə gəlir. Ziyarətgahların bir çox mühüm xüsusiyyətləri sırasında insanların burada mənəvi cəhətdən saflaşmağa gəlməyi, həmrəylik nümayiş etdirmələri, bir-birinə saf niyyətlə arzularının, diləklərinin həyata keçməsi ilə dualar etmələrini təqdirəlayiq hal kimi dəyərləndirmək lazımdır.

Heç şübhəsiz, Gəncə İmamzadəsi də islam dünyasının mühüm ziyarətgahlarından biri kimi fərqlənir. Burada bir çox dini mərasimlərin keçirilməsi, müxtəlif bölgələrdən olan insanların bu müqəddəs ziyarətgaha ardıcıl surətdə gəlməyi həm də bir həmrəylik nümunəsi hesab edilməlidir. Amma bir məsələni xüsusi qeyd etmək lazımdır ki, Gəncə İmamzadəsində hər ildə həyata keçirilən, çoxsaylı zəvvarların iştirak etdiyi Aşura mərasiminin, daha doğrusu, Kərbəla faciəsinin ildönümünün qeyd olunması zamanı dinimizin müvafiq göstəricilərinə heç də uyğun gəlməyən, zəncirlə bədən hissələrinə xəsarət yetirmə, əzalardan qan çıxarılması kimi təqdir edilməyən məqamlar müəyyən vaxtlarda icra edilmişdir. Sevindirici haldır ki, tarixən olduğu kimi bu günlərdə də yuxarıda qeyd olunan mənfi və əsassız «ayinlərin» həyata keçirilməsi müşahidə olunmur. Bu isə,

öz növbəsində ölkədə hökm sürən siyasi sabitliyin sayəsində son illər ərzində şəhərimizdə də ayrı-ayrı xarici missioner qurumların, mənfi təbliğat aparan şəxslərin fəaliyyətinin qarşısının alınması, həmçinin əhali arasında aparılmış düzgün ictimai, dini maarifləndirmə tədbirlərinin nəticəsində mümkün olmuşdur. Şəhər rəhbərliyinin sakinlərin dini, mənəvi heysiyyətinə böyük ehtiram nümayiş etdirməsi, görkəmli ziyalıların, elm, mədəniyyət, din xadimlərinin iştirakı ilə müvafiq müzakirələr həyata keçirməsi, əhalinin ibadətinə tam demokratik şərait yaratması sayəsində insanlar da maariflənərək bu cür dini mərasimlərdə özünə əsassız olaraq fiziki əzab verməklə deyil, irsi qan xəstəliklərindən əziyyət çəkən şəxslərə, xüsusilə də körpə uşaqlara könüllü surətdə donorluq edərək qan verməklə islami dəyərlərə, İmam Hüseyn və digər Kərbəla şəhidlərinin xatirəsinə ehtiram və sədaqətlilik nümayiş etdirməyi daha üstün tuturlar.

Gəncə İmamzadə abidəsini səciyyələndirərkən bir neçə mühüm məqama xüsusi olaraq diqqət yetirmək lazımdır:

1. Gəncə İmamzadəsi çox müqəddəs, əsrlərin sınağından çıxmış, insanların inanc mərkəzinə çevrilmiş bir ziyarətgahdır. Onun yalnız ölkə, region miqyasında deyil, bütövlükdə islam dünyasında əhəmiyyətli mövqeyi mövcuddur. Bunu həm ziyarətgaha gələn zəvvarların sayı, həm də onların təmsilçiləri olduqları ərazilərin, bölgələrin coğrafi arealının genişliyi sübuta yetirir. Bundan əlavə, Gəncə İmamzadəsinin ziyarətgah kimi əhəmiyyətini şərtləndirən xüsusiyyətləri sırasında bu məkanın qədim, zəngin tarixi dəyərlərə, ənənələrə sahib olması, hələ çox əski dövrlərdən etibarən həqiqi pak ocaq

kimi ehtiyacı olan bütün şəxslərə, ələlxüsus kimsəsizlərə, valideyn himayəsindən məhrum olmuş körpələrə, əlil və fiziki qüsurlu insanlara istər maddi, istərsə də mənəvi yardım göstərməsini qeyd etmək mümkündür. Bu məqamda bir mühüm tarixi faktı xüsusi olaraq vurğulamağa ehtiyac vardır. Məlum olduğu kimi, keçmiş Sovetlər dönəmində yalnız dini dəyərlərimizə qarşı deyil, bütövlükdə tariximizə qarşı güclü buxovlar, saxtalıqlarla dolu təcavüzlər həyata keçirilir, yanlış istiqamətli təbliğatlar aparılırdı. Müqəddəs Gəncə İmamzadəsi, onun tarixi keçmişi də bu tədbirlərdən kənara qala bilməmişdir. Belə ki, xalqımızın, dövlətçiliyimizin tarixində şanlı əməlləri ilə əbədi möhürünü vurmuş «Difai» partiyası və onun təəsübkeş, vətənpərvər ziyalılarının da saf, ədalətli fəaliyyətlərini ləkələmək istiqamətində uzun müddət saxta təbliğatlar aparılmış, onlar geniş əhali kütlələrinə, hətta elmi ictimaiyyətə də terrorçu qüvvələrin təmsilçiləri kimi təqdim olunmuşdular. Amma bir faktı qeyd etmək kifayətdir ki, 1914-cü ildə Ramazan bayramı vaxtı İmamzadəyə toplanmış fitrə pulları Gəncənin görkəmli ziyalılarının, «Difai» partiyasının fəal, aparıcı üzvlərinin təşəbbüsü, Şeyx Məhəmməd Pişnamazzadənin fətvasına əsasən, erməni zülmündən can qurtarmaq üçün Qars, Ərdəhan və Ərzurumdan qaçaraq Azərbaycana pənah gətirmiş Türkiyəli didərginlərə verilmişdi [145; 158].

Ümumiyyətlə, bolşevik çevrilişinə qədər Gəncə İmamzadə ziyarətgahında toplanan maddi vəsait hər zaman yalnız millətimizin mənafeyinə xərclənmişdir.

Bu mənada bir daha «Difai» partiyası, onun üzvlərinin fəaliyyətini xüsusilə vurğulamaq lazımdır. Eyni zamanda, partiyanın milli müqavimət və mübarizə

fəaliyyətində də Gəncə İmamzadəsinin mühüm rolunun olması danılmazdır. Şəhərin Ələkbər bəy Rəfibəyli, Şeyx Məhəmməd Pişnamazzadə, Adil (Ədil) xan Ziyadxanlı (Ziyadxanov), Xəlil bəy Xasməmmədov, Əhməd Cavad kimi ziyalıları özlərinin şəxsi maddi vəsaitləri ilə yanaşı, Gəncə İmamzadə ziyarətgahında toplanan pulları da yalnız xeyriyyəçilik tədbirlərinə, milli mesenatçılıq fəaliyyətinin intişar etməsinə sərf etmişlər. Belə ki, bu dəyərli ziyalılarımız qeyd edilən vəsaitləri məhz milli maarifçiliyin inkişaf etməsinə, müharibələr nəticəsində, eyni zamanda erməni xəyanətkarlığı və vandalizmi ucbatından evsiz-eşiksiz qalmış, son ümid yerləri olan Azərbaycana gəlmiş türk, bütövlükdə isə müsəlman məcburi köçkünlərə, qaçqınlara yönəltmişlər [9; 104; 122; 145].

Hətta Əhməd Cavad və yuxarıda adları qeyd olunan görkəmli şəxsiyyətlərimizin türk, müsəlman didərgin qardaş və bacılarına İmamzadədən toplanmış vəsaitlərlə yardım edərkən bütün Gəncə şəhəri sakinlərindən halallıq xahişi ilə müraciət etmələri bir daha xalqımızın alicənablığının, xeyirxahlığının sübutu qismində çıxış edir. Həmçinin, «Difai» partiyasının yalnız milli məramları mühafizə etmək, erməni zülmünün qarşısını almaq, günahsız, əliyalın insanları erməni terrorundan xilas etmək və qorumaq məqsədlərini daşıması faktı da təsbit edilmiş olur.

Çox təqdirəlayiq haldır ki, müstəqillik əldə etmiş ölkəmizdə artıq milli istiqlal tariximizin obyektiv surətdə tədqiq edilməsinə hərtərəfli şərait yaradılmışdır. Bunun sayəsində bir sıra tarixçi mütəxəssislər tərəfindən vətən tariximizin çox mühüm mərhələləri təfsilatı ilə araşdırılır, bir çox həqiqətlərin üzə çıxarılmasına nail olunur.

«Difai» partiyası, onun fəaliyyətinin sıx surətdə bağlı olduğu Gəncə şəhəri ilə əlaqədar mühüm faktların aşkar edilməsi sahəsində son dövrlərdə dəyərli işlər həyata keçirilmiş, ayrı-ayrı əsərlər dərc olunmuşdur.

2. Gəncə İmamzadə ziyarətgahının səciyyələndirilməsi zamanı mühüm əhəmiyyət kəsb edən digər bir xüsusiyyəti onun qədim tarixi keçmişə malik dəyərli memarlıq nümunəsi, tarixi-epiqrafik abidə olmasıdır. Belə ki, Gəncə İmamzadə kompleksinin yaranma tarixi haqqında bəhs edərkən onun mənəvi dəyəri, məziyyətləri ilə bağlı əsas məqamlara toxunuldu. Bununla yanaşı, heç bir maddi göstəricisi olmayan məkanın insanlar tərəfindən müqəddəs yer olaraq qəbul edilməsi, uzun müddət ərzində zəvvarların oranı ziyarət etməsi qeyri-mümkün bir haldır. Odur ki, Gəncə İmamzadəsinin ilkin formalaşma tarixinin tədqiq olunmasında onun məhz maddi göstəricilərinin araşdırılmasının, türbə kimi yaranmasının səbəblərinin müəyyən edilməsi, zaman keçdikcə onun ətrafında digər əlavə tikililərin inşa olunması məsələlərinə xüsusi diqqət yetirilməsi zəruridir. Bu baxımdan Gəncə İmamzadə ziyarətgahının bütöv bir kompleksə çevrilməsinin tarixi köklərinin öyrənilməsi çox böyük əhəmiyyət kəsb edir.

Dəyərli tarixi abidə olan Gəncə İmamzadəsi imam övladının türbəsidir. Düzbucaqlı formaya malik olan türbə kompleksi hər şeydən əvvəl xalqımızın memarlıq ənənələrinin zənginliyi və qədimliyi, sənətkarlıq sahələrində əldə etdiyi yüksək nailiyyətləri elmi nöqteyi-nəzərdən tədqiq etmək sahəsində mühüm tarixi mənbə rolunda çıxış edir. İmamzadənin istər memarlıq quruluşu, istərsə də yaranması tarixi ilə bağlı xalq arasında böyük bir zaman keçməsinə baxmayaraq,

əsrlərlə qorunub yaddaşlara həkk olunmuş bir rəvayətdə maraqlı məqamları qeyd etmək lazımdır. Tarixi həqiqətlərdən uzaq olmayan bu rəvayət insanların arasında şifahi şəkildə mövcud olmaqla yanaşı, bəzi yazılı əsərlərdə də öz əksini tapmışdır [146, s.47-49].

Bəhs edilən rəvayətdə islam dünyasının görkəmli şəxsiyyətlərindən, övliyalarından biri olmuş beşinci imam Məhəmməd Bağırın oğlu şahzadə İbrahimin özünün kiçik qardaşı İsmayıl ilə birgə İrandan Azərbaycana pənah gətirdiyi qeyd edilmişdir. Onların Azərbaycan ərazisinə gələrək öz yurdlarında baş verən qan davalarından, hakimiyyət uğrunda aparılan amansız çəkişmələrdən canlarını qurtardıqları məlumdur. Beləliklə, hər iki qardaş Bərdədə məskunlaşmış, bu ərazinin hökmdarının himayəsində yaşamışlar. Amma bir müddət sonra imam övladlarının sağ qaldığından xəbərdar olan düşmənləri duyuq düşüb Bərdəyə gəlmişlər. Onlar Bərdə hökmdarından qardaşları təhvil verməyi tələb etmişlər. Bu zaman  çöldə işləyən şahzadə İbrahim düşmənlərinin bu əraziyə gəldiklərini bilərək Bərdədən getmişdir. O, rəvayətdə qeyd olunduğuna görə, Gəncəbasarın çox nüfuzlu, hörmət sahibi olan bir feodalının – Əhməd bəyin yanına gəlmişdir. Əhməd bəyin isə indiki Goranboy rayonunun Əhmədbəyli kəndində yaşadığı bildirilir.

Əhməd bəy, öz növbəsində imam övladına münasibətdə böyük diqqət və qayğı ilə yanaşmışdır. Hətta onun təhlükəsizliyi üçün gündüz vaxtı kəndin yaxınlığında yerləşən meşədə gəzib dolanmasına, axşamlar isə artıq evdə gecələməsinə razılıq vermişdir. Lakin bir dəfə şahzadə çox gəzib dolandıqdan sonra yorulub, meşənin içərisindən keçib Əhmədbəyli kəndinə

doğru axan çayın yaxınlığında uzanmış və yuxuya getmişdir. Bundan istifadə etmiş Əhməd bəyin düşmənləri onun nüfuzuna xələl gətirmək məqsədilə himayəsinə götürdüyü imam övladı – mövlana İbrahimi qətlə yetirmişlər. Bundan xəbər tutan Əhməd bəy isə şahzadəni öz adına layiq şəkildə, xüsusi dəbdəbə ilə qədim Alban türk abidələrinin xarabalıqları yanında dəfn etdirmişdir. Onun qəbir abidəsinin ucaldılmasına xüsusi diqqət yetirmişdir. Lakin bu qəbir sonradan qərib qəbir kimi tanınmış «Qərib İmamzadə» adı ilə şöhrətlənmişdir [104, s.227; 146, s.48-49].

Haqqında bəhs olunan rəvayətdə müəyyən tarixi məqamların əks etdirilməsi şübhə doğurmasa da, lakin bir çox təhriflərə məruz qalmış məlumatların olması diqqəti cəlb edir. Çox güman ki, bunun əsas səbəbi rəvayətin bağlı olduğu hadisələrin erkən orta əsrlər dövrü – VIII əsrdə cərəyan etməsi, əsrlər ötdükcə insanlar arasında şifahi surətdə yayılan məlumatların müəyyən fərdi dəyişikliklərə uğraması olmuşdur.

Daha dəqiq desək, rəvayətdə şahzadə İbrahimin çox qədim tarixi dövrlərdən etibarən mühüm mədəni, iqtisadi, siyasi mərkəz kimi şöhrət tapmış Gəncə ərazisində (Köhnə Gəncə ərazisində) dəfn olunduğuna baxmayaraq, bu əvəzsiz şəhər haqqında birbaşa məlumatlar öz əksini tapmamışdır. Halbuki, əsrlərlə, Gəncə İmamzadəsi yalnız buranın tarixini yaşatmış və, Gəncənin möhtəşəm abidəsi kimi tanınmışdır. Bundan əlavə, bu mühüm ziyarətgahın məhz Gəncə şəhəri ilə bağlı olduğunu, onun ərazisində ucaldıldığını, gəncəlilərin bu müqəddəs məkanı doğma ocaqları olaraq yaşatmalarını və belə pak ənənəni nəsildən-nəslə irsən ötürdüklərini sübuta yetirən kifayət qədər maddi və

mənəvi göstəricilər mövcuddur. Gəncədə ən müqəddəs, sayılan və inanclarlabağlı olan andların sırasında «İmamzadə haqqı» ifadəsinin əsrlər boyu insanlar arasında yaşadılması da bu baxımdan mühüm mənbə rolunu oynayır.

Bundan əlavə, bəhs olunan dövrdə Gəncədə istər antik tarixi mərhələlərdə, istərsə də sonrakı dövrlərdə olduğu kimi, milli və dini dəyərlərə sədaqət çox yüksək səviyyədə idi. Eyni zamanda tolerantlığı, sülhpərvər münasibəti ilə fərqlənən Gəncəyə imam övladı, şahzadə İbrahimin gəlməməsinə dair məlumatlar heç vaxt inandırıcı ola bilməz. Bu məsələni ən azı şəhərdə İmamzadəyə olan sonsuz ehtiram, insanların inamı, əsrlər boyu ardıcıl olaraq zəvvar axınının davam etməsi də sübuta yetirir. Təsadüfi deyildir ki, məhz Gəncədə İmamzadə ziyarətgahına olan hədsiz dərəcədə yüksək ehtiram, onun mühafizə olunmasına, təmir və bərpa edilməsinə göstərilmiş qayğı, İmamzadədə toplanan vəsaitin yalnız xalqın rifahına, xeyriyyəçilik məqsədləri naminə sərf olunması kimi pak, müsbət səciyyəvi cəhətlər həm ölkənin digər bölgələrindən, həm də başqa dövlətlərdən çoxlu sayda zəvvarın bu müqəddəs məkana gəlişini şərtləndirən məqamlardan hesab olunur.

Eyni zamanda, rəvayətdə yüksək mədəni, mənəvi dəyərləri ilə yanaşı, həm də səxavətliliyi, qüdrətliliyi ilə fərqlənən Gəncə və onun yerli hakimlərinin, daha dəqiq deyilsə, rəhbər feodallarının da bütün əhali kimi imam şərəcəsinə, peyğəmbər nəslinə bəslədikləri hədsiz ehtirama rəğmən şahzadə İbrahimin bu dəyərli tarixi şəhərə gəlişi haqqında əsaslı məlumatların öz əksini tapmaması da təəccüblüdür. Amma əksər bu tipli şifahi nümunələrdə olduğu kimi, qeyd edilən rəvayətdə də

zaman keçdikcə təhriflərin olması, ayrı-ayrı insanların bəzi məqamları unutmaları da istisna edilməməlidir. Burada bir məqamı da xüsusi vurğulamaq lazımdır ki, bu rəvayət, əsasən Gəncəbasarda, İmamzadə kompleksindən bir qədər kənarda yerləşən Əhmədbəyli kəndində yerli sakinlər arasında geniş yayılmışdır. Daha dəqiq desək, kəndin yaşlı sakinləri belə rəvayətləri bilir və dilə gətirirlər.

Amma tarixi məxəzlərə, ayrı-ayrı yazılı mənbələrə gəldikdə isə, əksər maddi tapıntılar, eyni zamanda mənəvi göstəricilərin İmamzadə abidəsinin məhz Gəncə ilə birbaşa bağlılığını sübuta yetirdiyinin şahidi oluruq. Bu nöqteyi-nəzərdən yanaşaraq mövcud olan bütün mənbələrin, elmi ədəbiyyatlardakı məlumatların kompleks surətdə qarşılıqlı şəkildə müqayisəsini əsas götürərək İmamzadə abidəsinin Gəncənin tarixi keçmişi ilə əlaqəli olduğunu təsbit etmək zəruridir. Mövlana İbrahimin Gəncəyə gəlməyi, burada sığınacaq tapması , istər rəhbər dairələr, istərsə də yerli əhali tərəfindən böyük diqqətlə, xüsusi ehtiramla əhatə olunması heç bir şübhə doğurmur. Bunun bir əyani göstəricisi İmamzadə kompleksinin köhnə Gəncə ərazisində mövcudluğu faktıdır. Belə ki, Gəncə İmamzadə türbəsinin hal-hazırda Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində yerləşməsi, köhnə Gəncənin xarabalıqlarında olması imam övladı şahzadə İbrahimin bu şəhərdə olduğunu təsbit edir.

Digər tərəfdən isə, şahzadə İbrahimin vəfatından (şəhadətə yetməsindən) sonra onun məzarının mühafizə edilməsi, qəbrinin üzərində türbənin inşa olunması və bu məkanın əbədi ziyarətgaha çevrilməsi də gəncəlilərin bu pak şəxsiyyətə olan doğma münasibətinin, mənəvi

bağlılığının göstəricisidir. Bu isə, öz növbəsində imam oğlunun Gəncə ilə, burada qarşılaşdığı xoş, səmimi münasibət ilə, birbaşa ünsiyyətdə olduğu gəncəlilərin, şəhər sakinlərinin müsbət rəftarından yaranmış doğma bir əlaqəsinin mövcudluğunu təsdiq edir.

Beləliklə, Gəncə İmamzadəsinin yaranmasının ilkin tarixi şərtləri, onun dəyərli abidə, memarlıq nümunəsi kimi xarakterizə olunması bir daha müəyyən məxəzlərdə öz əksini tapmış məlumatlara baxmayaraq, şahzadə İbrahimin məhz bu möhtəşəm mədəni mərkəzlə qırılmaz tellərlə, mənəvi cəhətdən birbaşa bağlı olduğunu göstərir.

Ümumiyyətlə, Gəncə İmamzadə kompleksini tarixi-epiqrafik abidə, memarlıq nümunəsi kimi səciyyələndirərkən iki mühüm aspektdən yanaşmaq zərurəti meydana çıxır. Birincisi, xronoloji nöqteyi-nəzərdən, ikincisi isə müvafiq sənətkarlıq sahələri baxımından yanaşmadır.

Daha doğrusu, tarixi-xronoloji baxımdan yanaşaraq Gəncə İmamzadəsinin ayrı-ayrı tarixi mərhələlərdə memarlıq (arxitektura) quruluşunda baş vermiş müəyyən yenilikləri, dövrün tələblərinə uyğun gələn dəyişiklikləri daha müfəssəl surətdə elmi cəhətdən açıqlamaq mümkün olur. Məhz bu nöqteyi-nəzərdən yanaşaraq Gəncə İmamzadə türbəsinin «Qərib İmamzadə» kimi tanınması faktını araşdırmaq zəruridir [35; 56-58; 103; 361-364]

İlk öncə onu qeyd etmək lazımdır ki, Gəncə İmamzadəsinin «Qərib İmamzadə» adı ilə müəyyən müddət ərzində tanınmasının müxtəlif mənbə, ədəbiyyatlardakı izahı eyni deyildir. Burada bəzi məlumatlar ziyarətgahın şahzadə İbrahimin məzarının şiə məzhəbinin güclənməsi, Səfəvilərin hakimiyyətə gəlişindən sonrakı proseslər nəticəsində mühüm ocağa

çevrilməsi mülahizəsinin əsas səbəb olduğunu ifadə etmişdir [104, s.227; 156, s.50].

Bundan əlavə, Gəncə İmamzadə türbəsinin «Qərib İmamzadə» kimi adlandırılmasının izahı qismində mövlana İbrahimin məzarının ilk vaxtlarda alban türk qəbiristanlığında olması, onun bu dövrdə ayrıca ziyarətgaha çevrilmədiyinə dair məlumatlar da qeyd edilmişdir. Belə ki, «Qərib İmamzadə»nin şərəfinə dəfn edilənlərin sayı tədricən artaraq insanların özlərinin əzizlərinin qəbirlərini ziyarətə gəlməklə yanaşı, bu müqəddəs məzara da baş çəkdikləri bildirilir. Nəticədə isə qohum-əqrəbasının qəbrini ziyarət etməzdən əvvəl məhz qərib imam övladının məzarını yad edib, şam yandırıb sonra öz qohumları üçün dualar edən insanların bu ənənələri yaşatmaları sayəsində «Qərib İmamzadə»nin mühüm ziyarətgaha çevrilməsinə dair məlumatlar öz əksini tapmışdır [122, s.92-93; 146, s.49].

Ümumilikdə, «Qərib İmamzadə» adı daha çox bu məzarın unudulması, ziyarətgaha çevrilməməsi məsələsi ilə deyil, əsasən burada əbədiyyətə qovuşmuş imam övladı, mövlana İbrahimin taleyi ilə bağlı işlədilmişdir. Bu mülahizəni inamla müdafiə etməkdə onun mənsub olduğu nəslə qarşı həyata keçirilmiş haqsız təqiblər, əzizləri ilə yanaşı şahzadə İbrahimin də şəhid olması faktı təsdiqedici xarakter daşıyır.

Eyni zamanda, Gəncədə çox mehriban, ehtiramlı münasibət görsə belə, bu imam övladı əslində qərib diyarda idi. Onun qəriblikdə qətlə yetirilməsi, burada da dəfn edilməsi çox güman ki, xalq arasında müəyyən müddət ərzində məhz İmamzadənin «Qərib İmamzadə» kimi adlandırılmasına səbəb olmuşdur. Bir sıra mənbələrdə qeyd olunduğu kimi, şahzadə İbrahimin dəfn

olunduğu dövrdə, daha dəqiq desək, VIII əsrdə (739-cu ildə) Gəncədə də qədim türk soykökümüzə bağlı olan alban memarlığı, türkçülüyümüzü sübuta yetirən ayrı-ayrı sənətkarlıq xüsusiyyətləri qorunub saxlanılırdı. Milliyyəti baxımından ərəb olan, dini cəhətdən isə bizim əcdadlarımız kimi artıq bəhs olunan dövrdə islam ümmətindən olan mövlana İbrahim də yerli insanlar arasında qərib hesab edilirdi. Həmçinin, onun məzarı da bu bölgənin əhalisindən fərqli olaraq, qərib kimi qiymətləndirilmiş, bu səbəbdən də «Qərib İmamzadə» kimi adlandırılmışdır [104, s.228-229; 146, s.48, 49].

Yuxarıda qeyd olunduğu kimi, Gəncə İmamzadə kompleksinin tarixi keçmişinin tədqiq edilməsi zamanı istər tarixi-xronoloji, istərsə də sənətkarlıq, memarlıq ənənələrinin kompleks surətdə nəzərə alınması sayəsində abidənin olduqca mühüm xüsusiyyətlərinin üzə çıxarılmasına şərait yaranır.

Deməк, İmamzadə əvvəlcə erkən orta əsrlər dövründə məzar, sonra üzərində məzarüstü abidə olan türbənin ucaldılması nəticəsində tədricən möhtəşəm bir kompleksə çevrilmişdir. Artıq bu dövrdə şahzadə İbrahimin məzarı üzərində inşa edilmiş dördkünc formaya malik türbənin üstündə iri günbəz ucaldılmışdır. Abidənin ziyarətgah kimi əhəmiyyəti də getdikdə yüksəlirdi. Bununla yanaşı, həm də İmamzadə ziyarətgahının tarixi-memarlıq abidəsi kimi də quruluşunda təkmilləşmələr, yeni sənətkarlıq, arxitektur elementlərinin əlavə edilməsi həyata keçirilirdi. Nəticədə isə dövrün çağdaş texniki yenilikləri böyük uğurla tətbiq edilir və bu işə tədricən insanların, xüsusilə də ayrı-ayrı xeyriyyəçi şəxslərin maddi vəsaitləri sərf etməsi ənənə halını alırdı.

Bir məqamı da xatırlatmaq lazımdır ki, Gəncə İmamzadəsinin ilkin mərhələdə inşa edilməsi zamanı tətbiq olunmuş və qədim, zəngin sənətkarlıq ənənələrinə istinad edən türk-alban memarlığı elementləri sonrakı təmir, bərpa, yaxud da ətrafdakı ərazilərdə yeni tikililərin ucaldılması nəticəsində tədricən sıradan çıxarılmışdır. Bu səbəbdən də artıq müasir abidə kompleksində də türbənin inşasında istifadə olunmuş bu əlamətlər müşahidə edilmir.

Unutmamalıyıq ki, Gəncə İmamzadə türbəsinin bir sıra xüsusiyyətləri qədim memarlıq və sənətkarlıq ənənələrimizdən qaynaqlanmışdır. Məhz bu səbəbdən də İmamzadə abidəsi əski tikinti elementlərimizin tətbiqi sayəsində daha da zənginləşmiş, müsəlman memarlığı cəhətləri ilə vəhdətlilik şəraitində özünün möhtəşəmliyini və eyni zamanda sənətkarlıq baxımından unikallığını qoruyub saxlamışdır [21; 23; 235-242; 347-349].

Hal-hazırda əvəzsiz sənət incisi olan Gəncə İmamzadə kompleksi səkkiz sütunsuz günbəzdən ibarətdir. Unikallığı ilə seçilən abidə nəinki Gəncə ərazisində, bütövlükdə ölkəmizdə mövcud olan bu tipli abidələrdən bir çox təkrarsız cəhətləri ilə fərqlənir.

Ümumiyyətlə, İmamzadə türbəsi üç günbəzi birləşdirən geniş və hündür ibadət otağına malikdir. Qeyd etmək lazımdır ki, ibadət otağı dəyərli sənətkarlıq elementləri ilə də zəngindir. Belə ki, bu otağa məxsus olan günbəz nəbati (bitki təsvirləri) ornamentlərlə, həmçinin simvolik xarakter kəsb edən tovuz quşu şəkli ilə bəzədilmişdir [104, s.228; 122, s.93-94; 146, s.48-49].

Abidənin baş günbəzi özünün quruluşu, ölçüləri baxımından digərlərindən əhəmiyyətli dərəcədə fərqlənir. Onun hündürlüyü 14,7 metrə çatır. Memarlıq üslubu

baxımından, hazırlanma materialı cəhətdən də bu günbəz özünün nəfisliyi, sənətkarlıq nöqteyi-nəzərdən zərif işlənmə xüsusiyyətləri ilə seçilir.

«Şahzadə İbrahim» günbəzi dəbilqə (təskulə) formasındadır. Günbəzin diametri 4,4 metrə bərabərdir. Onun inşa edilməsinə dair bir sıra mülahizələr irəli sürülmüşdür. Belə ki, bəzi mənbələrdə «Şahzadə İbrahim» günbəzinin XIV əsrdə tikildiyinə dair məlumatlar qeyd olunmuşdur [146, s.49-50].

Lakin onun inşa olunma tarixinin XII əsrin sonu – XIII əsrin əvvəllərinə aid olduğu şübhə doğurmamalıdır. Daha doğrusu, bu günbəzin tikilməsində dövrün səciyyəvi memarlıq-inşaat xüsusiyyətləri, sənətkarlıq ənənələri nəzərə alınmışdır. Türbənin inşasında qırmızı kərpicdən istifadə olunmuş, yerli memarlıq üçün səciyyəvi olan cəhətlər tətbiq edilmişdir [104, s.228-230].

Qeyd olunan günbəzin sağ və sol tərəflərində tikilmiş hücrələr (otaqlar) da yuxarıda bildirilən fikri təsdiq edir. Belə ki, bu tikililər islam dininin ilkin qəbul olunması mərhələsi üçün deyil, bir qədər sonrakı tarixi mərhələlər üçün səciyyəvidir. Daha doğrusu, bu hücrələr məhz bəhs edilən dövrlərdə – XIII-XIV əsrlərdə artıq yenidən bərpa olunan memarlıq abidəsidir. Bir sıra mənbələrdə belə bir mülahizə öz əksini tapmışdır ki, vaxtilə dekorativ sənət sahəsində baş verən dəyişikliklərlə əlaqədar olaraq, qırmızı kərpicdən inşa olunmuş bu məscidlərin tədricən şahzadə İbrahimin məzarını araya aldığı həm də onların əhəmiyyətini ifadə edir [146, s.50].

Bütün bu sadalanan faktlar, öz növbəsində Gəncə İmamzadəsinin müqəddəsliyini, insanların ona bəslədikləri sonsuz inam və ehtiramı nümayiş etdirir.

Gəncə İmamzadəsinin əsrlərin ağır sınağından uğurla çıxması, dağıntılara, məhv edilməyə məruz qalmamağının da əsas səbəbləri sırasında bu faktorların rolu həlledici olmuşdur. Çünki əhalinin İmamzadə ziyarətgahını daim mühafizə etməyi, buraya zəvvarların gəlişinin mütəmadi olaraq ardıcıl surətdə davam etməsi nəticəsində bu müqəddəs məkana qarşı müxtəlif dövrlərdə yönəlmiş təcavüzkar qüvvələr hər zaman geri çəkilmişlər.

Haqqında bəhs edilən günbəzin ətrafında inşa olunmuş hücrələrlə (otaqlarla) bağlı daha bir tarixi fakt burada sufilərin (eyniadlı təriqənin nümayəndələrinin) çilə keçirməsi ilə bağlıdır. Ümumiyyətlə, bu mülahizəni irəli sürməyə əsas verən tarixi göstəricilər sırasında Gəncədə orta əsrlər dövründə əxilik cərəyanının geniş yayılması faktı xüsusi əhəmiyyət kəsb edir. Belə ki, müxtəlif tarixi mənbələrdə qeyd olunduğu kimi, hətta Şeyx Nizaminin məzarı üzərində ucaldılmış böyük ziyarətgahda da müxtəlif təriqətləri təmsil etmiş dərvişlər, mütəsəvviflər və mövləvilər "kuşənişinlik" icra etmişlər.

«Kunənişinlik» isə təsəvvüf terminologiyasında təkliyə, bir guşəyə çəkilmək mənasını ifadə edir [104, s.228].

Gəncə İmamzadə kompleksinin unikal memarlıq, sənətkarlıq xüsusiyyətləri sırasında daha bir nümunə camaat zalı yaxud da ibadət zalı (otağı) adlandırılan hissədə olan günbəzlə əlaqədardır. Belə ki, ibadət zalının üzərində olan bir günbəzin daxili (içəri) hissəsində səkkizguşəli ulduz təsviri vardır. Mənbələrdə mövcud olan məlumatlar bu geniş məzmuna malik sənətkarlıq təsvirini ayrı-ayrı rəmzi mənalarla əlaqələndirmişdir.

Bunların içərisində bəhs edilən səkkizguşəli ulduz təsvirinin Gəncə İmamzadə kompleksində mövcud olan səkkiz ədəd günbəzin rəmzi kimi göstərilməsi mülahizəsi daha inandırıcıdır [146, s.50].

Qeyd etmək lazımdır ki, çox yaraşıqlı, sənətkarlıq baxımından gözəl görünən bu günbəzlərin darovsarlarının yazıları pozularaq yox edilmişdir. Bu fakt isə, öz növbəsində Gəncə İmamzadəsi ərazisində, o cümlədən türbənin və onun ətraf tikililərinin daxilində həyata keçirilmiş müxtəlif təmir, bərpa işləri zamanı diqqətsizliyə yol verildiyini nümayiş etdirir. Heç şübhəsiz, İmamzadənin çox mühüm tarixi əhəmiyyət kəsb edən ayrı-ayrı yazılarının, təsvirlərinin bilərəkdən, qəsdən pozulması da istisna edilə bilməz.

Gəncə İmamzadə kompleksinin, xüsusilə də əsas türbə abidəsinin ilkin inşa olunmadan sonrakı dövrlərdə dəfələrlə təmir və bərpa edilməsi, ərazisində abadlaşdırma, yenidənqurma tədbirlərinin həyata keçirilməsini ibadət zalına bitişik olan qonşu günbəz də sübuta yetirir. Belə ki, günbəzin daxili hissəsi bitki təsvirləri (nəbati xarakterli) ilə bəzədilmişdir. Bundan əlavə, nəbati təsvirlərlə yanaşı, burada quş təsvirlərinin (tovuz quşu rəsminin) olması da bu fikrin təsdiqinə xidmət edir.

Məlumdur ki, müsəlman zehniyyəti dini ocaq və mərkəzlərdə, xüsusilə də məscidlərdə insan və yaxud da heyvan şəkillərinin əks etdirilməsini qadağan etmişdir. Bu ənənələr islamın ilkin intişar tapdığı tarixi mərhələlərdə çox ciddi riayət olunan prinsiplərdən hesab edilirdi. Gəncə İmamzadə abidəsinin mövlana İbrahimin məzarı üzərində ucaldılması da məhz bu dövrə, daha dəqiq desək, VIII-IX əsrlərə təsadüf etmişdir. Bu

səbəbdən də İmamzadə kompleksinin yuxarıda qeyd edilən təsvirləri, xüsusilə də heyvan, quş təsvirinin (konkret halda tovuz quşu təsvirinin) mövcudluğunu yalnız XIII-XIV əsrlərdən etibarən burada həyata keçirilmiş təmir və yenidənqurma tədbirləri ilə əlaqələndirmək mümkündür [14; 63; 104; 313].

Gəncə İmamzadə kompleksinin bərpa edilməsi, onun daxili hissəsi, eyni zamanda ətraf ərazilərində təmir, yenidənqurma tədbirlərinin həyata keçirilməsinə dair müxtəlif mənbələrdə, ayrı-ayrı tədqiqat əsərlərində fərqli məlumalara rast gəlinir. Belə məlumatların kor-koranə surətdə qəbul edilməməsi üçün ilk növbədə onların etibarlılıq dərəcəsi müəyyən olunmalı, istinad edilmiş məxəzlər nəzərdən keçirilməlidir. Bundan əlavə, Gəncə İmamzadə kompleksi ilə əlaqədar müəyyən mülahizələr irəli sürmüş belə müəlliflərin, tədqiqatçıların bu müqəddəs məkan, dəyərli tarixi abidə ilə tanışlığı səviyyəsi, burada həyata keçirilən araşdırmaların həqiqiliyi, birtərəfli olub-olmaması məsələsinə də xüsusi əhəmiyyət verilməsi zəruridir.

Bu baxımdan tədqiqatçı L.S.Bretanitskinin Gəncə İmamzadə türbəsi ilə bağlı qeyd etdiyi elmi mülahizələr maraq doğurur. Belə ki, alim İmamzadə kompleksinin ərazisində, o cümlədən türbənin və ətrafda olan yeni tikililərin XVII əsrdə restavrasiya edildiyini yazmışdır. Eyni zamanda, L.Bretanitski XVIII əsrdə də kompleksdə müəyyən bərpa, təmir və yenidənqurma tədbirlərinin həyata keçirilməsini qeyd etmişdir. Lakin belə bir möhtəşəm abidənin, mühüm dini ziyarətgahın Səfəvilərin hakimiyyət başına gəldikləri və bu cür dini komplekslərə diqqət, qayğı ilə yanaşdıqları dövrdə təmir edilməməsi, burada bərpa tədbirlərinin həyata keçirilməməsinin

təəccüb doğurduğuna da səthi də olsa eyhamla yanaşmışdır. Bu dövr dedikdə isə, şübhəsiz ki, XV-XVI əsrlər nəzərdə tutulmuşdur [206, s.24].

Doğrudur, Gəncə İmamzadə kompleksinin ərazisində əsaslı təmir və bərpa tədbirlərinin həyata keçirilməsinə dair ilkin tarixi faktoloji məlumatlar XVIII əsrlə bağlıdır. Belə ki, Azərbaycanın qəhrəmanlıq tarixinin həqiqi mənada iftixarı hesab edilən və Gəncənin sonuncu xanı olmuş Cavad xan Ziyadoğlu Qacar (1786-1804) da bu mühüm tarixi abidənin əsaslı surətdə təmir edilməsinə böyük diqqət yetirirdi. Onun Gəncə xanlığına rəhbərlik etdiyi dövrlərdə Gəncə İmamzadə türbəsinin daxilində geniş miqyaslı bərpa tədbirləri sistemli şəkildə həyata keçirilmişdir [104; 228].

Bundan əlavə, İmamzadə kompleksinin ön tərəfində yerləşən divar hissəsini də Cavad xan inşa etdirmiş,xarici görkəminin də abadlaşdırılmasına xüsusi əhəmiyyət vermişdir. Cavad xan sarayının baş memarı, Azərbaycanın mədəniyyət, ədəbiyyat tarixinə əvəzsiz incilər bəxş etmiş, Qərb dünyasını, Avropanı özünün dəyərli əsərləri ilə heyran etmiş görkəmli şair, Gəncənin iftixarı Mirzə Şəfi Vazehin atası Kərbəlayı Sadıqın bu geniş miqyaslı bərpa tədbirlərinə birbaşa rəhbərlik etdiyinə dair tarixi faktlar mövcuddur [104, s.228; 122, s.94; 146, s.50].

Bu tədbirlər nəticəsində İmamzadə kompleksinin giriş darvazaları üzərində təmir işləri aparılmış, abidənin sayca doqquzuncu günbəzi burada inşa edilmişdir. Lakin abidənin ilk dəfə məhz bəhs olunan dövrdə təmir edilməsi mülahizəsi inandırıcı deyildir. Belə ki, məlum olduğu kimi Gəncə İmamzadəsi ərazisində əsas türbə də daxil olmaqla yeni tikililərin ucaldılması XIV-XV

əsrlərdə köhnə abidənin yenidən qurulması nəticəsində həyata keçirilmişdir. Bu tədbirlər isə, öz növbəsində abadlaşdırma, yenidənqurma işləri kimi xarakterizə olunur. Odur ki, bəzi müəlliflərin qeyd etdiyi mülahizələrə əsaslanaraq Gəncə İmamzadə kompleksinin əsrlər boyu bərpa edilməməsi və yaxud da bu cür tədbirlərin kompleks şəkildə deyil, qismən, natamam surətdə həyata keçirilməsi fikrini aksiom olaraq qəbul etmək doğru deyildir.

Bu sahədə Gəncə İmamzadə abidəsinin bərpa və yenidənqurulma tarixinə dair məlumatların əsasən XVIII əsrdən sonrakı dövrə aid olması diqqəti cəlb edir. Bu isə maddi sübutlarla, xüsusilə də yazılı mənbələrin, kitabələrin qorunub saxlanılması sayəsində mümkün olmuşdur. Daha qədim dövrlərdə bu tədbirlərin geniş surətdə icra edilməsini sübuta yetirə biləcək maddi sübutların, ayrıca yazılı şəkildə epiqrafik nümunələrin aşkar olunmaması heç də bu cür mənbələrin ümumiyyətlə mövcud olmaması kimi qəbul edilməməlidir.

Ümumiyyətlə, Gəncə İmamzadə kompleksində həm tarixi mənbə olaraq, həm də abidənin memarlıq, sənətkarlıq keyfiyyətlərinin yüksək ustalığına dəlalət edən mühüm göstərici olaraq günbəzlərin əhəmiyyəti danılmazdır. Onların hər birinin özünəməxsus keyfiyyətləri mövcuddur. Bu mühüm memarlıq nümunələri istər xarici görünüşü, istərsə də daxili (içəri) hissəsinin quruluşu, naxışlanması baxımından çox yüksək dəyəri ilə seçilir.

Gəncə İmamzadəsinin baş (əsas) günbəzi isə xüsusi unikal cəhətlərinin mövcud olması ilə fərqlənir:

İlk baxışda bu günbəz özünün möhtəşəm böyük ölçüləri ilə diqqəti cəlb edir. Hündürlüyü 14,7 metrə

çatan abidənin bu hissəsi bir növ əsas mərkəzi hissə rolunda çıxış edir.

Tikintisi XVII-XVIII əsrlərə aid edilən və bu dövrdən etibarən restavrasiya olunmuş məscid, digər türbələr, əlavə tikililərlə birgə vahid bir ansambl təşkil edilən bu günbəzin səthinin xüsusiyyətləri çox unikaldır. Belə ki, məhz bu günbəzlərin üzərinin (xarici səthinin) rəngi ilə bağlı olaraq Gəncə İmamzadə kompleksi müasir dövrümüzədək, bir növ özünün ikinci adını yaşatmışdır. Bu «Göy İmam» ifadəsidir.

Gəncə İmamzadəsinin bu cür adlandırılmasının ən əsas səbəbi qismində qeyd edilən baş günbəzin üzərinin çox nəfis, keyfiyyətli, xarici görünüşü baxımından gözəl, diqqətəlayiq mavi və yaşıl rəngli kaşılarla bəzədilməsi çıxış edir. Bunlar çox dəyərli kaşıkarlıq nümunələri hesab edilir. Belə ki, kaşıkarlıq müxtəlif memarlıq abidələrində divarların həm iç, həm də bayır səthlərinin (və yaxud ayrılıqda yalnız səthinin bir tərəfinin) çoxrəngli və ya birrəngli kaşı lövhəciklərlə üzləmə üsulunu özündə ehtiva edir. Qeyd edilən lövhəciklər dulusçuluq (yaxud keramika) sənətinin nümunələri hesab edilir [65, 66].

Kaşıkarlıq memarlıqla üzvi vəhdət təşkil edən, kontur və formaların ahəngdarlığını, kompozisiyanın bədii ifadəliliyini artıran sənətkarlıq üsulu kimi dəyərləndirilir.

Təsadüfi deyildir ki, bu üsuldan xüsusilə də günbəz, portal, minarələrin və mehrabların bədii tərtibatında geniş tətbiq olunmuşdur. Gəncə İmamzadə türbəsinin baş günbəzinin üzərinin bəzədilməsində istifadə olunmuş bu dəyərli nümunələr dulusçuluğun mayolika adlandırılan və özünün unikal cəhətləri ilə

fərqlənən sahəsinə aid edilir. Geniş mənada mayolika bişmiş rəngli gildən hazırlanan şirlənmiş məmulatlara şamil olunan keramika sahəsi mənasında işlənir [63, 122, 325].

Ümumiyyətlə, Azərbaycan ərazisində bu sənət sahələrinin təşəkkül tapması qədim dövrlərlə bağlıdır. Orta əsrlər mərhələsində, xüsusilə də erkən orta əsrlər dövrünün sonundan etibarən bu sənətkarlıq ənənələri geniş vüsət almış, ayrı-ayrı abidələrin üzərində tətbiq olunmuşdur.

Artıq XII əsrdə Azərbaycanda bişmiş kərpic üzlüyündə firuzəyi kaşılı kərpicdən istifadə edilirdi. Bir qədər sonra isə, daha dəqiq desək, XIII əsrdə isə üzəri naxışla işlənmiş mayolika və kaşı mozaikasından geniş surətdə istifadə olunurdu. Amma kaşıların üzlüyündə mozaika texnikasının əsaslı surətdə tətbiq edilməsi ənənəsinin XIV əsrdə yaranaraq, inkişaf etdiyi bildirilir [7; 8; 43; 63; 206].

Ümumiyyətlə, kaşı üzlüyündə həndəsi, nəbati və epiqrafik ornamentlərdən geniş surətdə istifadə edilmişdir. Gəncə İmamzadə türbəsinin günbəzi üzərində təsvir edilmiş mavi, yaşıl kaşı lövhələrinin mühüm mənbə kimi əhəmiyyətini şərtləndirən səbəblər içərisində onun yerli xammal, materiallarla bağlılığı xüsusi qeyd olunmalıdır. Çünki bu faktor Gəncənin qədim, həm də möhtəşəmliyi ilə fərqlənən abidələrinin inşa edilməsində kənardan gəlmə deyil, məhz yerli peşəkar sənətkarların bilik, bacarıq və təcrübələrindən istifadə edildiyini sübut edir. Digər tərəfdən isə, inşaat işlərində istifadə olunan materialların yerli mənbələrdən əldə olunması, emal edilməsi də bu cəhətdən xüsusi əhəmiyyət kəsb edir.

Təsadüfi deyildir ki, Azərbaycan memarlıq nümunələrinin bəzək naxışlarında tünd göy, qara (yerlikdə), mavi, yaşıl (orta planda), ağ və sarı (ön planda) rənglər başlıca yer tutmuşdur [349; 350; 360; 361].

Gəncə İmamzadə abidəsinin də bəhs olunan dəyərli mayolika nümunələrinin XIII-XVII (yaxud da XIV-XVII) əsrlərə aid edilməsi yuxarıda qeyd olunmuş xronoloji göstəricilərlə səsləşir, müəyyən uyğunluq təşkil edir. Bununla yanaşı, Gəncə İmamzadəsində bəhs olunan dövrdə həyata keçirilmiş bərpa və yenidənqurma tədbirlərini nəzərə alaraq bu kaşıkarlıq elementlərinin əvvəlki mərhələlərdə də mövcud olduğunu ehtimal etmək mümkündür. XIV-XV əsrlərdən etibarən isə günbəzin üzərindəki kaşı lövhələrinin yeniləri ilə əvəz olunması işləri yerinə yetirilmişdir.

Doğrudur, müasir dövrümüzdə əldə olan əksər mənbələrdə irəli sürülən, bu mülahizəni tam təsbit edən məlumatların yoxluğunu qəbul etməli oluruq. Lakin maddi məxəzlərin, yazılı əsər və kitabələrin birbaşa verə bilmədiyi tarixi həqiqətləri məntiqi yanaşaraq xalqın, yerli əhalinin şifahi yaddaşına istinad edərək sübuta yetirmək heç də çətin deyildir. Əslində, Gəncə əhalisinin bu müqəddəs ziyarətgahı «İmamzadə» adlandırmaqla yanaşı, həm də «Göy İmam» kimi çağırması əsrlərlə davam edən və irsən nəsildən-nəslə ötürülmüş ənənəvi baxışın göstəricisi kimi qəbul olunmalıdır.

Burada bir mühüm məqam unudulmamalıdır ki, «göy» ifadəsi xalqımızın, bütövlükdə türksoylu xalqların tarixində əhəmiyyəti ilə fərqlənən bütöv bir təsəvvür və inanclar sistemini özündə ehtiva edir. Belə ki, müasir dövrümüzdə də göy (yaxud mavi rəng) rəng türkçülüyün rəmzi, simvolu kimi qəbul edilir. Bunu isə şərtləndirən

bir çox tarixi məqam vardır. Məlum olduğu kimi, qədim əcdadlarımız çox əski tarixi mərhələlərdə göy tanrı dininə sitayiş etmişlər. Bu monoteist dinə (təkallahlıq dini) əksər türksoylu xalqlar etiqad etmişlər.

Maraqlıdır ki, «Göy» ifadəsi, göründüyü kimi yalnız rəng anlamında işlənməmişdir. Burada göy daha çox səma, ucalıq məzmununu, əlçatmazlıq mənasını ifadə edir. Gəncə İmamzadəsi də zəvvarlar üçün, yerli əhali, iman əhli üçün məhz əlçatmaz, müqəddəs məkan olaraq qəbul edilmişdir. Odur ki, bu abidənin xalq arasında «Göy imam» kimi adlandırılmasının belə tarixi həqiqətlərə istinad edən, məntiqi təfəkkür sayəsində dərk edilməsi mümkün olan səbəblərinin üzə çıxarılması vacibdir.

Bu gün artıq Gəncə İmamzadə ziyarətgahı əvəzsiz tarixi memarlıq nümunəsi, mühüm abidə kimi mövcudluğunu qorumaqla yanaşı, qədim dövrlərdə olduğu kimi axın-axın zəvvarların baş çəkdiyi müqəddəs məkan olaraq mühafizə edilir. Gəncə İmamzadəsi mövlana İbrahimin məzarı üzərində ucaldılmış iki yaruslu türbədən, onun ətrafında olan məscid, təkyə, alaqapı, türbə və köməkçi binalardan ibarətdir. Türbənin ətrafında zəfər tağına bənzəyən giriş darvazasından içəri hissədə karvansaraya oxşayan evlər (tikililər), yardımçı binalar mövcuddur. Eyni zamanda, kompleksin sahəsində (ərazisində) XVIII-XIX əsr bədii daşyonma sənəti ustalarının, xəttat-həkkakların, nəqqaşların dəyərli əsərləri olan epitafiya nümunələri vardır. Bunlardan görkəmli sənətkarlar (həkkak-nəqqaşlar) və dövrünün tanınmış şairləri olmuş Naci təxəllüslü Mirzə Mehdinin, Şeyx Zamanın (Şeyxzamanlılar şəcərəsinin nümayəndəsi olmuşdur) və digərlərinin əsərlərini, dünyagörüşünü əks etdirən məzarüstü qəbir abidələrini, xüsusilə də görkəmli

nəsillərin, ayrı-ayrı tanınmış şəxsiyyətlərin sərdabələrini, türbələrini özündə qoruyub saxlamış, geniş bir sahəni əhatə edən böyük qəbiristanlıqdan ibarət dini kompleksi göstərmək mümkündür.

Gəncə İmamzadə kompleksi onunla bir çox xüsusiyyətləri baxımından oxşarlıq təşkil edən ayrı-ayrı tarixi, dini abidələrlə müqayisədə özünün bir sıra cəhətləri ilə fərqlənir, möhtəşəmliyi və əsrlərlə göz bəbəyi tək qorunub saxlanılması baxımından seçilir. Belə ki, məlum olduğu kimi müxtəlif övliyaların, peyğəmbər nəsli nümayəndələrinin, müqəddəs şəxsiyyətlər olaraq dəyərləndirilmiş ayrı-ayrı insanların məzarları üzərində inşa edilən abidələr heç də eyni cür adlandırılmır. Bunlar müvafiq olaraq müəyyən fərqləndirici cəhətləri nəzərə alınaraq xanəgah, imamzadə, türbə, sərdabə, ribat, ocaq yaxud da məzarüstü (qəbirüstü) xatirə abidəsi kimi xarakterizə olunur [8; 63; 64; 104; 146].

Lakin Gəncə İmamzadəsinin unikal memarlıq, dini cəhətlərə malik olduğu tarix boyu diqqətdən yayınmamış, onun əsas adı ilə yanaşı, daxilindəki tikililər sırasında həm türbələrin, həm sərdabələrin, həm də digər xüsusiyyətləri ilə fərqlənən qəbirüstü xatirə abidələrinin mövcudluğu səbəbindən hər zaman əksər ədəbiyyatlarda da məhz kompleks kimi səciyyələndirilməsinə təsadüf olunmuşdur.

Hal-hazırda müasir Gəncə şəhərindən yeddi kilometr uzaqlıqda olan bu mühüm kompleks qədim (köhnə) Gəncənin xarabalıqları yaxınlığında, Gəncə çayının sağ sahilində yerləşir. Gəncə İmamzadə abidəsi 1988-ci il 18 aprel tarixində yaradılmış Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğunun ərazisinə daxildir.

## 3. İmamzadə kompleksi Şeyx Nizami şəcərəsinin mənəvi qoruyucusudur

Gəncənin, bütövlükdə isə Azərbaycanın bəşər sivilizasiyasına bəxş etdiyi ən əvəzsiz, böyük tarixi şəxsiyyətlər, dühalar sırasında Şeyx Nizami Gəncəvinin xüsusi yeri vardır. Yalnız dünya poeziyasının əbədiyaşar hökmdarı kimi deyil, Nizami Gəncəvini bütün ölkələrdə ensiklopedik bilik sahibi, bütövlükdə mövcud elmlərin bənzərsiz bilicisi, həqiqi mütəfəkkir, filosof, ömrünün sonuna qədər doğma şəhəri Gəncəni tərk etməməsinə baxmayaraq, bəşəri şöhrətə və ölümsüzlüyə sahib olan şəxsiyyət kimi tanıyır, ehtiramla yad edirlər.

Çox maraqlıdır ki, Gəncə İmamzadə abidəsi ilə Nizami Gəncəvi şəxsiyyəti arasında çox möhkəm və əbədi bir mənəvi bağlılıq mövcuddur. Əvvəla mövlana İbrahimin vəfat etməsi və onun məzarı üzərində İmamzadə türbəsinin ilkin mərhələdə inşa olunması tarixi ilə (VIII əsrin ortaları -739/740-cı illər) dahi Nizaminin yaşadığı dövr arasında müəyyən zaman fasiləsi olmuşdur. Nizami Gəncəvi 1141-1204-cü illərdə yaşamış və bəhs olunan dövrdə artıq Gəncə İmamzadə ziyarətgahı mövcud olmuşdur. Bu isə, öz növbəsində pak, saf xislətli imam övladı İbrahimin xatirəsinə bütün gəncəlilər kimi sonsuz ehtiram, məhəbbət bəsləmiş Şeyx Nizami ilə bu müqəddəs şəxsiyyətin bağlılığını şərtləndirmişdir. Əslində, Nizami Gəncəvi də uca Tanrının sevib-seçdiyi, məhz bu səbəbdən də bütün insanlardan fərqləndirərək xüsusi istedad bəxş etdiyi qeyri-adi şəxsiyyət idi.

Bundan əlavə, Nizami Gəncəvi dünyəvi elmlərlə yanaşı, dini (fiqh) elmlərin də mahir bilicisi olmuş, ən əsası isə həqiqi müqəddəs şəxs-Şeyx olaraq qəbul edilən

və insanların böyük ehtiramla yanaşdığı üləma kimi tanınmışdır. Bu faktı sübuta yetirən bir çox məlumatlar ayrı-ayrı mənbələrdə öz əksini tapmışdır.

Şeyx Nizami şəxsiyyətinin müqəddəsliyinin, əhalinin ona qarşı bəslədiyi sonsuz hörmət və məhəbbətin əyani göstəricisi Gəncədə müasir günümüzədək mühafizə edilmiş xoş bir ənənədə yaşamaqdadır. Yeni ailə quran gənclərin ilk olaraq məhz Nizami Gəncəvinin məqbərəsini ziyarət etməsi ənənəsi bu dahi şəxsiyyətin vəfatından əsrlər keçməsinə baxmayaraq, onun dəyərli şair, mütəfəkkir kimi insanların hafizəsində yaşaması ilə yanaşı, Şeyx Nizaminin şəxsiyyətinin, uyuduğu məkanın da paklığına inamın mövcud olduğunu göstərmiş olur. Çünki yeni ailəyə, ocağa başlanğıcı uğurlu, saf vermək, məhz Şeyx Nizamidən xeyir-dua almaq adəti həm də Gəncədə qədim, zəngin, düzgün mənəvi dəyərlərə sədaqətin əyani sübutudur.

Nizami Gəncəvi dühasını Gəncə İmamzadə ziyarətgahı ilə qırılmaz mənəvi tellərlə bağlayan ən mühüm səbəblərdən biri də onun şəcərəsinin əbədi olaraq bu müqəddəs məkanla tarixi bağlılığı olmuşdur. Daha doğrusu, bir sıra tarixi mənbələrdə qeyd olunduğu kimi, İmamzadə abidəsi və onun ətrafında olan torpaqlar Nizami Gəncəviyə məxsus olmuşdur. Məlumdur ki, 1186-cı ildə qeyd olunan torpaqlar dahi Nizami Gəncəviyə əvəzsiz sənət incisi, məşhur «Xəmsə»yə daxil olan «Xosrov və Şirin» əsərinə görə Azərbaycan - Atabəylər (yaxud Eldənizlər) dövlətinin hökmdarı Məhəmməd Cahan Pəhləvan tərəfindən hədiyyə edilmişdir. Gəncə şəhərinin 200 kilometrliyində Şeyx Nizami ilə görüşmüş görkəmli sərkərdə, sonradan Atabəylər dövlətinə başçılıq etmiş Qızıl Arslan qiymətli

hədiyyələrlə bərabər, Həmdünyan adlı kəndi də qardaşı Məhəmməd Cahan Pəhləvanın adından dahi şairə bağışlamışdır [1; 5; 9; 11; 21].

Məhz haqqında bəhs edilən bu kəndin (ərazinin) indiki İmamzadə kompleksi və onun ətrafındakı torpaqları əhatə etdiyi bildirilir. Bununla yanaşı, Şeyx Nizami Gəncəvinin mədhiyyəçi, saray şairi olmadığı, hər hansı sifarişlərlə əsər yazmadığı tarixi faktdır. Onun müəyyən bir əraziyə maddi maraqları əsas götürərək sahib olması, ümumiyyətlə yanlışdır. Odur ki, İmamzadə abidəsinə, bu müqəddəs məkana olan sonsuz ehtiramı Nizami Gəncəvini bu torpaqlara sahib çıxmağa sövq etmişdir.

Ayrı-ayrı məxəzlərdə rast gəlinən məlumatların əks etdirdiyi məqamlara rəğmən, istənilən halda əvvəldə qeyd edildiyi kimi, İmamzadə ziyarətgahı hər zaman Gəncənin ərazisi olub, bu şəhərlə birbaşa bağlılığı qədim dövrlərdən bəri mövcud olmuşdur. Məhz Gəncəni ömrünün sonuna qədər özünün ilk və yeganə məkanı, doğma ocağı hesab etmiş Nizami Gəncəvi kimi bir dahinin İmamzadə ziyarətgahı və onun ətrafındakı ərazilərə sahib olması sayəsində burada əsrlərlə yaşamış çox pak ənənələr mühafizə edilmişdir. Bunların içərisində ehtiyacı olanlara, himayədən məhrum körpələrə, ahıllara təmənnasız yardım göstərilməsi xüsusilə əhəmiyyətlidir. Əsrlər keçməsinə baxmayaraq, Gəncə İmamzadə ziyarətgahında toplanmış maddi vəsaitlər, fitrə pulları hər zaman yalnız xeyriyyəçilik məqsədləri üçün sərf olunmuşdur.

Dahi Şeyx Nizami nəslinin (şəcərəsinin) sonrakı nümayəndələri də bu müqəddəs məkanın sahibləri olmuşlar. Bu haqda tarixi bir məqama toxunmaq

zəruridir. Gürcü çarı II İraklinin təliqələrindən, rəsmi sənədlərindən birində bu məsələ ilə bağlı mühüm tarixi fakt öz əksini tapmışdır. Bu sənəddə göstərilmişdir ki, İmamzadə ziyarətgahının əkin yerləri, həmçinin məhsul üçün yararlı torpaq əraziləri Nizami nəslindən olan Şeyxzamanovlara (Şeyxzamanlılara) məxsus olmuşdur. Eyni zamanda, bu şəcərənin Şeyx İbrahim Qüdsi Şeyxzamanlının şəxsində təqdim edilməsi, bəhs olunan torpaqların bu nəslin istifadəsində olmasına dair tarixi faktların əks etdirilməsinin əhəmiyyəti çox böyükdür [83, s.236; 91, s.425].

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Firudin bəy Köçərli də Nizami Gəncəvinin xələflərindən biri olan Şeyx İbrahim Şeyx Həsən oğlu Şeyxzamanov (yaxud Şeyxzamanlı) haqqında çox mühüm məlumatları qeyd etmişdir. O, «Azərbaycan ədəbiyyatı» kitabında bu şəxsiyyət haqqında belə yazmışdır:

«Şeyx İbrahim Şeyx Həsən oğlu Şeyxzamanov İmamzadeyi-İbrahim türbəsinin mütəvəlliliyi ilə güzəran edirmiş... Rəvayətə görə onun Şeyx Nizami ilə qəraəti var imiş ... O, 1816-cı ildə Gəncədə anadan olmuş və 1865-ci ildə İmamzadədə dəfn edilmişdir» [91, s.420-421].

Eyni zamanda, Şeyxzamanlılar nəslinə mənsub olan Şeyx İbrahimin həm də peşəkar xəttat olduğuna dair mənbələrdə məlumatlara rast gəlinir. Bundan əlavə, müasir dövrümüzdə də İmamzadə kompleksində Şeyx İbrahim Şeyxzamanovun sağlığında ikən özü üçün hazırlamış olduğu və başqa şəxslər üçün də yazdığı başdaşı nümunələrinə təsadüf etmək mümkündür.

Ümumiyyətlə, Gəncə İmamzadə kompleksində iki görkəmli xəttat və həkkakın yaratdıqları mühüm epitafiya

nümunələrinə rast gəlinmişdir. Bunlardan biri Mirzə Mehdidir. O, həm də Naci kimi tanınmışdır. XIX əsrdə yaşamış bu sənətkar, eyni zamanda təbib, şair olmuşdur. Mirzə Mehdinin də sağlığında özü üçün düzəltdiyi, həmçinin başqalarına yazdığı başdaşı nümunələri Gəncə İmamzadəsində, məzarların sırasında bu gün də qalmaqdadır.

Bu sənətkarla yanaşı, yaratdığı dəyərli sənət əsərləri ilə tanınmış xəttat Şeyx Nizami şəcərəsinin nümayəndəsi Şeyx Zamandır. Şeyx Zamanın illər ərzində hazırladığı mühüm epitafiya, məzar abidələri içərisində Axund Mövlana Hüseynin abidəsini (daha dəqiq deyilsə, sərdabəsini) göstərmək olar. Qeyd edilən sərdabə İmamzadə kompleksinin qədim abidələrindən hesab olunur. Sərdabə tanınmış şəxsiyyət axund mövlana Hüseyn Pişnamazzadənin uyuduğu məkandır [104, s.228].

Şeyx Zamanın hazırladığı başdaşının haşiyəsində 14 məsuməyə Allahın səlat və salamından sonra xəttatın özü haqqında kiçik bir qeyd əks olunmuşdur:

«Həkkak, günahkar bəndə Zaman ibn Məhəmməd Əli» [122, s.93].

Bu dəyərli sənət nümunəsini elmi baxımdan tədqiq etmiş görkəmli alim, epiqrafika sahəsində tanınmış tədqiqatçı Məşədi xanım Nemət Axund Mövlana Hüseyn Pişnamazzadənin başdaşının haşiyəsində olan yazını bu cür oxuyaraq qeyd etmişdir:

«1279-cu il rəcəb ayında (23.XII.1862-22.I.1863) Gəncədə məskunlaşmış, əsli Lahicanlı rəhmətlik Hacı Məhəmmədin oğlu əzəmətli, mərhəmətli və ləyaqətli alimlərin ən biliklisi, nəcib, ali şəriət qanunlarının əsasını yaradan, sadiq xalqların əsasını təmin edən, məscid və

mənbərlərin yaraşığı, ən böyük və ən şöhrətlilərin fəxri, peyğəmbərin hər iki dünyaya aid təlimini yayan, mövlana, pişnamaz, axund, molla Hüseyn puç dünyadan köçdü. Onun torpağı pak olsun, yeri cənnətə yüksəlsin» [122, s.93-94; 146; s.50]

Kitabədən göründüyü kimi, XIX əsrdə Gəncədə yaşamış böyük alim Mövlana Hüseyn fiqh elmləri ilə yanaşı (ilahiyyat elmləri), dünyəvi elmləri də bilmiş, ən yüksək dərəcəli alimlərin başçılarının daşıdıqları «mövlana» (yaxud mövlanə) titulunu daşımışdır. Bu dəyərli şəxsiyyətin həm də sufilik ideyalarını təbliğ etdiyi məlumdur. Axund Mövlana Molla Hüseynin fəaliyyəti Gəncənin Şah Abbas (Cümə) məscidi, eyni zamanda İmamzadə ziyarətgahı ilə də sıx bağlı olmuşdur.

Gəncə İmamzadə kompleksində dəyərli əsərləri bu günümüzədək qorunub saxlanılmış bu iki görkəmli sənətkarın - Mirzə Mehdinin (yaxud Nacinin) və Şeyx Zamanın fəaliyyəti, əsasən bu müqəddəs ocaqla bağlı olsa da, yalnız bu məkanla məhdudlaşmamışdır. Belə ki, Gəncəli həkkak, XIX əsr xəttatlıq, nəqqaşlıq sənətinin tanınmış nümayəndəsi olmuş Mirzə Mehdinin Goranboy rayonu ərazisinə daxil olan Rəhimli kəndində də vaxtilə yazmış olduğu məzar daşının kitabəsinin aşkar olunması bunun bariz sübutu hesab edilə bilər [7, s.109].

Ümumiyyətlə, müxtəlif tarixi dövrlərdə, o cümlədən də XIX əsrdə kifayət qədər möhtəşəm, böyük şəhər olan, xüsusi aparıcı mövqeyi ilə seçilən Gəncədə tanınmış sənətkarların fəaliyyətinin əhəmiyyətli hissəsinin məhz İmamzadə kompleksi ilə bağlı olması təsadüfi xarakter daşımamışdır. Belə ki, İmamzadə ziyarətgahının karvan-ticarət yolları üzərində yerləşməsi, oradakı fəxri məzarların nəinki Azərbaycandan, eləcə də

başqa ölkələrdən gəlmiş öz həmvətənlərimizin, soydaşlarımızın ziyarətgahına çevrilməsi bu müqəddəs məkanı İslam dünyası ilə Azərbaycanın mədəni-ideoloji əlaqələri möhkəmləndirən mərkəz funksiyası yerinə yetirdiyini sübut edir.

Şeyx Nizami şəcərəsinin görkəmli nümayəndəsi olmuş Şeyx Zamanın Gəncə İmamzadə kompleksində yaratdığı dəyərli sənət nümunələri ilə yanaşı, bütövlükdə şəhərin memarlıq, sənətkarlıq baxımından zənginləşməsində də xidmətləri böyük olmuşdur. Bu sahədə onun əvəzsiz tarixi şəxsiyyət, Gəncənin xanı Cavad xan Ziyadoğlu Qacarın nəslinə mənsub olan şəxslərin məzarları üzərində yaratdığı gözəl epitafiya nümunələri xüsusilə qeyd olunmalıdır. Mənbələrdə qeyd edildiyi kimi, Cavad xan nəslinə məxsus qəbirüstü daşları Şeyx Zaman hicri tarixlə 1256-cı ildə hazırlanmışdır. Bunu miladi təqvimlə ifadə etdikdə bəhs olunan epitafiya nümunələrinin 1840-1841-ci illərdə, sənətkar Şeyx Zaman tərəfindən hazırlanmış olduğu üzə çıxır.

Bu fakt isə belə bir nəticəyə gəlməyə imkan verir ki, Şeyx Zaman Cavad xan Qacarın nəslinə mənsub məzar abidələrini yuxarıda haqqında bəhs edilmiş molla Hüseyn Pişnamazzadənin abidəsinin (sərdabəsinin) qəbirüstü yazılarını həkk etməzdən düz 22 il əvvəl hazırlamışdır. Şeyxzamanlılar nəslinin bu görkəmli nümayəndəsinin XIX əsrin ikinci yarısında yaşayıb-yaratdığını, ömrünün böyük bir qismini həkkaklıq, nəqqaşlıq kimi sənət sahələrinə həsr etmiş olduğunu ayrı-ayrı yazılı mənbələr də sübuta yetirir.

Şeyx Zaman şəxsiyyəti ilə əlaqədar digər bir mühüm fakt yenə də müqəddəs Gəncə İmamzadə ziyarətgahı ilə bağlıdır. Belə ki, burada olan qəbir

daşlarının birinin üzərində ərəb dilində belə bir yazı vardır:

«Bunu Şeyx Zaman yazmışdır» [122, s.93-95].

Qeyd olunan epitafiya nümunəsində qəbir abidəsinin mətn hissəsinin məhz Şeyx Zaman tərəfindən yazıldığı (həkk edildiyi) nəzərdə tutulmuşdur.

Digər bir qəbir abidəsinin üzərində isə ilk baxışda fərqli bir insan haqqında verilən məlumata bənzəyən yazı vardır:

«Həkkak Zaman».

Bu nümunələrin qarşılıqlı müqayisəsi nəticəsində aşağıdakı nəticələrə gəlmək olar:

1) Qeyd olunan qəbir abidələrinin forması, hazırlanmasına istifadə edilmiş materiallar onların xronoloji baxımdan eyni bir dövrə aid olmasını göstərir;

2) Hər iki qəbir abidəsinin əsas epitafik göstəriciləri onların ayrı-ayrı sənətkarlıq üslublarına malik olan sənətkar-həkkaklar tərəfindən hazırlanması mülahizəsini qəti şəkildə təkzib edir;

3) Eyni bir məzarlıq (yaxud da qəbiristanlıq) daxilində yerləşən bu abidələrdə məhz şəcərə (soyadı) göstəricisi, işləmə, sənətkarlıq üslubu tamamilə eyni olan iki nəfər müxtəlif həkkakın və xəttatın əl işlərinin əks olunması inandırıcı deyildir;

4) Əgər bütün mülahizələri iki nəfər fərqli sənətkarın mövcud olması fikri ilə uyğunlaşdırsaq belə, Şeyx Zamanın dövrünün çox tanınmış , böyük nüfuz və ehtiram sahibi olduğu təqdirdə heç kəs tərəfindən tanınmayan, haqqında hər hansı məlumatın mövcud olmadığı ikinci bir sənətkarın da bu cür dəyərli sənət nümunələri yaratması həqiqəti əks etdirmir;

5) Bütün bu qeyd edilən mühüm müddəaları ümumiləşdirərək inamla bildirmək olar ki, haqqında bəhs olunan yalnız bir tarixi şəxsiyyətdir. Bu da Şeyx Zamandır.

Beləliklə, görkəmli sənətkar, Şeyxzamanlılar nəslinin layiqli nümayəndəsi olan Şeyx Zaman yalnız həkkaklıq sənətinin mahir bilicisi deyildi. O, eyni zamanda qəbir abidələrinə həkk etdirdiyi epitafik mətnlərin, yazıların müəllifi olmuşdur. «Şeyx» titulunun mövcudluğu isə öz növbəsində onun alimliyinə dəlalət edir.

Bir faktı da xüsusi vurğulamaq lazımdır ki, onun da sələfləri kimi alicənablığı, yüksək dərəcədə sənətkarlıq bacarığı insanların, o cümlədən də hakim dairələrin diqqətini cəlb etmişdir. Nəticədə isə bu sənətkara Gəncəli Cavad xan kimi mötəbər şəxsiyyətlərin təmsil olunduğu nəslin qəbirüstü abidələrinin hazırlanması işi etibar edilmişdir [297, s.19].

Gəncə İmamzadə ziyarətgahının Şeyx Nizami şəcərəsi ilə bağlılığını, onun mənəvi qoruyucusu olduğunu sübuta yetirən mühüm faktlar sırasında bu nəslin nümayəndələrinin Gəncə İmamzadəsi ərazisində dəfn edilməsi göstərilə bilər. Bundan əlavə, nəslin sərdabəsinin mövcudluğu həm də bu müqəddəs məkanda onların da xatirəsinin yaşadılmasına səbəb olmuşdur.

Bu nəslin tanınmış nümayəndələrindən biri olan Şeyx İbrahim Qüdsi Şeyxzamanın (yaxud Şeyxzamanlının) İmamzadə, onun ətraf ərazilərindəki yararlı torpaq sahələrinə sahib olmasına dair bir sıra mənbələrdə məlumatlara təsadüf olunmuşdur. Bu məxəzlər içərisində gürcü çarı olmuş II İraklinin qeydlərindən (təliqələrindən) birində bəhs olunan

ərazinin məhz Şeyx Nizami nəslindən olan şəxslərə məxsusluğu faktı öz əksini tapmışdır. Daha dəqiq desək, burada Şeyxzamanlılar şəcərəsinin nümayəndəsi qismində məhz Şeyx İbrahim Qüdsi Şeyxzamanın adı qeyd edilmişdir [104, s.228].

1501-1736-cı illərdə mövcud olmuş qüdrətli Azərbaycan Səfəvilər dövlətinin qurucusu, görkəmli sərkərdə, şair I Şah İsmayıl Xətainin (1501-1524) oğlu I Şah Təhmasibin (1524-1576) 1526-cı il tarixli fətvasına görə İmamzadə vəqfi məhz Şeyx Nizami Gəncəvinin şəcərəsinin davamçıları Şeyxzamanlılara (Şıxzamanlılara) məxsus olmuşdur. Bu tarixi məqamın sübutu qismində məşhur "Şıx" düzü toponimini göstərmək mümkündür. Qeyd olunan coğrafi məkanın adı Şeyxzamanlılar (yaxud Şıxzamanlılar) ilə birbaşa bağlıdır.

Bundan əlavə, Şeyx İbrahim Qüdsinin şəxsi həyatı ilə də bağlı bir fakt bu məsələdə təsdiqedici rol oynayır. Belə ki, XIX əsrdə yaşamış bu şəxsin vəfatından sonra onun övladlarına, ailəsinə qalmış mirasının siyahısı qeyd olunan məsələ ilə bağlı əhəmiyyət kəsb edir. Şeyx İbrahim Qüdsinin xanımı Şeyx Fatma olmuş, onun doqquz qız övladı və son beşiyi oğul övladı Hacı İsa bəy olmuşdur. Şeyx İbrahim vəfat edərkən onun varidatı (mirası) sırasında böyük təsərrüfatı, xeyli var-dövləti, ömrünün sonuna yaxın oğul övladının dünyaya gəlməsindən sonra inşa etdirməyə başladığı böyük mülkü, Tatlı kəndi ilə yanaşı, müqəddəs məkan olan İmamzadənin də adının qeyd edilməsi bir daha Şeyx Nizami şəcərəsinin tarixi mənbələrdə əks etdirildiyi kimi, irsən Gəncə İmamzadə ziyarətgahının sahibləri olduğunu təsdiq edir [16; 25; 83].

Ümumiyyətlə, Nizami Gəncəvi şəxsiyyəti, onun xələfləri olan və tarixdə Şeyxzamanlılar (Şeyxzamanovlar) adı ilə tanınmış nəslin nümayəndələrinin bağlılığı qismində çıxış edən digər faktoloji əhəmiyyətə malik dəlillər mövcuddur. Bunların içərisində heç şübhəsiz ən tutarlı göstərici müasir dövrdə də əsrlərlə olduğu kimi, Gəncə şəhərinin əsas simvollarının məhz Nizami Gəncəvinin mədfəni - hər bir azərbaycanlının xüsusi ehtiramla yanaşdığı bir ocaq və eyni zamanda, dəyərli abidə, maddi mədəniyyət incisi olan Şeyx Nizaminin məqbərəsi və müqəddəs ziyarətgah, qədim tarixi abidə hesab edilən İmamzadə kompleksi olmasıdır.

Bundan əlavə, Gəncə İmamzadə ziyarətgahının çox böyük bir tarixi müddət ərzində özünün müqəddəsliyi, paklığı və əhalinin inadkarcasına onu bütün mənfi qüvvələrdən, təcavüzlərdən qoruması sayəsində mövcudluğunu itirməməsi həm də Şeyx Nizami şəcərəsinin də tarixdə yaşamasına şərait yaratmışdır. Təsadüfi deyildir ki, bütün haqsız ittihamlar, repressiyalara baxmayaraq, bu nəsil Azərbaycana müsəlman Şərqinin ilk demokratik dövlətində yüksək mənsəb və eyni zamanda ehtiram sahibi olmuş, Azərbaycan Xalq Cümhuriyyətində əks-kəşfiyyat idarəsinin (yaxud Milli təhlükəsizlik Nazirliyinin) rəhbərləri vəzifəsində çalışmış Məhəmmədbağır və Nağı bəy Şeyxzamanlılar, incəsənətimizin əvəzsiz korifeyi, xalq artisti Məmmədrza Şeyxzamanov kimi şəxsiyyətlər bəxş etmişdir.

## II FƏSİL

## GƏNCƏ İMAMZADƏ ZİYARƏTGAHI DƏYƏRLİ TARİXİ ABİDƏDİR

### 1. İmamzadə türbəsi Azərbaycan etnoqrafiyasının mühüm mənbəyi kimi

Etnoqrafiya müasir dünyada müfəssəl elmi tədqiqata xüsusi ehtiyac duyan elmlərdəndir. Bu elm sahəsi tarix elmi ilə sıx bağlıdır və əksər hallarda onun bir tərkib hissəsi kimi səciyyələndirilir. Bununla belə, mahiyyəti etibarilə, həmçinin tədqiqat obyektinin genişmiqyaslılığı baxımından etnoqrafiya daha çox müstəqil, lakin digər elmlərlə qarşılıqlı surətdə bağlı olaraq inkişaf edən bir elm sahəsidir. Məhz onun tədqiq edilməsi də bu nöqteyi-nəzərdən aparılmalıdır.

Mahiyyəti baxımından etnoqrafiya xalqları (və ya etnosları – E.H.), onların məişətini, adətlərini, etnik birliklərin yaranması və inkişafını, həmçinin onların yayılması və qarşılıqlı mədəni əlaqələrini öyrənən və tarixlə birbaşa bağlı olan elm sahəsidir [8, s.4-5; 57, s.2; 122, s.5].

Etnoqrafiya elminin başlıca tədqiqat predmeti müxtəlif xalqların məcmu etibarilə etnik simasını yaradan xarakterik (yaxud səciyyəvi – E.H.), ənənəvi mədəniyyət və məişət xüsusiyyətlərinin öyrənilməsidir. Məhz bu səbəbdən də xalqların, etnos və milli toplumların istər mənəvi, istərsə də maddi sərvətləri, dəyərləri əsasında onları tədqiq edən etnoqrafiya elmi daha çox qədim dövrlərin maddi tapıntılarına əsaslanan arxeologiya, yaxud da xalq və etnosların, etnik qrup və

birliklərin etnogenezi, milli mənşəyi məsələlərinin tədqiqinə xidmət edən etnologiya kimi mühüm elm sahələri ilə qarışıq salınmamalıdır.

Bununla belə, etnoqrafiya yalnız tarix elmi ilə deyil, bir çox digər elm sahələri ilə qarşılıqlı surətdə bağlıdır. Bu baxımdan etnogenez məsələsində etnologiya, arxeologiya, həmçinin antropologiya, xalqların dil qohumluğu və etnik proseslərinin tədqiqində dilçilik, ictimai sinfin və mədəni-etnik hadisələrin tədqiqi sahəsində folklorşünaslıq, mədəniyyət tarixi və sənətşünaslıq, sosiologiya və fəlsəfə, etnos və təbii mühitin qarşılıqlı əlaqəsinin öyrənilməsi, eyni zamanda etnik kartoqrafiyalaşdırma sahəsində coğrafiya kimi elm sahələri ilə etnoqrafiyanın sıx bağlılığı mövcuddur.

Bir məqamı da xüsusi olaraq vurğulamalıyıq ki, etnoqrafiyanın müstəqil fənn kimi, həmçinin elm sahəsi olaraq rəsmi baxımdan formalaşması tarixi XIX əsrə aiddir.

Şərqin qədim şəhərlərindən, yaşayış məskənlərindən hesab edilən Gəncə, əslində bitib-tükənməyən etnoqrafik xəzinədir. Məhz bu nöqteyi-nəzərdən doğma şəhərimizin tarixi – etnoqrafik tədqiqi üçün həm zəngin material – baza resursları mövcuddur, həm də etnoqrafların daha geniş miqyaslı tədqiqatlar aparması zərurəti günün əsas tələblərindən biri kimi çıxış edir.

Bu baxımdan 1300 illik tarixə malik Gəncə İmamzadə abidəsinin müstəsna və tariximiz üçün əvəzsiz əhəmiyyəti vardır. Azərbaycan tarixinin, o cümlədən etnoqrafiyasının çox dəyərli mənbəyi olan bu qədim abidəmizin indiyədək nəinki etnoqrafik cəhətdən yetərincə araşdırılmaması, hətta bu türbə-kompleksi

haqqında irihəcmli monoqrafiyanın, kitabın indiyə qədər dərc edilməməsi bu sahədə hələ çox uzun müddət əsaslı və fasiləsiz tədqiqatlar, araşdırmalar aparılmasının zəruriliyini bir daha təsbit edir.

Qeyd olunduğu kimi, Gəncənin İmamzadə ziyarətgahı erkən orta əsrlər dövründə əsası qoyulmuş və islam dininin Azərbaycan ərazisində yeni yayılaraq kök saldığı, intişar tapdığı dövrü xarakterizə edən abidə kimi çox böyük etnoqrafik əhəmiyyət kəsb edir. Təsadüfi deyildir ki, İmamzadə türbə-kompleksi xalqımızın, o cümlədən gəncəlilərin həyatında o qədər əvəzsiz mövqe tutmuşdur ki, uzun müddət ərzində müxtəlif dönəmlərdə ölkmizin paytaxtı olmuş, özünün bütün mövcudluğu dövründə isə mühüm sosial, elmi-mədəni, iqtisadi və siyasi mərkəz rolunu qoruyub saxlamış qədim Gəncəmizdə bu abidə əhali tərəfindən müqəddəs bir məkan olaraq mühafizə edilmişdir. Ümumiyyətlə, Gəncə İmamzadə abidəsinin, bu sınanmış müqəddəs ziyarətgahın Azərbaycan etnoqrafiyası üçün əhəmiyyətliliyi bir neçə əsas xüsusiyyəti baxımından təsnif edilməlidir:

1) İlk növbədə, qeyd olunmalıdır ki, İmamzadə türbəsi bütövlükdə Azərbaycan xalqının etnogenezinin (etnik tarixinin – E.H.) tədqiqi baxımından mühüm əhəmiyyət kəsb edir. Belə ki, Gəncənin bu qədim abidəsinin əsasının qoyulması dövrü erkən orta əsrlərin Azərbaycan xalqı üçün əvəzsiz dərəcədə vacib bir mərhələsinə təsadüf etmişdir. Daha doğrusu, nəzərə alınsa ki, Azərbaycan dilinin və xalqının təşəkkülü prosesi III-VII əsrlərdə baş vermiş və VII-VIII əsrlərdə başa çatmışdır, o zaman VIII

əsrə aid edilən Gəncə İmamzadə türbəsinin əhəmiyyətini dərk etmək çətin deyildir.

Məhz qeyd olunan məsələni əsas götürərək erkən orta əsrlərin bəhs olunan mərhələlərində xalqımızın, dilimizin vahid ideya istiqaməti ətrafında formalaşmasında tutarlı elmi fakt, dəlillərin üzə çıxarılmasının zəruriliyini İmamzadə abidəsi kimi dəyərli maddi və mənəvi-ideoloji mənbələrin tədqiqi ilə bağlı olduğunu üzə çıxarmaq çox vacibdir. İmamzadə abidəsinin də inşa edilməsi, onun islam dünyasının müqəddəs şəxsiyyətləri ilə bağlı olması və xalqın sonsuz ümid yerinə çevrilməsi qeyd olunan tarixi mərhələdə etnik vahidliyimizin formalaşmasının sübutu qismində çıxış edir. Çünki Azərbaycan xalqının vahid şəkildə, böyük toplum olaraq formalaşmasının zəmini artıq bu dövrdə yetişmişdi [37; 98; 140].

Qeyd edilən səbəblər içərisində bir neçə faktor xüsusilə əhəmiyyət kəsb edir. Əvvəla, dini-ideoloji amil bu baxımdan diqqəti cəlb edir. Belə ki, həqiqətən də vahid dinin – islam dininin meydana gəlməsi xalqımızın təşəkkülü prosesinin uğurla yekunlaşmasında həlledici faktor qismində çıxış etmişdir. İslam dininin Azərbaycanın mütləq əksəriyyət əhalisi tərəfindən qəbul edilməsi onların vahid ideoloji, dini və müvafiq olaraq milli-etnik mövqe, amal ətrafında konsolidasiyasını (təmərküzləşməsini – E.H.) sürətləndirdi. [3, s.87-165; 13; 16].

Məhz bu nöqteyi-nəzərdən mühüm milli (yaxud etnik – E.H.), dini-ideoloji əhəmiyyətə malik olan Gəncə İmamzadə abidəsi xalqımızın etnik tarixinin əsaslı tədqiqində mühüm mənbə rolunu oynayır. Belə ki, xalqın formalaşması, təşəkkülü prosesi fonunda ümumi iqtisadi,

siyasi, sosial və mənəvi-mədəni səviyyədə inkişaf meylləri də sürətlənir və nəticədə istər maddi, istərsə də mənəvi sferada pərakəndəliyin, vahid milli birlik daxilində fərqli cəhətlərin qabarıqlığı minimum səviyyəyə enir. Ümumiyyətlə, Gəncə İmamzadə türbəsinin mühüm tarixi abidə olmaqla yanaşı, birbaşa müqəddəs islam dini ilə bağlı olması, ziyarətgah kimi fəaliyyət göstərməsi həm də Azərbaycan xalqının vahid etnobirlik kimi formalaşmasının sübuta yetirilməsində vacib rol oynamasının göstəricisi olduğuna dəlalət edir. Belə ki, əgər erkən orta əsrlərin bəhs olunan mərhələlərində Azərbaycan xalqı formalaşmasa idi, o zaman Gəncə şəhərində mövcud olan İmamzadə türbəsi yalnız şəhər sakinlərinin, yaxud ətraf ərazilərin əhalisinin deyil, bütövlükdə, Azərbaycan, o cümlədən Qafqazın müxtəlif bölgələrinin müsəlman əhalisinin müqəddəs ziyarətgahına çevrilə bilməzdi. Əksinə, o zaman İmamzadə ziyarətgahına əsrlər boyu müxtəlif bölgələrdən zəvvarların (ziyarətçilərin – E.H.) kütləvi axını da mümkün olmazdı. Hətta bu ziyarət ocağı müxtəlif din və dini təlimlərin tərəfdarları arasında mübahisə, münaqişə məkanına çevrilərdi. Vahid təşəkkül tapmış xalqın mövcud olmadığı şəraitdə isə belə bir tarixi abidənin, ziyarətgahın əsrlər boyu qorunub saxlanılması heç vəchlə mümkün olmazdı.

Məhz bu baxımdan Gəncə İmamzadə türbəsi Azərbaycan xalqının etnik tarixinin çox mühüm mənbəyi hesab edilməlidir.

2) Gəncə İmamzadə türbə-kompleksi həm də xalqımızın tarixən formalaşmış və müxtəlif tarixi mərhələlərdə yeni-yeni xüsusiyyətlər, spesifik milli-etnik cəhətlər qazanaraq daha da

zənginləşmiş etnik psixologiyasının (etnopsixologiyasının-E.H.) tədqiq olunmasında əhəmiyyətlidir.

Ümumiyyətlə, etnik psixologiya milli, irqi, etnik mənsubiyyətin nəzərə alınması şərti əsasında insanların psixoloji xüsusiyyətlərini özündə ehtiva edir. Bir sıra mənbə və ədəbiyyatlarda [158] etnik psixologiya ayrıca bir elm sferası, fənn olaraq da təsnif edilir.

Hər halda, konkret olaraq on üç əsrlik zəngin tarixi keçmişə malik Gəncə İmamzadə türbəsinin Azərbaycan xalqının etnopsixoloji fikir tarixinin əsaslı elmi tədqiqində əhəmiyyətini şərtləndirən bir sıra amillər, ən əsası isə təkzibedilməz faktlar mövcuddur. İmamzadə ziyarətgahı Azərbaycanın, Azərbaycan xalqının vahid islam - Şərq mədəniyyətinə qovuşduğu tarixi mərhələdə yaradılmışdır. Belə ki, artıq bəhs olunan dövrdə Azərbaycan formalaşmaqda olan möhtəşəm islam mədəniyyətinin ayrılmaz bir hissəsinə çevrilirdi. Bundan əlavə, Azərbaycan xalqı tarix boyu hər zaman olduğu kimi ərəblərin də hücumundan sonra bu işğalçılara qarşı uzunmüddətli və inadlı müqavimət göstərmişdir. Amma bununla bərabər, ərəblərin «gətirdikləri» yeni dini-özünün pak cəhətləri ilə fərqlənən islamı xalqımız bəzi müəlliflərin yanlış olaraq qeyd etdikləri kimi qılınc gücünə deyil, könüllü surətdə qəbul etmişdir. Öz mübarizliyi ilə fərqlənən Azərbaycan xalqı heç vaxt heç bir dini, dili məcburən qəbul etməmişdir. Əgər belə olmasa idi, o zaman xalqımız Roma, fars, ərəb, monqol, rus kimi işğalçıların təsiri ilə məhz bu millətlərin arasında öz milli-mənəvi dəyərlərini itirərək onların dili yaxud mentalitetini qəbul edərdi. Amma əksinə, bir çox ərəb hökmdarlarının Azərbaycan torpağına çoxsaylı ərəb

nəsillərini, ailələrini İraq, Ərəbistan yarımadası ərazisindən köçürməsinə baxmayaraq, tezliklə bu ərəblər yerli əhali arasında assimilyasiyaya uğramış, azəri türklərinin (əcdadlarımızın – E.H.) arasında «ərimişlər». Onların izi yalnız ayrı-ayrı «Ərəb» istilahı kəlməsinin qorunduğu kənd adlarında qala bilmişdir [13, s.47-60; 124; 154; 149, s.7, 20-31; 170, s.10-18].

Beləliklə, İmamzadə türbəsinin Azərbaycan xalqının milli mənəviyyatına daha yaxın olan islam dininin pak, humanist və mahiyyəti etibarilə çox demokratik cəhətləri ilə vəhdətdə daha da zənginləşmiş etnopsixologiyasının tədqiqində zəruriliyi danılmazdır.

Yuxarıda deyilənlərlə yanaşı onu da nəzərə almalıyıq ki, İmamzadə abidəsinin əvəzsiz dərəcədə yüksək etnoqrafik dəyər kəsb etməsi yalnız onun islam mədəniyyəti, müsəlman memarlığının vacib keyfiyyətlərini özündə ehtiva etməsi ilə məhdudlaşmır. Çünki bu tarixi abidə və müqəddəs ziyarətgahın Azərbaycan xalqının, əcdadlarımızın etnopsixoloji görüş və təsəvvürlərinin yalnız bəhs olunan erkən orta əsrlərin VII-IX əsrləri əhatə edən mərhələsi ilə bağlı olmaması bu nöqteyi-nəzərdən xüsusilə əhəmiyyət kəsb edir. Daha dəqiq ifadə etsək, Gəncə İmamzadə abidəsi qeyd olunan dövrlə məhdudlaşmayıb sonrakı tarixi mərhələlərdə də yeni-yeni etno-mədəni xüsusiyyətlər qazanan xalqımızın etnik psixoloji dünyagörüşünün ən mütərəqqi, müsbət cəhətlərini də özündə cəmləşdirirdi. Nəzərə alınsa ki, abidənin yaradılma tarixi islam dininin ölkəmizdə yeni yayıldığı, intişar tapdığı dövrə təsadüf edir, islamaqədərki etnopsixoloji dünyagörüşü, etnik mədəni dəyərlərin də qorunub saxlanıldığı şübhəsizdir. Məhz bu, islamın qəbulundan əvvəlki dövrlərdə xalqımızın milli-

etnik, mənəvi dəyər və dünyagörüşü elementlərinin İmamzadə abidəsi ilə bağlı da müəyyən qədər saxlanılmasının sübutudur. Belə ki, xalqımız islam dinini yalnız onun çox ülvi, pak, insanpərvər, həqiqi demokratik dəyərləri özündə ehtiva etməsi səbəbindən könüllü olaraq qəbul etmişdir. Çünki, kişi və qadının hüquq bərabərliyi, yaşca, rütbəcə böyük olan insanlara ehtiram və kiçiklərə qayğı göstərilməsi, əxlaqi dəyərlər, namus, ismət istilahlarının qorunması kimi islam dininin təbliğ etdiyi prinsiplər Azərbaycan xalqının islamaqədərki qədim milli mənəviyyatının ayrılmaz tərkib hissəsi olmuşdur.

Bundan əlavə, gəncəlilər, bütövlükdə isə Azərbaycan xalqı hələ antik dövrlərdən etibarən müqəddəs hesab edilən məkanları, yerləri ziyarət etmiş, bu ərazilərin mühafizəsinə xüsusi diqqətlə yanaşmışlar. Hətta bir çox hallarda özünün xeyirxahlığı ilə fərqlənən xalqımızın müxtəlif tarixi dönəmlərdə ayrı-ayrı nümayəndələri bu cür məkanların abadlaşdırılmasına təmənnasız olaraq maddi məsrəflər sərf etmişlər. Qeyd edilən xeyirxah, humanist əməllər isə təqdirəlayiq haldır ki, bu işləri həyata keçirmiş şəxslərin, şəcərələrin, ailələrin özləri tərəfindən deyil, məhz xalq, əhali tərəfindən təqdir və təşviq edilmişdir.

Zaman keçdikcə insanlar ilahi nurun daha çox mövcud olduğu bu məkanları pir, ocaq, ziyarətgah kimi istilah və məfhumlarla adlandırmağa başlamışdır.

Bir məqam xüsusilə vurğulanmalıdır ki, digər türkdilli xalqların əksər qismində olduğu kimi, Azərbaycan türklərinin də qədim dini görüşlərində təkallahlığa (monoteizmə – E.H.) inam mövcud olmuşdur. Hətta islamdan əvvəlki dövrlərdə Azərbaycan türklərinin bütpərəsilik kimi dini təsəvvürlərlə bağlılığını

iddia edən baxış və konsepsiyaların heç bir elmi əsası yoxdur. Belə ki, bizim əcdadlarımız da qədim dövrlərdə digər türkdilli etnoslar (qövmlər – E.H.) kimi təkallahlılığı təbliğ edən «göy Tanrı» dininə sitayiş etmiş, vahid tanrının mövcudluğunu qəbul etmiş, bəzi digər etnos, xalqlar kimi bütpərəstliyi din olaraq qəbul etməmişdilər [69, s.4-5; 128, s.6-8; 138, s.3-11].

Bundan əlavə, Gəncə İmamzadə türbəsi, ətrafında dəfn olunma faktoru, məzarların mövcudluğu da yuxarıda qeyd olunan məsələlərin, bir növ isbatına xidmət edir. Çünki, əvvəla abidənin yaxınlığında Gəncənin, bütövlükdə Azərbaycan xalqının, dövlətimizin tarixində müsbət, mütərəqqi əməlləri ilə fərqlənmiş insanların, görkəmli şəxsiyyətlərin məzarları mövcuddur. Bunlardan dahi Nizami Gəncəvi nəslinin, şərəcəsinin davamçıları olmuş Şeyxzamanlılar, yaxud Şeyxzamanovların, uzun müddət ərzində Gəncə Cümə məscidinin axundu olmuş, Seyid Mir Abbas Ağanın, XIX əsrin sonunda (1878-1879-cu illərdə) abidənin bərpasına təşəbbüs göstərmiş general-mayor, Rusiya imperiyası ordusunun ikinci atlı müsəlman polkunun sərkərdəsi general-mayor İsrafil bəy Yadigarzadə kimi şəxsiyyətlərin adı xüsusilə qeyd olunmalıdır. Təsadüfi deyildir ki, bu günədək zəvvarlar Mir Abbas ağa kimi həqiqi seyid, övliya olmuş pak xislətli İmamzadə həyətində olan şəxsiyyətlərin də məzarını ehtiramla ziyarət edir, arzu və diləkləri həyata keçənlər qurban, nəzir-niyazlarını gətirir, həmçinin insanlar istəklərinin gerçəkləşməsi üçün dualar edir, bəşəriyyətin nicatı naminə Allaha şükrlər edirlər.

Ümumiyyətlə, İmamzadə abidəsinin ətraf ərazisində bu dəyərli ziyarətgahın adı ilə bağlı adlandırılan «İmamzadə qəbiristanlığı» (məzarlıqları –

E.H.) mövcuddur. Burada müasir günümüzdə də vəfat edən çoxsaylı şəhər sakinləri dəfn edilir.

Yuxarıda adları çəkilmiş şəxsiyyətlər arasında xalqımızın dərin ehtiram bəslədiyi, Gəncə ilə yanaşı, demək olar ki, ölkəmizin bütün bölgələrində ocaqları ilə insanların ümid-inanc mənziləsinə çevrilmiş seyidlərin də olduğu qeyd edilir. Bu, xalqımızın çoxəsrlik etnopsixologiyasının, dini-ideoloji baxışlarının, həm də tədricən milli-mənəvi dəyərlərimizin ayrılmaz tərkib hissəsinə çevrilmiş çox vacib elementidir.

Bu haqda müqəddəs Qurani-Kərimin "Əl-Əraf" surəsinin 181-ci ayəsində belə qeyd olunur:

«Yaratdıqlarımız arasında bir zümrə də vardır ki, onlar insanları haqq yola aparır, haqqı rəhbər tutaraq onlar arasında ədalətlə hökm edirlər».

İslam dininin, bütövlükdə təkallahlılığın, dinin əhəmiyyəti haqqında Qurani-Kərimdə deyilir:

«Dində məcburiyyət yoxdur. Doğru yol axtaran yoldan ayrılıb aydınlaşıb. Kim bütləri inkar eləyib Allaha tapınarsa, o Allahın qopmaz ipindən bərk yapışıb tutmuşdur. Allah eşidəndir hər şeyi, biləndir hər şeyi» [Əl-Bəqərə surəsi, ayə 256].

Təəssüf doğurucu faktdır ki, bəzən Allaha, dinə sədaqətlə itaət göstərən, müqəddəs şəcərələrin – Peyğəmbər, imamların nəsillərindən olan seyid, övliya ocaqlarına, pirlərə, ziyarətgahlarına zəvvarların gedişini yanlış olaraq bütpərəstlik kimi qiymətləndirirlər. Əslində isə müqəddəs yerlərin, məkanların hamısı nurun daha çox mövcud olduğu, Allahın xeyir-bərəkət verdiyi həqiqi ilahi məkanlardır. Zəvvarlar da burada məhz Allaha dualar edir, ondan möcüzənin yaradılması diləyini etmək üçün bu nurlu məkanlara üz tuturlar. Həqiqətən də hələ

qədim zamanlardan etibarən əcdadlarımız şər, mənfi qüvvələrdən çox uzaq olan bu ilahi məkanlardakı nuru, paklığı fəhm ilə duyublar və müvafiq olaraq nəsildən-nəslə ən qiymətli mənəvi dəyərlərimizdən biri kimi ötürüblər.

Qeyd olunan fakt öz növbəsində, Gəncənin bu qədim ziyarətgahının, dəyərli tarixi abidəsinin Azərbaycan xalqının etnik psixologiyasının digər qonşu müsəlman millətləri, o cümlədən türkdilli xalqları ilə qarşılıqlı müqayisə şəraitində araşdırılmasındakı əhəmiyyətinin təsbit olunmasına xidmət edir. Belə ki, Gəncədə mövcud olan İmamzadə ziyarətgahı mahiyyəti etibarilə müsəlmanlar, xüsusilə də Qafqaz müsəlmanlarının arasında mənəvi, ideoloji körpü funksiyasını yerinə yetirir. Təsadüfi deyil ki, bu müqəddəs ziyarətgaha gələn zəvvarlar, linqvistik, irqi xüsusiyyətləri baxımından fərq qoyulmadan qonaqpərvərliklə qəbul edildikləri kimi, buranın pak ənənələrini, ayinlərini də birlikdə, bərabər şəkildə, mənəvi birlik, qardaşlıq şəraitində icra edirlər.

Hətta islam dünyasının müqəddəs şəxsiyyətlərindən hesab olunan İmam Məhəmməd Bağırın oğlu İbrahimin vəfatından sonra ona ucaldılmış Gəncə İmamzadə türbəsini nəinki yalnız islam dininin çoxsaylı nümayəndələri, həm də qeyri-müsəlmanlar da ardıcıl olaraq ziyarət edirlər [161, s.51]. Burada iki məqsədin mövcudluğu əsaslandırıla bilər:

a) Qeyri-müsəlmanlar bu müqəddəs ziyarətgaha gələn minlərlə, on minlərlə insanın nicat tapdığının, dualarının müstəcəb olduğunun (həyata keçdiyinin – E.H.) şahidi olduğundan, buranın da Allahın daha çox nur bəxş etdiyi, həqiqi ibadətgah olan bir məkan kimi

insanlara şəfa, nicat mənbəyi olduğunu dərk edirlər. Məhz bu səbəbdən də bu cür saf, pak yerlərin, ziyarətgahların qeyri-müsəlmanlar tərəfindən də yad edilməsi faktoru danılmazdır. Çünki Allah birdir, xalqlar, qövmlərin sayı isə çoxdur.

b) Qeyri-müsəlmanlar həm də bu dəyərli ziyarətgahın mühüm tarixi abidə olması, özündə Azərbaycan tarixinin qədim dövrlərini ehtiva etdiyini qəbul edərək onu əyani olaraq görməyi mühüm məsələ hesab edirlər.

Gəncə İmamzadə abidəsi əvvəlki fəsildə qeyd olunduğu kimi, VIII əsrdə yaşamış islamın beşinci İmamı Məhəmməd Bağır əleyhissəlamın qəddar xəlifə Hişam tərəfindən xəyanətlə qətlə yetirilməsi (zəhərləndirilməsi – E.H.) hadisəsindən sonra onun oğlu İbrahimin Azərbaycana pənah gətirməsi ilə bağlı abidədir. Daha doğrusu, bəhs olunan dövrdə İbrahim Azərbaycana gəlmiş, xalqımız əhli-beytə olan sonsuz sevgisi, ehtiramı ilə bağlı bu imam övladını da rəhmsiz xəlifənin məkrindən, təqibindən qorumuşdur. Lakin xəlifə öz xəfiyyələrini, casuslarını müxtəlif ölkələrə göndərmiş, buralarda Məhəmməd Peyğəmbər (s.) nəvələrinin öldürülməsini əmr etmişdi. Təəssüflər olsun ki, İbrahim (ə) da bu məkrin qurbanı oldu və Abbasi xəlifəsi Mənsurun göndərmiş olduğu əhli-beyt düşmənləri tərəfindən qətlə yetirilmiş, bir sıra mənbələrdə göstərildiyi kimi 743, yaxud 745-ci ildə (və ya 743-745-ci illər arasındakı dövrdə – E.H.) [161, s.50-51; 152, s.49-50], yaxud da 739-cu ildə şəhid olaraq Gəncədə dəfn edilmişdir. Burada isə indiki «İmamzadə» piri (yaxud türbəsi – E.H.) inşa olunmuşdur [5; 88, s.232].

Eyni zamanda, İmamzadə piri və ya türbəsi istər müxtəlif mənbə və ədəbiyyatlarda, istərsə də xalq arasında həm də İmamzadə ziyarətgahı adlandırılır. Bu isə çox düzgün və təbii haldır. Belə ki, ziyarətgah – islam dinində işlənən «ziyarət» sözündən yaranmışdır. Bu söz isə, öz növbəsində müqəddəs, pak şəxsiyyətlərin, yəni peyğəmbərlərin, övliyaların, şeyxlərin məzarlarına baş çəkmək adəti mənası daşıyır [14, s.4-5; 63; 69].

Bu məqamda Gəncədə yas mərasimləri ilə bağlı təqdirəlayiq, eyni zamanda səciyyəvi adət-ənənələr sırasında mərhum şəxsin vəfatından sonra pulun toplanmaması qeyd edilməlidir. Belə ki, hər bir gəncəli yaşadığı müddətdə müəyyən məbləğdə "can haqqı" adlanan vəsaiti tədricən yığır və onun dəfn mərasimi zamanı bu puldan istifadə edilirdi. Nəticədə isə mərhumun əzizləri, qohum-əqrəbaları dini, milli ənənə və dəyərlərimizə müvafiq surətdə yas mərasimi keçirirdilər.

Ümumiyyətlə, qəlbində Tanrıya diləyi olan mömin insanlar ziyarətgahlara getməyi özlərinə mənəvi borc hesab edirlər. Həqiqətən də bu müqəddəs ilahi məkanlarda insanın sirr saxlayıb, heç kəsə söyləyə bilmədiyi kəlmələr, istək və arzular dilə gəlir. Azərbaycanda isə müqəddəs ziyarətgahların sayı kifayət qədərdir. Allaha, dinə sədaqətli münasibəti ilə fərqlənən Azərbaycan xalqı hələ çox qədim dövrlərdən, hətta islamaqədərki mərhələlərdən etibarən bu cür pirlərin, ziyarətgahların qorunub saxlanmasına xüsusi diqqətlə, həssaslıqla yanaşmışdır. Bu baxımdan yalnız Azərbaycanın deyil, müsəlman dünyasının müqəddəs ziyarətgahlarından, dəyərli tarixi irsin yaşadıcısı olan, abidələrindən biri - İmamzadə türbəsi də xüsusi əhəmiyyətə malikdir.

Nəhayət, Gəncənin İmamzadə abidəsinin, bu dəyərli, müqəddəs pirin Azərbaycan etnoqrafiyasının mühüm mənbəyi olması faktının elmi nöqteyi-nəzərdən təsbit olunmasına dəlalət edən daha bir xüsusiyyətini araşdıraq:

3) Gəncə İmamzadə türbə-kompleksinin Azərbaycan etnoqrafiyasının elmi cəhətdən tədqiq olunmasında ən əhəmiyyətli xüsusiyyətlərdən biri də abidənin xalqımızın minilliklərə istinad edən etnik-mədəni (yaxud etnomədəni) dəyər və ənənələrinin daha geniş surətdə üzə çıxarılmasına şərait yaratmasıdır.

Qeyd olunan cəhət bir sıra vacib aspektlər baxımından təsnif oluna bilər.

Əvvəla, Azərbaycan xalqının əsrlərdən qaynaqlanan və zamanın «sınaq süzgəcindən» uğurla çıxmış milli-mənəvi dəyərləri, etnik-əxlaqi dünyagörüşü, təsəvvürləri, estetik baxışları mövcuddur. Gəncədə İmamzadə türbəsi və eyni zamanda buraya zəvvarların gəlişi və abidəni ziyarət etməsi prosesi, öz növbəsində yuxarıda sadalanan mühüm xüsusiyyətlərin müfəssəl surətdə, təfsilatı ilə üzə çıxarılmasına və həm də tədqiq edilməsinə imkan verir:

Birincisi, Gəncənin qədim və zəngin şərəfli tarixi ilə seçilən İmamzadə piri Azərbaycan xalqının minilliklərlə hifz etdiyi və islam dininin qəbul edilməsindən sonra daha da zənginləşmiş iki mühüm mənəvi-əxlaqi dəyərini özündə ehtiva edir:

a) İnsanların bərabərliyi, hüquq və azadlıqlarının qorunması və bu hüquqlara hörmətlə yanaşılması;

b) Başqa bölgə yaxud da ölkələrdən olan insanlara (zəvvarlara - E.H.) münasibətdə qonaqpərvərliyin nümayiş etdirilməsi.

Birinci xüsusiyyətlə bağlı qeyd etmək lazımdır ki, xalqımız tarixən digər milli, irqi, dini və digər cəhətləri ilə fərqlənən insanlara münasibətdə hər zaman müsbət baxımdan yanaşıb. Bununla belə, haqqı, ədaləti hər şeydən üstün tutan Azərbaycan xalqı başqa millətlərin, qövmlərin nümayəndələrinə münasibətdə bərabərlik prinsipini qoruduğu kimi, qarşı tərəfin də bu prinsip və məramlara sadiqliyini zəruri hesab edib. Odur ki, insan hüquq və azadlıqlarına münasibət heç də birtərəfli deyil, qarşılıqlı xarakter daşımalıdır.

Digər vacib faktor qismində çıxış edən qonaqpərvərlik də xalqımızın qədim və bütün millət və xalqlara nümunə, örnək olan təqdirəlayiq xüsusiyyətidir. Gəncənin İmamzadə abidəsini ziyarət etməyə, bu dəyərli türbə-kompleksi, buradakı qəbir abidəsi ilə tanış olmaq yaxud bu abidələri tətbiq etmək istəyən bütün insanlara məhdudiyyət qoyulmadan şərait yaradılması yuxarıda qeyd olunan məsələləri sübuta yetirmiş olur.

Məhz bu səbəbdən də Gəncə İmamzadə abidəsini ziyarət edən insanların sayı ilbəil durmadan daha da artır. Zəvvarların arasında həyat təcrübəsi kifayət qədər çox olan nurani ağbirçək və ağsaqqallarımızla yanaşı, bütün yaş dövrlərini təmsil edən insanların, o cümlədən mənəvi kamilliyə qovuşmaq yolunda hələ kövrək addimlarını atmağa cəhd göstərən kiçik yaşlı körpə oğlan və qızların olması bu müqəddəs məkanın müsbət aurası və həm də hər kəsin mənəvi rahatlığa, saflığa qovuşmasının burada mümkün olmasından irəli gəlmişdir.

İkincisi, qadına sonsuz dərəcədə böyük ehtiramın təcəssüm olunması. Gəncənin İmamzadə abidəsində istər kütləvi insan axını ilə müşayiət olunan dini mərasimlərin

keçirilməsi zamanı, istərsə də adi ziyarət günlərində qadınlara, ana və bacılarımıza münasibətdə xüsusi hörmətin, ehtiramın nümayiş etdirilməsi deyilənlərə sübutdur.

Çox maraqlıdır ki, valideynlərə, yaşca, rütbəcə böyük olan insanlara, həqiqi ağbirçək və ağsaqqallara hörmət hissi Azərbaycan xalqının artıq milli mənəviyyatının ayrılmaz tərkib hissəsinə, ən mühüm elementlərdən birinə çevrilmişdir. Ümumiyyətlə, qadına olan ehtiram hissinin, xüsusi qayğıkeş münasibətin ən vacib səbəblərindən biri də məhz ən əziz, müqəddəs şəxslərdən hesab edilən anaya olan məhəbbət duyğusudur.

Tarixi, etnoqrafik nöqteyi-nəzərdən yanaşdıqda aydın olur ki, xalqımızın qadın şəxsiyyətinə olan ehtiramlı münasibəti heç şübhəsiz müqəddəs dinimiz olan islamın müvafiq surətdə öz əksini tapmış qayda-qanunlarından irəli gəlmişdir. Bununla yanaşı, xüsusilə qeyd etmək lazımdır ki, hələ çox qədim, antik tarixi dövrlərdə əksər dünya xalqlarının, o cümlədən hal-hazırda yüksək iqtisadi inkişafa sahib olan qərb dünyasının - Avropa, Amerika sakinlərinin əcdadlarının qadını az qala əşya, qul hesab etdikləri dönəmdə Azərbaycan xalqı qadın şəxsiyyətinə inanılmaz dərəcədə böyük ehtiramla münasibət bəsləmişdir.

Təkcə bir faktı qeyd etmək kifayətdir ki, erkən orta əsrlər dövrünü əhatə edən Kitabi-Dədə Qorqud kimi qədim eposumuzun «Salur Qazanın evinin yağmalandığı boy», «Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy», həmçinin digər çoxsaylı qəhrəmanlıq və məhəbbət dastanlarımızda, nağıl və digər folklor nümunələrimizdə ana, qadın şəxsiyyətinə, hətta dünyaya yeni gələn körpə

qızlara, ailə quran gəlinlərə münasibətdə öz əksini tapmış çox pak, demokratik, həqiqi humanist münasibət bütün bəşəriyyət üçün örnək olmalıdır [4; 11; 21; 23; 25].

Üçüncüsü, Gəncə İmamzadə türbəsi xalqımızın yüksək dini tolerantlıq, dözümlülük mədəniyyətinin də təsbitinə əsas verir. Etnik, mənəvi-ideoloji xüsusiyyətlərimiz içərisində özünəməxsus yeri olan və dünya xalqları üçün həqiqi nümunə kimi göstərilə bilən bu müsbət insani keyfiyyətimiz ölkəmizin digər ziyarətgahlarında olduğu kimi, İmamzadə də qorunub saxlanılmışdır.

Ümumiyyətlə, biz azərbaycanlıların digər din, millət və irqlərin təmsilçilərinə münasibətdə bu qədər dözümlülük, səmimi qonaqpərvər, dostcasına rəftarı qədim tarixi dövrlərdən müasir günümüzədək çoxlarını təəccübləndirməkdə davam edir. Qeyd etmək zəruridir ki, ölkəmizdə bu cür ziyarətgahların heç bir təhlükə qorxusu olmadan insanlar, hətta əcnəbi dövlətlərin vətəndaşları tərəfindən sərbəst surətdə ziyarət edilməsi mövcud olan siyasi sabitlik, hərtərəfli iqtisadi-sosial tərəqqi, dini tolerantlıq mühiti ilə birbaşa bağlıdır.

Dördüncüsü, Gəncə həqiqətən də mübaliğəsiz qeyd etmək olar ki, müqəddəs və çox qeyri-adi mənəvi-potensial enerjiyə malik bir şəhərdir. Burada şübhəsiz ki, şəhərin yerləşdiyi məkanın əlverişli mövqeyə malik olması, təbiətin bir neçə möcüzəsi - Kəpəz dağı, Göy-göl və digər mənzərəli məkanlarla, səfalı guşələrlə əhatə olunması ilə bərabər, İslam dünyasının müqəddəs şəxsiyyəti, bəşəriyyətə yalnız və yalnız pak, ülvi məramlar uğrunda mübarizə üçün Allah tərəfindən bəxş edilmiş, insanlığı sülh və barışa, həmrəyliyə səsləmiş Məhəmməd Peyğəmbər (s) nəslinin, şəcərəsinin (Əhli-

Beytin- E.H.) bir sıra nümayəndələri, o cümlədən şərəfinə İmamzadə türbəsi ucaldılmış İbrahim əleyhissəlamın bu şəhərə pənah gətirməsi kimi faktorlar həlledici əhəmiyyət kəsb etmişdir.

Təsadüfi deyildir ki, ətraf bölgələrlə müqayisədə hətta təbii fəlakətlərin də daha az və tələfatsız baş verdiyi doğma Gəncə şəhərimiz xalq arasında «İmam Hüseyn şəhəri» olaraq qəbul edilmişdir. Çox maraqlıdır ki, uca Allahın mərhəməti və sevgisi bu şəhəri həmişə müşayiət edir. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, 1139-cu il 30 sentyabr tarixində Gəncədə baş vermiş dəhşətli zəlzələ böyük dağıntı və tələfatlara səbəb olsa da, bu fəlakət sanki Allahın hökmü ilə Gəncəyə gözəllik bəxş etdi. Belə ki, «Azərbaycanın mirvarisi» adlandırılan Göy-göl və digər göllər, Kəpəz zirvəsi kimi əsrarəngiz, bütün dünyada analoqu olmayan səfalı guşələr məhz qeyd edilən zəlzələ nəticəsində meydana gəlmişdir.

Bəhs olunan dövrdə - XII əsrdə, Eldənizlər (Atabəylər, Atabəy Eldənizlər- E.H.) dövlətinin mövcudluğu mərhələsində (1136-1225) Gəncə şəhəri sürətli inkişaf dövrünü yaşayırdı. Qeyd olunan tarixi mərhələyə aid bir sıra mənbələrdə Gəncə Yaxın Şərqin ən möhtəşəm şəhərlərindən biri kimi xarakterizə olunmuşdur. Misal olaraq İbn əl-Əsirin Gəncəni «Arranın anası», Rəşid əd-dinin «Arranın ən böyük şəhəri» adlandırmaları və digər tarixçilərin, səyyahların qeydləri göstərilə bilər.

Maraqlıdır ki, bu zəlzələ baş verərkən artıq üç əsrə yaxın bir zamanda zəvvarların daimi ziyarət məkanına çevrilmiş İmamzadə türbəsi də Gəncədə mövcud idi. Hətta bu tarixdən sonra, həmçinin növbəti əsrlərdə də Gəncə şəhərinin yeri, məkanı köçürüldü. İmamzadə

ziyarətgahını isə heç şübhəsiz uca Allah hifz etdi. İbn əl-Əsir bu fəlakətli zəlzələ haqqında yazırdı:

«Hicri 534-cü ildə (yaxud 1139- E.H.) Azərbaycan və Arranın vilayətlərində zəlzələ oldu, ən güclü zəlzələ Gəncədə baş verdi. Orada çoxlu evlər dağıldı, saysız-hesabsız adam qırıldı. Deyirlər ki, ölənlərin sayı 230 min nəfərdən çox idi» [43; 180].

Lakin göründüyü kimi, İmamzadə abidəsi kimi, çox qüdrətli iqtisadiyyata, elm və mədəniyyətə malik Gəncə də qısa zaman ərzində yenidən normal həyat səviyyəsini bərqərar edə bildi.

Bu sahədə ən əhəmiyyətli, tariximiz üçün ən əvəzsiz uğur zəlzələdən cəmi iki il sonra, daha doğrusu 1141-ci ildə sözün qüdrəti ilə özü bir dünya yaratmış bəşər ədəbiyyatının əbədiyaşar zirvəsi, görkəmli mütəfəkkir, alim, filosof, qüdrətli söz sənətkarı və həm də çox pak, müqəddəs şəxsiyyət - Şeyx Nizaminin bu qədim şəhərdə anadan olması idi. Heç vaxt Gəncəni tərk etməmiş, başqa diyar və ölkələrdə təhsil almamış, fəaliyyət göstərməmiş Nizami Gəncəvi bütün bəşəriyyəti hələ də heyrətə gətirən ən dəyərli əsərlərini məhz bu qədim və müqəddəs şəhərdə yaratmışdır.

İmamzadə abidəsi də Gəncə şəhəri kimi hər zaman Allahın hökmü, kəraməti sayəsində nəinki təbii fəlakətlər, hətta müharibə və dağıdıcı düşmən hücumlarına məruz qalsa da məhv olmamış, mövcudluğunu qoruyub saxlamışdır. İmamzadə türbəsi, çoxsaylı məscid və ibadətgahların, Şeyx Nizami kimi pak şəxsiyyətlərin var olduğu qədim Gəncə haqlı olaraq «İmam şəhəri», «Müqəddəs şəhər» adlandırılmışdır [43; 57; 68].

Beşincisi, Azərbaycan xalqının milli-etnik dəyərli sırasında birlik, həmrəy olmaq ideyaları hələ çox qədim dövrlərdən etibarən mövcud olmuşdur. Sevindirici haldır ki, Gəncənin İmamzadə ziyarətgahı məhz bu ülvi amala xidmət edir. Belə ki, İmamzadə türbə-kompleksində keçirilən müxtəlif vacib dini mərasimlər zamanı bütün xalqımızın milli həmrəylik, qarşılıqlı vəhdətlilik kimi müsbət cəhətlərinin təcəssümü duyulur. Adi ziyarət günlərində də ölkə vətəndaşlarının Gəncə İmamzadə türbəsini yad edərkən nümayiş etdirdikləri birlik, bir-birinə münasibətdə göstərdikləri mədəni, nəzakətli münasibət bu vacib xüsusiyyətlərin mühit tərkib hissəsini təşkil edir.

Qeyd olunduğu kimi, daha çox zəvvarın iştirak etdiyi kütləvi xarakterli mərasimlərdə isə bu cəhət özünü daha qabarıq surətdə büruzə verir. Məhz bu cür mərasimlərdə insanlar vahid millətin, xalqın, doğma və bölünməz Azərbaycanımızın nümayəndələri olduqlarını daha dərindən dərk edirlər. Eyni zamanda, Gəncə İmamzadə ziyarətgahında təşkil edilən və xalqın nümayəndələrinin, mömin şəxslərin könüllü surətdə iştirak etdikləri bu mərasimlərdə vahid Azərbaycançılıq məfkurəsi (ideologiyası -E.H.) özünün bütün təqdirəlayiq cəhətləri ilə təzahür edir.

Təsadüfi deyil ki, qeyd edilən mərasimlərdə sosial, ictimai mövqeyi, cəmiyyətdə sahib olduğu vəzifə və rütbələrdən asılı olmayaraq hər bir şəxs bərabər hüquqlarla, heç bir ayrı-seçkilik olmadan sərbəst iştirak edə bilir. Bu isə, öz növbəsində Allah qarşısında hər bir insanın eyni, bərabər hüquq və vəzifələr daşıdığını sübut edir. Nəticə etibarilə hər bir azərbaycanlı dünyada yaşayan soydaşları ilə birgə 60 milyonluq vahid bir

toplumun ayrılmaz bir üzvü olduğunu tam məsuliyyəti ilə dərk edir.

Altıncısı, geniş etnoqrafik mənada Gəncə İmamzadə ziyarətgahı insanların mənəvi deqradasiyaya uğramasının qarşısının alınması, onların mənəvi və milli-ideoloji saflıq, kamilliyə qovuşmasında çox mühüm əhəmiyyət kəsb edən həqiqi, sınanmış müqəddəs ocaqdır.

Belə ki, əvvəla milli-etnik aspektdən qeyd olunan məsələyə yanaşsaq, vurğulamaq lazımdır ki, dünyada gedən sürətli etnokonsolidasiya, qloballaşma, milli-mədəni dəyərlərin itirilməsi və xalqların bir-birinə «qovuşaraq» etnik, milli spesifikalarını unutması prosesləri fonunda Gəncə İmamzadə türbəsi mənəvi bir sədd rolunu oynayır, milliliyin qorunması nümunəsini yaşadır.

Ümumiyyətlə, çox maraqlıdır ki, Gəncə İmamzadə türbəsi islami prinsip və dəyərlərdən çıxış edərək dünyada sülhün, əmin-amanlığın, bütün müsəlmanların və bütövlükdə bəşəriyyətin birliyinin qoruyucusu qismində çıxış edir. Çünki Gəncə İmamzadə türbəsi və burada mövcud olan saf, müqəddəs ilahi mühit xalqımızın birliyini, vəhdətliyini, həmrəyliyini təbliğ edir.

Yeddincisi, Gəncə İmamzadə ziyarətgahı tarixi fakt və dəlillərə istinad edilməklə insanı heyrətə gətirə biləcək dərəcədə müqəddəs, sınanmış bir ocaq, şər, qara qüvvələrin heç cür təsir edə bilmədikləri bir ilahi məkan kimi əvəzsizdir.

Belə ki, islam dünyasının müqəddəs şəxsiyyəti, özünün hakimiyyətdə olduğu, xəlifə kimi böyük Ərəb xilafətini idarə etdiyi dövrlərdə (656-661-ci illərdə-E.H.) yüksək dərəcədə humanistliyi, ədalətliliyi ilə tabe edilmiş

xalqların, milli azlıqların dərin ehtiramını, rəğbətini qazanmış Həzrəti Əli (ə) (yaxud Əli ibn Əbutalib- E.H.) 661-ci ildə Kufə şəhərində Əbdürrəhman ibn Mülcəm tərəfindən qəddarcasına qətlə yetirildikdən sonra Əməvilər sülaləsi hakimiyyətə sahib oldu. Məhz bu səbəbdən də Məhəmməd Peyğəmbərin (s) nəslinin nümayəndələri əsassız olaraq təqib və təzyiqlərə məruz qaldılar [62; 63; 64, s.4-5; 344; 347].

Bəhs olunan dövrdən sonra müsəlmanların beşinci imamı Məhəmməd Bağırın (ə) oğlu Həzrəti İbrahim Azərbaycana, qədim və pak şəhər olan Gəncəyə pənah gətirdi. İmamzadə piri də məhz bu müqəddəs şəxsiyyətin şəhid olmasından sonra ona məzarı üzərində inşa edildi və müsəlman dünyasının mühüm ziyarətgahlardan birinə çevrildi. Bununla yanaşı, Peyğəmbər nəvələrinin bir çoxu ölkəmizin digər bölgələrinə pənah gətirmişdir. Belə ki, Bakının Bilgəh qəsəbəsində Həzrəti Leyla xanımın qəbri, Nardaran kəndində Həzrəti Rəhimə xanımın məzarı, Bibiheybətdə Həzrəti Hökümə xanımın qəbri qeyd olunan tarixi hadisələrin faktoloji sübutlarıdır. Bundan əlavə, beşinci imam Məhəmməd Bağırın digər bir oğul övladı (beşinci imam Məhəmməd Bağırın cəmi 5 oğlu olduğu qeyd edilir - E.H.) Məhəmməd Sadiqin öz xanımı, nökəri ilə birgə Bakının Bülbülə kəndinə gəldiyi, burada məskən saldığı da məlumdur.

Bir faktı da qeyd etmək lazımdır ki, Azərbaycanın füsunkar təbiətinə, insanlarının nəcibliyi, qonaqpərvərliyinə heyran qalmış imam övladları yalnız Gəncə, Bakıda deyil, həm də Şamaxıda məskən salmış, məhz bu məkanlarda da dəfn olunmuşlar.

Lakin qəddar Əməvi, sonra isə bəzi Abbasi xəlifələrinin zülmündən qurtularaq mövcudluğunu əsrlər

boyu qorumuş müqəddəs «İmamzadə» abidələrimiz 1937-ci il Sovet imperiyasının repressiya zülmünün haqsız olaraq hədəfinə çevrildi [8, 63, 64, s.5].

Daha doğrusu, Bakının Şıx kəndində, VIII imam Rzanın bacısı və imam Museyi Kazımın qızı Hökümə xanımın dəfn olunduğu Bibiheybət ziyarətgahı, həmçinin Bülbülə kəndindəki İmamzadəyə 1937-ci il repressiyalarından ağır zərbə vurulmuş oldu. Bülbülə imamzadəsi tamamilə yerlə-yeksan edildi, onun olduğu ərazidə isə uşaq evi inşa edildi. Müqəddəs bir ziyarətgahın bu qədər qəddarcasına məhv edilməsi həqiqətən də qeyri-insani davranış kimi səciyyələndirilə bilər.

Çox maraqlıdır ki, Azərbaycanda mövcud olan bu cür müqəddəs ziyarətgahlar, ocaqlar içərisində yalnız Gəncənin İmamzadə piri 1937-ci ilin dəhşətli repressiyasının «qara buludlarının» təsirindən yan keçə bilmişdir. Qeyd edilən faktın bir sıra aspektlərdən əsaslandırılması vacibdir.

Əvvəla, Gəncə İmamzadə ziyarətgahının müqəddəs, ilahi gücü, qüdrəti qəddar din əleyhdarlarını - «Allahsızları» belə bu abidəyə toxunmaqdan çəkindirmişdir. Xalq arasında Gəncə İmamzadə abidəsini məhv etmək, hər hansı başqa bir istiqamət və təyinatlı obyektə çevirmək istəyənlərin dəfələrlə qeyri-adi, ilahi qüvvə tərəfindən geri çəkilməyə məcbur olduqlarından bəhs edən deyimləri çoxdur.

Bundan əlavə, Gəncə İmamzadə abidəsi fasiləsiz olaraq əsrlərdən bəri mövcud olan ictimai-siyasi formasiya, rejimlərdən asılı olmayaraq sonsuz sayda zəvvarlar tərəfindən ziyarət olunur.

Eyni zamanda, tariximizə Nizami Gəncəvi, Məhsəti xanım, Bəndər, Comərd Qəssab, Cavad xan kimi qələmi və qılıncı ilə mübarizə aparmağı bacaran, istiqlaliyyəti, doğma yurdunu hər şeydən uca tutan şəxsiyyətlər bəxş etmiş Gəncə, İmamzadə abidəsinin də mühafizəsini təşkil edə bildi. Belə ki, gəncəlilər və bütün Azərbaycan xalqı bu abidəni ziyarət etməklə yanaşı, onun səliqə-səhmanına, türbənin restavrasiyasına (bərpasına), mövcudluğuna qayğını və onu qoruyaraq gələcək nəsillərə olduğu kimi çatdırılmasını nəsildən-nəslə əmanət olaraq ötürdü.

Məhz sadalanan faktlar Gəncə İmamzadə abidəsini dəhşətli fəlakətlərdən, haqsız, qəddar repressiyalardan qorudu. Nəticədə bu müqəddəs məkan etnik, milli, irqi, sosial, ictimai mənsubiyyətindən asılı olmayaraq, Allaha inanaraq ona səcdə edən mömin insanların əvəzsiz dini inanc yeri kimi mövcudluğunu qoruyub saxlaya bilmişdir.

Sevindirici haldır ki, ölkəmizin müstəqillik əldə etməsi, dini, milli dəyərlərimizin bir növ özümüzə qaytarılması, mənəvi dəyər və ənənələrimizin bərpa edilməsi nəticəsində ötən əsrin 30-cu illərində məhv edilmiş Bülbülə İmamzadə ziyarətgahı, həmçinin Bibiheybət məqbərəsi kimi dini ocaqlarımız da tədricən öz əvvəlki görkəmini, əzəmətini qazana bilir. Belə ki, 1988-ci ildə yerli əhalinin yardımı ilə Bakının Bülbülə kəndindəki ziyarətgahın təmir və bərpa işlərinə qismən başlanmış, 1993-cü ildən isə tam bərpa olunmasa da, Bülbülə İmamzadəsi rəsmi fəaliyyət göstərməyə başlamışdır [4; 5, 14, s.4-5].

Bibiheybət ziyarətgahına (yaxud Hökümə xanım ziyarətgahı- E.H.) gəldikdə isə qeyd etmək lazımdır ki,

bu dəyərli məqbərənin ətrafında hələ uzun illər öncə minarə, məscid, kitabxana, sandıqvari sərdabələr, qədim əlyazmalar, daş kitabələr, Şərq üslubunda divar naxışları, ornamentləri olmuşdur. 1937-ci il repressiyası zamanı bu ziyarətgah, abidə məhv edilsə də, Azərbaycan müstəqilliyini bərqərar etdikdən, ölkə rəhbərliyinə xalqımızın ulu öndəri Heydər Əliyev gəldikdən sonra onun yenidən bərpasına başlanıldı. Ulu öndərimizin layiqli varisi, ölkə prezidenti cənab İlham Əliyev də bu ulu amallara sadiq qalaraq bir çox mühüm dini ziyarətgahlarımız kimi Bibiheybət abidəsinin də əsaslı təmiri və yenidən qurulması sahəsində mühüm tədbirlər həyata keçirilməsinə şərait yaratmışdır. Bu gün artıq Bibiheybət xalqımızın dini inanc məkanı, müqəddəs ziyarətgahıdır [122 – 128; 156].

Səkkizinci, Gəncə İmamzadə abidəsi geniş etnoqrafik mənada xalqımızın mental dəyərlərinin, xüsusilə də ailə və nigahla bağlı ənənələrimizlə əlaqədar dəyərlərin qorunması sahəsində əvəzsiz bir məkandır. Belə ki, bütün bölgələrimizdə olduğu kimi, milli-mənəvi dəyərlərimizin, adətlərimizin mühafizəsi və gələcək nəsillərə çatdırılması sahəsində Gəncədə də ailə, nigah məsələlərinə xüsusi diqqət yetirilir.

Bir faktı nəzərə almaq lazımdır ki, Gəncədə «əxlaq», «namus», «ismət», «abır», «qeyrət» istilahlarına çox böyük önəm verilir. Məhz bu səbəbdən də böyüklərə, valideynlərə ehtiram, kiçiklərə, uşaqlara isə qayğı göstərilməsinin mənəvi həyatın bütün sahələrində, xüsusilə da ailədə çox diqqətlə, haqlı olaraq mühafizəkarcasına qorunduğu Gəncədə evlənmək, ailə qurmaq, yeni bir ocağın əsasını, bünövrəsini qoymaq inanılmaz dərəcədə müqəddəs bir iş, çox böyük

məsuliyyət tələb edən qərar hesab olunur. Odur ki, Gəncədə ailə qurulması, yeni nəsillərin qohum olması məsələsinə hədsiz dərəcədə həssaslıqla yanaşılır.

Təsadüfi deyildir ki, Gəncədə ailə qurularkən gənclərin də münasibəti, mövqeyi hər zaman nəzərə alınsa da, valideynlərin, nəsillərin, ailələrin qarşılıqlı, bərabərhüquqlu olaraq ağsaqqal və ağbirçəklərinin xeyir-duası olmadan, razılıqları göz önünə alınmadan bu proses baş tutmur. Əslində elə bu həqiqi demokratiyadır. Çünki, Gəncənin, bütövlükdə isə Azərbaycanın özünəməxsus toy, elçilik adətləri mövcuddur. Əsası minilliklərə istinadlanan bu əvəzsiz ailə və nigah qurulması ənənələri müəyyən vaxt müddəti ərzində həm ailə quracaq gənclərin, həm də onların mənsub olduqları ailələrin, nəsillərin nümayəndələrinin bir-birini daha yaxından tanımasına, beləlikdə də gələcəkdə baş verə biləcək mümkün münaqişə ehtimallarının minimuma enməsinə şərait yaratmış olur.

Məhz elə bu səbəbdən də ailəyə müqəddəs bir varlıq kimi yanaşıldığından, Gəncədə yeni ailə quranların, həmçinin onların yaxın qohum-əqrəbalarının birlikdə müqəddəs İmamzadə pirini ziyarət etmələri ənənə halını almışdır. Hətta bu ailələrdə sonradan digər xoş mərasimlər baş tutduqda, dünyaya övladlar gəldikdə, müxtəlif niyyət və arzular, istəklər həyata keçməzdən əvvəl və sonra da bu müqəddəs türbə kompleksi yeni ailə quranlar tərəfindən, onların yaxınları tərəfindən ziyarət edilir.

Bu adət, mərasim özünün mahiyyəti etibarilə uşaqlar, yeniyetmələr üçün həqiqi örnək, tərbiyədir. Çünki, yalnız ədalətliliyin, pak dəyərlərin təbliğ və təşviq edildiyi İmamzadə ziyarətgahına gələn azyaşlı zəvvarlar

da bu haqq yoluna, milli-mənəvi, dini dəyərlərimizin mühafizəsinə köklənmiş olurlar.

Bir məsələni xüsusilə vurğulamaq lazımdır ki, yeni ailə quranların rəsmi nigah müqaviləsini imzalamaqla yanaşı, dini baxımdan çox vacib hesab olunan kəbin kəsmə mərasimini yerinə yetirmələri (dini nümayəndə vasitəsilə - E.H.) gənclərin hər birinin həyat yoldaşı olaraq üzərlərinə düşən çox böyük, əhəmiyyətli məsuliyyəti tam ciddiliyi ilə dərk etməsinə şərait yaradır. Müqəddəs ocaq olan İmamzadə türbəsinin ziyarət edilməsi də, öz növbəsində xalqımızın qədim ənənələrə əsaslanan dini-milli dəyərlərinin vacib göstəricilərindəndir.

Doqquzuncu, etnoqrafik dəyər və ənənələr nöqteyi-nəzərdən Azərbaycan xalqının ən mühüm keyfiyyətlərindən biri də xeyirxahlıq, təmənnasız xeyriyyəçilik, əliaçıqlıqdır. Bu baxımdan İmamzadə ziyarətgahı həqiqi örnək mənbəyidir. Belə ki, istər mühüm dövlət bayramları, dini mərasimlər təşkil edilən zaman, istərsə də adi günlərdə çoxlu sayda müxtəlif sosial qrup və zümrələrin nümayəndələri olan insanlar tərəfindən zəvvarlar üçün ehsan süfrələri təşkil olunur. Bu isə, mahiyyəti etibarilə xalqımızın mesenatçılıq, xeyirxahlıq xüsusiyyətləri ilə yanaşı, həm də qida, məişət mədəniyyətinin yüksək səviyyəsini nümayiş etdirir.

Xüsusilə də Ramazan ayında iftar süfrələrinin təşkili, Qurban bayramı münasibətilə ət və digər ərzaqların ziyarətçilərə paylanması Gəncə İmamzadə abidəsinin bu baxımdan çox mühüm əhəmiyyətə malik olduğuna dəlalət edir.

Bundan əlavə, mühüm dini mərasim, bayramlarda çoxsaylı mömin insanların, şəhər sakinlərinin heç bir fərq

qoyulmadan könüllü surətdə qanvermə aksiyalarında iştirak etməsi isə xüsusilə təqdirəlayiq əməldir. Şəhərimizin yüksək vəzifəli, rütbəli şəxslərinin, din xadimlərinin tədbirlərə qatılması könüllü olaraq qanvermə aksiyalarında iştirak edənlərin sayının qat-qat artmasına səbəb olmuşdur. Nəzərə almaq lazımdır ki, talassemiya, hemofiliya kimi irsi qan xəstəliklərinə insanların, xüsusilə də körpə uşaqların bu cür qana çox böyük ehtiyac duyduğu danılmaz faktdır. Odur ki, belə humanist tədbirlərin keçirilməsi dinimiz tərəfindən də bəyənildiyi üçün müqəddəs mərasimlərdə təşkil edilməsi olduqca əhəmiyyətlidir.

Həmçinin qeyd etmək lazımdır ki, Gəncə İmamzadə ziyarətgahı Azərbaycan xalqının etno-ideoloji dəyər və təsəvvürlərinin, dini ocaqlara, müqəddəs dinimizin etik, əxlaqi postulatlarına (bu halda dəyişməz göstərişlərinə - E.H.) münasibətinin daha təfsilatlı araşdırılmasında mühüm mənbə rolunu oynayır. Belə ki, məlum olduğu kimi xalqımızın dinə sədaqətliliyi çox yüksəkdir və müqəddəs hesab etdiyimiz məvhum və istilahlara, şəxslərə and içmək artıq yazılmamış bir qanun olaraq düzgün, doğruluğu, verdiyi vədə əməl etmək anlamında qəbul olunur.

Məhz bu cəhətdən də Gəncə İmamzadə türbəsi insanların, mömin şəxslərin mənəvi saflaşma məkanı hesab edilir. Daha doğrusu, çoxlu sayda insanlar müxtəlif vaxtlarda yol verdikləri kobud nöqsanları, günaha səbəb olmuş əməllərini islah etmək, bundan sonrakı dövrdə bu cür mənfi işlərlə məşğul olmayacaqlarına dair, ilk növbədə özlərinə söz vermək və vədinə sadiq qalmaq üçün bu müqəddəs ibadətgaha gəlirlər. İmamzadə türbəsində uca, qüdrətli Allahın qarşısında günahlardan

təmizlənmək, mənəvi baxımdan saf olmaq, bir daha mənfi hallar, günah və qəzalara səbəb ola biləcək əməl və işlərdən uzaq olmaq üçün insanların-mömin şəxslərin and içməsi, söz verməsi həqiqətən də çox təqdirəlayiq haldır.

Bu, bir tərəfdən İmamzadə ziyarətgahı kimi mühüm dini ocaqların xalqımızın mənəvi cəhətdən saflaşması, kamilləşməsi, mənfi, çirkin əməllərdən uzaq olması sahəsindəki güclü təsirini nümayiş etdirir. Digər tərəfdən də, hətta bir zamanlar başqalarına zülm etmiş, haqq yolundan sapınmış, uzaqlaşmış şəxslərin bəzilərindən fərqli olaraq öz nöqsanlarını dərk etmələri, onları aradan qaldırmaq, islah etmək üçün bu müqəddəs, pak ziyarətgahları əsas inanc məkanı hesab etmələrini sübuta yetirir.

Bir məqam xüsusilə qeyd olunmalıdır ki, bir çox hallarda ailənin, valideynlərin, uzaqgörən, müdrik ağsaqqal və ağbirçəklərin tövsiyəsi ilə günahlardan təmizlənmək, haqq yoluna dönmək istəyən insanlar məhz bu cür ocaqlara, həqiqi ziyarətgahlara üz tuturlar.

Bundan əlavə, çoxsaylı faktlar, hadisələr sübut edir ki, bir sıra müqəddəs ilahi məkanlar, əsrlər boyu sınanmış pirlər, ziyarətgahlar kimi Gəncə İmamzadə türbəsinə də müxtəlif səbəblərlə şəfa tapmaq ümidi ilə üz tutan bir çox insanlar uca Allahın kəraməti sayəsində sağlamlığa qovuşmuşlar. Bu xüsusilə də ruhi, əsəb sistemi pozuntuları olan insanlarla bağlı daha çox təsadüf olunmuşdur. Daha doğrusu, mənəvi-ruhi baxımdan müəyyən qüsurları, problemləri olan insanların ailə üzvləri, yaxın qohum-əqrəbaları ilə birgə bu cür saf, ilahi məkanları ziyarət etdikdən sonra tədricən səhhətlərində müsbət dəyişikliklər baş verdiyi müşahidə edilmişdir.

Belə hadisələr hələ ki, elm tərəfindən müfəssəl surətdə tədqiq olunmasa da, amma həm dini elmlər (fiqh elmləri- E.H.), həm də dünyəvi elmlər, xüsusilə də təbabət bu sahədə müəyyən həqiqətləri təsvir edə bilir.

Belə ki, İmamzadə ziyarətgahı kimi müqəddəs ilahi məkanlara müəyyən fiziki yaxud da əqli qüsuru olan insanların özü, bu mümkün olmadığı halda isə belə şəxslərin yaxınları, ailə üzvləri qəlblərində sonsuz inam hissi ilə ziyarətə gəlirlər. Tibb elmi isə sübut edir ki, mənəvi cəhətdən inam hissi ilə özünümüalicə çox effektiv və bəzən də inanılmaz dərəcədə yüksək nəticələr verir. Təsadüfi deyildir ki, tibb aləmində belə bir ifadə işlədilir: «Hər bir xəstəliyin ilkin müalicəsi xəstədə ümid aşılamağı bacarmaqdır».

Xalq arasında isə deyirlər ki, insan həyatda ümidlərindən başqa hər şeyini itiribsə, demək o kəs hələ heç nəyini itirməyib.

Həmçinin, Gəncə İmamzadə abidəsini ziyarət etməyə gələn çoxlu sayda insanın, zəvvarın hər birinin qəlbində Allah sevgisi, humanizm duyğularının mövcudluğu, bir növ ziyarətgahın özünün nuru ilə ziyarətçilərinin mənəvi nur hisslərinin vəhdətinə səbəb olur. Nəticədə ürəyində tutulan, aşkar səslənməyən, qəlbin nur dərinliklərində təkrar olunan istək və arzuların həyata keçməsi daha real olur.

Xüsusilə qeyd etmək lazımdır ki, hər bir müsəlmanın, o cümlədən azərbaycanlının islam dininin göstərişlərinə uyğun olaraq yalnız özü, ailəsi, yaxın qohum və əqrəbaları üçün deyil, bütün möminlər, bəşəriyyət naminə sülh, dünyəvi əmin-amanlıq, barış və xoşbəxtlik diləməsi də bu müqəddəs ziyarətgahda edilən

arzu və diləklərin daha tez müstəcəb olması, həyata keçməsinə səbəb olur.

Nəhayət, onuncu olaraq geniş etnoqrafik mənada Gəncə İmamzadə türbə-kompleksinin xalqımızın milli dövlətçilik ənənələrinə münasibəti, sadiqliyinin, təəssübkeşliyinin güclənməsinə əhəmiyyətli təsir göstərməsi qeyd oluna bilər. Belə ki, İmamzadə ziyarətgahı, ilk növbədə bizim xalqımızın milli-sərvəti, tarixi abidəsi olmaq etibarilə maddi-mədəni irsimizin daşıyıcısı kimi nəsildən-nəslə etnik mənsubiyyətimizi ötürərək onu yaşadır.

Digər tərəfdən isə, tarixi-etnoqrafik nöqteyi-nəzərdən yanaşdıqda aydın olur ki, Gəncə İmamzadə türbəsinin qədim dövrlərdən, əsrlərdən bəri özünün mövcudluğunu qoruyub saxlamasının ən önəmli səbəbləri sırasında dövlətçilik duyğularının, həqiqi vətənpərvərlik, təəssübkeşlik psixologiyasının qorunması xüsusi əhəmiyyət daşımışdır. Təsadüfi deyildir ki, məhz milli dövlətin, dövlətçilik təsisatlarının yaşadılması, eyni zamanda geniş surətdə təbliğ edilməsinin nəticəsində yadelli düşmən qüvvələrin milli-mədəni, maddi və mənəvi irsimizin yadigarı olan Gəncə İmamzadə ziyarətgahı kimi tarixi abidələrimizin məhvinə yönəlmiş çoxsaylı mənfur cəhdlərinin qarşısı dəfələrlə alınmışdır.

Doğrudur, ayrı-ayrı tarixi dövrlərdə Azərbaycan müxtəlif əcnəbi imperiyaların, dövlətlərin təsiri altına alınmışdır. Amma bəhs olunan mərhələlərdə də Gəncə İmamzadə ziyarətgahı kimi mühüm məkanlar özünün həqiqi mərdlik qalası olaraq xilaskarlıq missiyasını yaşatmışdır. Məhz yadellilərin ölkəmizin ərazisində hökmranlıq etdikləri, milli-mənəvi dəyərlərimizə addımbaşı qadağalar, müxtəlif əsassız və qəddarcasına

məhdudiyyətlər tətbiq etdikləri məqamlarda xalqımızın yeganə ümid yeri, mənəvi irsimizi, mədəniyyətimizi qoruya və təbliğ edə bildiyi məkanlar sırasında Gəncə İmamzadə ziyarətgahı əvəzsiz rol oynamışdır.

Milli heysiyyət və qürurumuzu məhv etməyə, çoxəsrlik dəyərlərimizi, adət və ənənələrimizi bizlərə unutdurmağa çalışan düşmənlərimiz heç şübhəsiz İmamzadə ziyarətgahı kimi məkanların da uçurulub sökülməsi, yaxud da fəaliyyət istiqamətinin tamamilə dəyişdirilməsinə cəhd etsələr də, ilahi nur və xalqın qəlbində hələ tam sönməmiş imanın nurunun vəhdəti bu məkrli niyyətlərə sipər oldu.

Xalqımızın, o cümlədən Gəncə əhlinin mərdliyi, döyüşkənliyi, milli qürurundan çəkinən düşmənlərimiz öz çirkin əməllərini həyata keçirə bilməmişlər.

Nəhayət, Azərbaycan XX əsrin son onilliyində (1991-ci il 18 oktyabrda – E.H.) müstəqillik əldə etdikdən sonra artıq milli dövlətçilik ənənələrimizin bərpası gerçəkliyə çevrildi və xalqımızın ümummilli lideri cənab Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı bu sahədə uğurlu inkişafımızın təməlini qoymuş oldu. Nəticədə milli-mənəvi, mədəni irsimizə, dəyər və adətlərimizə, ənənələrimizə, o cümlədən də dini duyğu və dəyərlərimizə qayıdış mümkün oldu.

Çox sevindirici haldır ki, ulu öndərimizin layiqli varisi, ölkəmizin prezidenti cənab İlham Əliyevin milli-mənəvi dəyərlərimizə, dini heysiyyətimizə, tarixi abidələrimizə qayğısı sayəsində bütün maddi-mədəni irsimizin daşıyıcısı olan abidələrimiz kimi Gəncə İmamzadə türbə-kompleksi də hərtərəfli diqqət və qayğı ilə əhatə olunmuşdur.

Təqdirəlayiq haldır ki, fasiləsiz olaraq ilin bütün günlərində, yüzlərlə insan tərəfindən ziyarət olunan Gəncənin İmamzadə abidəsi özünün milli və ümumbəşəri dəyərlərin qorunması, saflaşmasına yönələn müsbət təsirini yaşatmaqda davam edir. Belə ki, İmamzadə abidəsi Azərbaycanın milli dövlətçilik ənənələrinin, təsisatlarının qorunması, yaşadılması, sonrakı nəsillərə çatdırılması, həmçinin xalqımızın hər zaman həmrəy, yekdil olması və dövlətin müdrik rəhbərlərinin ətrafında yumruq tək, monolit birləşməsi ideyalarının təbliğ və təşviqini özündə ehtiva edir.

Məhz bu baxımdan Azərbaycanın mərdlik qalası, milli müstəqillik, azadlıq ideyalarının beşiyi hesab edilən Gəncədə ümumxalq birliyini, dünya azərbaycanlılarının həmrəylik ideyalarını təbliğ edən İmamzadə ziyarətgahı kimi dəyərli abidələrin, məkanların mövcudluğu təsadüfi deyildir. Ən əsas vəzifə isə belə mühüm tarixi, maddi və mənəvi dəyərlərimizi, abidələrimizi qorumaq borcuna hər bir vətəndaşın məsuliyyət və təmənnasızlıqla yanaşa bilməsidir.

## 2. Gəncə İmamzadə kompleksi dəyərli tarixi-epiqrafik abidədir

Orta əsrlər dövrünə aid edilən ən mühüm tarixi abidələrdən olan Gəncə İmamzadə kompleksi özünün bir çox səciyyəvi, unikal xüsusiyyətləri ilə seçilir. Tarix boyu müqəddəs ziyarətgah kimi müsəlman dünyasında əhəmiyyətli mövqeyə malik olmuş İmamzadə türbəsi həm də Gəncədə yüksək şəhər mədəniyyəti ünsürlərinin göstəricisi olmuşdur.

Gəncə şəhərinin təqribən yeddi kilometrliyində yerləşən bu müqəddəs kompleks qədim (yaxud köhnə) Gəncənin xarabalıqları yaxınlığındadır. Kərpicdən inşa olunmuş imam türbəsinin ətrafında tədricən tikilmiş məscid, sərdabə, həmçinin digər türbələr, karvansara tikililəri (yaxud karvansaraya bənzəyən evlər), yardımçı bina tikililərindən ibarət bu möhtəşəm dini kompleksin ətrafına daş və kərpicdən hasar çəkilmişdir [63, s.2; 110, s.227-228; 128, s.94].

Bundan əlavə, İmamzadə kompleksinin daxilində əsasən XVIII-XIX əsrlər bədii daşyonma sənəti ustaları olan xəttat-həkkakların, eyni zamanda nəqqaşların mühüm sənətkarlıq əsərlərini, epitafiya nümunələrini, həmçinin insanların dini dünyagörüşlərini, təsəvvürlərini əks etdirən məzarüstü abidələri özündə qoruyub saxlamış geniş bir ərazini əhatə edən qəbiristanlıq mövcuddur. Kompleksin ən qiymətli abidəsi, heç şübhəsiz düzbucaqlı plana malik olan İmamzadə türbəsidir. Türbənin üzəri rəngarəng kaşılı, kərpic örtüklü günbəzlə tamamlanır [128, s.95; 296, s.15-19].

Gəncə İmamzadə kompleksinin ən mühüm xüsusiyyətləri, unikal keyfiyyətləri içərisində onun tarixi-

epiqrafik abidə kimi əhəmiyyətinin səciyyələndirilməsi çox zəruridir. Ümumiyyətlə, bu müqəddəs ziyarətgahın epiqrafik sənət incisi kimi xarakterizə olunması həm də onun tarixi mənbə olaraq təqdim edilməsinə əsas verir.

Epiqrafika yunanca «epiqraphe» kitabə mənasını ifadə edir. Bu, daş, metal, saxsı, həmçinin digər materiallar üzərində, əsasən qədim və orta əsrlər dövrünə aid yazıların toplanması, nəşri və şərhini ehtiva edən ayrıca elmi sahə anlamında işlənir. Müasir dövrümüzdə də ayrı-ayrı mənbələr, ədəbiyyatlarda ən qədim kitabə nümunələri məhz epiqrafik abidələr adlandırılır [2; 5; 122; 293; 297].

Gəncə İmamzadəsinin tarixi-epiqrafik abidə kimi əhəmiyyətini şərtləndirən mühüm cəhətlərinin təsnif edilməsi onun şəhərin qədim dövr tarixinin araşdırılmasındakı mənbə olmaq funksiyası ilə birbaşa bağlıdır.

Əvvəla, Gəncənin məhz şəhər olaraq xronoloji yaşının müəyyən edilməsində bu dəyərli tarixi abidənin əhəmiyyəti kifayət qədər böyükdür. Xalq arasında həm də «Göy imam» adlandırılan bu müqəddəs ziyarətgahın VIII əsrdə ucaldılması, türbənin inşa edilməsi və əsrlərlə əhali tərəfindən mühafizə olunması artıq Gəncənin yüzilliklərə istinad edən şəhər mədəniyyəti mərkəzi kimi formalaşmasına dəlalət edir. İmamzadənin tarixi, arxeoloji baxımdan ayrı-ayrı xüsusiyyətlərinin araşdırılmasına xidmət etmiş müxtəlif mənbələrdə, elmi əsərlərdə qeyd olunduğu kimi, türbənin günbəzinin daxili səthində tikinti daşının üzərində əks etdirilmiş «Bu şərəfli cənnət bağçası 120 il babasının ona salam olsun – hicrətindən sonra vəfat etmiş İmam Məhəmməd Baqir (Bağır) oğlu-ona salam olsun – Mövlana İbrahimin

türbəsidir» yazısı [128, s.93-94] artıq hicri təqvimlə 120-ci il, miladi təqvimlə 739-740-cı il ərəfəsində Gəncənin çox böyük, möhtəşəm tikililəri, abidələri ilə seçilən şəhər olduğunu təsbit edir. Çünki, sahəcə kiçik, əhalisinin sayı çox olmayan bir şəhərdə İmamzadə kimi əhəmiyyətli, memarlıq nöqteyi-nəzərdən çox dəyərli, nəfis bir abidənin ucaldılması qeyri-mümkün olardı.

Bundan əlavə, Gəncə İmamzadə türbəsi şəhərin qədim ərazisində, xarabalıqları yaxınlığında yerləşir. Beləliklə, Gəncə şəhərinin ərazi, məkan baxımından tarixi yerdəyişmələrinin daha dəqiq müəyyən edilməsində də İmamzadə kompleksinin mənbəşünaslıq dəyəri danılmazdır. Abidənin müasir dövrümüzdə Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində yerləşməsi isə onun elmi tədqiqinə münasib şərait yaradır, maddi mənbələrin qorunması, mühafizə olunması, həmçinin müvafiq arxeoloji qazıntı tədbirlərinin, tarixi, etnoqrafik araşdırmaların effektiv surətdə həyata keçirilməsinə münasib imkan vermiş olur.

Haqqında bəhs edilən epiqrafik mənbələrdə Gəncə tarixinin olduqca mühüm məqamları ehtiva olunmuşdur. Bu kitabələrdəki tarixi faktlar, öz növbəsində Gəncə İmamzadə kompleksinin şəhərin ümumi inkişafındakı mövqeyini, əhəmiyyətini təsbit etməklə yanaşı, eyni zamanda Gəncədə çoxəsrlik, təmənnasız xeyriyyəçilik ənənələrinin də mövcud olduğunu, müxtəlif tarixi mərhələlərdə həyata keçirildiyini sübuta yetirir. Bununla yanaşı, qeyd olunan epiqrafika nümunələri həm də Gəncədə memarlıq, sənətkarlığın çox qədim dövrlərdən etibarən formalaşdığını, zaman keçdikcə əvvəlki ənənələrə istinad etmək şərtilə yeni-yeni xüsusiyyətlərlə zənginləşdiyini, beləliklə də şəhər mədəniyyəti

ünsürlərinin (elementlərinin – E.H) çox əski tarixi dönəmlərə əsaslandığını göstərir [43; 128; 146].

Gəncə İmamzadəsinin epitafiya nümunələrinin, qədim qəbir abidələrinin, məzarüstü xatirə komplekslərinin ən böyük tarixi əhəmiyyətə malik olan xüsusiyyətləri sırasında Gəncənin, bütövlükdə xalqımızın qədim dini görüş və təsəvvürlərinin, axirət dünyası ilə bağlı inam və inanclarının tədqiq olunmasına şərait yaratması qeyd edilə bilər. Gəncə İmamzadəsi, onun ətrafında mövcud olan çoxsaylı, müxtəlif tarixi mərhələləri əks etdirən və bu səbəbdən də bir-birindən kifayət qədər fərqlənən, amma bir çox ümumi cəhətlərə malik olan məzarlar, həmçinin qəbirüstü tikililər (abidələr) xalqımızın, o cümlədən də Gəncə əhalisinin etnoqrafik ənənələrinin, dəfn adət və mərasimləri ilə bağlı təsəvvür və ayinlərinin elmi-nöqteyi nəzərdən təfsilatlı surətdə araşdırılmasında dəyərli mənbə kimi çıxış edir. Bu baxımdan sərdabələr xüsusi əhəmiyyətə malik olan abidələrdir.

Gəncə İmamzadə kompleksində şəhərin nüfuzlu, tanınmış nəsillərinin sərdabələri və qəbirləri saxlanılır. Şeyxzamanlılar nəslinin sərdabə kompleksi bu baxımdan xüsusilə fərqlənir. Dahi Şeyx Nizami nəslinin davamçıları hesab edilən bu şəcərənin nümayəndələri ilə yanaşı, Axund Mövlana Hüseyn Pişnamazzadənin də sərdabəsi, o cümlədən digər bir çox nüfuzlu şəxslərin qəbir abidələri də Gəncə İmamzadəsinin unikallığını nümayiş etdirən mühüm faktlardandır.

Eyni zamanda, Gəncə İmamzadə abidəsinin şəhərimizin tarixinin araşdırılmasında malik olduğu ən mühüm mənbəşünaslıq cəhətləri arasında onun yerli memarlıq, bədii sənətkarlıq ənənələrinin olduqca dəyərli

elementlərini özündə ehtiva etməsi qeyd olunmalıdır. Belə ki, Gəncə İmamzadə türbəsi və onun ətrafında yaradılmış müxtəlif kompleks-memarlıq tikililəri çox önəmli tarixi, eyni zamanda epiqrafik abidələrdir. Gəncə İmamzadəsinin unikallığını, memarlıq abidəsi kimi təkrarsızlığını şərtləndirən bir neçə mühüm amil mövcuddur:

Əvvəla, nəzərə almaq lazımdır ki, Gəncənin sənətkarlıq, memarlıq ənənələri çox qədim tarixi köklərə malikdir. Bunu xüsusi əminliklə qeyd etmək üçün Gəncə İmamzadə türbəsinin, eyni zamanda kompleksin ərazisində yerləşən tikililərin, həmçinin qəbir və qəbirüstü abidələrin inşası zamanı islam memarlığı, sənətkarlığı ilə yanaşı, qədim ənənələrə istinad edən və bizim soykökümüzlə bağlı türk sənətkarlığı elementlərinin də nəzərə alınmasına diqqəti yönəltmək zəruridir.

Bundan əlavə, Gəncə İmamzadə türbəsinin unikallığını şərtləndirən digər bir mühüm xüsusiyyət onun inşası, həmçinin sonradan təmir və bərpa olunması zamanı müsəlman memarlığı ünsürlərinə xüsusi əhəmiyyət verilməsidir. Ümumiyyətlə, Gəncə İmamzadəsi zəngin mənəvi, eyni zamanda mədəni dəyərləri özündə əks etdirən möhtəşəm Şərq müsəlman dünyasının ən mütərəqqi, dəyərli cəhətlərinə sahib olan Azərbaycan xalqının yaratdığı və onun peşəkar sənətkarlarının zəkasının məhsulu olan inci kimi çox əvəzsizdir.

Gəncə İmamzadəsi çox böyük bir coğrafi arealda təmsil olunan və ümumi bir dini, mədəni dəyərlərə sahib olan İslam dünyasının çoxəsrlik mədəniyyətinin sənətkarlıq xüsusiyyətlərinin mühafizəçisi kimi əslində

tarixi mənbə rolunu oynayır. Bununla yanaşı, İmamzadə Gəncənin yalnız ölkə və yaxud region miqyasında deyil, bütövlükdə müsəlman sivilizasiyası çərçivəsində xüsusi çəkiyə, əhəmiyyətli mövqeyə malik bir mədəniyyət mərkəzi, şəhər olaraq mühüm siyasi, iqtisadi, mədəni dəyərlərin yaşadıcısı (qoruyucusu) kimi seçildiyini nümayiş etdirir [5; 6; 128].

Çünki, əvvəla Gəncə İmamzadə türbəsinin, onun günbəzinin, eyni zamanda ətrafda əsasən XIII-XIV əsrlərdən etibarən inşa edilmiş, XVII-XVIII əsrlərdə yenidənqurma, abadlaşdırma tədbirləri nəticəsində yeni tikilmiş türbələr, günbəzlər, ətrafdakı tikililərin üzərində məhz yerli sənətkarların yaratdıqları dəyərli sənətkarlıq elementləri bu baxımdan xüsusi əhəmiyyəti ilə fərqlənir. Stalaktit (yaxud müqərnəs-E.H.) nümunələri, günbəzlərin üzərinin müxtəlif üsullarla işlənməsi, onların xarici səthləri ilə yanaşı, həm də daxili hissələrinin ayrı-ayrı sənətkarlıq elementləri ilə bəzədilməsi qeyd olunan qədim memarlıq, sənətkarlıq ənənələrinin əyani göstəricisidir.Gəncə İmamzadəsinin mühüm tarixi mənbə rolunu oynaya bilən sənətkarlıq sahələri içərisində xüsusi əhəmiyyətə malik olan həkkaklıq, nəqqaşlıq sənətləri də fərqlənir.

Qeyd olunan sənət sahələri Gəncə İmamzadəsinin həm türbənin özünün daxili hissəsində, həm də onun ətrafında olan tikililərdə müşahidə olunan elementləri ilə seçilir. Bundan əlavə, İmamzadə kompleksinin ərazisindəki ayrı-ayrı qəbirlərdə, həmçinin məzarüstü abidələrdə də bəhs edilən sənət sahələrinin dəyərli nümunələri qorunub saxlanılmışdır. Səkkizinci əsrdə şahzadə İbrahimin vəfatından sonra ucaldılan İmamzadə türbəsi tədricən şəhər, ölkə və bütövlükdə beynəlxalq

səviyyəli ziyarətgaha çevrilməyə başladı. İnsanlar da öz, növbəsində axın-axın gələrək bu əvəzsiz məkanı ziyarət edir və nəticədə zaman keçdikcə Gəncə İmamzadəsi islam dünyasının şöhrətli ziyarətgahlarından birinə çevrilir.

Gəncə İmamzadə kompleksinin ziyarətgah kimi tanınması təsadüfi xarakter daşımamışdır. Daha doğrusu, şəhər artıq böyük bir tarixi müddət ərzində «İmam Hüseyn» şəhəri kimi tanınmışdır. Bu baxımdan da istər Gəncənin yerli əhalisi, istərsə də kənardan bu müqəddəs ziyarətgaha baş çəkməyə gələnlər Məhəmməd Peyğəmbər (ə.s) nəslinin nümayəndələrinin adı ilə bağlı olan bu şəhərin toxunulmazlığı, müqəddəsliyini özləri üçün dönə-dönə təsdiq etmişlər.

Eyni zamanda, bu fakt öz-özlüyündə Gəncənin artıq islam dininin ilkin intişar tapdığı tarixi dövrlərdə, daha dəqiq deyilsə, VII-VIII əsrlərdə özünün möhtəşəmliyi, qədim şəhər mədəniyyəti ünsürlərinə malik olması ilə fərqlənən böyük bir şəhər olduğunu sübuta yetirir. Həmçinin, bəhs olunan faktoloji dəlil Gəncədə əhalinin çox əski tarixi mərhələlərə istinad edən etno-mental dəyərlərə, dini baxışlara sahib olduğunu, məhz bu səbəbdən də onların qeyd edilən milli, dini dəyərlərin mühafizə edilərək nəsildən-nəslə ötürülməsinə, irsən yaşadılmasına şərait yaratdıqlarını göstərir.

Bütün qeyd olunan tarixi həqiqətlərə istinad edən məqamlar Gəncə İmamzadə kompleksinin məhz epiqrafik sənət abidəsi kimi səciyyələndirilməsinə xidmət edir. Çünki İmamzadənin epiqrafik xüsusiyyətləri bəzi abidələrdə olduğu kimi fraqmental xarakterli deyildir. Bu əvəzsiz abidənin epiqrafik göstəriciləri kompleks səciyyəlidir. Belə ki, istər türbə, onun ətrafındakı tikililər,

istərsə də qəbiristanlıqda olan məzarlarda bu elementlərə təsadüf olunur. Məhz bu səbəbdən də Gəncə İmamzadə kompleksi Azərbaycanın çox dəyərli tarixi-epiqrafik abidəsi, sənət, memarlıq incisi hesab edilir.

Təsadüfi deyildir ki, məhz epiqrafika nümunələrinin mövcud olması sayəsində Gəncə İmamzadəsi yalnız tarixi bir tikili olaraq səciyyələndirilmir. Epiqrafik kitabələrin aşkar edilməsi, çoxsaylı epitafiya nümunələrinin həkk olunduğu məzar abidələrinin olması İmamzadə kompleksinin çox böyük tarixi mənbəşünaslıq əhəmiyyəti ilə seçilən epiqrafika xəzinəsi kimi tanınmasına imkan verir. Burada mövcud olan dəyərli sənətkarlıq, memarlıq nümunələri həm də qədim Gəncənin tarix boyu hər zaman yüksək mədəni, mənəvi dəyərlərin mühafizə edildiyi, müxtəlif sənət sahələrində yüksək dərəcədə inkişafın ardıcıl olaraq davam etməsi sayəsində bu sahələrdə peşəkar ixtisaslaşmasının gücləndiyi bir mərkəz olduğunu təsdiq edir. Eyni zamanda, bəhs olunan əvəzsiz sənət örnəkləri Gəncə İmamzadəsinin əsrlər ərzində yalnız dini tikili, çoxlu sayda mömin insanların gəlib yad etdiyi ziyarətgah kimi tanınmadığını, həm də onun zəngin tarixi keçmişə malik dəyərli  tarixi-epiqrafik abidə olduğunu əyani surətdə təsbit edir.

Gəncə İmamzadə kompleksinin bütün bu sadalanan maddi və eyni zamanda mənəvi göstəricilərinin ən mühüm, əhəmiyyətli xüsusiyyəti bu müqəddəs məkanın tarixi abidə olaraq səciyyələndirilməsinə şərait yaratmaqla bərabər, həm də onun ölkəmizin, xalqımızın etnoqrafiya tarixinin elmi baxımdan tədqiq edilməsində dəyərli mənbə kimi malik olduğu rolu diqqətə çatdırmasıdır.

## 3. İmamzadə türbəsinin bədii sənətkarlıq və memarlıq xüsusiyyətləri

Gəncə İmamzadə türbəsi özünün çox yüksək keyfiyyətlilik və eyni zamanda, zahiri gözəllik cəhətləri ilə fərqlənən memarlıq, bədii sənətkarlıq elementlərinə malikdir. Əvvəla, bunu İmamzadə kompleksinin timsalında izləmək mümkündür. İnşa olunma tarixi və yaxud da bərpa, təmir edilməsi ayrı-ayrı mərhələlərə (dövrlərə) aid olsa da, kompleksin bütün abidələri ümumi bir vəhdət təşkil edir.

Kompleksin əsas tərkib hissəsi türbə binası və qəbiristanlıqdan ibarətdir. Bununla yanaşı, əsas türbə günbəzi ilə bərabər ətrafda daha yeddi günbəzin, məscidin, karvansara tipli evlərin, abidəyə giriş darvazası üzərindəki günbəzin (sayca doqquzuncu günbəz), ornamentləri və kitabələri olan başdaşılarının, sərdabə-türbə tipli qəbirüstü abidələrin, hovuz və digər yardımçı tikililərin mövcudluğu Gəncə İmamzadəsinin möhtəşəm arxitektur quruluşunu nümayiş etdirir.

İmamzadə türbəsinin xarici görünüş baxımından ən çox nəzəri cəlb edən əlvan mavi, yaşıl rəngli kaşılarla (kaşı lövhələri ilə) bəzədilmiş yaraşıqlı günbəzi (baş günbəz) və onun silindrik gövdəsidir. Üz çəkidə, əsasən mavi rəngə malik olan kaşılar işlədilmişdir. Bunlar da ümumi bir fon təşkil edir. Burada mövcud olan paxlava və başqa fiqurlu bəzəklər tünd bənövşəyi rəngdədir. Eyni zamanda, tək-tək yaşılvari rəngi ilə seçilən kaşılara da rast gəlinir [72, s.134; 141].

Abidənin ayrı-ayrı hissələri də, öz növbəsində unikal sənətkarlıq, memarlıq quruluşu ilə diqqəti cəlb edir. Ümumiyyətlə, cənub-şərq fasadının birinci

mərtəbəsini üç tağ təşkil edir. İki kənar tağ çatma olub, yarım kərpic dərinliyində taxçalardan ibarətdir.

İkinci mərtəbəyə gəldikdə isə, o da üç çatma tağlıdır. Xarici görünüşü baxımından eyvana bənzəyir [313, s.24-26; 330, s.257-259].

Bundan əlavə, fasadın cənub tərəfinin aşağı (yaxud alt) mərtəbəsində çatmatağlı qapı vardır. Bu qapı vasitəsilə pillələrlə ikinci mərtəbəyə çıxmaq mümkündür. Qapının üst hissəsində yarımkərpic dərinlikdə çatmatağlı taxça düzəldilmişdir. Fasadın qərb tərəfinin yalnız yuxarı hissəsi görünür [128, s.94-95; 330, s.259].

İmamzadə türbəsinin ən dəyərli cəhətləri sırasında onun daxilində kitabələrin mövcudluğu faktı xüsusi qeyd olunmalıdır.Türbənin birinci mərtəbəsinin mərkəzi hissəsinin (xanəsinin) şimal-qərb tərəfindən çatma tağın yuxarı hissəsindəki hörgüdə ərəb hərfləri ilə yazılmış kitabə yerləşdirilmişdir. Kitabənin mətni iki mühüm tarixi məqamı özündə ehtiva etmişdir:

1. Əvvəla, kitabədə İmamzadə türbəsinin inşa edilmə səbəbi və xronoloji göstəricisi dəqiq, aydın surətdə qeyd edilmişdir. Məhz bu dəyərli tarixi mənbəyə istinad edilərək tarixi abidənin tikilməsi və burada imam övladının dəfn edilməsinə dair tədqiqatçılar, tarixçi alimlər yekdil bir rəyə gələ bilmişlər.

Bəhs olunan kitabənin ilk mətnləri bir qədər obrazlı surətdə bu türbənin beşinci İmam Məhəmməd Bağırın oğlu mövlana İbrahimin vəfatından sonra onun məzarı üzərində ucaldıldığı ilə bağlı məlumatları əks etdirmişdir. Hicri təqvimlə 120-ci il kimi göstərilmiş, miladi təqvimlə isə 739-740-cı il kimi müvafiq gələn tarixdə şahzadə İbrahimin şəhid olması, onun bu

müqəddəs məkanda torpağa tapşırılması qeyd edilən kitabənin tarixi mənbə olaraq əhəmiyyətini nümayiş etdirir.

2. Bundan əlavə, bir sıra mənbələrin digər bir kitabədə də əks etdirildiyini bildirdiyi tarixi məqam bu kitabədə qısa şəkildə qeyd olunmuşdur. Daha doğrusu, bu epiqrafik nümunədə İmamzadə abidəsinin (o cümlədən də əsas türbənin) təmirinə dair bir məlumat əks etdirilmişdir. Görkəmli hərbi xadim, general-mayor İsrafil bəy Yadigarzadə tərəfindən İmamzadənin hicri 1296-cı ildə təmir, bərpa etdirilməsi ilə bağlı olan bu tarixlə bağlı ayrı-ayrı mənbələrdə, ədəbiyyatlarda müəyyən fərqli baxış vardır.

Bu kitabədə qeyd olunmuş məlumata əsaslanaraq əslən Tiflisdən (Borçalı qəzasından) olan İsrafil bəy Yadigarzadənin rus ordusunun ikinci müsəlman atlı polkunun rəhbəri kimi tanınmış hərbi xadim olmasını inamla qeyd etmək mümkündür. Bəhs olunan tarixin miladi təqvimlə 1878-1879-cu illərə uyğun gəlməsi şübhə doğurmur [110, s227-228; 128, s.94].

Lakin bəzi mənbələrdə bu tarixi faktın Gəncə İmamzadəsinin daxilindən aşkar edilmiş digər bir kitabədə öz əksini tapmasına dair yazılar vardır [152, s.48-50].

Qeyd edilən kitabənin mətni aşağıdakı şəkildə oxunmuşdur:

«O, Allah əbədidir. Bu, imam Məhəmməd Bağırın – ona salam olsun – oğlu mövlana İbrahimin müqəddəs məkanı (yerləşmiş) şərəfli (cənnət) bağıdır. Öz babasının köçməsindən 120 il sonra vəfat etmişdir – Allahın ona

salavatı olsun. Və ona görə də, bu yüksək məqamlı yerin bərpa olunmasına tiflisli general-mayor İsrafil bəy Yadigarzadə hicri 1296-cı ildə əmr etmişdir [128, s.94-95].

Gəncə İmamzadəsinin bu dəyərli epiqrafika nümunəsinin oxunması, geniş elmi ictimaiyyətə çatdırılması istiqamətində ilk mühüm addımı görkəmli arxeoloq-tədqiqatçı, Gəncənin layiqli ziyalısı mərhum İsaq Cəfərzadə atmışdır. Belə ki, İ.Cəfərzadənin rəhbərliyi ilə ötən əsrin 30-cu illərinin sonu - 40-cı illərinin əvvəllərində qədim Gəncə ərazisində həyata keçirilmiş arxeoloji tədqiqat işləri şəhərimizin qədim tarixinin bir çox «ağ ləkələri»nin aradan qaldırılması, sirli məqamlarının üzə çıxarılmasına şərait yaratmışdır. Həmçinin, qeyd olunan kitabənin də aşkar edilməsi, oxunması və bunun sayəsində abidənin yaranma tarixi ilə bağlı olduqca önəmli tarixi faktların oxucu kütlələrinin, eyni zamanda elmi ictimaiyyətimizin diqqətinə çatdırılması mümkün olmuşdur [69; 241].

Bundan əlavə, Gəncə İmamzadəsi ilə yanaşı, istər şəhərimizin, istərsə də bütövlükdə ölkəmizin çox mühüm epiqrafik, tarixi abidələrinin elmi baxımdan ətraflı surətdə tədqiq edilməsi sahəsində mühüm xidmətləri olan alim, professor, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Məşədixanım Nemət də bu kitabəni oxumuşdur. Özünün müəllifi olduğu bir sıra tədqiqat əsərlərində, monoqrafiyalarında M.Nemət Gəncə İmamzadə kompleksindən aşkar edilmiş bu kitabənin dəyəri haqqında bəhs etmişdir [128, s.93-95; 303].

Gəncə İmamzadə türbəsinin qeyd olunan kitabəsi haqqında Azərbaycanın etnoqrafiya sahəsində ən görkəmli, təcrübəli mütəxəssisi, tarix elmləri doktoru,

akademik Teymur Bünyadov da məlumat vermişdir. Müəllifi olduğu «Azərbaycan paleotoloponimiyası» monoqrafiyasında bu tanınmış alim kitabənin mənbəşünaslıq əhəmiyyətini xüsusi vurğulamışdır. Buna əsaslanaraq akademik T.Bünyadov abidənin məhz hicri təqvimlə 120-ci ildə (yaxud səkkizinci əsrin ikinci yarısında) inşa olunması fikrinin həqiqəti əks etdirdiyini vurğulamışdır [27, s.3].

Haqqında bəhs olunan kitabədə general-mayor İsrafil bəy Yadigarzadə ilə bağlı faktoloji məlumata da mənbələrdə, ayrı-ayrı ədəbiyyatlarda fərqli baxışın mövcud olduğu üzə çıxır. Ümumiyyətlə, bəzi müəlliflər burada İmamzadə abidəsində bütövlükdə təmir, bərpa, yeidənqurma tədbirlərinin məhz İsrafil bəy Yadigarzadə tərəfindən həyata keçirildiyini qeyd etmişlər. Burada onun xeyriyyəçiliyinə xüsusi əhəmiyyət verilmişdir. Onun məhz özünün şəxsi vəsaiti hesabına Gəncə İmamzadəsində, türbə və onun ətraf tikililərində əsaslı təmir işlərini həyata keçirməsi təqdir edilmişdir [110, s.228; 128, s.94-95].

Burada bir məqama xüsusi əhəmiyyət verilməlidir ki, İsrafil bəy Yadigarzadənin 1878-1879-cu illərdə İmamzadədə genişmiqyaslı restavrasiya tədbirlərinin icra edilməsinə xüsusi diqqətlə yanaşması çox təqdirəlayiq haldır. Əvvəla, o səbəbdən ki, İsrafil bəy Rusiyada təhsil almış, rus ordusu sıralarında yüksək rütbəli vəzifədə çalışmışdır. Amma buna baxmayaraq o, islam əqidəsinə, ata-babalarımızın tarixə istinad edən adət və ənənələrinə sadiq qalmışdır. Eyni zamanda, İsrafil bəy milli-mədəni irsimizə sonsuz dərəcədə böyük hörmət və etimad göstərən həqiqi ziyalılarımızdan olmuşdur. Çünki bu şəxsiyyət Gəncə İmamzadə kompleksinə yalnız

ziyarətgah kimi yanaşmamışdır. İsrafil bəy Yadigarzadənin diqqətini cəlb etmiş və onun bu səbəbdən daha böyük əhəmiyyət verdiyi məsələ İmamzadənin tarixi abidə, maddi mədəniyyət incisi kimi dəyəri olmuşdur. Gəncə İmamzadəsinin memarlıq, bədii sənətkarlıq xüsusiyyətləri bu şəxsi valeh etmiş və o, abidənin kompleks surətdə təmir və bərpasına təmənnasız olaraq yardım göstərmişdir.

İsrafil bəy Yadigarzadənin Gəncə İmamzadə kompleksində həyata keçirdiyi bərpa, yenidənqurma tədbirlərini bir qədər fərqli şəkildə təsvir etmiş mənbələr, ədəbiyyatlar da mövcuddur. Daha dəqiq desək, bəzi müəlliflər bu görkəmli hərbi xadimin Gəncə İmamzadəsində maddi vəsaiti hesabına bütövlükdə türbə və onun ətrafındakı tikililəri tam şəkildə deyil, müəyyən bir hissəsini təmir etdiyini vurğulamışlar. Bu cür ədəbiyyatlarda İsrafil bəy Yadigarzadənin müqəddəs qəbrin günbəzini ucaltdığı qeyd olunmuşdur. Daha doğrusu, İmamzadə türbəsinin əsas günbəzinin yenidən inşa olunduğu nəzərə çatdırılmışdır [152, s.51-52].

Belə mənbələrin verdiyi məlumatlara bir qədər tənqidi yanaşılması zəruridir. General-mayor İsrafil bəy Yadigarzadənin özünün maddi vəsaiti hesabına Gəncə İmamzadə kompleksində həyata keçirmiş olduğu işlər orta əsrlər dövrünə təsadüf etməmişdir. Bəhs olunan tədbirlər XIX əsrdə, daha doğrusu 1878-1879-cu illərdə icra olunmuşdur. Məhz bu səbəbdən də orta əsrlər mərhələsində istər əsas türbə və onun günbəzi, həmçinin onun ətrafındakı günbəzlər, istərsə də digər tikililər artıq inşa olunmuş, əsas tədbirlər həyata keçirilmişdir. Odur ki, XIX əsrdə mövcud olan günbəz və yaxud digər əsas tikililəri tamamilə uçurmaq, onların yerində yenilərinin

inşa edilməsinə çalışmaq heç də inandırıcı təsir bağışlamır.

Bu səbəbdən də yuxarıda haqqında bəhs olunan təmir, əsaslı və yaxud cari bərpa tədbirlərini qeyd edərkən məhz mövcud olan abidə və tikililərin restavrasiyasından söhbət getdiyinə diqqət yetirilməlidir. General-mayor İsrafil bəy Yadigarzadənin də İmamzadə türbəsinin günbəz hissəsini ucaltması fikrini qeyd edilən günbəzdə təmir işlərinin aparılması kimi qiymətləndirmək daha doğru və məntiqə əsaslanandır.

Bu mülahizəni inamla müdafiə etməkdə ən əsas, tutarlı faktlardan biri də XIX əsrin əvvəllərində Gəncənin iftixarı, əbədiyaşar tarixi qəhrəman Cavad xanın artıq geniş miqyasda həyata keçirmiş olduğu təmir və bərpa tədbirlərinin yekunlaşdırılmasıdır. Belə ki, mövcud məlumatlar Cavad xanın xeyriyyəçiliyi, şəxsi təşəbbüsü və ciddi nəzarəti, hərtərəfli qayğısı sayəsində artıq, əsrin ilk yarısında Gəncə İmamzadə kompleksində müvafiq bərpa, abadlıq tədbirlərinin icra olunduğunu təsbit edir.

Qəhrəman Cavad xanın Gəncə İmamzadə türbəsi, onun ərazisinə daxil olan tikililərdə həyata keçirilməsinə şərait yaratdığı genişmiqyaslı təmir, abadlaşdırma tədbirləri çərçivəsində yeni, zəruri hissələrin inşa olunaraq kompleksin formalaşmasına da töhfə verdiyi məlumdur. Gəncə İmamzadə abidəsinin əsaslı şəkildə təmir edilməsi ilə bərabər, Cavad xan Ziyadoğlu Qacar kompleksin ön tərəfindəki divar və darvazaların üzərindəki günbəzin inşa edilməsini də məqsədəuyğun hesab etmişdir. Bunun sayəsində İmamzadə abidəsinin, onun ətraf hissəsinin abadlaşdırılması tam şəkildə təmin edilmişdir [110, s.228-229; 152, s.51].

Eyni zamanda, qeyd olunan faktlar artıq İsrafil bəy Yadigarzadə dövründə Gəncə İmamzadə kompleksinin, əsasən təmirə ehtiyacı olduğunu göstərir. Abidənin, onun ayrı-ayrı hissələrinin, memarlıq elementlərinin tamamilə sökülməsi, onların yerində yeni tikililərin inşa olunması isə heç də həqiqəti əks etdirə bilməz.

Bununla yanaşı, general-mayor İsrafil bəy Yadigarzadənin təşəbbüsü, maddi yardımı sayəsində Gəncə İmamzadə türbəsində həyata keçirilmiş olan təmir, bərpa və yenidənqurma tədbirləri əhatə etdiyi ərazi, miqyasından asılı olmayaraq, təqdir olunmalı, örnək kimi göstərilməlidir. Çünki, istənilən təqdirdə bu görkəmli hərbi xadim Gəncə İmamzadə ziyarətgahının mühafizə olunması, onun gələcək nəsillərə olduğu kimi qorunub çatdırılmasına çalışmış və buna nail olmuşdur.

Qədirbilən gəncəlilər hər zaman olduğu kimi, bu şəxsiyyətə münasibətdə də doğma xalqına, vətəninə qarşı təəssübkeşliyi, qayğılı, diqqətli rəftarı, xeyriyyəçi fəaliyyəti ilə seçilən hər kəsə qarşı nümayiş etdirdikləri ehtiramlı, səmimi təşəkkürlərini əməli fəaliyyətlə ifadə etmişlər. Belə ki, general-mayor İsrafil bəy Yadigarzadənin hətta yaxın qohumları olan bir deyil, bir neçə nəfər şəxs Gəncə İmamzadəsi kimi müqəddəs bir məkanda dəfn edilmək şərəfinə nail olmuşlar. Qeyd etmək lazımdır ki, İmamzadə ziyarətgahının ərazisində olan məzarlar sırasında İsrafil bəy Yadigarzadənin yaxın qohumları olan və rus ordusunun hərbi sərkərdələri kimi tanınmış, əslən tiflisli Calal (Cəlal) bəy və onun oğlu İsmayıl bəy Vəzirzadələrin də qəbirləri bu gün qalmaqdadır [128, s.93-94].

Haqqında geniş surətdə bəhs edilən kitabə mühüm bədii sənətkarlıq nümunəsi kimi əhəmiyyətlidir. Bunu

şərtləndirən yalnız bu kitabənin epiqrafik nümunə olması deyildir. Eyni zamanda kitabə, həm də zərif, ustalıqla işlənilməsi nöqteyi-nəzərdən Gəncədə ayrı-ayrı sənətkarlıq sahələrinin, xüsusilə də xəttatlıq, nəqqaşlıq sənətlərinin yüksək səviyyədə inkişaf etdiyini əyani surətdə sübuta yetirir.

Bundan əlavə, Gəncə İmamzadə türbəsindən aşkar olunmuş bu dəyərli kitabə abidənin bu cür epiqrafik nümunələrinin əvvəlki dövrlərdə də mövcud olduğunu nümayiş etdirir.

Belə ki:

1. Əvvəla, belə bir mülahizə irəli sürülsə ki, Gəncə İmamzadəsinin haqqında bəhs olunan kitabəsi onun ən qədim epiqrafik nümunəsidir, bu zaman kəskin ziddiyyət yaranmış olur. Heç şübhəsiz qeyd edilən mətndə ifadə olunmuş fikir bu mülahizəni tamamilə təkzib edir. VIII əsrə aid olan bir abidənin ilkin dövrünü əks etdirən və həmin məlumatlarla məhdudlaşan yazının, ümumiyyətlə aşkar edilməməsi heç də onun keçmiş dövrlərdə heç zaman yazılmamasına dəlalət etmir.
2. Eyni zamanda, qeyd edilən kitabədə öz əksini tapmış tarixi məlumatların xronoloji nöqteyi-nəzərdən kifayət qədər bir-birindən uzaq olan mərhələləri işıqlandırması mətnin yalnız XIX əsrdə yazıya alındığını və abidədə qorunub saxlanıldığını təsbit edir. Bunu inamla qeyd etməyə kitabə mətninin son cümləsi əsas verir. Həqiqətən də burada 1878-1879-cu illərdə əsaslı təmir, bərpa tədbirlərinin həyata keçirilməsində təşəbbüskar qismində çıxış

etmiş görkəmli hərbi xadim, general-mayor İsrafil bəy Yadigarzadənin Gəncə İmamzadə abidəsinə, mahiyyəti etibarilə bu müqəddəs məkanda dəfn edilmiş imam oğlu şahzadə İbrahimin xatirəsinə münasibətdə nümayiş etdirmiş olduğu ehtiram, qayğıkeş münasibət qısa şəkildə də olsa xüsusi vurğulanmışdır[68,s.125;112;140].

3. Bununla yanaşı, Gəncə İmamzadə abidəsinin XIX əsrdən əvvəlki min ildən artıq bir dövrü özündə ehtiva etmiş tarixi keçmişinə dair bəhs olunan kitabədə hər hansı xronoloji xarakterli məlumatların əks etdirilməməsi, ilk növbədə türbənin və çox güman ki, ətrafındakı əsas tikililərin hər hansı birində və yaxud bir neçəsində buna bənzər epiqrafik nümunələrin mövcud olduğuna dəlalət edir. Çünki, Gəncə İmamzadəsinə, onun tarixi keçmişinin özünün maddi və mənəvi məziyyətləri ilə mühafizə edilərək gələcək nəsillərə olduğu kimi qorunub çatdırılmasının qayğısına qalan bir şəxs kimi general-mayor İsrafil bəy Yadigarzadənin bu dəyərli sənət incisinin tarixinə dair faktların əks etdirilməsinə biganə yanaşması inandırıcı deyildir.
4. Gəncə İmamzadə türbəsinin İsrafil bəy Yadigarzadə tərəfindən1878-1879-cu illərdə təmir və bərpa etdirilməsi ilə bağlı faktların qeyd edildiyi bu kitabədən daha əvvəlki tarixi dövrlərdə hazırlanmış bu tipli epiqrafik nümunələrin mövcudluğunu şərtləndirən digər amillər də mövcuddur. Nəzərə almaq lazımdır

ki, bu kitabədən daha qədim tarixə malik olan nümunələrin mövcud olması nəticəsində artıq eyni məlumatların bütün kitabələrdə hər dəfə təkrarən qeyd edilməsinə ehtiyac qalmamışdır. Odur ki, bəhs olunan kitabədə daha çox digərlərində yazılıb-yazılmamasından asılı olmayaraq, Gəncə İmamzadəsinin inşa edilmə səbəbləri, bu müqəddəs məkanda dəfn olunmuş beşinci imam Məhəmməd Bağırın (Baqirin) oğlu mövlana İbrahimin şəxsiyyəti haqqında ən zəruri hesab edilən tarixi faktlar qələmə alınmışdır. Heç şübhəsiz, general-mayor İsrafil bəy Yadigarzadənin İmamzadə ərazisində həyata keçirdiyi təmir, abadlaşdırma tədbirlərinin kitabənin mətn hissəsinin sonunda qeyd edilməsi artıq bu fəaliyyətin çağdaş dövrün hadisəsi olduğuna dəlalət etmişdir.

Bundan əlavə, kitabənin mətninin son hissəsi yalnız xronoloji göstərici qismində çıxış etmir. Bu, həm də ənənəvi olaraq, Gəncə İmamzadə abidəsi, onun müqəddəsliyi, möhtəşəm tarixi keçmişi ilə müqayisədə yüksək hərbi rütbəyə və vəzifəyə sahib olmasına baxmayaraq, general-mayor İsrafil bəy Yadigarzadənin də sadəcə ilahi dərgahda bütün insanlar kimi günahkar bəndə hesab edilməsi ideyasının əyani surətdə göstərilməsinə xidmət edən məlumatdır.

5. İsrafil bəy Yadigarzadə, onun Gəncə İmamzadə türbəsi ilə bağlı xeyriyyəçilik fəaliyyətinin əks etdirildiyi bu mühüm kitabədə İmamzadənin bir sıra görkəmli şəxsiyyətləri, xüsusilə də Cavad xan Ziyadoğlu Qacar kimi əvəzsiz dövlət xadiminin hərtərəfli diqqəti, qayğısı, eyni

zamanda maddi dəstəyi sayəsində abadlaşdırılması, bərpa edilməsinə dair hər hansı faktoloji məlumatın öz əksini tapmaması da yuxarıda qeyd edilmiş fikri təsdiq etmiş olur. Şübhəsiz ki, Gəncənin xanı olmuş bu böyük tarixi şəxsiyyətin hədsiz dərəcədə yüksək mesenatçılıq fəaliyyəti yerli əhalinin yaddaşında bu gün də nəsildən-nəslə ötürülmüş məlumatlar sayəsində yaşamaqdadır. Amma qeyd olunan tarixi faktların, xüsusilə də Gəncə İmamzadəsinin abadlaşdırılması və yenidən qurulması ilə bağlı məlumatların hər hansı formada, hətta İmamzadə türbəsində də mövcud olmaması bir qədər müəmmalı xarakterlidir.

Bu, müəyyən qədər Gəncə İmamzadə abidəsində Cavad xanın fəaliyyətinin geniş və yaxud müəyyən qədər işıqlandırılmasına xidmət etmiş kitabənin yaxud da kitabələrin bir zaman mövcud olduğuna dair elmi mülahizələrin müdafiə edilməsinə imkan verir.

Bununla yanaşı, digər tərəfdən isə Cavad xan Ziyadoğlu Qacarın həyatına, onun vətənə, xalqa sədaqət mücəssəməsi olan müdrik fəaliyyətinə nəzər saldıqda onun tarixin müxtəlif dövrlərində həyata keçirmiş olduğu xeyriyyəçilik işlərini heç vaxt nümayişkaranə şəkildə təbliğ etmədiyini müəyyən etmək olur. Məhz bu səbəbdən də bu böyük şəxsiyyətin sağlığı dövründə onun özü tərəfindən İmamzadənin müəyyən bir epiqrafik kitabəsində və yaxud da abidənin hər hansı hissəsində icrasına rəhbərlik və yardım etdiyi bərpa, yenidənqurma tədbirləri ilə bağlı məlumatların həkk etdirilməsi inandırıcı deyildir.

Lakin qədirbilən gəncəlilərin bu mötəbər və genişmiqyaslı quruculuq işlərinin gələcək nəsillərə, bir növ örnək, nümunə olaraq mühafizə etdirilməsi məqsədilə hər hansı kitabə, lövhələrdəki yazılarda qeyd etmələri istisna olunmur. Çox güman ki, qəhrəman Cavad xan Qacarın 1804-cü il 3 yanvar tarixində xəyanət nəticəsində, eyni zamanda istər say baxımından, istərsə də hərbi təchizat nöqteyi-nəzərdən qeyri-bərabər nisbətdə baş vermiş döyüşdə şəhid olmasından sonra Gəncə İmamzadəsinə də münasibətdə bu məsələlərlə bağlı müəyyən «axtarış» tədbirləri həyata keçirilmişdir. Çünki Gəncənin yuxarıda qeyd olunmuş tarixdən etibarən işğalçı Çar Rusiyası qoşunları tərəfindən zəbt olunması nəticəsində özünün qorxmazlığı, şücaəti, mübarizliyi ilə fərqlənən Cavad xan Ziyadoğlu, onun şərəfli nəsli və bütövlükdə Gəncə əhalisinə qarşı təqib, təzyiqlər müxtəlif formalarda həyata keçirilmişdir. Cavad xanın Gəncənin şanlı tarixini, bütünlüklə Azərbaycanın qəhrəmanlıq salnaməsinin qəhrəmanlıqla zəngin səhifələrini yazmış şəxs olaraq böyük imperiya qüvvələri üçün hətta ölümündən sonra da qorxu, təşviş mənbəyi olması səbəbindən bu görkəmli şəxsiyyətlə, onun həyata keçirmiş olduğu xeyirxahlıq, vətənə sonsuz məhəbbət və ehtiramla zəngin fəaliyyəti ilə əlaqədar bütün xatirələrin, sübutların məhv edilməsi işləri icra edilirdi. Gəncə İmamzadə ziyarətgahında Cavad xanın həyata keçirmiş olduğu tədbirlərlə bağlı tarixi faktların da yarıgizli, yarıaşkar şəraitdə yoxa çıxarılması şübhə doğura bilməz.

6. Nəhayət, general-mayor İsrafil bəy Yadigarzadə ilə bağlı faktoloji məlumatları özündə ehtiva etmiş və dəyərli sənət nümunəsi hesab edilən bu kitabədə Gəncənin ayrı-ayrı

tarixi dönəmlərdə tanınmış şəxsiyyətləri, müxtəlif qurumları, yaxud geniş əhali kütləsinin maddi vəsaitləri hesabına keçirilmiş genişmiqyaslı abadlıq quruculuq tədbirlərinə dair ayrıca bir məlumatın mövcud olmamasını bir neçə məqamla əsaslandırmaq mümkündür.

Belə ki, əvvəla qeyd edilən məlumatların ayrı-ayrı tarixi dövrlərlə bağlı olması onların eyni bir kitabədə əks etdirilməsini qeyri-mümkün edirdi. Digər tərəfdən isə, bu cür kitabələrin, müxtəlif yazılı mənbələrin ümumiyyətlə mövcud olmadığını qeyd etmək doğru deyildir. Çünki hər hansı maddi mənbənin aşkar edilməməsi heç də onun mövcud olmamasına dəlalət edə bilməz.

Mümkündür ki, bu cür yazılı mənbələr, kitabələr müxtəlif dövrlərdə bilərəkdən məhv edilmiş, sıradan çıxarılmış və yaxud da gizlədilmişdir. Həmçinin, Gəncə İmamzadə abidəsində dəfələrlə, ayrı-ayrı dövrlərdə həyata keçirilmiş bərpa, yenidənqurma tədbirləri zamanı ehtiyatsızlıqdan bu cür epiqrafika sənəti incilərinin tədricən yararsız hala salındığını da istisna etmək mümkün deyildir.

Lakin burada bir məqama xüsusilə əhəmiyyət verilməlidir ki, Gəncə İmamzadə türbəsi sadə bir tikili deyildir. Onun ərazisində təmir, abadlıq tədbirlərini müxtəlif dövrlərdə həyata keçirmiş insanlar da təsadüfi şəxslər olmamışlar. Odur ki, Gəncə İmamzadəsi kimi müqəddəs bir məkanda bərpa, yenidənqurma işlərini təşkil edənlərlə bərabər, icraçıların da bu cür sənətkarlıq nümunələrinə tam laqeyd, etinasızcasına yanaşması heç də inandırıcı deyildir.

Məhz bu səbəbdən də Gəncə İmamzadəsinin tarixinin çox mühüm məqamlarını özündə ehtiva etmiş

ayrı-ayrı maddi mənbələrin, o cümlədən də kitabələrin aşkar edilməməsi ilə bağlı müəmmalı məqamlar kifayət qədərdir.

General-mayor İsrafil bəy Yadigarzadə ilə bağlı məlumatın Gəncə İmamzadə türbəsindən aşkar edilmiş kitabədə qeyd olunması bir tərəfdən bu cür ənənənin əvvəlki dövrlərdə də mövcud olduğunu nümayiş etdirir. Digər tərəfdən isə İsrafil bəyin tarixi proseslərdən düzgün nəticə çıxarmağı bacaran insan kimi gələcək nəsillərə təmənnasız xeyriyyəçiliyini göstərmək məqsədilə bu yazının qorunmasına şərait yaratması da tutarlı mülahizə hesab oluna bilər.

Bundan əlavə, bəhs edilən kitabədə Tiflisdən olan yüksək rütbəli hərbi xadimin məhz Gəncədə yerləşən müqəddəs İmamzadə abidəsinin, ziyarətgahının təmir və bərpa etdirilməsinə böyük bir qayğı ilə yanaşması şəhərimizin və onun maddi, mənəvi mədəniyyət incilərinin mövcud olmuş nüfuzunun göstəricisi kimi də təqdim edilməlidir.

Gəncə İmamzadə abidəsinin çox dəyərli sənətkarlıq, memarlıq nümunələri demək olar ki, onun hər bir guşəsində mövcudluğunu nümayiş etdirir. Bu müqəddəs ziyarətgahın darvazası da bu baxımdan dəyərli sənətkarlıq nümunəsi hesab edilə bilər. Belə ki, Gəncə İmamzadəsinin əsas darvazası xaricdən (daha doğrusu çöl, bayır hissədən) bir növ zəfər tağını xatırladır. Onun mərkəz hissəsində enli və uca tağ, bunun hər iki kənarında isə iki yarusdan ibarət taxçalar olan pilonlar yerləşir. Çatma tağlı taxçalar gözəl formalı stalaktitlərlə bəzənmişdir.

Qeyd etmək lazımdır ki, bu taxçalar plana görə yarım səkkizkünclüdür. Burada çox mühüm məqama

diqqət yetirilməsi vacibdir. Belə ki, yuxarı yarusla aşağı yarusun mütənasibliyi çox mühüm sənətkarlıq xüsusiyyətləri ilə fərqlənir. Yuxarı yarus aşağı yarusdan alçaqdır və münasib 1:1, 618 «qızıl» nisbətindədir [141; 330].

Darvazanın mərkəz hissəsi eksentrik iki çatma tağla əmələ gələn, portal tipində inşa olunmuşdur. İçəri (daxili) tağın yuxarısında, pəncərə hissələrində qılınc tutan, gəcdən düzəldilmiş iki şirin qabarıq şəkildə təsvir edilməsi hələ XX əsrin əvvəllərində İmamzadə haqqında qələmə alınmış elmi əsərlərdə öz əksini tapmışdır [141; 241].

Bundan əlavə, Gəncə İmamzadə kompleksinin sənətkarlıq (xüsusilə də bədii sənətkarlıq) və memarlıq baxımından diqqətəlayiq elementləri sırasında stalaktitlərin mövcudluğu əhəmiyyətli hesab edilir. Bir sıra mənbələrdə Gəncə İmamzadə kompleksi ilə yanaşı, Şah Abbas (yaxud Cümə) məscidi kimi bir çox maddi mədəniyyət nümunələrində müqərnəslərin olmasına dair məlumatlar, əslində stalaktit nümunələrinin mövcudluğunu təsdiq etmiş olur.

Maraqlıdır ki, bu iki ifadə etimoloji baxımdan, həmçinin fonetik quruluşu nöqteyi-nəzərdən (daha doğrusu, yazılı və şifahi nitqdə ifadə edilməsi) fərqlidir. Amma hər iki ifadə məhz memarlıq termini olaraq eyni bir məzmunu bildirir.

«Stalaktit» məfhumu yunan sözü olan «stalaktos» kəlməsindən yaranmışdır. Mənası isə «damcı-damcı sızılmış» kimi ifadə edilir.

«Müqərnəs» ifadəsi isə ərəb dilində yapma karnizlə bəzədilmiş kimi mənalandırılır [13; 49; 72].

Gəncə İmamzadə abidəsində bir deyil, bir neçə stalaktit (və yaxud müqərnəs) nümunəsinə təsadüf edilir. Bu stalaktit elementləri istər abidənin darvazaları yaxınlığında, istərsə də İmamzadə türbəsinin daxilində mövcuddur. Belə ki, giriş darvazası ətrafındakı çatma tağla taxçaların üzərində olduqca gözəl, diqqətəlayiq formaya malik stalaktitlər digər memarlıq elementlərindən əhəmiyyətli dərəcədə fərqlənir.

Ümumiyyətlə, stalaktit (yaxud da müqərnəs) memarlıqda ən nəfis, forma və işlənmə üslubu baxımından ən təqdirəlayiq sənət elementlərindən hesab edilir. Stalaktit deyildikdə, prizmavari fiqur şəklində dekorativ detal nəzərdə tutulur. Stalaktit bir-birinin üzərində cərgə ilə yerləşən çıxıntılardan ibarət olur [111; 121; 147; 254; 340-345].

Onun bu cür forması özünü yunan dilindən tərcümədə ifadə etdiyi mənası ilə eynilikdə göstərir. Belə ki, «stalaktos» yunan dilində «damcı-damcı sızılmış» mənasını bildirir. Bu, karst mağaralarının tavanından çubuq boru və yaxud buz lüləsi formasında inkişaf edən əhəngli mineral törəməyə şamil edilən termindir. Məhz bu memarlıq elementi də təbiətdə mağaraların tavanında sızan damcılardan əmələ gələn əhəngli törəməni xatırladır.

Stalaktit orta əsrlər dövründən etibarən meydana gəlmiş və memarlıq abidələrində tətbiq edilmişdir. Bu dekorativ detal bəhs edilən tarixi mərhələdə ərəb ölkələri, Orta Asiya ilə yanaşı, Azərbaycan memarlığında da tədricən geniş surətdə istifadə olunmağa başlanmışdır. Bu zaman və uzun müddət əksər Şərq-müsəlman ölkələri kimi Azərbaycan memarlığı üçün xarakterik (səciyyəvi)

olan stalaktit, adətən tromp adlandırılan forma əmələ gətirirdi.

Bundan əlavə, Azərbaycan memarlığında, adətən stalaktit elementləri yarımgünbəz, taxça tağının üstündə (üzərində) yerləşdirilir, karniz əmələ gətirən formalarla təmsil olunurdu [321; 330; 337-342].

Gəncə İmamzadə abidəsinin stalaktit dekorativ detalları daxili hissəsində də mövcuddur. Bu memarlıq elementi sənətkarlıq nöqteyi-nəzərdən bir sıra dəyərli cəhətləri ilə fərqlənir:

I. Gəncə İmamzadə kompleksinin əsas türbəsi, ətraf türbələrdə olan stalaktit nümunələri orta əsr Azərbaycan memarlığının mühüm səciyyəvi xüsusiyyətlərini özündə ehtiva edir. Belə ki, bəhs olunan stalaktitlər yarımgünbəz, taxça tağının üzərində yerləşdirilmə prinsipi ilə qurulmuşdur;

II. Qeyd edilən stalaktit nümunələri, bütövlükdə Gəncədə sənətkarlığın (xüsusilə bədii sənətkarlığın), memarlığın inkişafının xronoloji baxımdan işlənilməsinə şərait yaradır;

III. Bu dəyərli memarlıq elementi Gəncə İmamzadə türbəsinin müxtəlif dövrlərdə təmir və bərpa edilməsinin elmi baxımdan tədqiq edilməsində, araşdırılmasında müəyyən əhəmiyyət kəsb edir.

Nəzərə almaq lazımdır ki, Gəncə İmamzadə kompleksinin ayrı-ayrı tarixi mərhələlərdə abadlaşdırılmasının yalnız xronoloji çərçivəsinin müəyyən olunmasında bəhs edilən stalaktit nümunələri mühüm rol oynamır. Eyni zamanda, bütövlükdə Azərbaycan memarlıq məktəbinin inkişafının müxtəlif dövrlərdə malik olduğu spesifik keyfiyyətlərinin də üzə

çıxarılmasında bu stalaktitlər kifayət qədər böyük dəyərə malikdir.

IV. Müqərnəslər (stalaktitlər) həm də Gəncənin orta əsrlər dövrünün memarlıq, sənətkarlıq, səciyyəvi yerli xüsusiyyətlərinin müəyyənləşdirilməsi baxımından mənbəşünaslıq əhəmiyyətinə malikdir. Çünki Gəncə İmamzadə abidəsində orta əsrlər mərhələsində həyata keçirilmiş və müxtəlif miqyasda aparılmış bərpa və yenidənqurma tədbirləri zamanı digər memarlıq elementləri kimi stalaktitlərin də forma, rəngi baxımından dəyişikliklərə məruz qaldığı üzə çıxır.

Bu dəyişikliklər isə, öz növbəsində yerli memarlıq, bədii sənətkarlıq sahələrində dövrün tələblərinə müvafiq surətdə meydana çıxan yeniliklərin təsiri ilə stalaktit nümunələrinə də tətbiq olunurdu.

V. Gəncə İmamzadə kompleksində bir neçə mühüm hissələrdə mövcud olan bu müqərnəslərin daha bir mənbəşünaslıq nöqteyi-nəzərdən əhəmiyyəti bu abidənin adi bir tikili deyil, tarixi əsrlərə istinad edən qədim, seçilən ziyarətgah, müqəddəs məkan olduğunu təsbit etməsidir.

Belə ki, ölkəmizin müxtəlif bölgələrində mövcud olan ayrı-ayrı tarixi abidələrdə, maddi mədəniyyət nümunələrində stalaktit quruluşlu memarlıq elementlərinə təsadüf olunur. Bu baxımdan Gəncənin də bir sıra tarixi memarlıq nümunələri istisnalıq təşkil etmir. Xüsusilə də Gəncənin Şah Abbas Camesi (yaxud Cümə məscidi) bu cəhətdən seçilir. Çox dəyərli memarlıq incisi, şəhərin tarixinin yaşadıcısı olan bu abidədə stalaktitlərin istər forması, istər hazırlanma materialı, istərsə də

işlənilmə texnikası (işlənmə üslubu nəzərdə tutulur – E.H.) baxımından bir sıra fərqləndirici xüsusiyyətləri üzə çıxmış olur [14, s.5; 302; 318; 347].

Burada güzgülü stalaktitlərin mövcud olması Gəncənin Şah Abbas məscidinin yalnız mühüm ibadət kimi əhəmiyyətini göstərmir. Bu cür nəfis nümunələr, ən əsası Gəncə sənətkarlığının, memarlığının, bütövlükdə isə Azərbaycanın mədəniyyətinin inkişaf və tərəqqisinin əyani surətdə nümayiş etdirilməsinə xidmət edir. Təsadüfi deyildir ki, Gəncə Came məscidinin (yaxud Cümə məscidinin) mehrabının məhz güzgülü stalaktitlərə malik olması müasir dövrümüzdə də yalnız yerli deyil, əcnəbi şəxsləri, o cümlədən də sənətkarları, memarları heyran etməkdədir.

# III FƏSİL

# İMAMZADƏ KOMPLEKSİ ŞƏRQİN MÜHÜM DİNİ – İDEOLOJİ MƏRKƏZLƏRİNDƏN BİRİ KİMİ

## 1. Azərbaycan xalqının qədim ziyarətgahı – İmamzadə

Zəngin və şərəfli tarixi keçmişə malik olan Gəncə şəhərində insanların mədəni səviyyəsinin, ümumi dünyagörüşünün yüksək olması bir çox sahələrdə olduğu kimi, dinə münasibətdə də özünü əyani şəkildə büruzə vermişdir. Məhz bu səbəbdən Gəncə sakinləri hələ çox qədim tarixi dövrlərdən etibarən xürafata, ehkamçılığa deyil, dinin doğru, müqəddəs tövsiyələrinə əməl etməyi düzgün hesab etmişlər.

Gəncə İmamzadə ziyarətgahı da mahiyyəti etibarilə insanların inam-inanc mənziləsi kimi əhəmiyyətini tarix boyu qoruyub-yaşatmış müqəddəs dini ocaqlardan, mərkəzlərdən biri olaraq dəyərləndirilir. İmamzadənin çox böyük bir tarixi müddət ərzində insanlar tərəfindən ziyarət edilməsini şərtləndirən bir çox amillər mövcuddur. Ümumiyyətlə, yalnız həqiqi övliya, seyidlərə ehtiram bəslənilmiş, saxtakar, fırıldaqçı şəxslərin özlərinin dinə zidd fəaliyyətlərini həyata keçirmələrinə qarşı ədalətli, dürüst mövqeyi ilə seçilmiş Gəncədə İmamzadəyə sonsuz ümidlər ocağı, pak, saf niyyətlərin arzu edildiyi müqəddəs bir məkan olaraq yanaşılması və onun ziyarətgah olaraq yüzilliklər boyu əhali tərəfindən göz bəbəyi kimi mühafizə olunmasının tarixi kökləri, elmi əsasları vardır [3, s.4-9; 25; 60]:

1. Gəncə İmamzadə ziyarətgahı islam dininin Azərbaycanda ilkin intişar tapması mərhələsində formalaşmağa başlamışdır. Bunun isə, öz növbəsində çox böyük tarixi əhəmiyyəti vardır. Daha doğrusu, istər rəvayətlərdə, istərsə də müxtəlif tarixi faktları özündə ehtiva etmiş ayrı-ayrı mənbələrdə, elmi ədəbiyyatlarda qeyd olunmuş məlumatlar imam övladı mövlana İbrahimin məhz VIII əsrdə Azərbaycana pənah gətirməsi və burada da düşmənlərinin əli ilə qətlə yetirilməsini sübuta yetirir. Xalqımız isə müsəlman dünyasının müqəddəs şəxsiyyətlər yetirmiş və şərəfli tarixə malik olan şəcərəsinin nümayəndəsi olan bu imam övladının günahsız olaraq şəhid etdirilməsinin, onun isə fitnə, fəsadlara əl atmadan, həqiqi pak insan kimi sona qədər mərdliklə haqq, ədalət uğrunda silahsız, qeyri-insani metodlardan istifadə etmədən yalnız əqidəsi, sülhsevər, humanist ideyaları ilə mübarizə aparmasının şahidi olmuşdur. Dürüstlüyə, ədalətliliyə, bütövlükdə ali insani keyfiyyətlərə çox böyük əhəmiyyət vermiş əcdadlarımız erkən orta əsrlər dövründə (daha doğrusu, VII əsrin II yarısı – VIII əsrdə) qəbul etdikləri yeni bir dinin – islam dininin həqiqi ardıcıllarının bu qədər düzgün, humanist keyfiyyətlərə malik şəxsiyyətlər olmasını diqqətlə müşahidə etmiş və bu dinin pak, haqqpərvər prinsiplərini təqdir etmişlər [7, s.239-253; 60].

Burada bir tarixi məqama xüsusi önəm verilməsi zəruridir. Belə ki, bizim xalqımız təşəkkül tapdığı çox

qədim tarixi dövrlərdən etibarən hər zaman dürüstlüyü, mərdliyi, mənfi xüsusiyyət və meyllərdən uzaq olması ilə fərqlənmişdir. Əcdadlarımız heç vaxt özgəsinin maddi sərvətlərinə, xüsusilə də onun əzəli torpaqlarına göz dikməmiş, yalnız özlərinin milli heysiyyətini, qürurunu, doğma yurdlarını mühafizə etməyin qeydinə qalmış və bu mənəvi dəyərlərinin kimlər tərəfindənsə tapdalanmasına imkan verməmişlər.

Bəhs edilən tarixi mərhələdə meydana gəlmiş və xalqımız tərəfindən ərəb xilafətinin ölkəmizin torpaqlarına tədricən yiyələnməsindən sonra qəbul edilən islam dini isə özünün olduqca pak, sülhsevər, ülvi xüsusiyyət və prinsipləri ilə yalnız ərəblərin dini olmadığını sübuta yetirmiş olurdu. Təsadüfi deyildir ki, bu saf məramları ilə seçilən din ümumbəşəri səciyyəyə malik olması, bütün insanlığı barışıq və sülhün, əmin-amanlığın hökmran olduğu bir quruluşda yaşamağa dəvət etməsi ilə bir çox xalqların, o cümlədən də əcdadlarımızın çox böyük rəğbətini qazanmış, insanların bu dini könüllü surətdə qəbul etmələrinə səbəb olmuşdur. Azərbaycan xalqının isə hələ çox qədim dövrlərdən etibarən bir çox etnosların, xalqların olduqca bəsit, primitiv insani münasibətlərin mövcud olduğu quruluşlarda yaşadıqları tarixi mərhələlərdə belə insan bərabərliyi, hüquq və azadlıqlarının qarşılıqlı surətdə hörmət prinsipləri əsasında qorunmasının mümkün olduğu bir şəraitdə yaşadığı təkzibedilməz faktdır. Müasir dövrümüzdə də bizlərin milli mentaliteti, milli-mənəvi dəyərlərimizə sadiq olaraq valideynlərimizə, qadınlara, ahıl yaşında olan ağsaqqal və ağbirçəklərə qarşı münasibətdə nümayiş etdirdiyimiz ehtiram, məhəbbət məhz minilliklərə istinad edən adət və

ənənələrimizə əsaslanır. Bu baxımdan qadın və kişi bərabərliyini, əxlaqi saflığı, mənəvi ədalətliliyi təbliğ və təşviq edən islam dininə və onun şahzadə İbrahim kimi həqiqi ardıcıllarına hədsiz dərəcədə böyük ehtiram, məhəbbət bəsləyən Gəncə əhalisi də İmamzadəni mühafizə etməyin, onu ziyarət edərək gələcək nəsillərə çatdırmağın zəruriliyini müəyyən etmiş, bu məkanın müqəddəsliyini qoruyub saxlamışlar.

2. Gəncə İmamzadə ziyarətgahı yerli əhalinin, tədricən isə bütövlükdə müsəlman Şərqinin mühüm dini-ideoloji mərkəzlərindən birinə təsadüfi olaraq çevrilməmişdir. Çünki müxtəlif şifahi rəvayət, deyimlərlə yanaşı, ayrı-ayrı yazılı məxəzlərdə, o cümlədən elmi, tarixi səciyyəli əsərlərdə, ədəbiyyatlarda bu məsələ ilə bağlı müəyyən məlumatlar vardır. Bəhs olunan mənbələrə istinad edərək müasir Gəncə İmamzadəsi, onun türbə və ətrafdakı tikililərlə yanaşı, artıq kifayət qədər geniş bir ərazini əhatə etmiş və kütləvi sayda məzarların mövcud olduğu qəbiristanlıq sahəsinin hələ VIII əsrdən əvvəlki tarixi mərhələlərdə də sadəcə istifadəsiz qalmış, yararsız hesab olunan ərazi kimi xarakterizə edilməsinin səhv olduğunu inamla bildirmək mümkündür [17; 59; 64].

Doğrudur, Gəncə İmamzadə kompleksinin əhatə etmiş olduğu ərazinin VIII əsrdən öncəki dövrlərdə dəqiq olaraq hansı məqsədlərlə istifadə edilməsi ilə bağlı konkret bir elmi mülahizə mövcud deyildir. Lakin qeyd olunmuş müxtəlif versiyaların qarşılıqlı surətdə təhlilinin aparılması sayəsində ümumi, yekdil bir elmi fikrin formalaşdırılması vacibdir. Bir sıra mənbələrdə bu

ərazilərin məhsuldar torpaqlarından təsərrüfat məqsədləri üçün istifadə olunmasına dair məlumatlar, əslində şübhə də doğurmur və heç də təəccüblü deyildir. Uzun müddət ərzində bu sahələrin torpaqlarının daha çox kənd təsərrüfatı üçün istifadə edilməsi faktına bu ərazilərin sahibi olmuş dahi Şeyx Nizami və onun şəcərəsinin davamçıları ilə bağlı ayrı-ayrı tarixi məqamların əks etdirildiyi mənbələrdə, müxtəlif ədəbiyyatlarda dəfələrlə rast gəlinmişdir. Xüsusilə də etibarlı mənbələrdə Şeyxzamanlılar (Şeyxzamanovlar) nəsli ilə əlaqədar 1816-cı ildə Gəncədə doğulmuş, Abbasqulu ağa Bakıxanov tərəfindən «Qüdsi» təxəllüsünü yüksək dərəcədə iti hafizəsi, güclü yaddaşı, qabiliyyəti sayəsində qəbul etmiş və çox qiymətli «Tarixi müqəddəs» kitabını yazıya almış Şeyx İbrahim Şeyx Həsən oğlu Şeyxzamanov, yaxud Şeyx İbrahim Qüdsinin həyatı və fəaliyyəti ilə bağlı olaraq verilmiş məlumatlar bunu təsdiq edir [80, s.230-237; 101, s.228].

Bununla yanaşı, Gəncə İmamzadəsi ərazisinin, o cümlədən kompleksin qəbiristanlıq hissəsinin mövlana İbrahimin bu müqəddəs məkanda dəfn edilməsindən əvvəlki dövrlərdən əhəmiyyətli və fərqlənən, insanların (yerli əhalinin) xüsusi olaraq inancla, ehtiramla yanaşdığı bir ərazi olmasını diqqətə çatdıran xüsusiyyətləri sırasında mənbələrin digər bir mülahizəsini qeyd etmək zəruridir. Daha doğrusu, ayrı-ayrı məxəzlərdə bildirildiyi kimi, müasir Gəncə İmamzadəsinin əhatə etdiyi ərazinin müəyyən bir qismi heç də sadəcə təsərrüfat məqsədləri üçün istifadə olunmamışdır. Qeyd edilən ərazidə qədim məzarlığın mövcud olmasına dair məlumatlar həqiqətə daha uyğundur. Bununla bərabər, islam dininin qəbul edilməsindən əvvəlki tarixi mərhələlərdə burada hər

hansı inam, inanc ocağının mövcud olması da istisna edilmir.

Yuxarıda qeyd olunan hər iki mülahizə öz-özlüyündə həqiqətdən uzaq deyildir. Belə ki, əgər Gəncə İmamzadəsinin ərazisində antik dövrdə artıq ayrı-ayrı qəbir abidələrinin təmsil olunduğu məzarlığın mövcud olması mülahizəsi qəbul edilərsə, o təqdirdə bu ərazilərin az əhəmiyyətli təsərrüfat torpaqları kimi yalnız kənd təsərrüfatı üçün istifadə edilməsinə dair birtərəfli tarixi yanaşma da qətiyyətli surətdə istisna edilir. Çünki, Gəncə və onun ətraf ərazilərindəki torpaqlar çox qədim dövrlərdə olduğu kimi, müasir mərhələdə də özünün yararlı olması ilə fərqlənir. Odur ki, bu sahələrdə məkan baxımından kifayət qədər böyük bir məzarlığın mövcud olması faktı heç də bu ərazilərin aqrar məqsədlər üçün istifadəsini məhdudlaşdırmırdı. Şübhəsiz ki, qəbiristanlığın məzar abidələri yerləşən hissəsindən milli-mənəvi, dini dəyərlərimizə ehtiramla yanaşmış Gəncə əhalisi heç vaxt əkin sahələri, yaxud da otlaq, biçənək kimi istifadə etmirdi. Kənd təsərrüfatı məqsədlərinə cəlb olunmuş ərazilər isə, əlbəttə ki, qəbiristanlığın kənar hissələrində yerləşən münbit torpaqlar olmuşdur.

Qeyd etmək lazımdır ki, insanlar, xüsusilə də Gəncə əhalisi özlərinin yaşayış yerlərində evlərinin, əkin sahələrinin qəbiristanlıq kimi istifadə edilməsini məqsədəuyğun hesab edə bilməzdilər. Çünki dinə, dini dəyərlərə, adət və ənənələrə xüsusi ehtiramla yanaşması ilə fərqlənmiş əcdadlarımız məzarları, qəbir abidələrini ziyarət etmək, vəfat etmiş qohum-əqrəbalarının xatirələrini yad etmək kimi ən qədim dövrlərdən mövcud olmuş dəfn adət və mərasimlərinə ciddi surətdə riayət etmişlər. Məhz bu səbəbdən də qəbiristanlıqlara ehtiram,

onların mühafizə olunmasına xüsusilə diqqətlə yanaşılması kimi faktorların mövcudluğu müasir Gəncə İmamzadə kompleksinin ərazisində islamaqədərki mərhələdə də məzarlıqların yaxud məzarlığın olduğunu göstərə bilər.

Bu qeyd olunan mülahizənin doğruluğuna dəlalət edən digər bir cəhət bəhs olunan ərazidə qədim alban məzarlarının olmasına dair bir sıra mənbələrdə təsadüf olunan məlumatlardır. Məlumdur ki, islamdan əvvəlki mərhələdə Azərbaycanda, o cümlədən də Gəncədə heç də bütpərəstlik mövcud olmamışdır. Bu səbəbdən də dini inam, etiqadların qorunduğu qədim Gəncədə istər alban məzarlığı, istərsə də digər başqa formada adlandırılmasından asılı olmayaraq məhz yerli əhalinin, bizim əcdadlarımızın dəfn edildiyi qəbiristanlıqda sonradan imam övladının xüsusi ehtiramla torpağa tapşırılması fakt olaraq qəbul edilməlidir.

Şahzadə İbrahimin burada dəfn olunması sayəsində yerli əhalinin, sonrakı tarixi dönəmlərdə isə bir çox müsəlmanın daimi ziyarətgahına çevrilmiş İmamzadənin, onun qəbiristanlığının əhəmiyyəti də yüksəlmişdir. Təsadüfi deyildir ki, artıq bəhs edilən dövrlərdən etibarən insanların bu məzarlıqlarda özlərinin əziz şəxslərinin, qohum-əqrəbalarının dəfn olunmasına istəyi daha da artmışdır. Çünki müqəddəs, pak imam övladının uyuduğu bu məkanda ziyarətə gələnlər həm də mənəvi bir rahatlıq tapa bilirdilər.

Öncə haqqında bəhs edilmiş digər bir inandırıcı məqamlara malik olan elmi mülahizə islam dininin qəbul edilməsindən və mövlana imam oğlunun dəfn edilməsindən əvvəlki dövrlərdə Gəncə İmamzadə ziyarətgahının ərazisində qədim bir inanc məkanının,

ocağın mövcud olması ilə əlaqədardır. Bu fikrin həqiqiliyinə dəlalət edən bir sıra xüsusiyyətləri misal göstərmək mümkündür.

Əvvəla, islam dinindən öncə Azərbaycanda, o cümlədən də Gəncə və Gəncəətrafı bölgələrdə bəzi qədim xalqlarda olduğu kimi bütpərəstliklə bağlı dini təsəvvürlər, çoxallahlılıq (politeizm) bizim əcdadlarımıza xas olmamışdır. Antik dövrdə də xalqımızın bütpərəstliyə etiqad etməməsi, vahid yaradanın mövcudluğunu təsbit edən monoteist (yaxud da təkallahlılıq) zərdüştlük, atəşpərəstlik dininə beyət etməsi yuxarıda qeyd olunmuş mülahizənin daha çox təkzib olunmasına deyil, təsdiq edilməsinə şərait yaratmış olur. Çünki əcdadlarımızın müəyyən pirlərə, saf ocaqlara ziyarət üçün getmələri heç də orada hər hansı bütə, heykələ etiqad etmək anlamında qəbul edilə bilməz. Əksinə, insanlar mənfi əməllərdən, pisliklərdən tamamilə uzaq olan və mənəvi baxımdan pak auraya malik olan bu cür məkanlara baş çəkməklə ulu Tanrıya özlərinin ən ümdə diləklərini dilə gətirmək, dualarını etmək, arzularını səsləndirmək kimi mənəvi tələbatlarını ödəməyi düşünmüşlər.

Müasir Gəncə İmamzadəsinin təsadüfi bir ərazidə deyil, məhz yerli əhalinin saf, xüsusi bir məkan hesab etdiyi yerdə salınması fikrinin sübuta yetirilməsinə xidmət edən digər bir elmi dəlil «Qərib İmamzadə» istilahı ilə bağlıdır. Məlum olduğu kimi, bu tarixi anlayış bir çox mənbələrdə, həmçinin ayrı-ayrı əsərlərdə, ədəbiyyatlarda dəfələrlə rast gəlinmiş bir məfhumdur. Bu anlayışın mənşəyi, mövcud olduğu tarixi şəraitin göstəriciləri bir çox müəmmalı məqamların açıqlanmasına imkan verir. «Qərib İmamzadə» ifadəsi şahzadə İbrahim türbəsinin mövcud olduğu ilk tarixi

dövrlərdə işlənilmişdir. Bunun bir səbəbinin öz doğma yurdundan uzaqlarda, daha doğrusu qərib bir diyarda imam övladının qətlə yetirilməsi və elə burada da (yəni Azərbaycan ərazisində, Gəncədə) dəfn edilməsi faktoru olduğu qeyd edilmişdir.

Bundan əlavə, «Qərib İmamzadə» istilahının yalnız müəyyən bir xronoloji dövr ərzində mövcudluğunu qorumasının bu abidənin ətrafında yeni tikililərin ucaldılmaması, yalnız sonradan bir sıra türbə, məscid və digər tikililərin inşa edilməsi ilə bağlı olduğunu da əsaslandıran elmi mülahizələr mövcuddur. Burada həm də ilk dövrlərdə İmamzadə ziyarətgahının əhəmiyyətinin yalnız Gəncənin coğrafi çərçivəsi ilə məhdudlaşması da bir səbəb kimi irəli sürülmüşdür [105, s.227; 123, s.94; 147, s.50].

Lakin qeyd olunanlarla yanaşı, bir məqama xüsusi diqqət yetirilməlidir ki, müxtəlif mənbələrdə, ədəbiyyatlarda əks etdirilmiş ayrı-ayrı mülahizələrə baxmayaraq, Gəncə İmamzadə ziyarətgahının ən qədim dövr tarixi (daha doğrusu, ilkin formalaşma dövrü) ilə bağlı bir sıra təkzibedilməz faktlar mövcuddur ki, bunların da içərisində xalqımızın dini inamı, xüsusilə də təkallahlılığa etiqadı ilə bağlı inanclarının olduqca qədim tarixi mərhələlərə istinad etməsi əhəmiyyət kəsb edir.

Xalqımızın, konkret halda isə Gəncə sakinlərinin yüksək milli-mənəvi və dini dəyərləri, mədəni səviyyəsi mövcud olmasa idi, islam dininin qəbulundan sonra bütün ocaq, pirlər kimi müqəddəs məkanlarımız artıq yox olaraq unudula bilərdi. Lakin əcdadlarımızın müqəddəs və ən əsası isə mənəvi paklaşma mərkəzləri hesab olunan pirlər, ocaqlar, xanəgahlar kimi məkanlara bütpərəstliklə heç bir bağlılığı olmayan inanclarla əlaqədar baş çəkməsi

sayəsində islam dininə etiqad etdikdən sonra da bu mərkəzlər öz əhəmiyyətini itirməmişdir. Belə ki, bu saf məkanlar mahiyyəti etibarilə tək hesab edilən ulu yaradana – Allaha insanların mənəvi baxımdan öz arzu və diləklərinin yetməsi, onların həyata keçməsi və ən əsası isə mənfi əməllərdən uzaq olmaq üçün dualar etməsi üçün ən münasib ocaqlar hesab olunur [67, s. 3-6; 90-92; 112; 335-337; 340].

Bu məqamda Gəncə İmamzadə ziyarətgahının çox mühüm bir cəhəti də unudulmamalı, xüsusi qeyd edilməlidir. Belə ki, İmamzadədə əsrlər boyu toplanan maddi vəsaitlər hər zaman yalnız təmənnasız xeyriyyəçilik, ehtiyacı olan müxtəlif əhali təbəqələrinin nümayəndələrinin tələbatlarının ödənilməsinə sərf olunmuşdur. Doğrudur, bu sadalanan xeyirxahlıq, əvəzi gözlənilmədən yerinə yetirilməsi vacib hesab edilən xeyriyyəçilik fəaliyyətləri dinimiz olan islamın ən mühüm buyruqlarından, prinsiplərindəndir. Lakin əgər bizim xalqımız müsbət, ali insani keyfiyyətlərə, nəcib xüsusiyyətlərə hələ islam dininin qəbul edilməsindən əvvəlki tarixi dövrlərdə sahib olmasa idi, sonradan zor gücünə bu cəhətləri insanların hafizəsinə yeritmək mümkün olmazdı. Eyni zamanda, əcdadlarımız bu cür müsbət keyfiyyətlərə əzəl məqamdan yiyələnməsə idilər, o zaman bu kimi cəhətləri nəsildən-nəslə irsən ötürərək yüzilliklərlə yaşada, mühafizə edə bilmək mümkün olmaz idi.

Beləliklə, Gəncə İmamzadəsində hələ islamdan (bu dinin əhali tərəfindən qəbul edilməsindən) əvvəlki dövrlərdə də təkallahlılıqla bağlı bir ocağın mövcud olmasını tamamilə təkzib etmək olmaz. Ən azı ona görə ki, qədim dini görüş və təsəvvürlərə malik olmayan bir

xalqın nümayəndələri heç vaxt yeni qəbul etdikləri dinə, onun prinsiplərinə, ziyarətgahları qorumaq, buranın maddi məsrəflərindən yalnız insanların, bütövlükdə isə insanlığın rifahı naminə istifadə etmək kimi əvəzsiz nəcib dəyərlərə sədaqəti əsrlərlə yaşadıb sonrakı nəsillərə əmanət qoya bilməzdi.

3. İmamzadə ziyarətgahı artıq əsrlərdir ki, insanların, daha doğrusu bu müqəddəs məkana gələnlərin mənəvi saflaşmaq, paklanmaq ocağına çevrilmişdir. Gəncə İmamzadə ziyarətgahına gələn zəvvarlar burada günahlardan təmizlənmək, Tanrı dərgahında əfv edilmələrini xahiş etmək, İmamzadənin olduqca müsbət aurasından mənəvi baxımdan qidalanmaq üçün bir yerə toplaşırlar.

Yüzilliklər ərzində Gəncə İmamzadəsinin məhz sınanmış ziyarətgah olaraq mömin insanların daim yad etdikləri pak bir məkana çevrilməsində, heç şübhəsiz yerli əhalinin rolu böyükdür. Təsadüfi deyil ki, Gəncə əhalisinin milli-mənəvi dəyərlərimizə, dini heysiyyətimizə sadiqliyi sayəsində ətraf bölgələrin əhalisi də artıq mərkəz funksiyasını yerinə yetirən mədəni, intellektual səviyyəsi, potensialı, şəhər mədəniyyəti göstəriciləri çox yüksək olan Gəncədə İmamzadə ziyarətgahına bəslənən böyük ehtiram və inamdan örnək götürərək bu müqəddəs ocağı ziyarət etməkdə fərqlənməyə başlamışlar. Məhz bunun nəticəsində zaman keçdikcə Gəncə İmamzadəsinin ziyarətgah olaraq nüfuzu, əhəmiyyəti bütün ölkə miqyasına yayılmışdır.

Bir faktı xüsusilə vurğulamaq lazımdır ki, Gəncə İmamzadə ziyarətgahı yalnız müasir dövrdə ölkəmizdən kənarda yaşayan soydaşlarımız tərəfindən daim yad

edilmir. Bu ənənənin əsası hələ orta əsrlər mərhələsində qoyulmuşdur. Bəhs olunan dövrdən etibarən bir sıra qonşu xarici ölkələrdən Gəncə İmamzadəsini ziyarət etmək üçün hər il çoxlu sayda müsəlman bu müqəddəs məkana üz tuturdu. Qeyd etmək lazımdır ki, İmamzadəyə ölkəmizin müxtəlif bölgələrindən və eləcə də xarici dövlətlərdən zəvvarların gəlişi mütəmadi xarakter daşıyır və yalnız müəyyən əlamətdar dini mərasimlər zamanı müşahidə edilmir.

Bununla yanaşı, heç şübhəsiz Gəncə İmamzadə ziyarətgahında ən böyük insan izdihamı Məhərrəm və Ramazan ayları dövründə müşahidə edilir. Xüsusilə də Kərbəla faciəsinin qeyd olunduğu Aşura mərasimləri zamanı (Məhərrəm ayının 10-cu günü) ziyarətgahda çoxlu sayda mömin insanlar könüllü surətdə toplaşaraq müvafiq dini ayinləri icra edirlər. Çox təqdirəlayiq haldır ki, son illərdə bütün ölkə ərazisində olduğu kimi, Gəncə şəhərində də şəhər rəhbərliyinin düzgün dini maarifləndirmə tədbirlərini həyata keçirməsi sayəsində insanlar, xüsusilə də gənclər dinimizin buyruqlarına heç də uyğun gəlməyən bir sıra dırnaqarası ayinləri, o cümlədən bədəninə fiziki xəsarət yetirməklə qan çıxarmaq və digər islami prinsiplərə müvafiq olmayan hərəkətləri icra etmirlər. Bunun əvəzində isə Kərbəla faciəsində şəhidlik nümunəsi ilə bəşəriyyətə örnək olan İmam Hüseyn, həmçinin onun şəhidlik zirvəsinə ucalmış digər məsləkdaşlarının əziz xatirəsinə ehtiram, hörmət əlaməti olaraq irsi qan xəstəliklərindən, talassemiya və hemofiliyadan əziyyət çəkən körpələrə, bütövlükdə isə ehtiyacı olan insanlara könüllü surətdə qanvermə aksiyalarında fəal iştirak edirlər.

Gəncə İmamzadə ziyarətgahının hələ qədim dövrlərdən etibarən zəvvarların, şəhər əhalisinin mənəvi cəhətdən saflaşması, düzgün yola istiqamətlənməsi sahəsində oynadığı əhəmiyyətli rolunu sübuta yetirən dəlillər sırasında bu ərazinin köhnə yaxud qədim Gəncənin yerləşdiyi coğrafi sahəyə daxil olmasıdır. Belə ki, müasir Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisinə daxil olan İmamzadə və onun ətraf sahələri məhz köhnə Gəncənin xarabalıqları olan məkana uyğun gəlir. Bu fakt isə, öz növbəsində Gəncədə çox qədim dövrlərdən formalaşmış mənəviyyata, dini dəyər və ənənələrə ehtiram xüsusiyyətlərinin artıq yerli əhalinin hafizəsinə, mənəvi həyat tərzinin ayrılmaz bir elementinə çevrildiyini göstərir. Müəyyən zaman keçdikcə bu yüksək mənəvi keyfiyyətlər insanların həyatında dərin kök salmış həqiqi ziyarətgahlara və mənən pak şəxsiyyətlərə münasibətdə əsas müəyyənedici, həlledici faktor rolunda çıxış etməyə başlamışdır.

Ümumiyyətlə, Gəncə İmamzadə ziyarətgahı özünün bütün mövcudluğu dövründə xalqımızın milli-mənəvi dəyərlər sisteminin, etno-psixoloji xüsusiyyətlərinin davamlı olaraq formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Belə ki, Gəncə əhalisi ilə yanaşı, bu müqəddəs ziyarətə gələn çoxlu sayda digər bölgələrin nümayəndələri olmuş insanlar mənəvi saflığın, düzgünlüyün, milli həmrəyliyin, bəşəri sülh və humanizmin təbliğ və təşviq edildiyi İmamzadə ziyarətgahında yalnız müsbət keyfiyyətləri əxz etmişlər. Bu proses, qeyd edilən saf, insanpərvər ideyalar, dəyərlər müasir dövrümüzdə də İmamzadə ziyarətgahında qorunub saxlanılmaqlada davam etməkdədir.

Qeyd olunmalıdır ki, tarix boyu dəfələrlə özünün mərdliyi, şücaətliliyi ilə fərqlənmiş və bu səbəbdən amansız təqib və təhdidlərə məruz qalmış Gəncədə bu müqəddəs abidəyə, xalqımızın və bütövlükdə, Şərqin mühüm ziyarətgahlarından, dini-ideoloji mərkəzlərindən biri olan İmamzadə türbəsinə düşmənlər də toxuna, onu məhv etməyə cürət edə bilməmişlər [9, s.5; 20; 59; 65].

Ümumiyyətlə, Gəncə İmamzadə abidəsinin, Azərbaycan tarixi üçün əhəmiyyətliliyi bir neçə mühüm xüsusiyyəti baxımından əsasalandırılmalıdır:

I. İslam dininin meydana gəlməsi xalqımızın təşəkkülü prosesinin uğurla yekunlaşmasında həlledici faktor qismində çıxış etmişdir. Çünki, əvvəlki tarixi mərhələlərdə Azərbaycanın ayrı-ayrı şəhər və digər yaşayış məntəqələrində, müxtəlif bölgələrində qədim, ənənəvi dini təriqətlərin mövcudluğu vahid xalqın, millətin təşəkkülü prosesində müəyyən qədər sədd rolunu oynamışdır.

Amma islam dininin Azərbaycanın böyük əksəriyyət əhalisi tərəfindən qəbul edilməsi onların vahid ideoloji, dini və müvafiq olaraq milli-etnik mövqe, amal ətrafında birləşməsini sürətləndirdi. Nəticədə vahid Azərbaycan xalqının formalaşması mümkün olmuşdur. Gəncə İmamzadə türbəsi də məhz bu proseslərin fonunda yaranıb daha da inkişaf etdiyi üçün bu abidənin xalqımızın etnik tarixinin tədqiqində əhəmiyyəti böyükdür.

Məntiqi olaraq belə bir nəticə hasil olur ki, İmamzadə türbəsi vahid dil, din və milli-mənəvi dəyərlərə malik olan Azərbaycan xalqının və onun

ayrılmaz tərkib hissəsi olan gəncəlilərin ümumi, müqəddəs hesab edilən ziyarətgahı, inam-inanc məkanı kimi məhz xalqın özü tərəfindən mühafizə edilmişdir.

Məhz bu baxımdan Gəncə İmamzadə türbəsi Azərbaycan xalqının tarixinin çox mühüm mənbəyi hesab edilməlidir.

II. İmamzadə ziyarətgahı Azərbaycanın, Azərbaycan xalqının vahid islam-Şərq mədəniyyətinə qovuşduğu tarixi mərhələdə yaradılmışdır. Bu baxımdan bir cəhət xüsusilə təqdirəlayiqdir ki, bizim xalqımızın mədəni səviyyəsi yeni istilaçının – ərəblərin səviyyəsindən qat-qat üstün olduğu üçün işğalçılar yerli idarəçilik sistemini mənimsəməli olmuşdular. Amma bununla bərabər, özünün pak cəhətləri ilə fərqlənən islamı xalqımız könüllü surətdə qəbul etmişdir. Belə ki, mübarizliyi ilə fərqlənən Azərbaycan xalqı heç vaxt heç bir dini, dili məcburən qəbul etməmişdir. Əksinə, bəzi ərəb hökmdarlarının Azərbaycan torpaqlarına çoxsaylı ərəb nəsillərini, ailələrini Bəsrə, Kufə, Ərəbistan yarımadası ərazisindən köçürməsinə baxmayaraq, tezliklə bu ərəblər yerli əhali arasında assimilyasiyaya uğramışlar [6; 15; 19; 28; 59; 113].

Qeyd edilən xüsusiyyətləri ilə yanaşı, İmamzadə türbəsi həm də geniş xalq kütlələrinin psixologiyasının dini, ideoloji aspektlərinin işıqlandırılması ilə bərabər, özünün memarlıq üslubu, sənətkarlıq cəhətləri baxımından xalqımızın yüksək səviyyəli intellektual, mədəni potensialını da açıqlamış olur. Bu baxımdan əsrlər boyu Azərbaycanın mühüm siyasi, elmi və mədəni,

iqtisadi və sosial mərkəzlərindən biri kimi mövqeyini qorumuş qədim Gəncədə bu cür abidənin yaradılması, yerli əhali və bütövlükdə müsəlmanların müqəddəs ziyarətgahına çevrilməsi heç də təsadüfi xarakter daşımamışdır.

Haqqında bəhs edilən İmamzadə türbəsi də xalqımızın islamaqədərki və islam dövrü mənəvi dəyərlərinin bir növ qarşılıqlı vəhdətliyinin təcəssümünə çevrilmişdir. Belə ki, İmamzadə abidəsini ucaldanlar, inşa edənlər Gəncədə fəaliyyət göstərmiş və əsrlər boyu nəfis, yüksək bədii və sənətkarlıq xüsusiyyətləri ilə fərqlənən həqiqi ustadların davamçıları olmuşlar.

Bundan əlavə, gəncəlilər, bütövlükdə isə Azərbaycan xalqı hələ antik dövrlərdən etibarən müqəddəs hesab edilən məkanları, yerləri ziyarət etmiş, bu ərazilərin mühafizəsinə xüsusi diqqətlə yanaşmışlar. Hətta bir çox hallarda özünün xeyirxahlığı ilə fərqlənən xalqımızın müxtəlif tarixi dönəmlərdə ayrı-ayrı nümayəndələri bu cür məkanların abadlaşdırılmasına təmənnasız olaraq maddi vəsait sərf etmişlər.

Qeyd olunan xüsusiyyətlər baxımından Gəncənin qədim İmamzadə abidəsi, bu müqəddəs ziyarətgah islami dəyərlərimizlə bərabər, mahiyyəti etibarilə bu pak dinimizin təbliğ və təşviq etdiyi ideya və prinsiplərə daha yaxın olan islamdan əvvəlki dəyərlərimizi özündə ehtiva etmiş, bu mənəvi dəyərlərin yaşadıcısı və mühafizəçisinə çevrilmişdir. Abidənin inşa edildiyi tarixdən sonra dəfələrlə bərpa olunması, müəyyən yenidənqurulma tədbirlərinin əhali və müxtəlif şəxslər, qurumlar tərəfindən həyata keçirilməsi və bunun nəticəsində abidənin bu qədər uzun müddət ərzində mövcudluğunu qorumaqla yanaşı, memarlıq baxımından daha da

gözəlləşdirilməsi, sonsuz sayda zəvvarların heç bir ayrı-seçkiliyə məruz qalmadan ziyarətgaha gəlməsi də deyilənlərə sübutdur.

Ümumiyyətlə, Gəncənin İmamzadə ziyarətgahı müxtəlif dini mərasimlərdə çoxsaylı zəvvarların toplandığı məkan funksiyasını da yerinə yetirir. Bu isə, öz növbəsində Azərbaycan xalqının vahid etnik psixologiyasının zənginləşməsi və müsbət dəyərli elementlərin qorunub-saxlanması prosesinin elmi nöqteyi-nəzərdən tədqiq olunmasında İmamzadə abidəsinin dəyərli mənbə rolunu oynadığına dəlalət edir.

Təqdirəlayiq haldır ki, İmamzadə türbəsini adi günlərlə yanaşı, Aşura mərasimi və digər çoxsaylı dini mərasimlərin keçirilməsi müddətində yalnız Gəncə şəhəri və Gəncəbasar sakinləri deyil, həm də ölkəmizin müxtəlif bölgələri, hətta ayrı-ayrı qonşu müsəlman ölkələrin nümayəndələri də ziyarət edirlər.

Qeyd olunan fakt öz növbəsində, Gəncənin bu qədim ziyarətgahının, dəyərli tarixi abidəsinin Azərbaycan xalqının etnik psixologiyasının digər qonşu müsəlman millətləri, o cümlədən türkdilli xalqları ilə qarşılıqlı müqayisə şəraitində araşdırılmasındakı əhəmiyyətinin təsbit olunmasına xidmət edir. Belə ki, İmamzadə ziyarətgahı mahiyyəti etibarilə müsəlmanlar arasında mənəvi, ideoloji körpü funksiyasını yerinə yetirir. Təsadüfi deyil ki, bu ziyarətgaha gələn zəvvarlar milli, irqi fərqləri bıxımından ayrı-seçkiliklə üzləşmədən qonaqpərvərliklə qəbul edildikləri kimi, buranın pak ənənələrini, ayinlərini də birlikdə, bərabər şəkildə, mənəvi vəhdətlilik şəraitində icra edirlər.

Məlum olduğu kimi, İmamzadə piri, yaxud türbəsi istər müxtəlif mənbə və ədəbiyyatlarda, istərsə də xalq

arasında həm də İmamzadə ziyarətgahı adlandırılır. Bu isə çox düzgün və təbii haldır. Allaha, dinə sədaqətli münasibəti ilə fərqlənən Azərbaycan xalqı hələ çox qədim dövrlərdən, hətta islamaqədərki mərhələlərdən etibarən bu cür pirlərin, ziyarətgahların qorunub saxlanılmasına xüsusi diqqətlə, həssaslıqla yanaşmışdır. Artıq VII-VIII əsrlərdə islam dininin qəbulu nəticəsində xalqımızın dini dünyagörüşü və təsəvvürləri daha da zənginləşmiş, mükəmməl cəhətlər əxz etmişdir. Bu baxımdan yalnız Azərbaycanın deyil, müsəlman dünyasının müqəddəs ziyarətgahlarından, dəyərli tarixi irsin yaşadıcısı olan abidələrindən biri - İmamzadə türbəsi də xüsusi əhəmiyyətə malikdir.

III. Gəncə İmamzadə türbə-kompleksinin Azərbaycan tarixinin elmi cəhətdən tədqiq olunmasında ən əhəmiyyətli xüsusiyyətlərindən biri də bu abidənin xalqımızın minilliklərə istinad edən milli-mənəvi dəyər və ənənələrinin daha geniş surətdə üzə çıxarılmasına şərait yaratmasıdır.

Qeyd edilən xüsusiyyətlər mental dəyər və normaların, xalqımızın dini, elmi, mənəvi dünyagörüşünün fundamental, sabit elementləri hesab olunur. Gəncə İmamzadə türbəsi və eyni zamanda buraya zəvvarların gəlişi, abidəni ziyarət etməsi prosesi, öz növbəsində yuxarıda sadalanan mühüm xüsusiyyətlərin müfəssəl surətdə, təfsilatı ilə üzə çıxarılmasına və həm də tədqiq edilməsinə imkan verir.

Bundan əlavə, Gəncə İmamzadə türbəsi xalqımızın yüksək dini tolerantlıq, dözümlülük mədəniyyətinin də təsbitinə şərait yaradır. Etnik, mənəvi-ideoloji xüsusiyyətlərimiz içərisində özünəməxsus yeri olan və dünya xalqları üçün həqiqi nümunə kimi göstərilə bilən

bu nəcib insani keyfiyyətimiz ölkəmizin digər ziyarətgahlarında olduğu kimi, İmamzadədə də qorunub saxlanılmışdır. Təsadüfi deyildir ki, Gəncənin qədim tarixə malik İmamzadə ziyarətgahında müxtəlif dinlərə mənsub olan qeyri-müsəlman ziyarətçilərin heç bir ayrı-seçkiliyə, təzyiqlərə məruz qalmadan abidəni, həmçinin İmamzadə məzarları və qəbiristanlığına baş çəkərək bu müqəddə məkanı ziyarət edə bilmələri çox təqdirəlayiq haldır.

Gəncə həqiqətən də mübaliğəsiz qeyd etmək olar ki, müqəddəs və çox qeyri-adi mənəvi-potensial enerjiyə malik bir şəhərdir. Burada şübhəsiz ki, şəhərin yerləşdiyi məkanın əlverişli mövqeyə malik olması ilə bərabər, İslam dünyasının müqəddəs şəxsiyyəti, bəşəriyyətə yalnız pak, ülvi məramlar uğrunda mübarizə üçün Allah tərəfindən bəxş edilmiş, insanlığı sülh və barışa, həmrəyliyə səsləmiş Məhəmməd Peyğəmbər (s.) nəslinin, şəcərəsinin bir sıra nümayəndələri, o cümlədən şərəfinə İmamzadə türbəsi ucaldılmış mövlanə İbrahimin bu şəhərə pənah gətirməsi kimi faktorlar həlledici əhəmiyyət kəsb etmişdir.

Həmçinin, Azərbaycanın qədim ziyarətgahlarından olan Gəncə İmamzadə pirində vahid Azərbaycançılıq məfkurəsinin insanlar tərəfindən dərk edilməsi üçün düzgün örnək nümayiş etdirilir. Belə ki, İmamzadə türbə - kompleksinin ziyarətçiləri arasında yaşlı, orta nəslin nümayəndələri ilə yanaşı, azyaşlı uşaqlar, yeniyetmələr və gənclər də çox olur. Yaş baxımından böyük olan insanların vahid bir millətin nümayəndələri kimi göstərdikləri yekdillik, qardaşlıq münasibəti bu azyaşlılar üçün nümunə rolunu oynayır. Məhz bu ideologiyanın mövcudluğunun əbədi olması yolunda belə bir nümunə

çox böyük əhəmiyyət kəsb edir. Ümumiyyətlə, Gəncə İmamzadə türbəsi islami prinsip və dəyərlərdən çıxış edərək dünyada sülhün, əmin-amanlığın, bütün müsəlmanların və bütövlükdə bəşəriyyətin birliyinin qoruyucusu qismində çıxış edir. Eyni zamanda Gəncə İmamzadə türbəsi və burada mövcud olan saf, müqəddəs ilahi mühit xalqımızın birliyini, vəhdətliliyini, həmrəyliyini təbliğ edir.

Həqiqi Gəncə İmamzadə türbəsi azərbaycançılıq xüsusiyyətlərini, islami dəyərləri həm memarlıq, həm də mənəvi mühit sahələrində özündə ehtiva etmişdir. Bu abidəni ziyarət edənlər də məhz ümumbəşəri dəyərlərə böyük əhəmiyyət verən Azərbaycan xalqının zəngin, yüksək mədəniyyətinə, dünyagörüşünə heyran qalırlar.

Eyni zamanda, Gəncə İmamzadə ziyarətgahı tarixi fakt və dəlillərə istinad edilməklə insanı heyrətə gətirə biləcək dərəcədə müqəddəs, sınanmış bir ocaq, şər, qara qüvvələrin heç cür təsir edə bilmədikləri ilahi məkan kimi əvəzsizdir.

Gəncə İmamzadə abidəsi geniş etnoqrafik mənada xalqımızın mental dəyərlərinin, xüsusilə də ailə və nigahla bağlı ənənələrimizlə əlaqədar dəyərlərin qorunması sahəsində əvəzsiz bir məkandır. Belə ki, bütün bölgələrimizdə olduğu kimi, milli-mənəvi dəyərlərimizin, adətlərimizin mühafizəsi olunması və gələcək nəsillərə çatdırılması sahəsində Gəncədə də ailə, nigah məsələlərinə xüsusi diqqət yetirilir. Məhz bu səbəbdən də böyüklərə, valideynlərə ehtiram göstərilməsinin mənəvi həyatın bütün sahələrində, xüsusilə də ailədə çox diqqətlə qorunduğu Gəncədə evlənmək, ailə qurmaq müqəddəs bir iş, çox böyük məsuliyyət tələb edən qərar hesab olunur.

Odur ki, Gəncədə ailə qurulması, yeni nəsillərin qohum olması məsələsinə hədsiz dərəcədə həssaslıqla yanaşılır.

Ailəyə müqəddəs bir varlıq kimi yanaşıldığından Gəncədə yeni ailə quranların, həmçinin onların yaxın qohum-əqrəbalarının birlikdə müqəddəs İmamzadə pirini ziyarət etmələri ənənə halını almışdır. Bu adət, mərasim özünün mahiyyət etibarilə uşaqlar, yeniyetmələr üçün həqiqi örnək, tərbiyədir. Çünki, yalnız ədalətliliyin, pak dəyərlərin təbliğ və təşviq edildiyi İmamzadə ziyarətgahına gələn azyaşlı zəvvarlar da bu haqq yoluna, milli-mənəvi, dini dəyərlərimizin mühafizəsinə köklənmiş olurlar.

Gəncə İmamzadə ziyarətgahı Azərbaycan xalqının etnik və ideoloji dəyərlərinin, təsəvvürlərinin, dini ocaqlara, müqəddəs dinimizin etik, əxlaqi göstərişlərinə münasibətinin daha təfsilatlı araşdırılmasında mühüm mənbə rolunu oynayır. Belə ki, məlum olduğu kimi xalqımızın dinə, imana sədaqətliliyi çox yüksəkdir və müqəddəs hesab etdiyimiz məfhum və istilahlara, şəxslərə and içmək artıq yazılmamış bir qanun olaraq düzgünlük, doğruluq, verdiyi vədə əməl etmək anlamında qəbul olunur.

Bundan əlavə, Gəncə İmamzadə abidəsi xüsusi, qeyri-adi bir ilahi təsirin, çox müsbət, pak, şəfaverici mənəvi mühitin mövcud olduğu həqiqi müqəddəs məkandır. Bunun səbəbi isə müqəddəs İmamzadə abidəsinin özünün ilahi, insanları haqq yoluna, düzgünlüyə təşviq edən mühitinin mövcudluğu ilə yanaşı, İmamzadəni ziyarət edən zəvvarların da bütün mənfi fikir və duyğulardan uzaq olaraq bu məkanda yalnız mənəvi saflıq, xeyirxahlıq, mərhəmətlik, səbrlik, iman duyğuları ilə köklənməsi də hesab olunmalıdır. Həmçinin, Gəncə

İmamzadə abidəsini ziyarət etməyə gələn çoxlu sayda insanın, zəvvarın hər birinin qəlbində Allah sevgisi, humanizm duyğularının mövcudluğu, bir növ ziyarətgahın özünün nuru ilə ziyarətçilərin mənəvi nur hisslərinin vəhdətinə səbəb olur.

Ümumiyyətlə, Gəncə İmamzadə ziyarətgahının müsəlman Şərqi üçün malik olduğu əhəmiyyətli mövqe-yini şərtləndirmiş bir çox mühüm tarixi faktorlar vardır. Bu sırada ziyarətgahın tanınması və onun zəvvarlarının təmsil olunduqları coğrafi arealın geniş bir ərazini əhatə etməsi qeyd oluna bilər. Belə ki, Gəncə İmamzadəsini ardıcıl olaraq, ən əsası isə könüllü surətdə ziyarət edən çoxlu sayda müsəlmanların ayrı-ayrı ölkələrdən gələrək məsafənin uzaqlığına mənəvi dəyərlərin yaxınlığı ilə qalib gələ bilmələri çox böyük əhəmiyyət kəsb edir. Bundan əlavə, Gəncə İmamzadəsinin ziyarətgah kimi vacib rolunu Şərq dünyasında bu müqəddəs məkanda yalnız ölkə miqyasında deyil, bütövlükdə müsəlman aləmində tanınmış şəxsiyyətlərdən olan imam övladının dəfn edilməsi faktoru müəyyən etmişdir.

Nəzərə almaq lazımdır ki, şahzadə İbrahim 12 müqəddəs şəxsiyyət hesab olunan imamlardan altıncı imam Cəfər Sadiqin qardaşı və beşinci imam Məhəmməd Baqirin (Bağırın) oğlu olmuşdur. Eyni zamanda, Gəncə İmamzadəsinin orta əsr Şərq-müsəlman memarlığının olduqca mühüm sənətkarlıq ənənələrini özündə ehtiva edən dəyərli tarixi abidə kimi də əhəmiyyəti onun islam mədəniyyətinə, bəşəriyyətə bəxş etdiyi mənəvi və maddi zənginlikləri səciyyələndirmiş olur.

İmamzadə ziyarətgahının həqiqi mənada müqəddəsliyi, mənəvi saflığı tarixən ona qarşı yönəlmiş təcavüzkar, mənfur meyllərin də qarşısının alınmasında

həlledici rol oynamışdır. Bunun subutu qismində bir çox oxşar ziyarətgahların tarixi taleyi nümunə göstərilə bilər. Xüsusilə də bu baxımdan Azərbaycanda mövcud olmuş əsas imamzadə abidələrindən biri olan Bülbülə İmamzadəsinin üzləşdiyi acı aqibət qeyd oluna bilər [7; 9; 22; 28].

Məlum olduğu kimi, İslam aləmində «Baqir ül-ülüm», daha doğrusu «elmləri yaran» təxəllüsü ilə tanınmış Əhli Beyt nümayəndəsi, beşinci İmam Məhəmməd Bağırın oğullarından biri Məhəmməd Sadiq öz ailəsi (xanımı və nökəri ilə birgə) ilə birlikdə Abşeron ərazisində olan Bülbülə kəndinə pənah gətirmişdir.

Qeyd etmək lazımdır ki, Məhəmməd Sadiq atasının beş oğlundan biri olmuşdur. Onun şəxsiyyəti, həmçinin Gəncə İmamzadəsi haqqında görkəmli tarixçi Abbasqulu Ağa Bakıxanov 1841-ci ildə yazdığı məşhur «Gülüstani-İrəm» əsərində belə qeyd etmişdir.

«Bir çox cəhətcə kənd xarabaları, aran şəhərlərində yüksək dərəcəli üç imamzadənin Şamaxı, Gəncə və Bərdə şəhərlərində olan türbələri, Bülbülə kəndindəki İmamzadə göstərir ki, bu ölkə həmişə din böyüklərinin vətəni olmuşdur» [15, s.35-37].

Haqqında bəhs olunan Məhəmməd Sadiqin Bülbülə kəndində dəfn olunmasından sonra məzarı üzərində İmamzadə abidəsi ucaldılmışdır. Bu ziyarətgahı uzun müddət ərzində kəndin əhalisi ilə yanaşı, yaxın kəndlərin və qəsəbələrin də əhalisi ziyarət etmişdir:

Lakin 1936-1937-ci illərdə İslam dininin qatı əleyhdarları olan «Allahsızlar» cəmiyyəti Bülbülədəki İmamzadə ziyarətgahının sökülməsinə sərəncam vermişdir. Dağıstandan cəlb edilən yüz nəfər ləzgi bu ədalətsiz qərardan, daha doğrusu ziyarətgahı sökməkdən

imtina etdi. Belə olduqda isə hakimiyyətə qarşı narazılıq yaranacağından ehtiyat edərək hökumət adamları kəndə qəddar fərmanı yerinə yetirmək üçün əcnəbi millətdən olan məhbusları gətirmişdir. Müqəddəs ocaq tamamilə söküldükdən sonra onun yerində uşaq evi inşa edilmişdir.

1988-ci ildə Bülbülə sakinləri 30-cu illərdə İmamzadə məhv edilən zaman əmanət kimi qoruyub saxladıqları əşyaları ziyarətgaha yenidən təhvil verirlər. Burada müəyyən qədər də olsa, ziyarətgahın bərpası naminə təmir işlərinin təməli qoyulmuşdur. 1993-cü ildən Bülbülə İmamzadəsi «Məhəmməd (Mühəmməd) Sadiq İmamzadəsi» kimi rəsmi fəaliyyət göstərməyə başlamışdır [7; 9; 354-358].

Bu ziyarətgah kimi bir çox ocaqlarımız, pirlərimiz zaman-zaman belə dağıntılara məruz qalmışdır. Doğrudur, Gəncə İmamzadəsinə də uzun müddət ərzində baxımsızlıqla zərbə vurmağa, hətta müəyyən dövrlərdə onu tamamilə məhv etməyə çalışmışlar. Lakin Allahın kəraməti, lütfü sayəsində Gəncə İmamzadəsi bütün bu müsibətlərdən qurtula bildi. Onun saflığı, müqəddəsliyi ən amansız, dinsiz və imansız qüvvələrə belə bu pak məkanı məhv etməyə, onu sökməyə, uçurmağa imkan vermədi.

Heç şübhəsiz, Gəncə torpağının – «İmam Hüseyn» şəhəri adlandırılan bu əvəzsiz şəhərin, həmçinin onun mərd, sülhsevər sakinlərinin qətiyyəti sayəsində İmamzadə ziyarətgahının tariximizdə yalnız keçmişin xatirəsi kimi adının yaşamasına, özünün isə dağıdılmasına yol verilmədi. Bu gün Gəncə İmamzadə ziyarətgahı müsəlman Şərqinin mühüm dini-ideoloji mərkəzlərindən, əvəzsiz tarixi-memarlıq incilərindən biri kimi mühafizə edilir.

## 2. İmamzadə məzarlıqları, abidənin bərpa və yenidənqurulma tarixi haqqında

Gəncə İmamzadə kompleksinin yarandığı ilk tarixi dövrlərdən etibarən tədricən sahə baxımından genişlənməsini şərtləndirmiş müxtəlif səbəblər olmuşdur. Bunlar ayrı-ayrı mərhələlərdə İmamzadə ərazisində həyata keçirilmiş genişmiqyaslı abadlıq, quruculuq və yenidənqurma tədbirlərinin nəticəsi olaraq formalaşmışdır. Qeyd olunan səbəbləri kompleks şəkildə aşağıdakı kimi ümumiləşdirmək mümkündür:

1. Gəncə İmamzadəsinin ilkin tarixi dövrlərdə əsas türbə hissəsində və onun ətraf ərazisində təmir, bərpa tədbirləri həyata keçirilmişdir;
2. Artıq XIV-XV əsrlərdən etibarən İmamzadədə türbənin ətrafında bərpa və yenidənqurma işləri ilə bərabər, əsaslı inşa tədbirlərinə başlanılmışdır [12, s.5; 23; 39; 60];
3. XVII-XVIII əsrlərdən başlayaraq Gəncə İmamzadəsinin memarlıq quruluşunda əhəmiyyətli yeniliklər tətbiq edilmişdir. Qeyd olunan dövrdə abidənin əsas konusvari formaya malik olan günbəzli türbəsinin ətrafında məscid, digər türbələr, sərdabələr inşa olunmağa başlanmışdır. Bu tədbirlərin nəticəsində isə İmamzadə kompleksinin tam formalaşması sahəsində əhəmiyyətli addımlar atılmış oldu [67; 87; 105, s.228; 123, s.93];
4. Gəncə İmamzadə türbəsinin yaxınlığında mövcud olan və yuxarıda qeyd edilən tarixi mərhələlərdə inşa edilmiş dini xarakterli tikililərlə yanaşı, bu müqəddəs məkanın

əhəmiyyətli ziyarətgah kimi nüfuzunun yüksəlməsi sayəsində karvansara tipli evlər, digər tikililərin də yaradılmasına ehtiyac artdı. Nəticədə bu cür tikililər də ucaldıldı, İmamzadənin isə öz növbəsində kompleks kimi sahəsi daha da artmış oldu;

5. İmamzadə kompleksinin tarixən formalaşmasını yalnız irimiqyaslı yenidənqurma tədbirləri ilə məhdudlaşdırmaq olmaz. Ayrı-ayrı dövrlərdə burada həyata keçirilmiş və tamamilə kompleksin bütün ərazisini əhatə etməsə də, müəyyən sahələrdə aparılmış bu cür tədbirlər də abidənin tarixiliyinin qorunmasına, ümumi memarlıq ansamblının vəhdətinə xələl gətirilməməsinə səbəb olmuşdur. Bundan əlavə, bəhs olunan restavrasiya xarakterli işlər sayəsində Gəncə İmamzadə kompleksinin ətraf hissələrinin də abadlaşdırılmasına xüsusi diqqət yetirilmiş, ərazinin genişləndirilməsi mümkün olmuşdur.

Lakin bir məqama əhəmiyyət verilməlidir ki, Gəncə İmamzadə kompleksinin, bütövlükdə ərazicə genişlənməsi və inkişafını yalnız türbə və onun ətrafındakı tarixi tikililərlə əlaqələndirmək olmaz. Daha doğrusu, Gəncə İmamzadəsinin ümumi ansamblının formalaşmasında türbə, məscid kimi tikililərlə yanaşı, tədricən geniş bir ərazini əhatə etmiş qəbiristanlığın da əhəmiyyəti kifayət qədər böyükdür. Gəncə İmamzadəsinin ətrafında mövcud olan məzarlıqlar iki əsas tipdə təmsil olunur:

I. Birinci qrupu (şərti olaraq) təşkil edən qəbir abidələri birbaşa Gəncə İmamzadəsinin

yaxınlığında, bir növ türbənin həyətində yerləşir. Bu məzarlar istər forma və quruluşuna, istərsə də aid olduqları dövr baxımından fərqlidir. Əsasən, burada Gəncənin tarixində mühüm xidmətləri olan şəxsiyyətlər dəfn olunmuşdur. Şeyx Nizami nəslinin xələfləri olan Şeyxzamanlıların ümumi qəbir abidələrinin, sərdabələrinin, Axund Molla Hüseyn Pişnamazzadənin sərdabəsi bu cür məzarlardandır. Həmçinin, Gəncə İmamzadə türbəsinin qarşısında, istisna olunmadan bütün zəvvarların böyük ehtiramla yad etdikləri bir məzar vardır. Bu, Gəncənin əsas ibadətgahlarından biri olan Cümə (yaxud Şah Abbas) məscidinin axundu olmuş, həqiqi seyid nəslinin nümayəndəsi Kərbəlayi Məşədi Seyid Mir Abbas ağanın müqəddəs məzarıdır. Həmçinin burada digər seyidlərin də qəbirləri vardır.

II. Digər qəbir abidələri isə Gəncə İmamzadə kompleksinin ərazisinə daxil olan məzarlığın (qəbiristanlığın) tərkibindədir. Bu qəbiristanlıq ərazicə kompleksin ən geniş, böyük sahəni əhatə edən hissəsidir.

Bəhs olunan qəbiristanlığın ərazisində olan məzarların ən qədim nümunələrinin nə vaxt, hansı tarixi dövrdə meydana gəlməsinə dair elmi mülahizələr bir qədər fərqlidir. Bəzi məxəzlərdə Gəncə İmamzadəsi ərazisində, o cümlədən də müasir dövrümüzdə kifayət qədər böyük bir ərazini əhatə edən qəbiristanlıqda ilk məzarların son beş əsrlik mərhələdə formalaşmasına dair məlumatlar vardır. Bu qeyd edilən məlumatlar daha çox

İmamzadə qəbiristanlığında indi də qalan, tam məhv olmamış məzarların mövcudluğu faktına istinad edilərək bildirilmişdir.

Amma digər bir sıra qiymətli mənbələrdə, ayrı-ayrı ədəbiyyatlarda isə Gəncənin çox qədim tarixi, İmamzadə abidəsinin əhəmiyyəti faktorları nəzərə alınmaqla kompleksin ərazisində olan qəbiristanlıqda ilk məzarların daha qədim mərhələlərdən mövcud olduğunu əsalandıran dəlillər öz əksini tapmışdır.

Əvvəla, VIII əsrdə imam övladı şahzadə İbrahimin şəhid edilərək dəfn olunduğu dövrdə Azərbaycan ərazisində islam dini yayılmış, geniş əhali kütlələri saflığı, düzgünlüyü, ədalətli cəmiyyət ideyalarını özündə ehtiva edən bu dinə etiqad etməkdə israrlı münasibət nümayiş etdirmişdi. Heç şübhəsiz islam dininin insanların məişəti, təsərrüfatı, ictimai fəaliyyəti ilə yanaşı, həyat tərzinin ayrılmaz tərkib hissəsi olan dəfn adət və mərasimlərinin, müxtəlif dini ayinlərinin də icrası ilə bağlı müvafiq prinsiplərinə əcdadlarımız tam ciddi surətdə riayət edirdilər. Bu baxımdan Gəncə də istisna deyildi. Hətta, əksinə, milli, dini ənənələrə ehtiramı, ümumbəşəri ideyalara sədaqətli münasibəti ilə tarix boyu hər zaman fərqlənmiş Gəncə şəhərində dəfn adətlərinin yerinə yetirilməsi sahəsində xüsusi ciddilik, məsuliyyətlilik özünü büruzə verirdi [47; 87; 126;147].

Yuxarıda bəhs edilən tarixi məqamların mövcud olduğu bir dövrdə müqəddəs, pak hesab edilən bir şəxsiyyətin, daha doğrusu mövlana İbrahimin də dəfn edilməsi onun və mənsub olduğu peyğəmbər (s.) nəslinin çoxsaylı düşmənlərinin olmasına baxmayaraq, islam dininin müvafiq göstərişlərinə uyğun şəkildə yerinə yetirilmişdir. Eyni zamanda, imam oğlunun son mənzilə

yola salınması və bütövlükdə, dəfn prosesi xüsusi olaraq təşkil edilmişdir. Çoxsaylı mənbələrin də qeyd etdiyi kimi, burada əsas məqsəd dəbdəbə, təmtəraqlı bir mərasim təşkil etmək olmamışdır. Əsas mahiyyət dinimizi, onun yaşadıcılarını, saf, ədalətli əməlləri ilə bəşəriyyət tarixində iz qoyan bu cür görkəmli şəxsiyyətlərin xatirəsini əbədiləşdirməkdən ibarət olmuşdur. Həmçinin, imamların həqiqi xeyirxah, pak və ulu yaradan tərəfindən xüsusi olaraq seçilmiş bəndələr olduğunun, onların pislikdən, yalan və digər mənfi əməllərdən tamamilə uzaq şəxsiyyətlər olduğunun gələcək nəsillərə bir örnək, nümunə kimi göstərilməsi əsas məqsəd hesab edilmişdir.

Bəhs edilən erkən orta əsrlər mərhələsində Gəncədə islami dəyərlərin, müsəlmanlığın əsas prinsiplərinin cəmiyyətin həyatında artıq aparıcı mövqe qazandığı bir dönəmdə heç də tarixi minilliklərə istinad edən türkçülük ənənələrimiz, xalqımıza məxsus milli-mənəvi dəyərlərimiz məhv olmamışdır. Bir sıra məxəzlərin, ayrı-ayrı ədəbiyyatların da əlimizdə olan tarixi məlumatlarına əsaslanaraq şahzadə İbrahimin də məhz islamdan əvvəlki mərhələlərdə mövcud olmuş dəfn adət və ənənələrimizə, dini ayin və mərasimlərimizə müvafiq surətdə dəfn edilmiş çoxlu sayda yerli əhalinin nümayəndələrinin məzarlarının mövcud olduğu qəbiristanlıqda yaxud onun yaxınlığında, xüsusi bir yerdə son mənzilə yola salınıb torpağa tapşırıldığını qeyd etmək mümkündür. Əlbəttə ki, bu qəbiristanlıqlarda dəfn edilənlər Gəncənin yerli əhalisi olan azərbaycanlılar – bizim əcdadlarımız olmuşdur.

Ayrı-ayrı mənbələrdə, ədəbiyyatlarda bəhs edilən məzarlıqlarda albanların qəbir abidələrinin mövcud olmasına dair öz əksini tapmış məlumatlar da məhz

Azərbaycanın, konkret məqamda isə Gəncənin əzəli, əbədi sakinləri olan bizim ulu babalarımızın, daha doğrusu azərbaycanlıların burada dəfn olunmasına dair təkzibedilməz faktları bir daha sübut edir [17; 67; 126; 147, s.47-49].

Beləliklə, Gəncə İmamzadəsi məzarlıqlarının tarixi-etnoqrafik baxımdan genezisi (yaxud mənşəyi) problemi, ilkin formalaşma dövrünün xronoloji çərçivəsinin müəyyən edilməsi ilə əlaqədar aşağıdakı mühüm elmi müddəaları qeyd etmək zəruridir:

1. Müasir Gəncə İmamzadə kompleksinin, xüsusilə də onun kütləvi məzarların mövcud olduğu qəbiristanlıq ərazisinin hələ bizim eranın VIII əsrində imam övladı olan mövlana İbrahimin burada dəfn edilməsindən əvvəlki dövrlərdə də yerli əhali tərəfindən məhz bu təyinatla istifadə edilməsini təsbit edən məlumatlar mövcuddur.
2. Bəhs olunan dövrdən əvvəlki mərhələlərdə Gəncə İmamzadəsinin qəbiristanlıq hissəsi əsas özək hesab olunmuşdur. Bu məkan İmamzadə kimi tanınaraq insanlar tərəfindən ziyarət edilənə qədərki tarixi dövrlərdə yalnız əhalinin öz əzizlərini dəfn etdikləri məzarlıq kimi istifadə olunmuşdur. Bununla yanaşı, ayrı-ayrı mənbələrdə qəbiristanlığın ətrafında yerləşən torpaqların yüksək məhsuldarlığa malik sahələr olaraq yerli əhali tərəfindən istifadə edildiyinə dair məlumatlar mövcuddur.
3. İmamzadə kompleksinin mühüm tarixi abidə və eyni zamanda, dini ziyarətgah kimi formalaşmasından əvvəlki mərhələlərdə onun ərazisinin (müasir dövrümüzdə olan ərazisi

nəzərdə tutulur – E.H.) müəyyən bir qisminin, əsasən qəbiristanlıq kimi mövcudluğunu qorumasını nümayiş etdirən mənbələr sırasında yazılı nümunələr, ayrı-ayrı tarixi ədəbiyyatlar mühüm rol oynayır. Bununla yanaşı, tam olmasa da müəyyən qədər tarixi həqiqətləri özündə ehtiva edən və insanlar arasında şifahi surətdə yaşadılmış bir sıra rəvayətlər, folklor nümunələri də Gəncə İmamzadəsinin məhz ən qədim dövrlərdə formalaşması ilə bağlı məlumatları əks etdirdiyi üçün əhəmiyyətli hesab oluna bilər.

Burada bir məqama xüsusilə diqqət yetirilməsi zəruridir ki, heç də bütün rəvayətlər, şifahi xalq yaradıcılığı nümunələri əsrlər boyu insanların hafizəsində mövcud olub irsən nəsildən-nəslə ötürülərək yaşadıla bilmir. Odur ki, müqəddəs ziyarətgahımız, qədim tarixi abidəmiz və eyni zamanda milli-mənəvi dəyərlərimizin mühafizəçisi, yaşadıcısı olan Gəncə İmamzadəsinin tarixinin hər hansı bir dövrünün müəyyən məqamlarını əks etdirən istənilən mənbəyə, o cümlədən də şifahi nümunələrə xüsusi diqqətlə yanaşılmalıdır.

Qeyd edilən yazılı və eləcə də şifahi mənbələrdə Gəncə İmamzadəsinin ən qədim qəbir abidələrinin aid olduğu tarixi dövr və bu məzarların mənsubluğu ilə əlaqədar məlumatlar mövcuddur. 739-cu ildə şəhid olmuş şahzadə İbrahimin müasir Gəncə İmamzadəsinin ərazisində dəfn edilməsi zamanı onun çoxsaylı alban məzarları ilə əhatə olunduğuna dair tarixi arayışın verilməsi məhz bəhs olunan dövrdən əvvəlki mərhələlərdə də bu məkanın artıq insanlar tərəfindən ziyarət edildiyini göstərir. Doğrudur, yerli əhali buraya

hər hansı müqəddəs hesab edilən konkret bir ocağı deyil, daha çox özlərinin bu qəbiristanlıqda dəfn olunmuş yaxın insanlarının məzarlarına baş çəkmək, onların xatirəsini yad etmək məqsədilə gəlmişlər. Amma bu məkanda İmamzadə türbəsi inşa edilənədək hər hansı bir pirin, ocağın, əcdadlarımızın bütpərəstliklə heç bir bağlılığı olmadan, sadəcə mənəvi baxımdan saflaşmaq, ürəklərində olan ən ümdə diləklərinin, arzularının Tanrı dərgahında gerçəyə çevrilməsi üçün üz tutduqları bir paklaşma yerinin mövcud olduğunu da tam istisna etmək mümkün deyildir. Bunu şərtləndirmiş amil kimi Gəncə İmamzadə türbəsinin hal-hazırda yerləşdiyi məkanda salınması, əsrlər boyu insanların bu müqəddəs ocağı davamlı olaraq ziyarət etməsi faktorlarını qeyd etmək mümkündür [147, s.47-51].

4. Şübhəsiz ki, İmamzadənin qəbiristanlıq yerləşən ərazisinin islam dininin ölkəmizdə bərqərar olmasından əvvəlki tarixi mərhələlərdə artıq mövcud olduğunun, burada insanların dəfn olunmasının tarixi əhəmiyyəti kifayət qədər böyükdür. Çünki burada diqqəti cəlb edən ən əsas cəhət Gəncənin qədim dövr tarixinin elmi baxımdan müfəssəl surətdə tədqiq edilməsi məsələsidir.

Bəhs olunan məzarlığın qəbir abidələri içərisində köhnə (yaxud qədim) alban məzarlarının mövcud olmasına dair məlumatlar, əslində mahiyyəti etibarilə burada məhz bizim əcdadlarımızın dəfn olunduğuna dəlalət edir. Bu isə, öz növbəsində xalqımızın qədim tarixinə, doğma, əzəli torpaqlarımıza qarşı müəyyən dövrlərdə irəli sürülmüş və müasir dövrümüzdə də davam edən bəzi qüvvələrin əsassız iddialarının qətiyyətlə

qarşısını almağa şərait yaradan məlumatlar toplusudur. Nəzərə alınsa ki, qeyd edilən qədim qəbir tiplərinə yalnız Gəncə və Gəncəbasarda deyil, bütövlükdə ölkəmizin geniş bir ərazisində təsadüf edilməsi bir daha Azərbaycanın məhz bizim xalqımızın – Azərbaycan xalqının əzəli və əbədi yurdu olduğunu təsbit edir, bu zaman yuxarıda bəhs olunmuş saxta ərazi və etnik xarakterli iddiaların da heç bir elmi, tarixi əsası olmadığı birmənalı şəkildə sübuta yetirilmiş olur.

Bundan əlavə, Gəncə İmamzadə kompleksinin ən qədim qəbir abidələrinin şəhərimizin antik dövr mərhələsinin elmi nöqteyi-nəzərdən təfərrüatı ilə tədqiq edilməsi sahəsində əhəmiyyəti məsələsinə də toxunmaq vacibdir. Ümumiyyətlə, axirət dünyasına inam tarix boyu insanların dini-mifoloji təsəvvürlərinin əsas məqamlarından hesab olunmuşdur. Məhz bu baxımdan İmamzadə qəbiristanlığında qədim məzarların say çoxluğu tarixi mənbə rolunda çıxış edir. Çünki, əgər bəhs edilən ərazidə pərakəndə surətdə qəbir abidələri mövcud olsa idi, bu faktor İmamzadə məzarlığının antik dövrdə sadəcə kiçik bir sahəni əhatə edən və şəhər mədəniyyəti göstəriciləri ilə heç bir bağlılığı olmayan lokal (məhəlli) qəbiristanlıq olduğuna dəlalət edərdi. Lakin qeyd edilən məzarlıqda kütləvi qəbir abidələri davamlı olaraq ardıcıl surətdə müəyyən bir tarixi müddət çərçivəsində yaranırdı. Bu isə, öz növbəsində İmamzadə məzarlığında kifayət qədər böyük miqdarda insanın dəfn olunduğunu göstərir.

Yuxarıda qeyd olunan tarixi məqam qəbiristanlığın kiçik bir yaşayış məskəninə mənsub olmadığını nümayiş etdirir. Belə ki, bu məzarlıqda məhz yerli əhalinin dəfn edildiyi şübhə doğura bilməz. Bu faktor isə bilavasitə

Gəncə kimi qədim tarixə, zəngin milli-mənəvi dəyərlərə malik şəhərin əhalisinin bəhs olunan qəbiristanlıqda dəfn olunduğunu sübut edir. İlk növbədə ona görə ki, Gəncə və onun ətrafında ikinci bu cür böyük şəhərin mövcud olduğunu təsbit edə bilən heç bir maddi sübut, məntiqi mühakimə irəli sürülməsinə şərait yarada biləcək faktoloji göstərici yoxdur. Bundan əlavə, Gəncə İmamzadə kompleksinin yerləşdiyi ərazinin yaxınlığında indi də yalnız bir neçə kənd, qəsəbə mövcuddur. Antik dövr, eləcə də erkən orta əsrlər dövrü mərhələsində də bəhs edilən ərazidə istər əhalisinin sayının çox olması, istərsə də böyük bir coğrafi sahəni əhatə etməsi, eyni zamanda yüksək ictimai, iqtisadi inkişafı, mədəni tərəqqisi ilə fərqlənən yeganə möhtəşəm şəhərin məhz Gəncə olması heç bir şübhə yaratmır.

Bu elmi mülahizələrin uzunmüddətli tarixi tədqiqat işlərinin də sübuta yetirdiyi bir həqiqətlə, daha doğrusu, İmamzadə türbə-kompleksinin qədim (yaxud köhnə) Gəncənin xarabalıqları ərazisində yerləşməsi fikri ilə uyğunluğu artıq elmi fakt hesab olunmalıdır. Təsadüfi deyildir ki, müasir Gəncə şəhərindən təqribən yeddi kilometr uzaqlıqda yerləşən İmamzadə ziyarətgahı köhnə Gəncənin ən mühüm, simvolik yadigarlarından biri kimi dəyərləndirilir. Hal-hazırda mühafizə edilən bu müqəddəs məkan, dəyərli tarixi abidə mahiyyəti etibarilə qədim Gəncənin qoruyucusudur. Təqdirəlayiq haldır ki, Gəncə İmamzadə türbəsi və onun ətrafında olan ərazilər hələ XX əsrin 80-ci illərinin sonlarında (daha dəqiq deyilsə, 1988-ci il 18 aprel tarixində) yaradılmış Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğunun tərkibinə daxildir. Bu müqəddəs məkanın mühafizə edilməsi, əslində

xalqımızın tarixinin, Gəncənin keçmişinin qorunaraq gələcək nəsillərə çatdırılması deməkdir.

5. Gəncə İmamzadə ziyarətgahının geniş bir sahəni əhatə edən qəbiristanlığının yaranma, ilkin formalaşma tarixi ilə bağlı digər bir mühüm elmi məqam bu məkanın məhz mövlana İbrahimin şəhadətə yetirilərək burada dəfn olunmasından sonra böyük məzarlığa çevrilməsi ilə əlaqədar tarixşünaslıqda öz əksini tapmış mülahizədir. İstər yerli, istərsə də bəzi əcnəbi tədqiqatçıların, xüsusilə də tarixçi, memar və sənətşünasların əsərlərində Şərq – müsəlman mədəniyyəti adı altında ümumiləşdirilmiş elmi baxışlara istinad edilərək Gəncə İmamzadə kompleksinin, onun qəbiristanlıq hissəsinin Azərbaycan ərazisinə islam dininin, müsəlman mənəviyyatının sirayət etməsindən sonra yaranması ilə bağlı müxtəlif xarakterli məlumatlara rast gəlinir [26; 67; 68; 108; 150].

Əgər bu elmi mülahizəni doğru hesab etsək, o zaman Gəncənin antik dövr islamaqədərki milli-mənəvi, eyni zamanda dini dəyərlərini əks etdirmiş bir çox maddi göstəricilərlə bağlı bir qədər fərqli, ziddiyyətli məqam ortaya çıxacaqdır. Odur ki, yuxarıda qısa şəkildə qeyd olunmuş məsələyə başqa prizmadan yanaşılması vacibdir. Nəzərə almaq lazımdır ki, Gəncə İmamzadə abidəsinin ətrafında mövcud olan və çoxsaylı, müxtəlif məzar abidələrindən ibarət olan qəbiristanlığın imam oğlu kimi müqəddəs bir şəxsin burada dəfn edilməsindən sonra əhəmiyyəti, bir növ nüfuzu baxımından xeyli fərqləndiyi şübhə doğurmur.

Bununla yanaşı, belə bir məqamda mühüm bir elmi-tarixi paralelin, qarşılıqlı komparativ müqayisənin aparılmasının zərurəti qaçılmazdır. Belə ki, qeyd olunan tarixi məqam haqqında bu monoqrafiyada geniş şəkildə bəhs edilmiş şahzadə (yaxud mövlanə) İbrahim və onun qardaşı, beşinci İmam Məhəmməd Bağırın digər oğul övladı İsmayıl ilə bağlıdır. Mövlanə İsmayıl da qardaşı ilə birgə öz doğma vətənindən onlara, mənsub olduqları şəcərəyə qarşı həyata keçirilmiş amansız təqib, terrordan can qurtarmaq üçün Azərbaycan ərazisinə pənah gətirdikdən, burada məskunlaşaraq çox mehriban, səmimi münasibətlə üzləşdikdən sonra firavan yaşayışları uzun sürməmiş, düşmənləri onu taparaq şəhid etmişlər. Şahzadə İsmayıl isə Bərdədə dəfn olunmuşdur [65; 107; 126].

İsmayılın vəfatından sonra onun məzarı üzərində türbənin ucaldıldığı güman edilir. Lakin müasir dövrümüzdə bu abidə Bərdə İmamzadə məscididir. Bunun səbəbinə gəldikdə isə, tədqiqatçılar hal-hazırda türbə və məsciddən ibarət olan bu tarixi abidənin vaxtilə İmamzadə kimi (İmamzadə türbəsi kimi – E.H.) mövcud olduğunu qeyd etmişlər. B.A.Dorn bu İmamzadə türbəsinin ətrafında 1868-ci ildə memar Kərbəlayı Şəfixan tərəfindən məscidin inşa edildiyini bildirmişdir. Bu qeyd olunan fikrin sübutu qismində Gəncə İmamzadə türbəsində olduğu kimi, bu məsciddə də mehrabın olmaması göstərilə bilər. Bununla yanaşı, Bərdədəki İmamzadə məscidinin türbəsinin XIII-XIV əsrlərdə tikildiyi, XVIII əsrdə isə artıq onun təmir, bərpa edildiyi ehtimal olunur [11; 64; 67; 108; 126].

Bərdədə (Bərdə şəhərində) yerləşən bu tarixi abidə dördminarəli məscid kimi fəaliyyət göstərir. Onun inşa

edilməsində Azərbaycanın milli memarlıq ənənələrindən istifadə olunmuşdur. İmamzadə məscid kompleksinin ətrafında böyük bir qəbiristanlığın, ərazisində isə əsrlərlə mövcud olmuş ziyarətgahın formalaşmaması məhz Gəncə İmamzadə türbəsi ilə bu oxşar abidənin qarşılıqlı müqayisəli şəkildə təhlil edilməsinin doğruluğunu əsaslandırmış olur.

Daha doğrusu, istər mövlana İbrahim, istərsə də qardaşı İsmayıl imam övladı olaraq aralarında heç bir fərq, təfavüt qoyulmadan xalqımız tərəfindən qəbul edilmiş, heç bir başqa diyarda rastlaşmadıqları ehtiram, məhəbbətlə qarşılanmışlar. Hər ikisi də düşmənləri tərəfindən qətlə yetirilmiş, bununla yanaşı, qədirbilən və şücaətli xalqımız onları heç kəsdən qorxmadan, çəkinmədən, layiqli şəkildə dəfn etmiş, məzarlarını əsrlərlə mühafizə etmişdir.

Lakin Bərdədə şahzadə İsmayılın əvvəlcə türbə, sonra isə məscid kimi tanınmış abidəsinin Gəncə İmamzadəsi ilə müqayisədə nə ətrafında qəbiristanlığın yaranmaması, nə də onun mühüm ziyarətgah kimi regionda tanınmaması bir daha Gəncənin yuxarıda qeyd edilmiş qədim dövr tarixi ilə bağlı faktları təsbit etmiş olur. Belə ki, əgər Gəncə İmamzadə qəbiristanlığının yaranaraq genişlənməsi yalnız imam oğlunun burada dəfn edilməsindən sonrakı tarixi mərhələyə təsadüf etmiş olsa idi, analoji vəziyyətin imam övladlarının dəfn olunduğu digər məkanlarda, o cümlədən Bərdədə olan İmamzadədə də yaranması baş verməli idi. Amma tarixi faktlar bunun heç də belə olmadığını təsbit edir.

Bununla yanaşı, Gəncə İmamzadəsinin qəbiristanlıq sahəsinin qədim dövrlərdən etibarən formalaşdığını sübuta yetirən mühüm faktlar sırasında

Gəncədə tarixən mövcud olmuş yüksək dərəcədə tolerantlığı və xüsusilə də insanların, daha çox isə yerli əhalinin müqəddəs məkanla yanaşı yad etdikləri əzizlərinin məzarlarına baş çəkməklə bağlı artıq ənənəyə çevrilmiş bir məqamı vurğulamaq zəruridir. Daha doğrusu, tarixi çox qədim dövrlərə istinad edən, zəngin milli dəyərləri, mənəvi ənənələri ilə fərqlənən Gəncədə tarixən bütün mühüm qərarlar, atılan vacib, taleyüklü addımlar zamanı kor-koranə, təsadüfi hallara yol verilməməsinə böyük diqqət və məsuliyyətlə yanaşılmışdır. Özünəməxsus mənəvi-əxlaqi xüsusiyyətləri ilə hər zaman fərqlənmiş Gəncədə istər etnik, istərsə də dini tolerantlıq, humanistlik yüksək dərəcədə qorunmuşdur. Lakin bizim milli-mənəvi dəyərlərimizə, heysiyyatımıza, milli qürurumuza xələl gətirilməsinə, bu dəyərlərimizə toxunulmasına heç vaxt Gəncədə biganə yanaşılmamışdır [19, s. 20; 29; 66; 341-345].

Bu baxımdan etnik mənsubiyyət cəhətdən ərəb olan imam övladının özünün mənsub olduğu millətin nümayəndələri tərəfindən qətlə yetirilməsinə baxmayaraq, qədirbilən xalqımız onun pak, şərəfli şəcərəsinin naminə bu günahsız şəxsiyyətin xatirəsini əziz tutaraq məzarını mühafizə etdi, qəbrinin üzərində möhtəşəm abidə ucaldaraq buranı ziyarətgah olaraq əbədi bir ocağa çevirdi.

Digər tərəfdən isə Gəncə İmamzadə ziyarətgahına gələn insanların, heç şübhəsiz burada yaxınları, əzizləri dəfn olunmuş şəxslərin bu məkanı yad edərkən ziyarət etdikləri bir ənənə bu baxımdan böyük əhəmiyyəti ilə seçilir. Belə ki, hələ çox əsrlər əvvəl insanlar bu qəbiristanlıqda olan yaxınlarının məzarlarını yad edərkən

şam yandırmaq, onların xatirəsinə dualar etməklə əsas ayinləri icra etməklə kifayətlənmişlər. Gəncə İmamzadəsinin formalaşmasından sonrakı tarixi dövrlərdən etibarən artıq zəvvarların ilk olaraq məhz İmamzadə türbəsini ziyarət etmək ənənəsi yarandı. Sonra ziyarətçilər burada türbənin qarşısında sınanmış seyid nəslinin nümayəndəsi, eyni zamanda uzun müddət dini, dünyəvi təhsil aldıqdan, islam dünyasının müqəddəs ziyarətgahlarının bir neçəsində (Kərbəla, Nəcəf, Məşhəd) olduqdan sonra Gəncənin Şah Abbas Camesinin axundu vəzifəsində çalışmış Seyid Mir Abbas ağanın və digər müqəddəs hesab edilən şəxsiyyətlərin məzarını yad edirlər. Yalnız bundan sonra ziyarətə gəlmiş insanlar özlərinin mərhum qohum-əqrəbalarının qəbirlərinə baş çəkirlər [67].

Beləliklə, qeyd edilən adətlərin formalaşması bir daha İmamzadə abidəsinin mömin insanların həyatında oynadığı rolun əhəmiyyətindən xəbər verir. Belə ki, məhz bu qədim məkanda bir zamanlar yalnız qəbiristanlıq kimi insanların baş çəkdikləri ərazidə artıq islam dünyasının müqəddəs şəxsiyyətlərindən biri hesab edilən imam oğlunun dəfn olunması sayəsində olduqca pak, toxunulmaz bir ocaq formalaşdı. Nəticədə isə bir tərəfdən müəyyən tarixi müddət ərzində geniş əhali kütlələrinin böyük inam, etiqadla ziyarət etdikləri müqəddəs bir məkan – İmamzadə yaranmış, digər tərəfdən isə Gəncə kimi yüksək mənəvi, dini dəyərlərə malik olan bir möhtəşəm şəhərdə insanların dini inanclarından sui-istifadə edərək onların maddi vəsaitlərinin mənimsənilməsinə yol aça biləcək istənilən fəaliyyətin qarşısı alınmışdır.

Ümumiyyətlə, Gəncə İmamzadə abidəsini dəyərli bir ziyarətgah, insanların inam və inanc mənziləsi kimi səciyyələndirərkən onun digər bu tipli pirlər, ocaqlarla qarşılıqlı müqayisəsinin aparılması çox vacibdir. Məlum olduğu kimi, ölkəmizdə dini ziyarətgahlar, müqəddəs şəxslər hesab edilən övliyaların, imamların və onların övladlarının, şeyxlərin məzarlarının mövcud olduğu məkanlar heç də bütün bölgələrdə eyni cür adlandırılmır. Bundan əlavə, qeyd olunan ziyarətgahlar həm də özünün quruluşu, əhəmiyyəti baxımından bir-birindən fərqləndiyi üçün eyni adlarla qeyd olunmamışlar.

Bu baxımdan İmamzadələr, xanəgahlar, türbələr, pirlər, ocaqlar əsas dini ziyarətgah mərkəzləri və eyni zamanda müəyyən xüsusiyyətləri ilə seçilən abidə və abidələr kompleksləri kimi təsnif olunur. Bundan əlavə, məscidlər də dini ibadətgah olmaqla yanaşı, həm də mənəvi paklaşma ocaqları və mühüm tarixi abidələr hesab edilir.

Xanəgahlar mühüm dini tikililər hesab olunur. Bu tipli abidələr müsəlman Şərqində sufi təliminin yayılması ilə bağlı olmuşdur. Xanəgah dini, mənəvi həyat mərkəzi olmaqla İslamın mənəvi aspektlərinə, mərasim və ayinlərinə ciddi şəkildə riayət olunduğu məkanlardan hesab edilir [254, s.272].

Sufilərin bir qismi həmişə xanəgahda yaşayırdı, bəziləri isə sufi ideyalarını təbliğ etmək məqsədilə ölkədən-ölkəyə, şəhərdən-şəhərə, obadan-obaya gedir, müvəqqəti yaşayış üçün özlərinə xanəgahlarda sığınacaq tapırdılar [188, s.9-10].

Xanəgahlarda tədris işləri aparılır, ilahiyyatçıların diskussiyası olur, görüşlər keçirilir, elmi mülahizələr dinlənilirdi. Azərbaycanda sufi təlimləri erkən çağlardan

yayılmış, burada Suhravərdiyə, Səfəviyyə, Qələndəriyyə, Qədiriyyə, Xəlvətiyyə kimi sufi ordenləri fəaliyyət göstərirdi. Ərəb coğrafiyaşünas – səyyahı əl-Müqəddəsi Xoy və Ərdəbil şəhərlərində sufi məclislərində iştirak etdiyini bildirirdi. «Tarix-əl-Bab»dan isə məlum olur ki, Dərbənddə sufi məclislərində şəhər sakinlərinin müxtəlif zümrələrinin nümayəndələri iştirak edirdilər [282].

Nişapurda sufi cəmiyyətinə başçılıq edən Şeyx Əbu Səid Əbul Xeyrin təlimini yayan müridlərin Şirvanda 400-dən artıq xanəgahı olmuşdur. Pirsaat çayı sahilində, Şamaxıdan İrana gedən karvan yolunun üzərində inşa olunmuş Şirvan şeyxi Pir Hüseynin xanəgahı da həmin abidələrdəndir [123, s.8].

Ümumiyyətlə, xanəgahlar əsasən karvan yolları üzərində inşa edilirdi. Onlar ölkənin iqtisadi-siyasi, mədəni-ideoloji əlaqələrində mühüm rol oynayırdılar. Xanəgahların səciyyəvi cəhətlərindən biri də müdafiə əhəmiyyətli möhkəm divarlarla əhatə olunması, möhtəşəm, baştağlı giriş qapısının mövcudluğudur [188, s.11].

Xanəgahların kompozisiyası onların fəaliyyəti ilə müəyyənləşmiş və dini mərasimlərin tələblərindən irəli gələn binaların kompleksindən ibarət olmuşdur [303, s.272].

Bu cür komplekslərə yaşayış üçün istifadə edilən hücrələr, ibadətlə bağlı tikililər (məscid, minarə), ayinlərin icrası üçün tikililər (zikrxana, sovməə), ümumi toplantı üçün salon (camaatxana), təsərrüfat təyinatlı yardımçı tikililər və s. daxil idi [189, s.245-246].

Bəzən xanəgahlarda qeyd olunan elementlərdən bu və ya digəri olmaya bilərdi. Bütövlükdə, bu tipli abidələr ölkəmizin müxtəlif bölgələrində ayrı-ayrı dövrlərdə inşa

edilmişdir. Pirsaat çayı sahilindəki Pir Hüseyn xanəgahı, Şamaxı yaxınlığında Göylər kəndindəki Pir Mərdəkan xanəgahı, Naxçıvan ərazisindəki Əlincəçayın sahilində yerləşən Xanəgah adlı kənddəki Şeyx Xorasan xanəgahı bu cür abidələrdəndir [291-299].

Bundan əlavə, tarixən sosial-ideoloji mərkəz rolunu oynamış ribat, pir, türbə kimi ziyarət məkanları da mövcudluğunu qoruyub saxlamışdır. Ribat, pirlər islami baxımdan övliya, şeyx kimi statuslara malik olan və yaxud sınanmış seyidlərin ocaqları ilə bağlı yerlərdə olmuş, insanlar da ziyarət məkanı olaraq buraya üz tutmuşlar. Bu cür dini mərkəzlər ölkəmizin bir çox bölgələrində mövcuddur. Onların əsas ideoloji xüsusiyyətləri ümumilik təşkil etməsi, oxşarlığı ilə diqqəti cəlb edir. Lakin bununla bərabər, qeyd olunan ideoloji ocaqlar bir sıra cəhətləri baxımından bir-birindən müəyyən qədər seçilir.

Bəzi bu tipli ziyarətgahlar abidə xarakterlidir, ayrı-ayrı tikililərlə təmsil olunur. Digər bir qismi mənsub olduqları şəxsiyyətlərin ocaqları hesab edilərək ya onların dəfn olunduqları məkan və yaxud sağ ikən yaşadıqları yerdə (ərazidə) olur [126, s.93].

Ölkəmizdə mövcud olan bu cür çoxsaylı pirlər arasında müəyyən dərəcədə tarixi abidələrin inşa edilməsi və yaxud əvvəlki abidənin (məzarın) olduğu kimi qorunub saxlanılmasına baxmayaraq, məhz məkana ehtiram, keçmişə bağlılıq mövcud olduğundan ziyarət kimi əhəmiyyətini saxlayanları da vardır.

Azərbaycanda mövcud olan və əsas ziyarət mərkəzləri kimi tanınan xanəgah, ribat, pir, ocaqlarla yanaşı, bir sıra səciyyəvi cəhətləri ilə fərqlənən türbələr də əhəmiyyətli məkanlardır. Türbələr və türbə

kompleksləri digər ziyarətgahlarla bərabər müqəddəs hesab edilən din xadimlərinin, övliyaların, şeyxlərin, seyidlərin zəvvarlar tərəfindən yad edilən məkanları, əksər hallarda məzarlarının mövcud olduğu yerlərlə bağlıdır. Bununla yanaşı, türbələri digər ziyarətgahlardan fərqləndirən cəhətləri də vardır.

Əvvəla, türbələr mühüm tarixi şəxsiyyətlərin, insanlar tərəfindən ziyarətinə gələrək kütləvi surətdə yad edilən övliyaların, şeyxlərin yalnız qəbirləri üzərində ucaldılan məzarüstü xatirə abidələri hesab olunur.

Bundan əlavə, türbələr həm də ayrıca olaraq tarixi abidə, müəyyən memarlıq, sənətkarlıq məktəblərinin mühüm xüsusiyyətlərini özündə ehtiva edən sənət nümunələri kimi əhəmiyyətlidir. Çünki türbələr ziyarətgah məkanlarının əsas atributu olmaqla yanaşı, eyni zamanda xalqımızın konkret tarixi mərhələdə mövcud olmuş dini dəyərlər, ümumi dünyagörüşünü əks etdirir. Türbələrin inşa olunma, daxili və xarici hissələrinin sənətkarlıq baxımından işlənilməsi cəhətləri həm də müəyyən dövrlərdə əcdadlarımızın memarlıq, bədii sənətkarlıq sahələrində yiyələndikləri bacarıqlarının elmi nöqteyi-nəzərdən tədqiq olunmasına da şərait yaradır və burada tarixi mənbəşünaslıq əhəmiyyəti ilə seçilir [23; 67; 97; 108].

Türbələrlə İmamzadələr arasında bir çox xüsusiyyətləri baxımından oxşarlıq, ümumilik mövcuddur. Belə ki, İmamzadə ziyarətgahlarında əsas abidə məhz məzarüstü türbələrdən ibarət olur. Lakin İmamzadə ziyarətgahları yalnız imam oğullarının dəfn olunduğu müqəddəs məkanlar anlamındadır.

Türbələrə gəldikdə isə, bu abidələr İmamzadələrin yalnız bir hissəsi, mənəvi və eyni zamanda memarlıq

quruluşunun mühüm bir elementini təşkil edir. Çünki İmamzadə ziyarətgahları yalnız türbələrdən ibarət olmur. Burada digər tikililər də olur, eyni zamanda Gəncə İmamzadə kompleksində olduğu kimi məzarlıqlar da istisna hal deyildir.

Türbələr yalnız İmamzadələrdə deyil, həmçinin digər ziyarətgahlarda da mövcud olur. Bir sıra ocaqlarda, ayrı-ayrı pirlərdə də türbələr olması hallarına rast gəlinir. Doğrudur, bəzi ədəbiyyatlarda «pir» anlayışı, bütövlükdə ziyarətgah istilahı ilə eyniləşdirilir və türbələr, xanəgahlar, ocaqlar kimi müqəddəs məkanların istisna edilmədən hamısına şamil olunur. Burada əsas diqqət yetirilməsi zəruri olan məqam yuxarıda sadalanan ziyarətgahların ümumi, oxşar xüsusiyyətləri ilə bərabər, onları bir-birindən fərqləndirən cəhətlərə önəm verilməsidir. Çünki bu məkanların formalaşmasını şərtləndirmiş konkret tarixi şərait olmuş, onların mövcudluğunu qorumasına səbəb olmuş müəyyən obyektiv faktorlar və səciyyəvi cəhətlər digərləri üçün həlledici təsir göstərməmişdir.

Heç şübhəsiz, Gəncə İmamzadəsi də islam dünyasının mühüm ziyarətgahlarından biri kimi fərqlənir. Burada bir çox dini mərasimlərin keçirilməsi, müxtəlif bölgələrdən olan yüzlərlə insanın bu müqəddəs ziyarətgaha ardıcıl surətdə gəlməyi həm də bir həmrəylik nümunəsi hesab edilməlidir. Burada yalnız dini deyil, eyni zamanda milli həmrəylik də nəzərdə tutulur. Belə ki, Gəncə İmamzadə ziyarətgahının müqəddəs, saf mənəvi mühiti burada toplaşan zəvvarların vahid milli məfkurə ətrafında birləşməsinə şərait yaradır.

Ümumiyyətlə, Gəncə İmamzadə kompleksini, onun məzarlıqlarını səciyyələndirərkən bir mühüm məqama xüsusi diqqət yetirilməsi tələb olunur:

Gəncə İmamzadəsinin ziyarətgah kimi əhəmiyyətini şərtləndirən xüsusiyyətləri sırasında bu məkanın qədim, zəngin tarixi dəyərlərə, ənənələrə sahib olması, hələ çox əski dövrlərdən etibarən həqiqi pak ocaq kimi ehtiyacı olan bütün şəxslərə, ələlxüsus kimsəsizlərə, valideyn himayəsindən məhrum olmuş körpələrə, əlil və fiziki qüsurlu insanlara istər maddi, istərsə də mənəvi yardım göstərməsini qeyd etmək mümkündür. Hətta bu cür təmənnasız surətdə edilmiş yardımlar yalnız Gəncə, Gəncəbasar əhalisinə ünvanlanmırdı. Gəncənin həqiqi ziyalıları uzun müddət ərzində ölkəmizin digər bölgələrinin təmsilçiləri olan çoxlu sayda insanlara və hətta qardaş Türk xalqının nümayəndələrinə münasibətdə belə xeyriyyəçilik fəaliyyətini həyata keçirmişlər.

Ümumiyyətlə, Gəncə İmamzadəsinin tarixi, onun istər maddi, istərsə də mənəvi məziyyətləri haqqında bəhs edilərkən, buradakı məzarlar haqqında qeyd etməmək mümkün deyildir. Belə ki, qəbir abidələri yalnız axirət dünyasına inamla bağlı olmayıb hər bir xalqın milli-mənəvi dəyərlər sistemi, etnopsixologiyası, məişətinin mühüm cəhətlərinin tədqiq olunması baxımından dəyərli mənbə hesab olunur. Çoxsaylı və müxtəlif qəbirlərin mövcud olduğu İmamzadə məzarlığı da bu cəhətdən xüsusilə fərqlənir.

Gəncə İmamzadə kompleksinin qəbir abidələri özlərinin diqqətəlayiq, səliqəli sənətkarlıq yazıları – epitafik xüsusiyyətləri baxımından unikal cəhətləri ilə seçilir. Burada istər sərdabə, türbə, istərsə də ənənəvi, adi qəbirlər formasına malik, bununla yanaşı sənətkarlıq

nöqteyi-nəzərdən heç də bəsit olmayan məzarlara təsadüf edilir. Bu cür dəyərli epitafiya nümunələrinin yaradılması isə Gəncədə yaşamış bir sıra peşəkar, görkəmli sənətkarların sayəsində mümkün olmuşdur. Belə ki, Gəncənin müxtəlif tarixi mərhələlərdə olduğu kimi XIX əsrdə də həkkaklıq, nəqqaşlıq və xəttatlıq sahələrində çox yüksək mənəvi zövqə, ən əsası isə peşəkarlığa malik olan sənətkarları yaşayıb-yaratmışlar. Gəncə İmamzadə qəbiristanlığında yaratdıqları sənət əsərləri dövrümüzədək mühafizə edilmiş iki görkəmli xəttat-həkkakın adını xüsusi qeyd etmək zəruridir – Naci təxəllüsü ilə tanınmış Mirzə Mehdi Təbib Gəncəvi və Şeyxzamanlılar nəslinin görkəmli nümayəndəsi Şeyx Zaman [11-14; 64-69; 108; 126].

Gəncə İmamzadəsinin məzarlıqlarında yaratdığı dəyərli epitafiya nümunələri haqqında monoqrafiyanın digər müvafiq fəsil və başlıqlarında (paraqraflarında) geniş surətdə məlumat verilən Mirzə Mehdi Gəncəvi əvəzsiz xəttat, həkkak olmaqla yanaşı, həm də gözəl şer, qəzəllər müəllifi olub. Onun «Naci» təxəllüsü məhz bununla bağlıdır. Belə ki, Mirzə Mehdi Gəncəvi Azərbaycan və fars dillərində qəzəllər yazmışdır. Şair Naci haqqında görkəmli ədib Firudin bəy Köçərli yazırdı:

«Mirzə Mehdinin yaxşı savadı varmış, təbi, şeriyyəti dəxi ziyadə rəvan, zəric və güşadə imiş. Fikri səlis və düzgün olduğundan bəziləri onu sufii və qeyri-məzhəb deyib, müttəhim edirlərmiş» [95].

Bundan əlavə, Mirzə Mehdi həkim olub və Gəncədə xüsusi müalicəxanası olmuşdur. Bu səbəbdən də o, Mirzə Mehdi Təbib adlandırılmışdır. 78 il ömür sürmüş bu görkəmli şəxsiyyət Azərbaycan mədəniyyətinin, poeziyasının Qərb dünyasında

tanınmasında böyük mənəvi xidmətləri olmuş Mirzə Şəfi Vazehin nəslindən imiş.

Mirzə Mehdi Təbib Gəncəvi həm mahir xəttat, həm də kamil nəqqaş, həkkak olmuşdur. O, indiki Goranboy rayonunun Rəhimli kəndində olan Mirzə Adıgözəl bəyin şəcərə türbəsinin də dəyərli qəbirüstü yazılarını hazırlamışdır [11; 53; 139].

Həmçinin Mirzə Mehdi İmamzadə məzarlığında əhəng daşından və gipsdən məzar daşları hazırlayır və onları müxtəlif naxışlarla, hikmətli sözlərlə, rübailərlə və şer parçaları ilə bəzəyirdi. Bu görkəmli xəttat əsasən süls və nəsx xətləri ilə yazmışdır. Onun istər gözəl xəttat, istərsə də peşəkar nəqqaş, həkkak olduğunu qəbir abidələrinin epitafiya-məzarüstü yazılarının, kitabələrinin həm mətnlərini özünün hazırlaması, həm də onları həkk etməsi sübuta yetirir. Məhz bu səbəbdən də ona ustad mənasında sərkər deyərdilər [95; 108; 126].

Mirzə Mehdi Gəncəvi İmamzadə abidələrində və Rəhimli məzarlığında yaratdığı çoxsaylı dəyərli məzarlarla yanaşı, özü üçün də sağlığında artıq gözəl yazılı başdaşı hazirlamışdır. O, Gəncə İmamzadəsindəki üç hissədən ibarət olan üstü günbəzli türbənin mərkəzi (orta) məqbərəsində dəfn olunmuşdur.

Gəncə İmamzadə məzarlıqlarında mühüm sənət əsərləri hesab edilən məzarüstü abidələrin yazılı mətn hissələrinin müəllifi olmuş Şeyx Zaman da dövrünün tanınmış xəttat və həkkaklarındandır. XIX əsrdə Gəncədə yaşamış Şeyx Zaman dahi Şeyx Nizami şəcərəsinin davamçıları olan Şeyxzamanlıların nümayəndəsi idi. O, «Şeyx» tituluna malik olan görkəmli alim kimi də tanınmışdır. Şeyx Zamanın sənətkarlıq üslubu müxtəlif xətlərlə yazılmaq prinsipinə tabe deyildi.

Belə ki, onun müəllifi olduğu epitafiya nümunələrinin də təsdiq etdiyi kimi, Şeyx Zamanın mətn yazılarının özü elə naxış formasında olurdu. O, yaşadığı XIX əsr mühitində də hökm sürən sənətkarlıq ənənələrinə ehkamçı baxımdan yanaşmamış, yenilikçi, novator xarakterli sənətkar olmuşdur. Yazılarını süls xətti ilə həkk etdirir,onların istiqamətini isə sərbəst olaraq müəyyən edirdi. Onun sənətkarlıq üslubuna oxşar hərf elementlərindən təşkil olunmuş simmetrik kompozisiyaların yaradılması xarakterikdir.

Memarlıq, sənətkarlıq xüsusiyyətləri baxımından unikal tarixi - epiqrafik abidə hesab edilən Gəncə İmamzadəsinin müasir dövrümüzə qədər qorunub saxlanılmasında heç şübhəsiz Gəncənin qəhrəman, comərd sakinlərinin xidməti əvəzsizdir. Belə ki, ölkəmizdə bu abidənin mövcud olduğu müddət ərzində müxtəlif yadelli imperiyaların hökmranlığı dövründə, xüsusilə də SSRİ dönəminin amansız 30-cu illəri repressiyaları (XX əsrin 30-cu illəri) zamanı Gəncə İmamzadəsinin məhv edilməsi ilə bağlı təhlükələr daha da artmışdır. Məhz bu ağrılı-acılı illərdə Azərbaycanın bir sıra bölgələrində müxtəlif müqəddəs ziyarətgahlarımız yerlə-yeksən edilmişdir. Bülbülə kəndindəki Məhəmməd Sadiq İmamzadəsi, Bibiheybət zəyarətgahı bu cür haqsız repressiyanın günahsız «qurbanları» olmuşdur.

Amma Gəncə İmamzadə ziyarətgahı məhz Allahın lütfü, özünün paklığı, yerli sakinlərin mərdliklə bu müqəddəs məkanın mühafizə edilməsində nümayiş etdirdikləri qətiyyətli mövqe sayəsində bu cür böyük təhlükələrdən xilas olmuşdur.

Eyni zamanda, Gəncə İmamzadəsinin əsrlər boyu özünün memarlıq quruluşunu qoruması burada müxtəlif dövrlərdə həyata keçirilmiş təmir, bərpa və yenidənqurma tədbirləri nəticəsində mümkün olmuşdur. Abidənin restavrasiyasının XIV-XVIII əsrlərdə aparılmasına dair sistemli, tutarlı faktlar əldə olunmadığından bu işlərin konkret həyata keçirildiyi dövr, onun təşəbbüskarları və icraçılarının şəxsiyyətlərini müəyyən etməkdə çətinliklər mövcuddur.

Amma bəhs olunan dövr ərzində Gəncə İmamzadəsinin nəinki özünün ilkin sənətkarlıq, memarlıq xüsusiyyətlərini qoruya bilməsi mümkün olmuşdur, hətta onun yeni elementlərlə zənginləşdirilməsinə böyük töhfələr verilmişdir. Bu faktlar isə, öz növbəsində Gəncə İmamzadə kompleksinin ərazi baxımından genişlənməsi, ilkin mərhələdə inşa olunmuş türbənin ətrafında yeni tikililərin ucaldılması abidənin bəhs olunan dövr ərzində xarici görkəminə xələl yetirilməməsinə istinad edilməklə onun ərazisində təmir, abadlıq işlərinin həyata keçirilmiş olduğunu sübuta yetirir.

Bununla yanaşı, Gəncə İmamzadəsində əsaslı və genişmiqyaslı bərpa, yenidənqurma tədbirlərinin XIX əsrdə icra olunduğuna dair təkzibedilməz faktlar mövcuddur. Belə ki, əvvəla Gəncənin sonuncu xanı, Azərbaycanın görkəmli tarixi şəxsiyyəti, xalqımızın qəhrəmanlıq tarixinin əvəzsiz simalarından biri olan Cavad xanın bu müqəddəs məkanda özünün sarayının baş memarı Kərbəlayı Sadıq bəyin başçılığı ilə həyata keçirilməsinə böyük diqqətlə yanaşdığı əsaslı təmir işləri icra edilmiş, bundan əlavə kompleksin ərazisinin abadlaşdırılması, giriş hissəsinin divar və darvazalarının,

onların üzərində günbəzin inşa olunması reallaşdırılmışdır.

XIX əsrdə ikinci dəfə bu cür nəcib, xeyirxah işi görkəmli hərbi xadim İsrafil bəy Yadigarzadə həyata keçirmişdir. 1878-1879-cu illərdə rus ordusunun ikinci atlı müsəlman polkunun rəhbəri, general-mayor İsrafil bəy Yadigarzadə özünün şəxsi vəsaiti hesabına Gəncə İmamzadə abidəsinin yenidən təmir və bərpa edilməsinə şərait yaratmışdır.

XX əsrdə isə yalnız 90-cı illərin əvvəllərində əldə olunmuş müstəqilliyimizin ilk dönəmində bu cür təklif irəli sürülmüşdür. 1993-cü ilin 16 iyun-1 iyul tarixlərində İmamzadə kompleksinin təmir və bərpası ilə bağlı Hacı Vaqif Vəliyev tərəfindən təşəbbüs olmuşdur. Lakin qısa müddət ərzində Gəncə şəhər İcra Hakimiyyəti başçısı vəzifəsini icra etmiş bu xeyriyyəçinin ölümündən sonra qeyd olunan işlər yarımçıq qalmış, həyata keçirilməmişdir [61].

1 mart 2010-cu il tarixində isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisindəki «İmamzadə» kompleksinin bərpası ilə əlaqədar tədbirlər müəyyən olunmuş, abidənin milli memarlıq ənənələrimizə uyğun şəkildə təmiri, bərpası və ətrafında abadlaşdırma işlərinin aparılmasına başlanılmışdır.

Beləliklə, Gəncə İmamzadə kompleksi heç bir mübaliğəsiz bəşəriyyətin maddi və eyni zamanda mənəvi irsinin dəyərli nümunəsi hesab olunmalıdır. Belə ki, bu kompleks bir tərəfdən dünyanın üç əsas dinindən biri hesab edilən İslamın müqəddəs şəxsiyyətlərindən olan və Məhəmməd Peyğəmbər (ə.s.) nəslinin nümayəndəsi

beşinci İmam Məhəmməd Bağırın (Baqirin) oğlu mövlana İbrahimin dəfn edildiyi məkan, digər tərəfdən isə Şərqin mühüm dini-ideoloji mərkəzlərindən biri kimi tanınan ziyarətgahdır. Bundan əlavə, Gəncə İmamzadəsi xalqımızın minilliklərə istinad edən memarlıq, sənətkarlıq ənənələri ilə Şərq-müsəlman memarlığının vəhdətini özündə ehtiva edən, mühüm tarixi mənbələr hesab edilən epiqrafik nümunələrə-kitabələrə malik olduqca dəyərli tarixi abidə kimi də səciyyələndirilməlidir. Bu mühüm sənət incisi həm də Azərbaycanın, onun ayrılmaz hissəsi olan qədim Gəncənin və bütövlükdə Şərqin etnik, dini, ictimai tarixinin tədqiq olunmasında əvəzsiz mənbə rolunu oynayır.

Bütün bu sadalanan faktoloji göstəricilər Gəncə İmamzadə kompleksinin dünyanın, YUNESKO-nun mədəni irsi siyahısına rəsmi surətdə daxil edilməsinin zəruriliyini əsaslandırır.

# NƏTİCƏ

Müsəlman Şərqinin mühüm ziyarətgahlarından, qədim memarlıq ənənələrini özündə ehtiva edən dəyərli tarixi abidələrindən biri hesab olunan Gəncə İmamzadə türbəsi Azərbaycanın mənəvi incisidir. Ən azı 1300 illik tarixi keçmişimizin yaşadıcısı olan bu mühüm kompleks həm də xalqımızın milli-mənəvi dəyərlərinin, dini adət və ənənələrinin formalaşması və inkişafının elmi nöqteyi-nəzərdən tədqiq edilməsində əvəzsiz mənbə rolunda çıxış edir. Belə ki, yüzilliklər ərzində tədricən intişar tapmış və yeni keyfiyyətlərlə zənginləşmiş ənənələrimizin, etnik dəyərlərimizin düzgün istiqamətdə inkişaf etməsində bu cür müqəddəs ocaqlarımızın təsiri az olmamışdır. Əsrlər boyu kütləvi surətdə insanların Gəncə İmamzadəsini ziyarət etməsi sayəsində burada rastlaşdıqları paklıq, düzgünlük, humanizm kimi ali insani keyfiyyətləri əxz etmələrinin nəticəsində mənəvi dəyərlərə, onların birmənalı şəkildə qorunması və gənc nəsillərə olduğu kimi çatdırılmasına münasibətdə mənfi meyllərin qarşısının alınması mümkün olmuşdur.

Bundan əlavə, Gəncə İmamzadə kompleksi formalaşdığı ilk dövrlərdə daha çox yerli əhalinin, tədricən isə Gəncəbasar bölgəsinin və bütövlükdə ölkəmizin müxtəlif regionlarından gələn ziyarətçilərin dini abidələrə, müqəddəs hesab edilən məkanlara, daha doğrusu imamzadələr, xanəgahlar, pirlər, ocaqlar kimi toxunulmaz, pak yerlərə münasibətində bir növ örnək, etalon rolunda çıxış etmişdir. Məlum olduğu kimi, bəzi bölgələrimizdə hətta müasir dövrümüzdə də dinimizin müvafiq buyruqlarına, düzgün prinsiplərinə uyğun gəlməyən ayrı-ayrı fəaliyyətlərin icra edildiyi, saxta

ayinlərin yerinə yetirildiyi məkanlar mövcuddur. Bu cür yerlərdə bəzi şəxslər insanların dini məlumatsızlığından, sadəlövhlüyündən sui-istifadə edir, onların maddi vəsaitlərinin mənimsənilməsi ilə məşğul olurlar. Doğrudur, həqiqi övliyaların, seyidlərin ölkəmizin ayrı-ayrı bölgələrində qorunan pirləri, ocaqları da vardır və burada yalnız insanların könüllü surətdə dinə etiqadı ilə bağlı olaraq ziyarətə gəlişi müşahidə edilir, eyni zamanda bu cür ocaqlarda nəsildən-nəslə irsən ötürülən təmənnasız xeyriyyəçilik, insanlara yardım edilməsi ənənələri yaşadılır və əməli surətdə həyata keçirilir [11; 68; 126].

Gəncə İmamzadəsi də məhz əhalinin dini baxımdan maariflənməsi, dini dəyər və təsəvvürlərimizə uyğun gəlməyən mənfi faktorlardan uzaq olması üçün həm də bir növ mayak rolunu oynamışdır. Təsadüfi deyildir ki, İmamzadə ziyarətgahı hər zaman dini ayin və mərasimlərin düzgün şəkildə icra edilməsi ilə fərqlənmişdir.

Ümumiyyətlə, Gəncə İmamzadəsinin yalnız ölkə miqyasında deyil, bütövlükdə Şərq dünyasında olan əhəmiyyətini, nüfuzunu nümayiş etdirən bir sıra vacib göstəricilər mövcuddur.

Əvvəla, Gəncə İmamzadə ziyarətgahı bəşəriyyətin mənəvi, qeyri-maddi dəyərlərindən biridir. Bu müqəddəs məkanın əsas ziyarətçiləri dini mənsubiyyət baxımından müsəlmanlar hesab olunur. Amma Gəncə İmamzadəsini istər zəvvar (ziyarətçi), istərsə də turist, qonaq qismində ziyarət edənlər sırasında digər dinlərin də nümayəndələri vardır. Xüsusilə də xristian və iudaistlər (yəhudilər dini mənsubiyyətcə iudaistdirlər) arasında bu cür ziyarətçilərə kifayət qədər təsadüf olunmuşdur.

Qeyd edilən faktoloji göstərici Gəncə İmamzadəsinin ölkədən kənarda yalnız islam dininin müqəddəs ziyarətgahı kimi tanınmadığını, onun həm də insanların mənəvi cəhətdən saflaşmasına, ulu yaradana – vahid olan Allaha dinindən asılı olmayaraq sidq niyyətlə etiqad etməsinə şərait yaradan bir məkan olaraq qəbul edildiyini sübuta yetirir.

Bundan əlavə, Gəncə İmamzadə kompleksi orta əsr Azərbaycan memarlığının, bədii sənətkarlığının ayrı-ayrı sahələrinin ən unikal, dəyərli xüsusiyyətlərini özündə yaşadan qədim bir abidədir. İmamzadə türbəsi həm də bütövlükdə Şərq-müsəlman memarlıq məktəbinin olduqca mühüm, sənətkarlıq baxımından nəfis hesab edilən müxtəlif elementlərinin qorunduğu əvəzsiz sənət incisidir. Belə ki, Gəncə İmamzadə türbəsində memarlıq, sənətkarlıq xüsusiyyətləri iki mühüm cəhətdən təsnif edilə bilər:

1. Xronoloji baxımdan;
2. Mənsub olduğu etnik və dini mədəniyyətlərin vəhdəti baxımından.

Xronoloji cəhətdən Gəncə İmamzadəsinin memarlıq, bədii sənətkarlıq xüsusiyyətlərinin təsnif olunmasında tarixi dövrləşdirmə prinsipi əsas götürülməlidir. Belə ki, məlum olduğu kimi Gəncə İmamzadə kompleksinin formalaşması yalnız bir tarixi mərhələ ilə bağlı deyildir. Əgər türbənin məzarüstü tikili kimi inşa olunması VIII əsrlə, daha dəqiq deyilsə 739-740-cı (bəzi mənbələrdə 743-745-ci illərlə) illərlə bağlıdırsa, onun sonrakı əsaslı surətdə ucaldılması prosesi, türbənin daha möhtəşəm görkəm alması XIII-XV əsrlərdə baş vermişdir. Bundan əlavə, ayrı-ayrı tarixi mərhələlərdə Gəncə İmamzadəsində əsaslı təmir, bərpa

və yenidənqurma tədbirləri də həyata keçirilmişdir. Bu zaman hər dəfə abidənin müəyyən elementlərində yeniliklər edilmiş, dövrün tələblərinə uyğun gələn əlavələr tətbiq olunmuşdur [11; 14; 67; 150].

Eyni zamanda, ölkədə son orta əsrlər dövrü mərhələsinin müşahidə edildiyi XVII-XVIII əsrlərdə də Gəncə İmamzadə kompleksinin ərazisində genişmiqyaslı abadlıq, quruculuq tədbirləri icra olunmuşdur. Qeyd edilən işlərin həyata keçirildiyi müddət ərzində də abidənin həm memarlıq, sənətkarlıq nöqteyi-nəzərdən ayrı-ayrı hissələrində yeniliklər tətbiq edilmiş, həmçinin bir sıra yeni tikililər inşa olunmuşdur.

XIX əsrdə Gəncə İmamzadə kompleksində daha əhəmiyyətli, əsaslı təmir və bərpa tədbirləri həyata keçirilmişdir. Nəticədə isə abidənin memarlıq baxımından yenilənməsinə, qədim dövr sənətkarlıq ənənələrimizə istinad edən xüsusiyyətlərin qorunması şərti ilə bir qədər çağdaş dövrün tələblərinə uyğunlaşdırılmasına şərait yaranmışdır [67; 18; 126, s.93-94].

Gəncə İmamzadə kompleksinin memarlıq və bədii sənətkarlıq cəhətlərinin təsnif olunmasında böyük əhəmiyyət kəsb edən və şərti olaraq ikinci mühüm xüsusiyyət kimi səciyyələndirilən milli (yaxud da etnik) və dini mənsubluğun mənəvi dəyərlər baxımından vəhdət təşkil etməsi prinsipi olduqca vacibdir. Belə ki, Gəncə İmamzadəsi məhz tarixi-epiqrafik abidə kimi yalnız birtərəfli, yekcins mədəni və mənəvi dəyərlərin doğurduğu sənətkarlıq cəhətlərinə malik deyildir. Gəncə İmamzadə abidəsi bir tərəfdən əsrlərə istinad edən memarlıq və sənətkarlıq ənənələrimizin əyani surətdə əks etdirildiyi bir sənət əsəri kimi çox qiymətlidir. Digər

tərəfdən isə bu dəyərli abidə türkçülük ənənələrimizlə yanaşı, müsəlman mədəniyyətinin tərkib hissəsi olan Şərq-müsəlman memarlığının olduqca nəfis, keyfiyyətli və həm də əsrarəngiz, zahiri baxımdan valehedici xüsusiyyətlərini özündə ehtiva etmişdir.

Bununla yanaşı, Gəncə İmamzadə abidəsinin sənətkarlıq nöqteyi-nəzərdən daha çox təqdirəlayiq hesab edilən və onun unikallığını şərtləndirən heç şübhəsiz yuxarıda qeyd edilən və zəngin tarixi sivilizasiyaları təmsil edən mənəvi dəyərlərin, bu dəyərlərdən qaynaqlanmış memarlıq və sənətkarlıq ənənələrinin vəhdət şəklində təmsil olunmasıdır. Belə ki, dünyada ayrıca etnik, dini sivilizasiya elementlərinə malik olan və konkret mədəni arealı təmsil edə bilən tarixi abidələrin sayı kifayət qədər çoxdur. Amma Gəncə İmamzadə abidəsi kimi zaman və məkan baxımından müəyyən tarixi mərhələlər ərzində fərqli xüsusiyyətləri ilə seçilən mədəniyyətlərin ümumi, ortaq mənəvi dəyərlərini özündə mühafizə edərək yüzilliklər boyu yaşadan unikal tarixi incilər heç də çox deyildir.

Məhz bu sadalanan cəhətlərə malik olduğundan Gəncə İmamzadə kompleksi ulu Nizami yurdunun, Azərbaycanın əzəli və əbədi sərvəti olsa da, eyni zamanda bu abidə, ziyarətgah bütövlükdə bəşəriyyətin, dünyanın istər maddi, istərsə də mənəvi xəzinəsinin ayrılmaz tərkib hissəsi kimi əhəmiyyətini qoruyub saxlayır. Lakin Gəncə İmamzadə abidəsi yalnız memarlıq, bədii sənətkarlıq cəhətlərinə malik olması, islam dünyasının müqəddəs şəxsiyyətlərindən hesab edilən imam övladı mövlana İbrahimin burada dəfn edilməsi baxımından dünya miqyaslı, ümumbəşəri əhəmiyyətə malik olan bir məkan hesab olunmur. Belə

ki, bu müqəddəs məkanın mənəvi məziyyətləri, paklıq, sülhsevərlik, ümummilli məfkurəçilik ideyalarını təcəssüm etdirə bilməsi onun maddi zənginliyindən də dəfələrlə üstün qiymətləndirilir. Çünki Gəncə İmamzadə ziyarətgahında etnik, dini, sosial mənsubiyyətindən asılı olmayaraq, hər bir şəxsin mənəvi baxımdan saf bir aura ilə əhatə olunması mümkündür. Eyni zamanda, bu müqəddəs məkanda dünya tarixində dəfələrlə rast gəlinmiş bir fakta – dini mərkəzlərdə insanların kütləvi şəkildə toplaşaraq hər hansı başqa bir topluma, xalqa qarşı nifaqçılıq, düşmənçilik ruhunda təbliğata cəlb edilməsi, qarətçilik xarakterli silahlı toqquşmalara sövq olunması kimi mənfi hallara heç vaxt yol verilməmişdir. Əksinə, Gəncə İmamzadəsi tarixən hər zaman yerli əhalinin əsassız iddialara, haqsız təcavüzlərə, qəsdən edilən təxribatçılıq işlərinə qarşı əməli surətdə cavab verdikləri məqamlarda insanları təmkinliliyə, sülhpərvərliyə, qarşılıqlı anlaşmaya dəvət edən baışdırıcı mövqeyi ilə seçilmişdir.

Amma, burada bir tarixi məqama xüsusi diqqət yetirilməsi zəruridir ki, Gəncə İmamzadə ziyarətgahında heç vaxt xurafata, avamlığa, insanları zülmkarlığa, ədalətsizliyə qarşı mübarizə aparmamağa sövq edən, onları ətalətliyə, fəaliyyətsizliyə istiqamətləndirən çağırışlar səsləndirilməmişdir. Gəncəlilər və bütövlükdə xalqımız kimi, onun bu müqəddəs məkanı da vətənimizə, torpağımıza məhəbbət və ehtiram duyğuları ilə bağlı olması, milli həmrəyliyi, ümumbəşəri sülhü təbliğ etməsi ilə fərqlənmişdir. Gəncə İmamzadəsi bu gün də dövlətçiliyimizin qorunması, xalqımızın mənəvi deqradasiyaya uğramasının qarşısının alınması kimi

ədalətli ideyaların təbliğ və təşviq edildiyi bir ocaq kimi mövcudluğunu qoruyub saxlayır.

